

*Biz İslam həmrəyliyi istiqamətində ardıcıl fəaliyyət göstəririk. Azərbaycan İslam dünyasının birləşməsi, İslam həmrəyliyinin gücləndirilməsi üçün böyük səylər göstərir.*

*Ölkəmizdə bir çox beynəlxalq tədbirlər, musiqi festivalları, mədəni tədbirlər keçirilir. Təbii ki, Şuşa şəhərinin İslam dünyasının mədəniyyət paytaxtı olması bizə əlavə imkan verəcək ki, öz mədəniyyətimizi həm müsəlman ölkələrinin ictimaiyyətinə, həm də dünya ictimaiyyətinə çatdıraq.*

**İLHAM ƏLİYEV**

*Azərbaycan Respublikasının Prezidenti*

ISSN 2309-1347

Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyası

# DÖVLƏT İDARƏÇİLİYİ:

## NƏZƏRİYYƏ VƏ TƏCRÜBƏ

**2024**
**2 (86)**

**DÖVLƏT İDARƏÇİLİK AKADEMİYASI**
**BAKI – 2024**

*Demokratik cəmiyyətdə dövlət idarəçiliyinin, yerli özünüidarəetmənin nəzəriyyəsi və təcrübəsi üzrə tədqiqatlar*

**REDAKSİYA ŞURASI:** ***Samir Nuriyev*** *(sədr)*

***Anar Ələkbərov, Fərəh Əliyeva, Kərəm Həsənov, Zeynal Nağdəliyev, Fuad Ələsgərov, Hikmət Hacıyev, Şahmar Mövsümov, Natiq Əmirov, Urxan Ələkbərov***

**REDAKSİYA HEYƏTİ:** ***Urxan Ələkbərov***
*(redaktor)*

***Əlikram Abdullayev***
*(redaktor müavini)*

***Elman Nəsirov***
*(məsul katib)*

***Əli Nuriyev, Namiq Əliyev, Ziyafət Həbibova, Hikmət Məmmədov, Elçin Əhmədov, İsaxan Vəliyev, Xatirə Hüseynova, Gülnarə Qurbanova, Elvin Əzizbəyov, Sevil Məmmədova, Firdovsiyyə Əhmədova, Yusif Ağayev***

*Elmi-nəzəri jurnal 2003-cü ildən nəşr olunur. İldə dörd dəfə çıxır.*

*Jurnal AAK-ın rəsmi qeydiyyatdan keçirilmiş və elmi nəşrlər siyahısına daxil edilmişdir.*

*Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə.*
*Elmi-nəzəri jurnal. 2024, №2(86).*
*Bakı, Dövlət İdarəçilik Akademiyasının (DİA) nəşri, 2024, 304s.*

*© Dövlət İdarəçilik Akademiyası, 2024*

ISSN 2309-1347

**The Academy of Public Administration
under the President of the Republic of Azerbaijan**

# PUBLIC ADMINISTRATION:
## THEORY AND PRACTICE

**2024**
**2 (86)**

**ACADEMY OF PUBLIC ADMINISTRATION**

**BAKU – 2024**

*Research Dedicated to the Theory and Practice of Public Administration and Application of Decentralized Governance in Democratic Society*

**EDITORIAL COUNCIL:** ***Samir Nuriyev*** *(chairman)*

***Anar Alakbarov, Farah Aliyeva, Karam Gasanov, Zeynal Naghdaliyev, Fuad Alasgarov, Hikmat Hajiyev, Shahmar Movsumov, Natiq Amirov, Urkhan Alakbarov***

**EDITORIAL BOARD:** ***Urkhan Alakbarov***
*(editor-in-chief)*

***Alikram Abdullayev***
*(deputy editor)*

***Elman Nasirov***
*(executive secretary)*

***Ali Nuriyev, Namiq Aliyev, Ziyafet Habibova, Hikmat Mammadov, Elchin Ahmadov, Isakhan Valiyev, Khatira Huseynova, Gulnara Gurbanova, Elvin Azizbayov, Sevil Mammadova, Firdovsiyya Ahmadova, Yusif Agayev***

*Journal of Public Administration: theory and practice is published since 2003. Quarterly.*

*The journal is officially registered at the Supreme Attestation Commission (SAC) and is included in the register of national scientific publications.*

*Public Administration: theory and practice*
*Scientific and theoretical journal. 2024, №2(86)*
*Baku, Publication of Academy of Public Administration (APA), 2024, 304p.*

*© Academy of Public Administration, 2024*

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN FƏALİYYƏTİNİN QISA XRONİKASI

## *Aprel - may - iyun 2024-cü il*

## *Aprel*

**1 aprel**
- Rumıniyanın energetika naziri Sebastiyan İoan Burdujanı qəbul etmişdir.

**2 aprel**
- Müsəlman Ağsaqqalları Şurasının Baş katibi Məhəmməd Əbdülsalamı qəbul etmişdir.
- Türkiyə Respublikasının Prezident Administrasiyasının Müdafiə Sənayesi Komitəsinin sədri Haluk Görgünün rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**3 aprel**
- Rusiya Federasiyasının Sankt-Peterburq şəhərinin qubernatoru Aleksandr Beqlovu qəbul etmişdir.

**4 aprel**
- Rəsmi qarşılanma mərasimindən sonra Konqo Respublikasının Prezidenti Deni Sassu-Nqesso ilə təkbətək görüşü olmuşdur.
- Konqo Respublikasının Prezidenti Deni Sassu-Nqesso ilə geniş tərkibdə görüşü keçirilmişdir.
- Konqo Respublikasının Prezidenti Deni Sassu-Nqesso ilə Azərbaycan-Konqo sənədlərinin imzalanması mərasimində iştirak etmiş, “Azərbaycan Respublikası və Konqo Respublikası arasında əməkdaşlıq haqqında Bəyannamə”ni imzalamşdır.
- Konqo Respublikasının Prezidenti Deni Sassu-Nqesso ilə bilrikdə mətbuata bəyanatla çıxış etmişdir.
- Onun adından Konqo Respublikasının Prezidenti Deni Sassu-Nqessonun şərəfinə verilən rəsmi naharda iştirak etmişdir.
- Seneqal Respublikasının Prezidenti kimi fəaliyyətə başlaması münasibətilə Prezident Bassiru Diomaye Fayeni təbrik etmişdir.

**5 aprel**
- Türkiyənin sabiq xarici işlər naziri, Türkiyə Böyük Millət Məclisinin millət vəkili və NATO Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri Mövlud Çavuşoğlunu qəbul etmişdir.

**6 aprel**
- Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar ona zəng edərək, Azərbaycan Milli Məclisində Şimali Kipr Türk Cümhuriyyəti ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun yaradılmasına görə ona təşəkkürünü çatdırmışdır.

**8 aprel**
- Ramazan bayramı münasibətilə Azərbaycan xalqını təbrik etmişdir.

**9 aprel**
- Hacıqabul rayonunda olmuşdur.
- Hacıqabul rayonu Muğan-Birinci Paşalı-İkinci Paşalı-Şorbaçı-Birinci Udullu-Tağılı-İkinci Udullu-Qubalı avtomobil yolunun açılışında iştirak etmişdir.
- Hacıqabul rayonunda “Agro Dairy” MMC-yə məxsus 4200 hektar torpaq sahəsinə Kür çayından nasos stansiyası vasitəsilə suvarma suyunun çatdırılması üzrə suvarma qurğuları kompleksi ilə tanış olmuşdur.
- Gəncə şəhərində səfərdə olmuşdur.
- Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Gəncə şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət etmiş, önünə gül dəstəsi qoymuşdur.
- Gəncə şəhərində Ekoloji Park Kompleksinin tikintisi ilə tanış olmuşdur.
- Gəncə İdman Sarayının açılışında iştirak etmişdir.
- Gəncə şəhər stadionunun təməlini qoymuşdur.
- Qəbələ rayonunda səfərdə olmuşdur.
- Ümummilli Lider Heydər Əliyevin Qəbələ şəhərində ucaldılmış abidəsini ziyarət etmiş, önünə gül dəstəsi qoymuşdur.
- Qəbələ rayonunda “Azərişıq” Açıq Səhmdar Cəmiyyətinin (ASC) 110/35/10 kV-luq “Hacıalılı” elektrik yarımstansiyasının və Regional Təlim Mərkəzinin açılışında iştirak etmişdir.
- 160 çarpayılıq Qəbələ Rayon Mərkəzi Xəstəxanasının açılışında iştirak etmişdir.
- Ağdaş-Zarağan yolunun 40-cı kilometrliyindən başlayan Böyük Pirəli-Kiçik Pirəli-Xırxatala-Cığatelli-Həmzəli avtomobil yolunun açılışında iştirak etmişdir.
- Qəbələ rayonunda 624 şagird yerlik Təbriz Yaqubov adına Bum qəsəbə tam orta məktəbinin yeni binasının açılışında iştirak etmişdir.
- Sosial şəbəkə hesablarında Ramazan bayramı ilə əlaqədar paylaşım etmişdir.

**15 aprel**
- Slovakiya Respublikasının Prezidenti vəzifəsinə seçilməsi münasibətilə Prezident Peter Pelleqrinini təbrik etmişdir.

**16 aprel**
- Hacıqabul rayonunda yenidən qurulacaq Şirvan suvarma kanalının təməlini qoymuş və tədbirdə çıxış etmişdir.

Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç ona zəng edərək, son dövrlərdə Serbiyanın məruz qaldığı təzyiqlər haqqında məlumat vermiş, dost Azərbaycan xalqının dəstəyini xahiş etmişdir.

**17 aprel**
- Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin Baş katibi Kayrat Sarıbayı qəbul etmişdir.

**22 aprel**
- Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə Moskvaya işgüzar səfərə gəlmişdir.
- Moskvada Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə təkbətək görüşü olmuşdur.
- Moskvada Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə birgə nahar etmişdir.
- Moskvada Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə Baykal-Amur Magistralının 50 illik yubileyi münasibətilə dəmir yolu sahəsinin veteranları və işçiləri ilə keçirilən birgə görüşdə iştirak və çıxış etmişdir.
- Rusiya Federasiyasına işgüzar səfəri başa çatmışdır.

**23 aprel**
- ADA Universitetində "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda keçirilən beynəlxalq forumda iştirak etmiş və tədbir iştirakçılarının suallarını cavablandırmışdır.

**24 aprel**
- Rəsmi qarşılanma mərasimindən sonra Qırğız Respublikasının Prezidenti Sadır Japarov ilə məhdud tərkibdə görüşü olmuşdur.
- Qırğız Respublikasının Prezidenti Sadır Japarov ilə Azərbaycan və Qırğızıstan Dövlətlərarası Şurasının 2-ci iclasında iştirak və çıxış etmişdir.
- Qırğız Respublikasının Prezidenti Sadır Japarov ilə Azərbaycan-Qırğızıstan sənədlərinin imzalanması mərasimində iştirak etmiş, "Azərbaycan Respublikası və Qırğız Respublikasının Dövlətlərarası Şurasının ikinci iclasının Qərarı"nı və "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qırğız Respublikasının Prezidenti Sadır Japarovun Birgə Bəyannaməsi"ni imzalamşdır.
- Qırğız Respublikasının Prezidenti Sadır Japarov ilə birlikdə mətbuata bəyanatla çıxış etmişdir.
- Qırğız Respublikasının Prezidenti Sadır Japarov ilə Bakıda görkəmli qırğız yazıçısı Çingiz Aytmatovun abidəsinin açılış mərasimində iştirak və çıxış etmişdir.
- Sonra Qırğız Respublikasının Prezidenti Sadır Japarov ilə birlikdə Azərbaycan və Qırğızıstanın tanınmış mədəniyyət və incəsənət xadimləri ilə görüşüb söhbət etmişdir.
- Bakıda, "Gülüstan" sarayında onun adından Qırğız Respublikasının Prezidenti Sadır Japarovun şərəfinə verilən dövlət ziyafətində iştirak etmişdir.

**25 aprel**
- Füzuli Beynəlxalq Hava Limanında Qırğız Respublikasının Prezidenti Sadır Japarovu qarşılamışdır.
- Qırğız Respublikasının Prezidenti Sadır Japarov ilə birlikdə Füzuli şəhərinin dağıdılmış yerlərinə baxmış və şəhərin Baş planı ilə tanış olmuşdur.
- Qırğız Respublikasının Prezidenti Sadır Japarov ilə Ağdam şəhərində olmuşdur.
- Qırğız Respublikasının Prezidenti Sadır Japarov ilə birgə nahar etmişdir.
- Qırğız Respublikasının Prezidenti Sadır Japarov ilə birlikdə Ağdamda Pənahəli xanın sarayı və İmarət kompleksində görülən işlərlə tanış olmuşdur.
- Sonra Qırğız Respublikasının Prezidenti Sadır Japarov ilə birlikdə Qarabağ atlarına baxmışdır.
- Qırğızıstan Prezidenti Sadır Japarova Qarabağ atı hədiyyə etmişdir.
- Qırğız Respublikasının Prezidenti Sadır Japarov ilə birlikdə Ağdam Cümə məscidinin bərpadan sonra açılışında iştirak etmişdir.
- Qırğız Respublikasının Prezidenti Sadır Japarov ilə birlikdə Ağdam Konfrans Mərkəzi ilə tanış olmuşdur.
- Qırğız Respublikasının Prezidenti Sadır Japarov ilə Ağdam rayonunun Xıdırlı kənd tam orta məktəbinin birgə təməlqoyma mərasimində iştirak etmişdir.
- Qırğız Respublikasının Prezidenti Sadır Japarov ilə Ağdamda Şahbulaq qalasında olmuşdur.
- Qırğız Respublikasının Prezidenti Sadır Japarov ilə Şahbulaq qalasının həyətində təndir çörəyinin və qutabın bişirilməsinə baxmışdır.
- Almaniya Federativ Respublikasının Federal Kansleri Olaf Şoltsun dəvəti ilə "15-ci Petersberq İqlim Dialoqu"nun Yüksək Səviyyəli Seqmentində iştirak etmək üçün Füzuli şəhərindən Almaniyaya işgüzar səfərə gəlmişdir.

**26 aprel**
- Berlində Almaniya Federativ Respublikasının Kansleri Olaf Şolts ilə təkbətək görüşü olmuşdur.
- Berlində Almaniya Federativ Respublikasının Kansleri Olaf Şolts ilə geniş tərkibdə görüşü keçirilmişdir.
- Almaniyanın paytaxtı Berlində keçirilən "15-ci Petersberq İqlim Dialoqu"nun Yüksək Səviyyəli Seqmentində iştirak və çıxış etmişdir.
- Berlində Almaniya Federativ Respublikasının xarici işlər naziri Annalena Berbok ilə görüşü olmuşdur.
- Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayer ilə təkbətək görüşü olmuşdur.
- Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayer ilə geniş tərkibdə görüşü keçirilmişdir.

- Almaniya Federativ Respublikasının Kansleri Olaf Şolts ilə birgə mətbuat konfransı keçirmiş, bəyanatla çıxış etmişdir.
- "Euronews" telekanalına müsahibə vermişdir.
- Berlində Birləşmiş Ərəb Əmirliklərinin sənaye və qabaqcıl texnologiyalar naziri Sultan Əhməd Əl-Cabir ilə görüşü keçirilmişdir.
- Almaniya Federativ Respublikasına işgüzar səfəri başa çatmışdır.

**29 aprel**
- Çin Xalq Respublikasının Xarici ölkələrlə dostluq üzrə Çin Xalq Assosiasiyasının sədri Yan Vanmini qəbul etmişdir.
- Malayziyanın Parlament Senatının prezidenti Datuk Mutanq Taqalı qəbul etmişdir.

**30 aprel**
- Pakistan İslam Respublikasının MUSLİM İnstitutunun direktoru, Cunaqad Ştatının Baş naziri Sahibzadə Sultan Əhməd Əlini qəbul etmişdir.
- Amerika Birləşmiş Ştatlarının İsa Məsihin Sonuncu Gün Müqəddəsləri Kilsəsinin rəhbər heyəti, "On iki Həvari Kvorumu"nun üzvü Deyvid Bednarı, İsa Məsihin Sonuncu Gün Müqəddəsləri Kilsəsinin "Yetmiş Həvari Kvorumu"nun üzvü Cek Gerardı, Stirlinq Fondunun prezidenti Mayls Hanseni və Stirlinq Fondunun baş icraçı direktoru Edvard Rounu qəbul etmişdir.

## *May*

**1 may**
- Türk Dövlətləri Təşkilatına (TDT) üzv və müşahidəçi dövlətlərin müsəlman dini rəhbərlərindən ibarət nümayəndə heyətini qəbul etmişdir.
- Rusiya Federasiyası Qaraçay-Çərkəz Respublikasının müftisi İsmayıl Berdiyevin başçılıq etdiyi Rusiya Federasiyası Şimali Qafqaz regionunun müftilərindən ibarət nümayəndə heyətini qəbul etmişdir.
- Rusiyanın Baş ravvini Berl Lazarı qəbul etmişdir.
- Beynəlxalq Dinlərarası və Mədəniyyətlərarası Dialoq Mərkəzinin (KAICIID) Baş katibi Zuhair Əlhartini qəbul etmişdir.
- Bakı Konqres Mərkəzində "Sülh və qlobal təhlükəsizlik naminə dialoq" mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılış mərasimində iştirak etmiş və nitq söyləmişdir.
- İraq Respublikası Parlamentinin sədri Möhsin Əli Əkbər Əl-Mandalavini qəbul etmişdir.
- BMT Baş katibinin Sülhməramlı Əməliyyatlar Departamentində qanunun aliliyi və təhlükəsizlik təsisatları üzrə köməkçisi Aleksandr Zuyevi qəbul etmişdir.
- 3 May – Konstitusiya Günü münasibətilə Polşa Respublikasının Prezidenti Andjey Dudanı təbrik etmişdir.

**2 may**
- BMT Baş katibinin iqlim fəaliyyəti və ədalətli keçid üzrə xüsusi müşaviri Selvin Çarlz Hartı qəbul etmişdir.
- Rusiya Federasiyası Federasiya Şurasının sədr müavini Konstantin Kosaçovu və Dövlət Dumasının MDB işləri, Avrasiya iqtisadiyyatı və həmvətənlərlə əlaqələr komitəsinin sədri Leonid Kalaşnikovu qəbul etmişdir.
- Pasxa bayramı münasibətilə Azərbaycanın pravoslav xristian icmasını təbrik etmişdir.

**3 may**
- Səudiyyə Ərəbistanı Krallığının energetika naziri Şahzadə Əbdüləziz bin Salman Əl Səudu qəbul etmişdir.

**6 may**
- Rusiya Federasiyası Həştərxan vilayətinin qubernatoru İqor Babuşkini qəbul etmişdir.

**7 may**
- Azərbaycanda rəsmi səfərdə olan Slovakiya Respublikasının Baş naziri Robert Fitso ilə təkbətək görüşü olmuşdur.
- Slovakiya Respublikasının Baş naziri Robert Fitso ilə geniş tərkibdə görüşü keçirilmişdir.
- Slovakiya Respublikasının Baş naziri Robert Fitso ilə Azərbaycan-Slovakiya sənədlərinin imzalanması mərasimində iştirak etmiş, "Azərbaycan Respublikası ilə Slovakiya Respublikası arasında strateji tərəfdaşlığın yaradılması haqqında Birgə Bəyannamə"ni imzalamışdır.
- Slovakiya Respublikasının Baş naziri Robert Fitso ilə birlikdə mətbuata bəyanatla çıxış etmişdir.
- Onun adından Slovakiya Respublikasının Baş naziri Robert Fitsonun şərəfinə verilən rəsmi naharda iştirak etmişdir.

**8 may**
- Rəsmi qarşılanma mərasimindən sonra Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev ilə təkbətək görüşü olmuşdur.
- Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev ilə geniş tərkibdə görüşü keçirilmişdir.
- Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev ilə Azərbaycan-Bolqarıstan sənədlərinin imzalanması mərasimində iştirak etmiş, "Azərbaycan

Respublikası ilə Bolqarıstan Respublikası arasında strateji tərəfdaşlığın gücləndirilməsi haqqında Birgə Bəyannamə"ni imzalamışdır.
- Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev ilə birlikdə mətbuata bəyanatla çıxış etmişdir.
- Onun və birinci xanım Mehriban Əliyevanın adından Bolqarıstan Respublikasının Prezidenti Rumen Radevin və birinci xanım Desislava Radevanın şərəfinə verilən rəsmi naharda iştirak etmişdir.

**9 may**
- Faşizm üzərində tarixi Qələbənin 79 illiyi münasibətilə Birinci xanım Mehriban Əliyeva ilə birlikdə iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanovun məzarını ziyarət edərək abidəsi önünə gül dəstəsi qoymuş, müharibədə həlak olan bütün Azərbaycan övladlarının xatirəsini ehtiramla anmışdır.

**10 may**
- Ulu Öndər Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü ilə əlaqədar rəsmi X sosial səhifəsində paylaşım etmişdir.
- Müasir müstəqil Azərbaycanın memarı və qurucusu, xalqımızın dahi oğlu və Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü günündə Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Fəxri xiyabana gələrək Ulu Öndərin məzarını ziyarət etmişdir.
- Ümummilli Lider Heydər Əliyevin məzarı önünə əklil qoymuş, Ulu Öndərin xatirəsini ehtiramla anmışdır.
- Sonra Birinci xanım Mehriban Əliyeva Ümummilli Liderin xatirəsini dərin hörmətlə yad etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Ulu Öndər Heydər Əliyevin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini yad edərək məzarı üzərinə gül dəstələri qoymuşdur.
- Daha sonra Birinci xanım Mehriban Əliyeva ilə birlikdə tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələrini yad etmişdir.
- Füzuli rayonunda Köndələnçay su anbarları kompleksinin təmir-bərpadan sonra açılışında iştirak etmişdir.
- Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda aparılan işlərlə tanış olmuş, bu yolda inşa edilmiş birinci tunelin açılışında iştirak etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Şuşada inşa ediləcək üçüncü yaşayış kompleksinin təməlqoyma mərasimində iştirak etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Şuşada Çöl Qala məscidində aparılan bərpa işləri ilə tanış olmuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Şuşada Üzeyir Hacıbəylinin ev-muzeyində aparılan bərpa işləri ilə tanış olmuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Şuşada "Şirin su" hamamının bərpadan sonra açılışında iştirak etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə ətraf ərazidə görülmüş işlərlə də maraqlanmışdır.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Şuşada Aşağı Gövhər Ağa məscidində aparılan bərpa işləri ilə tanış olmuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Şuşada Mamayı məscidinin bərpadan sonra açılışında iştirak etmişdir.
- Xankəndi-Şuşa-Laçın avtomobil yolunda görülən işlərlə tanış olmuşdur.
- Şuşa rayonunun Turşsu qəsəbəsinin təməlini qoymuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Şuşada birinci yaşayış kompleksinin açılışında iştirak etmiş və şəhərə köçmüş ilk sakinlərlə görüşmüşdür.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə yaşayış kompleksində və mənzillərdə yaradılan şəraitlə tanış olmuşdur.
- Sonra Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Şuşaya ilk köç edən ailələrlə görüşmüş, görüşdə çıxış etmişdir.
- Daha sonra Birinci xanım Mehriban Əliyeva ilə birlikdə mənzillərin açarlarını sakinlərə təqdim etmişdir.
- Laçın rayonunun Sus kəndində görülmüş işlərlə tanış olmuş, kəndə köçmüş sakinlərlə görüşmüşdür.
- Sonra sakinlər ilə birlikdə Həkəri çayının sahilinə gəlmişdir.
- Laçın rayonunda "AzərEnerji" ASC-nin "Zabux" və "Qarıqışlaq" Kiçik Su Elektrik stansiyalarının (KSES) açılışlarında iştirak etmişdir.

**11 may**
- Şuşada ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Maliki qəbul etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Şuşanın Cıdır düzündə keçirilən VII "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalının və "Şuşa – İslam dünyasının mədəniyyət paytaxtı 2024" ilinin açılış mərasimində iştirak və çıxış etmişdir.

**13 may**
- Millətlər Birliyi təşkilatının (Commonwealth) baş katibi Patrisia Skotlendi qəbul etmişdir.
- Tuvalunun general-qubernatoru Falani Tofinqanı, Tonqa Krallığının Baş naziri Savaleni Siaosi Ofa Ki Vahafolaunu və Baham Adaları Birliyinin xarici işlər naziri Mitçel Frederik Audleyi qəbul etmişdir.

- "Transformativ dialoq: sürətlə dəyişən dünyada sülh naminə alyansların qurulması" mövzusunda Qlobal Dialoq Forumunun iştirakçılarını təbrik etmişdir.

**14 may**
- ATƏT-in fəaliyyətdə olan sədri, Malta Respublikasının xarici, Avropa işləri və ticarət naziri İan Borqun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Çin Xalq Respublikasının Çin Xalq Siyasi Məşvərət Şurasının Ümumçin Komitəsinin sədr müavini, Şanxay Əməkdaşlıq Təşkilatının Mehriban Qonşuluq, Dostluq və Əməkdaşlıq üzrə Çin Komitəsinin sədri Şen Yueyuenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**15 may**
- X sosial şəbəkəsindəki rəsmi səhifəsində paylaşım edərək Slovakiya Respublikasının Baş naziri Robert Fitsoya qarşı sui-qəsd törədilməsini sərt şəkildə qınamışdır.

**16 may**
- Rəsmi qarşılanma mərasimindən sonra Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko ilə təkbətək görüşü olmuşdur.
- Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko ilə geniş tərkibdə görüşü keçirilmişdir.
- Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko ilə Azərbaycan-Belarus sənədlərinin imzalanması mərasimində iştirak etmişdir
- Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko ilə birlkdə mətbuata bəyanatla çıxış etmişdir.
- Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko ilə Bakı Ekspo Mərkəzində XVII Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı – "Caspian Agro" və XXIX Azərbaycan Beynəlxalq Qida Sənayesi – "InterFood Azerbaijan" sərgiləri ilə tanış olmuşdur.
- Sonra Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko ilə Bakı Ekspo Mərkəzinin açıq sahəsindəki stendlərlə tanış olmuşdur.
- Bakıda, "Gülüstan" sarayında onun adından Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun şərəfinə verilən dövlət ziyafətində iştirak etmişdir.

**17 may**
- Füzuli Beynəlxalq Hava Limanında Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonu qarşılamışdır.
- Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko ilə birlkdə Füzuli şəhərinin dağıdılmış yerlərinə baxmış və şəhərin Baş planı ilə tanış olmuşdur.
- Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko ilə Şuşa şəhərinə səfər etmişdir.
- Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko ilə Şuşada birinci yaşayış kompleksində olmuşdur.
- Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko ilə Şuşada Azərbaycan ilə Belarusun birgə istehsalı olan avtobusa və Belarus Prezidentinin hədiyyə etdiyi traktorlara baxmışdır.
- Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko ilə Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvanın, Bülbülün və Üzeyir Hacıbəylinin işğal dövründə Şuşada ermənilər tərəfindən güllləbaran edilmiş heykəllərinə baxmışdır.
- Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko ilə Şuşada Heydər Əliyev Fondu tərəfindən bərpa edilən Yaradıcılıq Mərkəzində "Heydər Əliyev və Qarabağ" sərgisinə baxmışdır.
- Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko ilə birlkdə Bülbülün ev-muzeyində olmuşdur.
- Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko ilə Cıdır düzündə olmuşdur.
- Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko ilə Şuşa qala divarlarını ziyarət etmişdir.
- Belarus Prezidenti Aleksandr Lukaşenko ilə Şuşada birgə nahar etmişdir.
- Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevə zəng edərək, onu ad günü münasibətilə təbrik etmiş, ona cansağlığı və dövlətçilik fəaliyyətində uğurlar arzulamışdır.
- Ölkəsinin milli bayramı münasibətilə Kamerun Respublikasının Prezidenti Pol Biyanı təbrik etmişdir.

**18 may**
- Cəbrayıl rayonuna səfər etmişdir.
- Cəbrayıl rayonunun Böyük Mərcanlı kəndinin təməlqoyma mərasimində iştirak etmişdir.
- Cəbrayıl rayonunun Karxulu kəndinin təməlinin qoyulması mərasimində iştirak etmişdir.
- Cəbrayıl rayonunun Sarıcallı kəndinin təməlini qoymuşdur.
- Cəbrayıl rayonunun Maşanlı kəndinin təməlini qoymuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Zəngilan rayonunun Ağalı kəndində "Ağalı" hotelinin açılışında iştirak etmişdir.
- Zəngilan rayonunun Mincivan qəsəbəsinin təməlini qoymuşdur.
- "AzərEnerji" Açıq Səhmdar Cəmiyyətinin "Zəngilan" və "Şayıflı" Su Elektrik stansiyalarının açılışlarını etmişdir.
- "Zəngilan" və "Şayıflı" SES-lərin tikintisindən və yaradılan şəraitdən bəhs edən videoçarxa baxmışdır.

- Sonra stansiyaları işə salmışdır.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Zəngilan məscidinin açılışında iştirak etmişdir.
- Sonra Zəngilan şəhərinin daxili yol-kommunikasiya şəbəkəsinin təməlini qoymuşdur.

**19 may**

- İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisi ilə Azərbaycan Respublikası ilə İran İslam Respublikasının dövlət sərhədində görüşmüşdür.
- İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisi ilə Araz çayı üzərində inşa edilmiş "Xudafərin" hidroqovşağının istismara verilməsi və "Qız Qalası" hidroqovşağının açılış mərasimində iştirak etmişdir.
- X sosial şəbəkəsindəki rəsmi səhifəsində İran İslam Respublikasının Prezidenti İbrahim Rəisinin olduğu helikopterin İranda qəza enişi etməsi ilə bağlı paylaşım etmişdir.

**20 may**

- Latviya Seyminin sədri Dayqa Mierinanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ona zəng edərək, Türkiyə-Azərbaycan əlaqələrini, həmçinin regional və qlobal prosesləri müzakirə etmişdir.

**21 may**

- Özbəkistan Respublikasının investisiya, sənaye və ticarət naziri, Hökumətlərarası Komissiyanın həmsədri Laziz Kudratovu qəbul etmişdir.
- İran İslam Respublikasının ölkəmizdəki səfirliyində olmuş, İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisinin, xarici işlər naziri Hüseyn Əmir Abdullahiyanın və digər müşayiət edən şəxslərin helikopter qəzasında faciəli surətdə həlak olmaları ilə əlaqədar başsağlığı vermiş. matəm kitabına ürək sözlərini yazmışdır.
- Ukrayna Prezidenti Volodimir Zelenski ona zəng edərək, regional təhlükəsizlik və enerji, ticarət və digər sahələrdə ikitərəfli əməkdaşlıq məsələlərini müzakirə etmişdir.
- İnkişaf etməkdə olan kiçik ada dövlətlərinin "Dayanıqlı firavanlıq üçün istiqamətin müəyyən olunması" mövzusunda 4-cü Beynəlxalq Konfransının iştirakçılarını təbrik etmişdir.

**22 may**

- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə İordaniyanın Kralı Əlahəzrət II Abdullah ibn Al Hüseyni təbrik etmişdir

**23 may**

- Rəsmi qarşılanma mərasimindən sonra Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon ilə təkbətək görüşü olmuşdur.
- Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon ilə geniş tərkibdə görüşü keçirilmişdir.
- Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon ilə Azərbaycan-Tacikistan sənədlərinin imzalanması mərasimində iştirak etmiş, "Azərbaycan Respublikası ilə Tacikistan Respublikası arasında strateji tərəfdaşlıq haqqında Bəyannamə"ni imzalamışdır.
- Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon ilə birlkdə mətbuata bəyanatla çıxış etmişdir.
- Dost Gürcüstanın milli bayramı – Müstəqillik Günü münasibətilə Gürcüstanın Baş naziri İrakli Kobaxidzeni təbrik etmişdir.

**25 may**

- Ukraynanın Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Yuri Qusevin etimadnaməsini qəbul etmişdir.
- İtaliya Respublikasının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Luka Di Canfrançeskonun etimadnaməsini qəbul etmişdir.
- Vyetnam Sosialist Respublikasının Prezidenti vəzifəsinə seçilməsi münasibətilə Prezident To Lamı təbrik etmişdir.

**27 may**

- Birinci xanım Mehriban Əliyeva ilə Bakıda "Crescent Bay" layihəsinin təqdimatı və "Crescent Mall" ticarət mərkəzinin açılışında iştirak etmişdir.
- Sosial media hesablarında 28 May – Müstəqillik Günü münasibətilə paylaşım etmişdir.

**28 may**

- Ağdam rayonunun Tağıbəyli kəndinin təməlini qoymuşdur.
- Ağdam rayonunun Güllücə kəndinin təməlini qoymuşdur.
- Ağdam rayonunun Nəmirli kəndinin təməlini qoymuşdur.
- Ağdam rayonunun Şotlanlı kəndinin təməlini qoymuşdur.
- Birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva ilə birlikdə Xocalı şəhərində 15 çoxmənzilli binada təmir və yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olmuşdur.
- Birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva ilə birlikdə Xocalı şəhərinə köçən sakinlərlə görüşmüşdür.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə sakinlərlə söhbət etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə evlərin açarlarını sakinlərə təqdim etmişdir.
- Sonra Birinci xanım Mehriban Əliyeva, qızları Arzu Əliyeva və sakinlərlə birlikdə Xocalı şəhərini gəzmiş, görülən işlərlə tanış olmuşdur.

- Birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva ilə birlikdə Səriyyə Cəfərovanın evində yaradılan şəraitlə tanış olmuşdur.
- Sonra Birinci xanım Mehriban Əliyeva ilə birlikdə sakin Müşfiq Sadıqovun evində yaradılan şəraitlə tanış olmuşdur.
- Birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva ilə birlikdə Sənətkarlar məhəlləsinə gəlmiş, əvvəlcə "AzeRobot Education" robototexnika tədris mərkəzinin Xocalıdakı filialında yaradılan şəraitlə tanış olmuşdur.
- Sonra "Nakhishli" atelyesi ilə tanışlıq olmuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə "Gilabi Ceramics" emalatxanası ilə tanış olmuşdur.
- Daha sonra "Sariban" peşə inkişaf mərkəzinin filialı ilə tanışlıq olmuşdur.
- Birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva ilə birlikdə Xocalı şəhərinin Baş planı ilə də tanış olmuşdur.
- Azərbaycan Respublikası ilə Keniya Respublikası arasında diplomatik münasibətlərin qurulmasının 20-ci ildönümü ilə əlaqədar Keniya Respublikasının Prezidenti Uillyam Samoei Rutonu təbrik etmişdir.

**29 may**

- Alternativ investisiyaların idarə edilməsi üzrə Avropanın ən böyük və nüfuzlu investisiya şirkətlərindən biri olan "CVC Capital Partners" şirkətinin həmtəsisçisi və sədri Rolli Van Rappardı qəbul etmişdir.
- Litva Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməsi münasibətilə Prezident Gitanas Nausedanı təbrik etmişdir.
- "Minaların ətraf mühitə təsirinin azaldılması – Təhlükəsiz və yaşıl gələcək üçün resursların səfərbər olunması" mövzusunda keçirilən beynəlxalq konfransın iştirakçılarını təbrik etmişdir.

**30 may**

- Finlandiya Respublikasının Prezidenti Aleksandr Stubb ona zəng edərək, COP29-da Azərbaycanın sədrliyi və regiondakı siyasi məsələlər barədə fikir mübadiləsi aparmışdır.
- Ölkəsinin milli bayramı – Respublika Günü münasibətilə İtaliya Respublikasının Prezidenti Sercio Mattarellanı təbrik etmişdir.

## *İyun*

**3 iyun**

- Beynəlxalq Enerji Agentliyinin icraçı direktoru Fatih Birolu qəbul etmişdir.

**4 iyun**

- Türkiyə Respublikasının energetika və təbii sərvətlər naziri Alparslan Bayraktarı qəbul etmişdir.
- Birləşmiş Ərəb Əmirliklərinin sənaye və qabaqcıl texnologiyalar naziri Sultan Əhməd Əl-Cabiri qəbul etmişdir.
- Bakı Ekspo Mərkəzində Bakı Enerji Həftəsi çərçivəsində keçirilən 29-cu Beynəlxalq Xəzər Neft və Qaz - "Caspian Oil&Gas" və 12-ci Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji - "Caspian Power" sərgilərinin rəsmi açılış mərasimində iştirak və çıxış etmişdir.
- "Euronews" telekanalına müsahibə vermişdir.

**5 iyun**

- Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyana zəng edərək, Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətinin iştirakı ilə Neftçala, Biləsuvar Günəş elektrik stansiyalarının və Abşeron-Qaradağ Külək Elektrik Stansiyasının təməlinin qoyulmasının əhəmiyyətinə toxunmuş, bu sahədə ölkələrimiz arasında mövcud əməkdaşlıqdan məmnunluğunu bildirmişdir.

**6 iyun**

- Qırğız Respublikasının Joqorku Keneşinin sədri Nurlanbek Şakiyevi qəbul etmişdir.
- Ümumdünya Ticarət Təşkilatının baş direktoru Nqozi Okonyo-İvealanı qəbul etmişdir.
- TÜRKPA-nın Baş katibi Mehmet Süreyya Eri, Türkiyə Böyük Millət Məclisinin sədri Numan Kurtulmuşu, Qazaxıstan Parlamenti Məclisinin sədri Yerlan Koşanovu, Qırğızıstan Joqorku Keneşinin sədri Nurlanbek Şakiyevi, Özbəkistan Ali Məclisi Senatının sədri Tənzilə Narbayevanı, Şimali Kipr Türk Cümhuriyyəti Məclisinin sədri Zorlu Töreni və Macarıstan Milli Assambleyasının sədrinin müavini Marta Matraini qəbul etmişdir.

**7 iyun**

- Misir Ərəb Respublikasına rəsmi səfərə gəlmişdir.

**8 iyun**

- Misirin paytaxtı Qahirədə rəsmi qarşılanma mərasimindən sonra Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisi ilə təkbətək görüşü olmuşdur.
- Qahirədə Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisi ilə geniş tərkibdə görüşü keçirilmişdir.

- Qahirədə Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisi ilə Azərbaycan-Misir sənədlərinin imzalanması mərasimində iştirak etmişdir.
- Qahirədə Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisi ilə birlkdə mətbuata bəyanatla çıxış etmişdir.
- Qahirədə Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah Əs-Sisinin adından onun şərəfinə verilən rəsmi naharda iştirak etmişdir .
- Qahirədə Əl-Əzhəri Şərifin şeyxi, böyük imam Əhməd Məhəmməd Əhməd Əl Tayyib ilə görüşü olmuşdur.
- Misir Ərəb Respublikasına rəsmi səfəri başa çatmışdır.

**10 iyun**

- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə Ankaraya işgüzar səfərə gəlmişdir.
- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə Ankaranın Esenboğa Hava Limanında görüşmüşdür.
- Ankarada Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə təkbətək görüşü olmuşdur.
- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə birgə nahar etmişdir.
- Türkiyə Respublikasına işgüzar səfəri başa çatmışdır.

**12 iyun**

- Ölkəsinin milli bayramı – Təvəllüd Günü münasibətilə Böyük Britaniya və Şimali İrlandiyanın Kralı III Çarlzı təbrik etmişdir.

**13 iyun**

- Abşeron rayonu ərazisində Palçıq Vulkanları Turizm Kompleksinin açılışında iştirak etmişdir.
- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Filippin Respublikasının Prezidenti Ferdinand Romualdez Markosu təbrik etmişdir.
- Rusiya Federasiyasının dövlət bayramı – Rusiya Günü münasibətilə Prezident Vladimir Putinİ təbrik etmişdir.

**14 iyun**

- 15 İyun - Milli Qurtuluş Günü münasibətilə sosial şəbəkə hesablarında paylaşım etmişdir.

Qurban bayramı münasibətilə Azərbaycan xalqını təbrik etmişdir.

- “Türk Dövlətləri Təşkilatı: geosiyasi reallıqlar və qlobal kataklizmlər fonunda yeni strateji hədəflərə doğru” mövzusunda Şuşa şəhərində keçirilən beynəlxalq konfransın iştirakçılarını təbrik etmişdir

**15 iyun**

- Qurban bayramı münasibətilə sosial şəbəkə hesablarında paylaşım etmişdir.

**19 iyun**

- Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə “COP29-a Aparan Yol: Dayanıqlı və Davamlı Gələcək” mövzusunda keçirilən Yüksək Səviyyəli 29-cu Toplantının iştirakçılarını təbrik etmişdir.

**21 iyun**

- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Bakıda Botanika İnstitutunun yeni inşa olunmuş binasının açılışında iştirak etmiş və Nəbatat Bağında görülən işlərlə tanış olmuşdur.

**22 iyun**

- Ölkəsinin milli bayramı – Dövlətçilik Günü münasibətilə Sloveniya Respublikasının Prezidenti xanım Nataşa Pirts Musarı təbrik etmişdir.

**24 iyun**

- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Cibuti Respublikasının Prezidenti İsmail Ömər Gellehi təbrik etmişdir.

**26 iyun**

- Heydər Əliyev Beynəlxalq Aeroportunda ona İtaliya Respublikasının “Leonardo” şirkətinin istehsalı olan “C-27J Spartan” tipli hərbi nəqliyyat təyyarəsi təqdim olunmuşdur.
- İtaliya Respublikasının müdafiə naziri Quido Krosettonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Sosial media hesablarında Milli Qəhrəman Natiq Qasımovla bağlı paylaşım etmişdir.

**27 iyun**

- Asiya İnkişaf Bankının prezidenti Masatsuqu Asakavanı qəbul etmişdir.
- Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş katibinin müavini və BMT-nin Ətraf Mühit Proqramının (UNEP) icraçı direktoru İnger Andersonu qəbul etmişdir.

**28 iyun**

- Amerika Birləşmiş Ştatları Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Ceyms O’Braynı qəbul etmişdir.

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN RƏSMİ QƏBULLARI

### *Rumıniyanın energetika naziri Sebastiyan İoan Burdujanın qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 1-də Rumıniyanın energetika naziri Sebastiyan İoan Burdujanı qəbul edib.

Görüşdə Azərbaycan ilə Rumıniya arasında strateji tərəfdaşlıq əlaqələrinin olduğu məmnunluqla vurğulanaraq bütün istiqamətlər üzrə əməkdaşlığın genişləndiyi bildirildi.

Azərbaycan Prezidenti ikitərəfli münasibətlərin fəal inkişaf mərhələsində olduğunu qeyd edərək, dövlət başçıları, eləcə də digər səviyyələrdə həyata keçirilən qarşılıqlı səfərlərin əlaqələrimizin genişlənməsi baxımından əhəmiyyətini vurğuladı.

Prezident İlham Əliyev Bakıda keçirilən Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında iqtisadi-ticari əlaqələr və elmi-texniki əməkdaşlıq üzrə Müştərək Komissiyanın 8-ci iclasının münasibətlərimizin perspektivlərinin müəyyənləşdirilməsi baxımından önəminə toxunaraq bu iclasın gündəliyində enerji ilə yanaşı, digər sahələrə aid məsələlərin də olduğunu məmnunluqla qeyd etdi.

Dövlətimizin başçısı Azərbaycanda enerji sektorunda, xüsusilə indiki dövrdə yaşıl enerji sahəsində böyük layihələrin reallaşdırıldığını deyərək, ötən ay Bakıda keçirilən Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclaslarının önəmini vurğuladı.

Sebastiyan İoan Burduja İlham Əliyevə prezident seçkilərində qələbə və COP29-un ölkəmizdə keçirilməsi münasibətilə təbriklərini çatdırdı. Qonaq dövlətimizin başçısının rəhbərliyi ilə həyata keçirilən işlərin, Bakının gözəlliyinin və inkişafının onlarda dərin təəssürat doğurduğunu dedi.

Azərbaycan Prezidenti təbriklərə və xoş sözlərə görə minnətdarlığını bildirdi.

Söhbət zamanı energetika sahəsində artıq xeyli irəliləyişin olduğu vurğulanaraq Azərbaycandan təbii qazın və Qara Dəniz vasitəsilə yaşıl enerjinin Rumıniyaya ixracı ilə bağlı fikir mübadiləsi aparıldı.

Qeyd olundu ki, LNG, yaşıl enerji və qaz təchizatı layihələri üzrə müzakirələr davam edir və Azərbaycan şaxələndirilmiş şəkildə Rumıniyanın energetika bazarına daxil olmağı hədəfləyir.

Görüşdə ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin genişləndiyinə toxunuldu, ötən il ticarət dövriyyəsinin daha əvvəlki illə müqayisədə təqribən 30 faiz artaraq 670 milyon ABŞ dollarına çatdığı qeyd olundu, investisiya sahəsində də əməkdaşlığın möhkəmləndiyi bildirildi. SOCAR-ın Rumıniyada çox aktiv fəaliyyətinə toxunularaq onun bu ölkənin yanacaq bazarında kifayət qədər əhəmiyyətli yer tutduğu diqqətə çatdırıldı.

Söhbət zamanı kənd təsərrüfatı, səhiyyə və təhsil sahələrində də əməkdaşlığın genişlənməsi məmnunluqla vurğulandı.

### *Müsəlman Ağsaqqalları Şurasının Baş katibi Məhəmməd Əbdülsalamın qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 2-də Müsəlman Ağsaqqalları Şurasının Baş katibi Məhəmməd Əbdülsalamı qəbul edib.

Azərbaycanın İslam həmrəyliyinin gücləndirilməsi istiqamətində böyük səylər göstərdiyini qeyd edən dövlətimizin başçısı 2020-ci ildə işğaldan azad edilmiş Şuşa şəhərinin "İslam dünyasının mədəniyyət paytaxtı" elan olunduğunu xatırlayaraq bu qərarın bütün İslam dünyasının Azərbaycana göstərdiyi böyük dəstəyin təzahürü olduğunu bildirdi və gələn ay Şuşada təntənəli tədbirlərin keçiriləcəyini məmnunluqla vurğuladı.

Məhəmməd Əbdülsalam Müsəlman Ağsaqqalları Şurasının sədri, Əl-Əzhərin şeyxi, böyük imam Əhməd Ət-Tayyib həzrətlərinin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Əhməd Ət-Tayyib həzrətlərinə çatdırmağı xahiş etdi.

Qonaq şeyx həzrətlərinin Prezident İlham Əliyevin sülhün bərqərar olması istiqamətində göstərdiyi səyləri yüksək dəyərləndirdiyini vurğuladı. O qeyd etdi ki, müharibədən çıxmış Azərbaycanın dövlət başçısının öz çıxışlarında sülhə çağırışları heyrətamizdir və təsadüfi deyil ki, Prezident İlham Əliyevin saxlanılan şəxslərin mübadiləsi və sülhün bərqərar olunması istiqamətində irəli sürdüyü təşəbbüsdən sonra Müsəlman Ağsaqqalları Şurası bəyanatla çıxış edib.

Dövlətimizin başçısı dedi ki, Azərbaycanın 28 ildən artıq müddətdə Ermənistanın işğalı və hərbi təcavüzü ilə üzləşməsinə baxmayaraq, məhz ölkəmiz 44 günlük

Vətən müharibəsindən sonra Ermənistan ilə münasibətlərin normallaşdırılması və Cənubi Qafqazda davamlı sülhün təmin olunması üçün sülh müqaviləsi təşəbbüsü ilə çıxış edib. Prezident İlham Əliyev işğal dövründə Ermənistan tərəfindən Azərbaycanın maddi-mədəniyyət nümunələrinin, həmçinin İslam dininə aid ibadət ocaqlarının dağıdıldığını, bu xüsusda həmin ərazilərimizdə olan 67 məsciddən 65-nin tamamilə darmadağın edildiyini vurğuladı. Dövlətimizin başçısı işğaldan azad edilmiş ərazilərimizdə Azərbaycanın həyata keçirdiyi bərpa-quruculuq işlərini qeyd etdi.

COP28-də iqlim naminə dini pavilyon təşkil olunduğunu və 4000-dən çox insanın bu pavilyonu ziyarət etdiyini diqqətə çatdıran qonaq qeyd etdi ki, Əl-Əzhərin şeyxi, böyük imam Əhməd Ət-Tayyib həzrətlərinin birbaşa dəstəyi və onun Roma Papası ilə birgə əməkdaşlığı şəraitində COP28-də dünyanın 30-dan çox dini liderinin iştirakı ilə tədbir keçirilib və bu tədbirdə dini liderlər qlobal iqlim dəyişikliyinin qarşısının alınması istiqamətində “Vicdan çağırışı” adlı bəyanat imzalayıblar. O, COP29 çərçivəsində də ev sahibi olaraq Azərbaycanla əməkdaşlıq şəraitində belə bir tədbiri keçirmək niyyətində olduqlarını dedi.

Prezident İlham Əliyev dinlərarası və mədəniyyətlərarası dialoqun təşviqində Azərbaycanın mühüm rol oynadığını vurğulayaraq, bu xüsusda Bakıda keçirilən mötəbər tədbirlərə toxundu. Dövlətimizin başçısı yaxın zamanda ICESCO, UNESCO və BMT-nin Sivilizasiyalar Alyansının dəstəyi ilə Azərbaycanda Mədəniyyətlərarası Dialoq Forumunun yenidən keçiriləcəyini bildirdi. Prezident İlham Əliyev COP29 çərçivəsində də Azərbaycanın dinlərarası dialoqun təşviqinə dəstək verməyə, bunun bir nümunəsi kimi dünya dini liderlərinin görüşünün keçirilməsinə və bu sahədə əməkdaşlığa hazır olduğunu vurğuladı.

Söhbət zamanı İslam dünyasında məzhəblərarası dialoqun vacibliyinə toxunuldu, bu xüsusda Azərbaycanın nümunəsi uğurlu örnək kimi məmnunluqla qeyd olundu.

### *Türkiyə Respublikasının Prezident Administrasiyasının Müdafiə Sənayesi Komitəsinin sədri Haluk Görgünün rəhbərlik etdiyi nümayəndə heyətinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 2-də Türkiyə Respublikasının Prezident Administrasiyasının Müdafiə Sənayesi Komitəsinin sədri Haluk Görgünün rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Nümayəndə heyətinə “ASELSAN” şirkətinin baş direktoru Ahmet Akyol, “ASFAT” şirkətinin baş direktoru Behçet Karataş, “HAVELSAN” şirkətinin baş direktoru Mehmet Akif Nacar, “Maşınqayırma və Kimya Sənayesi” şirkətinin baş direktoru İlhami Keleş, “REPKON Grup” şirkətinin prezidenti İbrahim Külekçi, “ROKETSAN” şirkətinin baş direktoru Murat İkinci, “Müdafiə Texnologiyaları və Mühəndislik” şirkətinin baş direktoru Özgür Güleryüz, “Türkiyənin Aviasiya və Kosmos Sənayesi – TUSAŞ” şirkətinin baş direktoru Temel Kotil daxildir.

Söhbət zamanı Azərbaycan–Türkiyə dostluq, qardaşlıq və müttəfiqlik əlaqələrinin bütün istiqamətlərdə, o cümlədən hərbi və müdafiə sənayesi sahəsində uğurla inkişaf etdiyi qeyd olundu, Haluk Görgünün rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin əməkdaşlığımızın daha da genişlənməsi işinə töhfə verəcəyi vurğulandı.

Prezident İlham Əliyev Türkiyə hərbi sənaye kompleksinin məhsullarının keyfiyyət və səmərəliliyə görə artıq dünya səviyyəsində məşhurlaşdığını məmnunluqla qeyd etdi. Dövlətimizin başçısı, eyni zamanda, Azərbaycanda müdafiə sənayesinin inkişafı ilə bağlı ciddi addımların atıldığını vurğuladı və bu baxımdan Türkiyənin aparıcı şirkətlərindən ibarət nümayəndə heyətinin ölkəmizə səfərinin əməkdaşlığımızın perspektivlərinin müzakirəsi üçün yaxşı imkanlar yaratdığını dedi.

Qəbula görə minnətdarlığını bildirən Haluk Görgün böyük nümayəndə heyəti ilə Azərbaycana səfər etməklərindən məmnunluq duyduqlarını vurğuladı və Türkiyə müdafiə sənayesinin əsasını təşkil edən nüfuzlu şirkətlərin rəhbərlərinin burada təmsil olunduqlarını bildirdi. Haluk Görgün səfər çərçivəsində Türkiyə nümayəndə heyətinin tərkibində olan şirkətlər ilə Azərbaycan müdafiə sənayesi şirkətləri arasında bir neçə istiqamətdə birgə fəaliyyətlə bağlı anlaşma memorandumlarının imzalanması barədə dövlətimizin başçısına məlumat verdi.

Türkiyənin Prezident Administrasiyasının Müdafiə Sənayesi Komitəsinin sədri Ramazan ayı münasibətilə təbriklərini və bu müqəddəs ayın Azərbaycan üçün xeyirli və bərəkətli olması ilə bağlı arzularını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev xoş sözlərə görə minnətdarlığını bildirdi.

Haluk Görgün Azərbaycanın Vətən müharibəsində əldə etdiyi inamlı Zəfəri vurğulayaraq İlham Əliyevin prezident seçkilərində qalib gəlməsini bir-birinin ardınca qazanılan qələbə hadisələri kimi qiymətləndirdi. O, prezident seçkilərindən sonra dövlətimizin başçısının bu ilin fevralında Türkiyəyə rəsmi səfərinin əlaqələrimizin inkişafında rolunu qeyd etdi.

Sonda Azərbaycan Prezidentinə xatirə hədiyyəsi təqdim olundu.

***Rusiya Federasiyasının Sankt-Peterburq şəhərinin qubernatoru Aleksandr Beqlovun qəbulu***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 3-də Rusiya Federasiyasının Sankt-Peterburq şəhərinin qubernatoru Aleksandr Beqlovu qəbul edib.

Görüşdə Azərbaycan ilə Rusiya arasında dostluq münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirildi, Azərbaycanın Rusiyanın ayrı-ayrı regionları, o cümlədən Sankt-Peterburq şəhəri ilə əməkdaşlığının ölkələrimiz arasında əlaqələrin möhkəmləndirilməsi işinə töhfə verdiyi vurğulandı.

Söhbət zamanı Prezident İlham Əliyev ilə Aleksandr Beqlov arasında bundan əvvəl keçirilən görüşlər məmnunluqla xatırlandı, Sankt-Peterburq şəhərinin qubernatorunun ölkəmizə səfərinin səmərəli nəticələr verəcəyinə əminlik ifadə olundu və bu səfərin əməkdaşlığımızın perspektivlərinin müzakirəsi üçün yaxşı imkanlar yaratdığı bildirildi.

Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə bağlı Sankt-Peterburqda geniş tədbirlərin keçirildiyi xatırlandı. Bir sıra görkəmli azərbaycanlıların Sankt-Peterburq şəhərinin inkişafına verdiyi töhfə məmnunluqla qeyd edildi.

Görüşdə ticarət, iqtisadi, investisiya imkanlarının genişləndirilməsi, humanitar, mədəniyyət, təhsil sahələrində müvafiq qurumlar arasında əməkdaşlığın möhkəmləndirilməsi ilə bağlı məsələlər müzakirə olundu. Əlaqələrin möhkəmləndirilməsi üçün qarşılıqlı marağın olduğu bildirildi. Artıq 20 ildir ki, fəaliyyət göstərən Azərbaycan ilə Sankt-Peterburq şəhəri arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə hökumətlərarası komissiyanın iclası çərçivəsində növbəti 4 il üçün Yol Xəritəsinin imzalanması məmnunluqla vurğulandı.

Sonda dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim olundu.

***Türkiyənin sabiq xarici işlər naziri, Türkiyə Böyük Millət Məclisinin millət vəkili və NATO Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri Mövlud Çavuşoğlunun qəbulu***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 5-də Türkiyənin sabiq xarici işlər naziri, Türkiyə Böyük Millət Məclisinin millət vəkili və NATO Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri Mövlud Çavuşoğlunu qəbul edib.

Dövlətimizin başçısı Mövlud Cavuşoğluya ölkəmizdə böyük hörmət bəsləndiyini vurğulayaraq, onun bütün dövrlərdə Azərbaycanın yanında olmasını yüksək qiymətləndirdiyini bildirdi və xalqımızın bunu çox dəyərləndirdiyini qeyd etdi. Prezident İlham Əliyev vurğuladı ki, xüsusilə İkinci Qarabağ müharibəsi zamanı Mövlud Çavuşoğlu müntəzəm surətdə çox önəmli açıqlamalar verib. O, bütün dünyaya Türkiyənin səsini çatdırıb ki, Azərbaycan tək deyil, Türkiyə onun yanındadır. Bu açıqlamalar öz növbəsində Azərbaycanın işinə qarışmaq istəyən qüvvələrin qarşısının alınmasında önəmli rol oynayıb.

Dövlətimizin başçısı bu gün Azərbaycan-Türkiyə birliyinin daha da güclənməsinin önəmini qeyd edərək bildirdi ki, hazırda dünyada, o cümlədən Cənubi Qafqazda proseslər çox təhlükəli istiqamətdə gedir və bununla bağlı Azərbaycan haqlı olaraq öz narahatlığını ifadə edir. Belə ki, Cənubi Qafqaz üçün cızılan plan gələcəkdə böyük fəlakətə gətirə bilər.

Azərbaycan Prezidenti bildirdi ki, Qarabağı işğaldan azad etməyimiz, xüsusilə keçən ilin sentyabrında həyata keçirdiyimiz antiterror əməliyyatı bəzi qüvvələri narahat edib. "Mən hər zaman deyirdim və deyirəm ki, biz haqq yolundayıq, öz əzəli torpaqlarımızı bütün beynəlxalq qanunlar çərçivəsində hərbi yolla azad etmişik", – deyə vurğulayan Prezident İlham Əliyev qeyd etdi ki, o vaxtdan bu günədək bizə olan təzyiqlər durmadan davam edir. Avropa Parlamenti təhqirlə dolu çirkin qətnamələr qəbul edib. AŞPA nümayəndə heyətimizi səsvermə hüququndan məhrum edib. Bunlar çox mənfi fəsadlara gətirə biləcək addımlardır və bunun yeganə səbəbi Qarabağı işğaldan azad etməyimizdir.

Bu gün ABŞ, Avropa İttifaqı və Ermənistan arasında Brüsseldə keçiriləcək üçtərəfli görüşə toxunan dövlətimizin başçısı bildirdi ki, bununla Cənubi Qafqaz üçün növbəti təhlükə mənbəyi yaradılır. Halbuki son günlər həm ABŞ-ın, həm də Avropa İttifaqının yüksəkvəzifəli şəxsləri onların təşəbbüsü ilə baş tutan telefon danışıqları əsnasında bizi inandırmağa çalışmışlar ki, bu görüş Azərbaycanın əleyhinə deyil. Prezident İlham Əliyev qeyd etdi ki, lakin biz bunun Azərbaycanın və Cənubi Qafqazda iş birliyinin əleyhinə olduğunu bilirik. Bu, ayırıcı xətlərin yaradılması və ölkəmizi təcrid etmək məqsədi güdür.

Dövlətimizin başçısı bir daha qeyd etdi ki, keçən ilin sentyabrından indiyədək Avropa Parlamentinin, Avropa Şurasının Azərbaycan əleyhinə bəyanatlar verməsi, Ermənistanı Cənubi Qafqazda bir silahlı forpost kimi yaratmaq cəhdləri gələcəkdə çox böyük fəsadlar törədəcək. Buna görə, biz bununla bağlı ABŞ və Avropadakı tərəfdaşlarımıza xəbərdarlıq etmək üçün açıqlamalar verdik.

Geosiyasi vəziyyətin dəyişdiyini deyən Prezident İlham Əliyev belə bir şəraitdə Azərbaycan-Türkiyə birliyinin hər zaman olduğu kimi, bu gün də güclü

olmasının vacibliyini qeyd etdi və bu birliyi pozmaq istəyənlərin arzularının puç olacağına əminliyini bildirdi.

Xoş sözlərə görə minnətdarlığını ifadə edən Mövlud Çavuşoğlu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Rəcəb Tayyib Ərdoğana çatdırmağı xahiş etdi.

Eyni zamanda, biz Cənubi Qafqazdakı prosesləri də müzakirə etdik. Mən bildirdim ki, hazırda Azərbaycan və Ermənistan öz dövlət sərhədlərini müəyyənləşdirmək işində müəyyən uğurlara nail olublar. Demək olar ki, 12,7 kilometr dövlət sərhədi razılaşdırıldı. Azərbaycanın Qazax rayonunun otuz ildən çox müddət ərzində işğal altında olmuş dörd kəndi danışıqlar yolu ilə Azərbaycana geri qaytarılmışdır və biz bunu müsbət hal kimi qiymətləndiririk. Eyni zamanda, hesab edirəm ki, danışıqlar prosesində də irəliləyiş üçün yaxşı imkanlar var. Hər halda Azərbaycan buna hazırdır.

Onu da bildirdim ki, Azərbaycan keçən ilin sentyabr ayında öz dövlət suverenliyini və ərazi bütövlüyünü tam bərpa etmişdir. Əlbəttə ki, bu, Ermənistan ilə normallaşdırma yolumuzda önəmli amil olacaqdır. Həmkarımın diqqətinə o da çatdırıldı ki, iki ilə yaxındır Azərbaycan-Ermənistan şərti sərhədində sakitlikdir, heç bir atəşkəs pozuntusu müşahidə edilmir.

İkitərəfli münasibətlərə gəldikdə, ticarət həcminin artırılması təbii ki, müsbət haldır. Əgər statistik rəqəmlərə baxsaq görərik ki, ticarət dövriyyəsi bir neçə dəfə artıb. Ancaq mütləq rəqəmlər hələ bizi qane etmir və bu gün imzalanmış sənədlər, əldə edilmiş razılaşmalar əminəm ki, bu istiqamətdə də bizə kömək edəcək. Əminəm ki, ilk növbədə, energetika, bərpaolunan enerji növlərinin istehsalı, neft sənayesi, əczaçılıq, alüminium sənayesi sahələrində və digər sahələrdə yaxşı nəticələr əldə etmək mümkün olacaq.

Biz bu gün, eyni zamanda, yeni nəqliyyat dəhlizləri ilə əlaqədar fikir mübadiləsi apardıq. Həm Şərq-Qərb, həm Şimal-Cənub nəqliyyat dəhlizləri Azərbaycan ərazisindən keçir. Azərbaycan ərazisində bütün infrastruktur yaradılıb və beləliklə, nəqliyyat-logistika sahəsində əməkdaşlıq üçün çox gözəl imkanlar açılmaqdadır.

Birgə hökumətlərarası komissiyanın növbəti iclası ilə bağlı nümayəndə heyətlərinin üzvləri bizə məlumat vermişlər. Komissiyanın sonuncu iclası iki il bundan əvvəl Azərbaycanda keçirilmişdir. Yəqin ki, komissiyanın növbəti iclası bu il keçiriləcək və prezidentlər tərəfindən verilmiş bütün göstərişlər, əminəm, ciddi müzakirə ediləcək və beləliklə, biz əməkdaşlıq istiqamətində növbəti önəmli addım atacağıq.

Hörmətli cənab Prezident, Zati-aliləri, mənə və nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə bir daha təşəkkürümü bildirmək istəyirəm. Əminəm ki, noyabr ayında Bakıda COP29 çərçivəsində biz Sizinlə yenidən görüşəcəyik.

İyunun 8-də Qahirədə Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah Əs-Sisinin adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə rəsmi nahar verilib.

İyunun 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qahirədə Əl-Əzhəri Şərifin şeyxi, böyük imam Əhməd Məhəmməd Əhməd Əl Tayyib ilə görüşü olub.

Görüşdə Prezident İlham Əliyev Əl-Əzhərdə ikinci dəfə olduğunu xatırladı, Misirə rəsmi səfəri çərçivəsində yenidən burada olmağından və Əl-Əzhəri Şərifin şeyxi, böyük imam Əhməd Məhəmməd Əhməd Əl Tayyib ilə görüşündən məmnunluğunu bildirdi.

Dövlətimizin başçısı Azərbaycan-Misir münasibətlərinin çox yaxşı səviyyədə olduğunu, ölkələrimiz arasında tarixi əlaqələrin mövcudluğunu qeyd etdi. Prezident İlham Əliyev bütövlükdə ərəb dövlətləri ilə əlaqələrin inkişaf etdirilməsinin Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindən biri olduğunu vurğuladı.

Dövlətimizin başçısı Azərbaycanda dinlər, mədəniyyətlər və sivilizasiyalar arasında dialoqun inkişafı ilə bağlı mühüm tədbirlərin keçirildiyini, ölkəmizin dinlərarası dialoqa öz töhfəsini verdiyini bildirdi, böyük imam Əhməd Məhəmməd Əhməd Əl Tayyibi ölkəmizə səfərə dəvət etdi.

Azərbaycan Prezidenti ölkəmizin bu il COP29-a ev sahibliyi edəcəyini diqqətə çatdırdı. Prezident İlham Əliyev Azərbaycanın Əl-Əzhər ilə birlikdə dini liderlərin növbəti görüşünün COP29 çərçivəsində keçirilməsi təşəbbüsü ilə çıxış etdiyini vurğuladı.

Dövlətimizin başçısı Azərbaycan torpaqlarının otuz ilə yaxın müddətdə işğal altında qaldığını xatırladaraq, işğal dövründə Azərbaycanın İslam dininə aid maddi-mədəniyyət abidələrinin, o cümlədən 67 məsciddən 65-nin tamamilə dağıdıldığını diqqətə çatdırdı. Prezident İlham Əliyev bu münaqişənin həllinin siyasi yolla mümkün olmadığını təəssüf hissi ilə vurğulayaraq, Azərbaycanın özünümüdafiə hüququndan istifadə edib işğala son qoyduğunu, ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdiyini dedi. Dövlətimizin başçısı azad olunmuş ərazilərdə məscidlərin, İslam irsinin bərpası istiqamətində tədbirlərin həyata keçirilməsinə başlandığını, artıq beş məscidin bərpa olunduğunu bildirdi. Prezident İlham Əliyev vurğuladı ki, Azərbaycan İslam həmrəyliyinə töhfə verir və bu istiqamətdə qardaş müsəlman ölkələri ilə birlikdə səylərini davam etdirir.

Azərbaycan Prezidenti Şuşa şəhərinin İslam mədəniyyətinin paytaxtı elan olunmasının və bu çərçivədə Şuşada keçirilən tədbirlərin önəmini vurğuladı. Dövlətimizin başçısı, həmçinin vaxtilə Şuşada mövcud olmuş 17 məsciddən 16-sının işğal dövründə tamamilə dağıdıldığını dedi.

Əl-Əzhəri Şərifin şeyxi, böyük imam Əhməd Məhəmməd Əhməd Əl Tayyib bu ziyarətə görə dövlətimizin başçısına təşəkkürünü bildirdi və Misirlə Azərbaycan arasında əlaqələrin çox yaxşı səviyyədə olduğunu qeyd etdi. O, Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tam təmin etməsindən məmnunluğunu bildirdi. COP29-a dəvətə görə təşəkkürünü bildirən Əhməd Məhəmməd Əhməd Əl Tayyib bu tədbirdə məmnunluqla iştirak edəcəyini dedi.

Əl-Əzhəri Şərifin şeyxi Bakıda dünya dini liderlərinin II Sammitinin keçirildiyini xatırladaraq, Azərbaycanın İslam həmrəyliyinə verdiyi töhfəyə görə Prezident İlham Əliyevə şəxsən təşəkkürünü bildirdi və COP29 çərçivəsində də dini liderlərin toplantısının keçirilməsi üçün birgə işlərin aparıldığını qeyd etdi.

O, Əl-Əzhəri Şərifin Azərbaycanda ərəb dilinin tədrisinə öz dəstəyini verməyə hazır olduğunu vurğuladı, Əl-Əzhərdə azərbaycanlı tələbələrin də təhsil aldıqlarını diqqətə çatdırdı.

Ölkəmizdə ərəb dilinin tədrisinə dəstək niyyətinə görə təşəkkürünü ifadə edən Prezident İlham Əliyev tarixən Azərbaycanda ərəb dilinin və İslam mədəniyyətinin tədqiqinə və tədrisinə böyük diqqət yetirildiyini vurğuladı, Bakı Dövlət Universitetində şərqşünaslıq fakültəsinin, Azərbaycan Milli Elmlər Akademiyasında Şərqşünaslıq İnstitutunun fəaliyyət göstərdiyini qeyd etdi.

* * *

Sonra xatirə hədiyyələri təqdim olundu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Misir Ərəb Respublikasına rəsmi səfəri iyunun 8-də başa çatıb.

Qahirə Beynəlxalq Hava Limanında dövlətimizin başçısını rəsmi şəxslər yola saldılar.

## *Türkiyə Respublikasına işgüzar səfər*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 10-da Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə Ankaraya işgüzar səfərə gəlib.

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Ankaranın Esenboğa Hava Limanında Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi Türkiyənin vitse-prezidenti Cevdet Yılmaz və digər rəsmi şəxslər qarşıladılar.

İyunun 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Ankaranın Esenboğa Hava Limanında görüşüblər.

İyunun 10-da Ankarada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə təkbətək görüşü olub.

Dövlət başçıları Azərbaycan ilə Türkiyə arasında qardaşlıq, dostluq və müttəfiqlik münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyini məmnunluqla vurğuladılar.

Görüşdə ölkələrimiz arasında enerji, nəqliyyat, iqtisadiyyat, ticarət əlaqələrinin genişləndirilməsi, müdafiə, hərbi sənaye və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə olundu. Bakı-Tbilisi-Qars dəmir yolunun imkanlarının genişləndirilməsi xüsusilə qeyd edildi, Orta Dəhlizin inkişafı ilə əlaqədar iki ölkənin birgə həyata keçirdiyi fəaliyyətin önəmi vurğulandı.

Həmçinin Türk Dövlətləri Təşkilatının və qardaş ölkələrimiz arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi və Şuşada keçiriləcək qeyri-rəsmi Zirvə görüşünün əhəmiyyəti bir daha qeyd olundu.

Prezident Rəcəb Tayyib Ərdoğan Şuşadakı qeyri-rəsmi Zirvə görüşündə iştirak edəcəyini bildirdi və COP29-un Azərbaycanda keçirilməsi münasibətilə təbriklərini çatdırdı.

Dövlətimizin başçısı Türkiyə Prezidentini COP29-a bir daha dəvət etdi.

Prezident Rəcəb Tayyib Ərdoğan dəvəti məmnunluqla qəbul etdi.

Görüşdə regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

İyunun 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan birgə nahar ediblər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasına işgüzar səfəri iyunun 10-da başa çatıb.

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQLƏRİ, ÇIXIŞLARI VƏ MÜSAHİBƏLƏRİ

## *Hacıqabul rayonunda Şirvan suvarma kanalının təməlqoyma mərasimində İlham Əliyevin nitqi*

- Mən bir neçə gün bundan əvvəl Şirvan suvarma kanalının yenidən qurulması haqqında Sərəncam imzalamışam, bu gün isə kanalın təməli qoyulur. Bu, çox əlamətdar hadisədir. Son illər ərzində Azərbaycanda həyata keçirilən infrastruktur layihələri arasında bu layihənin xüsusi əhəmiyyəti vardır. Çünki Yuxarı Şirvan suvarma kanalı uzun illərdir fəaliyyət göstərir. Kanal torpaq məcralıdır və illər keçdikcə kanalın böyük hissəsi sıradan çıxmışdır. Təbii olaraq bu da itkilərə səbəb olub, su itkiləri kifayət qədər çoxdur. İtkilərə və su sızmalarına görə ətraf torpaq sahələri şoranlaşmış, əkin üçün yararsız vəziyyətə düşmüşdür.

Yuxarı Şirvan kanalı 1958-ci ildə inşa edilmişdir və bu gün kanalın, – artıq bu kanal Şirvan kanalı adlandırılır, – yeni mərhələsi başlayır. Faktiki olaraq kanal yenidən inşa ediləcək və beləliklə, minlərlə insan bu layihədən faydalanacaq. 120 kilometrlik kanalın uzunluğu təxminən iki dəfə artırılacaq və 200 kilometrdən çox olacaq.

Əkin sahələrinə gəldikdə isə o da iki dəfədən çox artırılacaq. İcra ediləcək yeni layihə 230 min hektar əkin sahəsini əhatə edəcək. Bunun böyük hissəsi yeni suvarılacaq əkin sahələridir. Əgər əvvəlki dövrlərdə bu kanal 8 rayonu əhatə edirdisə, indi 10 rayonu əhatə edəcək və kanalın son nöqtəsi, bax, arxamdakı Hacıqabul gölü olacaq. Hacıqabul gölü də 10 ildən çoxdur ki, tamamilə quruyub. Kanal istifadəyə veriləndən sonra göl də dolacaq və bunun da təbiətə çox müsbət təsiri olacaqdır.

Bu layihə bir daha onu göstərir ki, Azərbaycanda həyata keçirilən infrastruktur layihələrinin əsas məqsədi ölkəmizin sürətli inkişafını təmin etmək, insanların rifah halını yaxşılaşdırmaq, xüsusilə bölgələrdə yaşayan insanların məşğulluğu üçün şərait yaratmaqdır. Son illər ərzində əsas infrastruktur layihələri icra edilmişdir. Azərbaycanda həyata keçirilmiş infrastruktur layihələri ölkəmizi tamamilə yeni bir səviyyəyə qaldırmışdır. Elektrik enerjisi, avtomobil yolları, dəmir yolları, su kəmərləri, içməli su layihələri, o cümlədən suvarma ilə bağlı olan layihələr artıq öz səmərəsini göstərir. Əvvəlki illərdə bu sahəyə aid bir çox böyük layihələr icra edilmişdir. Onların arasında, ilk növbədə, Taxtakörpü-Ceyranbatan suvarma kanalını qeyd etməliyəm. Taxtakörpü su anbarının tikintisi də xüsusi əhəmiyyətə malik olan layihə idi. Şəmkirçay su anbarı da çox böyük infrastruktur layihəsi idi. Beləliklə, həm Şimal, həm Qərb bölgələrində əkin üçün yararlı olan torpaqların həcmi və sahəsi böyük dərəcədə artırılmışdır.

Şirvan kanalının əhəmiyyəti də göz önündə olacaqdır. Bu, bizim ən böyük – suyun həcminə və əkin sahələrinin əhatəsinə görə ən böyük layihəmiz olacaqdır. Əminəm ki, yaxın gələcəkdə 10 rayon üzrə yerləşən məntəqələrdə bu yeni kanalın əhəmiyyətini hər kəs görəcək.

Bu layihə ilə biz bu sahəyə yeni nəfəs gətiririk. Eyni zamanda, Qarabağ kanalının da, – vaxtilə bu, Yuxarı Qarabağ kanalı adlandırılmışdır, indi isə bunun adı Qarabağ kanalıdır, – inşası ilə əlaqədar Sərəncam imzalanıb, texniki-iqtisadi əsaslandırma aparılacaq və bu işin nəticəsində yeni layihə işlənib hazırlanacaq. Biz Qarabağ kanalının inşasına gələn ildən başlamalıyıq. Bu da 115 min hektarı əhatə edəcək kanaldır. Orada da əhatə olunan rayonların sayı 9-a bərabərdir. Yəni, burada 10 rayon Şirvan kanalı vasitəsilə, 9 rayon isə Qarabağ kanalı vasitəsilə suvarılacaq.

Ölkəmizin gələcək inkişafının əsas istiqamətləri bundan ibarətdir, çünki qeyri-neft sektorunun inkişafı, kənd təsərrüfatının inkişafı, məşğulluğun artırılması, vətəndaşların rifah halının yaxşılaşdırılması və su ehtiyatlarımızdan səmərəli şəkildə istifadə edilməsi – bütün bu amillər gördüyümüz işlərdə əks olunur.

İqlim dəyişikliyi ilə bağlı dünyada böyük narahatlıq var, o cümlədən Azərbaycanda. Biz indi görürük ki, bu il faktiki olaraq əvvəlki illərdən fərqlənirdi. Bu il kifayət qədər qar, yağış yağmışdır və bizim su hövzələrimizdə, su anbarlarında kifayət qədər su var. Ancaq əvvəlki illərdə biz hər il quraqlıqla üzləşirdik. Bizim dağlarımıza daha az qar yağırdı. Çaylarımızda suyun səviyyəsi əvvəlki illərdə aşağı düşürdü, bəzi hallarda əsas çaylarımız quruyurdu. Xəzər dənizinin dayazlaşması göz önündədir. Bunu hər kəs görə bilir. Belə olan halda su ehtiyatlarından səmərəli şəkildə istifadə etmək bizim başlıca vəzifəmizdir.

Mən bir daha demək istəyirəm ki, Azərbaycanda bir çox infrastruktur layihələri öz həllini tapmışdır. Qazlaşdırmanın səviyyəsi 96 faizə çatıb. Elektrik enerjisi ilə təminat və yeni elektrik stansiyalarının yaradılması geniş vüsət alıb və əhəmiyyətli dərəcədə irəliləyişə nail olmuşuq. Bütün ölkəmiz yeni, müasir yollarla əhatə olunur. Ona görə növbəti illərdə hökumətin qarşısında duran əsas infrastruktur layihələri

arasında başlıca vəzifə içməli su layihələri və suvarma layihələri olacaqdır.

Artıq genişmiqyaslı proqram işlənib hazırlanıb. Şirvan və Qarabağ kanalları Taxtakörpü kanalı ilə birlikdə ən böyük suvarma kanalları olduğu üçün bu layihələrə xüsusi əhəmiyyət verilir. Ancaq artıq qəbul edilmiş proqram əsasında Azərbaycanda 10-dan çox su anbarı inşa ediləcəkdir. Məsələn, Qəbələ rayonundakı Yengicə su anbarının inşasına artıq start verilmişdir. O anbar inşa ediləndən sonra orada bu günə qədər suvarılmayan 10 min hektar torpaq, əkin sahələri suvarılacaq. Əgər bizim suvarma ilə bağlı ümumi layihələrimizi götürsək görərik ki, bir neçə ildən sonra ən azı 500 min hektardan çox torpağa su veriləcəkdir. Eyni zamanda, müasir idarəetmə sistemləri, itkilərin azaldılması - indi Şirvan kanalında itkilər 30 faizə yaxındır. İndi beton məcralı kanal inşa ediləndən sonra itkilər maksimum 5 faiz olacaq. Yəni, suya qənaət hər birimizin işidir, ilk növbədə, dövlətin və biz bu işi görürük.

Bunlar ancaq Azərbaycanın bir hissəsinə aid olan layihələrdir. Əgər biz işğaldan azad olunmuş ərazilərdə layihələri əlavə etsək, mənzərə daha ürəkaçan olacaq. Çünki Vətən müharibəsi və antiterror əməliyyatı nəticəsində biz bu gün öz su mənbələrimizə tam sahib olmuşuq. Vaxtilə Ermənistan təkcə bizim torpaqlarımızı yox, bizim su resurslarımızı da işğal etmişdir. Qarabağ və Şərqi Zəngəzurda mövcud olan su resursları bizim ümumi su resurslarımızın 25 faizini təşkil edir. Bu su resurslarının əsas xüsusiyyəti, müsbət tərəfi odur ki, bunlar daxili mənbələr hesabına formalaşan su resurslarıdır. Çünki bildiyiniz kimi, bizim əsas çaylarımız xaricdən gəlir – Kür çayı, Araz çayı, Samur çayı. Bizim əsas çaylarımız xaricdən gəlir, ona görə Qarabağın və Şərqi Zəngəzurun su resursları daxili mənbələr olduğu üçün bunun xüsusi əhəmiyyəti var. Biz qısa müddət ərzində böyük infrastruktur layihələrini icra etmişik və bu işlər davam etdirilir.

Bir müddət bundan əvvəl Ağdam rayonunda Xaçınçay su anbarının açılışı olmuşdur. Füzuli rayonundakı Köndələnçay su anbarının yaxın gələcəkdə açılışı olacaqdır. Hazırda Zabuxçay su anbarının inşası gedir. Suqovuşan su anbarı demək olar ki, yenidən qurulub və o anbardan çıxan iki kanalın biri artıq tam təmir edilib, ikinci kanal da təmir ediləcək və beləliklə, erməni işğalına görə sudan məhrum olmuş bir neçə rayona artıq su veriləcək. Yeni əkin sahələrinin həcmi 100 min hektara yaxın olacaq. Ona görə mən deyəndə ki, ən azı 500 min hektar torpağa su veriləcək, bunu nəzərdə tuturam. Nəzərə alsaq ki, Azərbaycanda suvarılan əkin sahələrinin həcmi o qədər böyük deyil, bu layihələrin xüsusi əhəmiyyəti var. Qarabağ və Şərqi Zəngəzurda digər böyük suvarma layihələri nəzərdə tutulur. Həkəriçay, Bərgüşadçay su anbarlarının və kanalların inşa edilməsi nəzərdə tutulur. İndi texniki-iqtisadi əsaslandırmalar hazırlanır və hesab edirəm ki, gələn ildən biz bu layihələrin icrasına da başlaya bilərik.

Təbii ki, bütün bunlar böyük vəsait tələb edir. Azərbaycan dövləti güclü dövlətdir, öz gücünə, öz imkanlarına arxalanan dövlətdir. Biz Qarabağda və Şərqi Zəngəzurda elə genişmiqyaslı işlər görürük ki, bunun dünyada misli-bərabəri yoxdur. Həm yaşayış evləri, infrastruktur layihələri, suvarma layihələri, dəmir yolları, tunellər, hava limanları – cəmi üç il ərzində görülmüş işlər dövlətimizin gücünü, hökumətimizin və dövlətimizin iradəsini göstərir. Dediyim bu layihələrin hamısı icra ediləcək. Hələ bunlardan başqa bir çox layihələr olacaq ki, sadəcə onlar işin həcmi nöqteyi-nəzərdən daha kiçikdir. Amma hər bir layihənin əhəmiyyəti var və beləliklə, su ehtiyatları məhdud olan Azərbaycan bu sahədə də özünü tam təmin etmiş olacaq.

Bir layihəni də qeyd etməliyəm. İndi bu layihə üzərində iş aparılır. Bu da Xəzər dənizinin suyunun duzsuzlaşdırılması layihəsidir. Bu layihə həyata keçiriləndən sonra biz Xəzər dənizinin suyundan da həm suvarma üçün, həm içməli su kimi istifadə edəcəyik. Dünyanın bir neçə ölkəsi duzsuzlaşdırma sahəsində böyük təcrübəyə malikdir və bizim də Xəzər dənizi kimi böyük su hövzəmiz var. Təbii ki, biz bu imkandan da istifadə edəcəyik. Beləliklə, bu gün təməlini qoyduğum kanalın yaxın gələcəkdə çox böyük müsbət nəticələri olacaq.

Mən bir həftə bundan əvvəl Hacıqabul rayonunda yerləşən aqroparkın fəaliyyəti ilə tanış olmuşam. Mənə məlumat verildi ki, burada 4 mindən çox hektarda taxıl əkini aparılmışdır və məhsuldarlıq hər hektardan buğda üzrə 7 tona yaxın olmuşdur. İndi müqayisə üçün deyim ki, ölkəmizdə orta məhsuldarlıq hər hektardan 3 tondan bir qədər çoxdur. Burada – Hacıqabulda heç vaxt o sahələrdə əkin aparılmamışdır – nə sovet vaxtında, nə müstəqillik dövründə. Çünki su yox idi və torpaq da o qədər münbit deyil. Su olanda, yeni texnologiyalar tətbiq ediləndə, texnika, dövlətin dəstəyi, özəl sektorun fəaliyyəti – bütün bu amillər birləşəndə, bax, biz bu nəticəni görürük – Hacıqabulda hər hektardan 7 ton. Amma torpağı daim münbit olan yerlərdə bu rəqəm daha da arta bilər. Ancaq mən sizə deyim ki, hər hektardan taxıl üzrə 7 ton məhsuldarlıq – bu, inkişaf etmiş ölkələrin səviyyəsidir. Özü də bu, ərzaqlıq buğdadır ki, bizə ən çox lazım olan ərzaqlıq buğdadır. Biz hələ ki, idxaldan asılıyıq. Əgər bu texnologiyalar təkcə Şirvan kanalı boyunca, bax, orada göstərilən, yerləşən ərazilərdə tətbiq olunsa, onda biz idxaldan asılılığı böyük dərəcədə azaldacağıq. Sadaladığım digər layihələr icra edildikdə biz bəlkə də nə vaxtsa idxaldan, ümumiyyətlə, imtina edəcəyik.

İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur torpaqlarında indi quruculuq işləri ilə bərabər, kənd təsərrüfatının inkişafı geniş vüsət almışdır. Oraya qayıdan vətəndaşlar artıq bu imkanlardan istifadə edirlər. Eyni zamanda, ən müasir texnologiyaların tətbiqi nəticəsində orada həm taxılçılıq, həm meyvəçilik, bostan-

çılıq, üzümçülük geniş vüsət alacaq. Qarabağ və Şərqi Zəngəzur Azərbaycanın ən gözəl yerlərindən biridir və kənd təsərrüfatı üçün yararlı torpaqların, su resurslarının – çayların, bulaqların, yaylaqların mövcudluğu həm heyvandarlıq, həm də bitkiçilik üzrə çox böyük imkanlar yaradır. Biz hər şeyi planlı şəkildə edirik ki, hər qarış torpaqdan maksimum məhsuldarlıq, maksimum səmərə götürək və bunu edəcəyik.

Əminəm, Azərbaycan xalqı da tam əmindir ki, dediyimiz bütün sözlər, verdiyimiz bütün vədlər hər zaman yerinə yetirilir və bu gün dediyim, bu layihələrin icrası da tam təmin ediləcək. Biz üç ildən sonra - uzaqbaşı 2027-ci ilin sonuna qədər Şirvan kanalının da açılışını qeyd edəcəyik.

## *Bakıda Çingiz Aytmatovun abidəsinin açılış mərasimində İlham Əliyevin nitqi*

– Möhtərəm Sadır Nurqojoyeviç.

Hörmətli qonaqlar, əziz dostlar.

Bu gün Qırğızıstan ilə Azərbaycan arasında qardaşlıq münasibətləri tarixində əlamətdar gündür. Bu gün qırğız xalqının böyük oğlu Çingiz Aytmatovun abidəsi açılır. Əminəm ki, bu, dostluğumuzun, qardaşlığımızın və birliyimizin daha bir rəmzi olacaq.

Çingiz Aytmatov dünyaşöhrətli yazıçı, həyatı boyu həm Sovet İttifaqı məkanında, həm də dünya miqyasında öz xalqını layiqincə təmsil etmiş qırğız xalqının böyük oğludur.

Azərbaycanda onun yaradıcılığını sevir və fəal vətəndaş mövqeyinə, milli ruhuna və köklərinə sadiqliyinə görə ləyaqətli insan kimi hörmət bəsləyirdilər. Xatirimdədir, o, vəfatından bir az əvvəl Azərbaycana səfər etmişdi və mən onunla görüşmək, bir çox məsələlərdə uzun söhbət aparmaq imkanı əldə etdim. Həmin gün mən onu ehtiram əlaməti olaraq və münasibətlərimizin möhkəmlənməsi işində xidmətlərinə görə Azərbaycan dövlətinin yüksək mükafatı olan "Dostluq" ordeni ilə təltif etdim. O, hər zaman haqq-ədalətin tərəfində olub. Təsadüfi deyil ki, o, təkcə yazıçı kimi deyil, həm də ictimai xadim kimi keçmiş SSRİ məkanında və dünya miqyasında böyük hörmət qazanmış şəxsiyyət idi və onun xatirəsi, əlbəttə ki, qırğız xalqının, bütün qardaş xalqların qəlbində yaşayır.

Mən Qırğızıstanda dövlət səfərində olarkən onun məzarını ziyarət etdim və Azərbaycan xalqının onun xatirəsinə olan dərin ehtiramını bildirdim.

Əlamətdar haldır ki, abidə Qırğızıstan Prezidentinin dövlət səfəri çərçivəsində açılır. Bu gün biz bir çox məsələlər, o cümlədən humanitar əməkdaşlıq məsələləri ilə bağlı çox səmərəli və mühüm danışıqlar apardıq. Bildiyiniz kimi, bu günlərdə Bakıda Qırğızıstan Mədəniyyəti Günləri keçirilir və rəmzi haldır ki, məhz belə təntənəli tədbirlər və dövlət səfəri çərçivəsində Bakı şəhərinin mərkəzi küçələrindən biri olan Azadlıq prospektində biz bu gün bu tədbirdə iştirak edirik.

Mən Azərbaycan və Qırğızıstan xalqlarını bu əlamətdar hadisə münasibətilə təbrik etmək istərdim. Çingiz Aytmatovun Bakıdakı abidəsi bizim birliyimizin, dostluğumuzun və qardaşlığımızın rəmzinə çevriləcək. Həm də demək istərdim, əminəm ki, bütün Türk dünyası öz layiqli nümayəndəsi ilə fəxr edir və əlbəttə, hamımızın təəssüfləndiyimiz yeganə məqam onun dünyasını çox tez dəyişməsidir. Bu, çox gözlənilməz oldu, artıq qeyd etdiyim kimi, mən onunla Bakıda onun vəfatından bir qədər əvvəl, demək olar ki, bir neçə ay əvvəl görüşmüşəm və o, həmişə olduğu kimi, enerji ilə dolu idi və yaxşı görünürdü, öz planlarından danışırdı. 2008-ci il idi, amma mən bu görüşü dünən kimi xatırlayıram.

Hamımızı bir daha təbrik edirəm, bir daha bu xoş sözləri deyirəm, xoş gəlmisiniz, hörmətli cənab Prezident. Əminəm ki, Qırğızıstan ilə Azərbaycanın, xalqlarımızın dostluğu və qardaşlığı əbədi olacaq. Sağ olun.

## *VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılış mərasimində İlham Əliyevin nitqi*

– Çox sağ olun, təşəkkür edirəm. Xoş sözlərə görə minnətdaram.

Hörmətli xanımlar və cənablar. Əziz qonaqlar. Azərbaycana xoş gəlmisiniz.

Çox şadam ki, Forum yenidən canlanır. Bildiyiniz kimi, bir neçə il ərzində fasiləmiz oldu. Bu, COVID-lə və post-COVID vəziyyətlə bağlı oldu. İndi isə əminəm ki, bizim ənənəvi cədvəlimiz tamamilə bərpa olunub.

Məmnunam ki, burada 100-dən artıq ölkənin nümayəndəsi var. Əslində, bu, 110 ölkədir. Bu, sözün əsl mənasında göstərir ki, Forum çox mühüm beynəlxalq platformadır və orada mədəniyyətlərarası dialoq məsələləri müzakirə olunur. Biz indi qısa videoçarx seyr etdik, orada "Bakı Prosesi" haqqında bəhs olunur. Əslində, biz prosesi başlayanda heç təsəvvür edə bilmirdik ki, onun nəticəsində insanları – ziyalıları, siyasətçiləri, qərar qəbul edənləri, media nümayəndələrini, vətəndaş cəmiyyətinin nümayəndələrini, vətəndaş cəmiyyətini bir araya gətirəcəyik, bir məqsəd ətrafında toplayacağıq ki, necə edək bizim dünyamız daha təhlükəsiz olsun. Çünki bunun əsasında mədəniyyətlərarası dialoq dayanır.

Mən burada Forumun proqramına baxdım. Görürəm, o, çox geniş proqramdır, bir çox sahələri əhatə edir. Gündəlik həqiqətən genişdir – mədəniyyətlərarası dialoq, müxtəliflik, iqlim dəyişmələri, miqrasiya, sülh və təhlükəsizlik, postmünaqişə vəziyyəti, turizm, süni zəka. Mən məhsuldar müzakirələr arzu edirəm. Əminəm ki, bu müzakirələr və o cümlədən Forum zamanı irəli sürülən ideyalar bizə yanaşmaları formalaşdırmağa imkan verəcək ki, mədəniyyətlərarası dialoqu necə gücləndirək, biz necə edək ki, mövcud və potensial hədələri aradan qaldıraq?

2019-cu ildə Bakıda görüşümüzdən sonra əfsuslar olsun ki, dünya təhlükəsiz olmayıb. Əfsuslar olsun ki, biz yeni münaqişələri görürük, yeni qeyri-sabitlik məkanlarını görürük və yeni təhdidləri görürük. Əminəm ki, hörmətli nümayəndələrdən ibarət auditoriya öz töhfəsini verəcək, ideyalar və yeni yanaşmalar formalaşacaq ki, qlobal gündəlikdə olan məsələlərə ən təxirəsalınmaz həll variantları tapılsın.

Həmin məsələlərin həllində, gündəlikdə olan məsələlərin müzakirəsində Azərbaycanın öz təcrübəsi var. Hesab edirəm, yaxşı olar ki, mən burada biz bu prosesi necə gördüyümüz haqqında bir az danışım və biz necə etməliyik ki, bu müsbət tendensiyaları gücləndirək? Əsrlər boyu Azərbaycan mədəniyyətlərin qovuşduğu məkan olub. Bizim coğrafi mövqeyimiz, Şərq ilə Qərb arasında yerləşməyimiz, əslində, bu tendensiyaya imkan yaradıb. Çoxmədəniyyətli və böyük etnik müxtəlifliyə malik olan Azərbaycan cəmiyyəti əsrlər boyu ən mühüm dəyərləri – tolerantlığı, qarşılıqlı hörməti, dostluq və tərəfdaşlıq kimi dəyərləri qoruyub. Əminəm ki, bir müstəqil ölkə kimi Azərbaycanın uğurlu inkişafını şərtləndirən məsələ məhz bunlardan ibarətdir. Azərbaycanda yaşayan insanlar, müxtəlif etnik qrupların və dinlərin təmsilçiləri bir ailə kimi yaşayırlar. Onlar Azərbaycanın dəyərli vətəndaşlarıdır, dövlətimizin, dövlətçiliyimizin əsl vətənpərvər insanlarıdır. Biz bu müsbət tendensiyaları, bu mədəni dialoqu, mədəni müxtəlifliyi gücləndirməliyik və əlbəttə ki, bütün bunlar bir çox əsrlərdən gələn nemətdir. Ona görə də biz mütləq məhz bu təşəbbüsü irəli sürməli, "Bakı Prosesi"ni başlamalı idik və bildiyiniz kimi, üç ildən sonra "Bakı Prosesi" rəsmən təsdiqləndi. Daha sonra isə biz Mədəniyyətlərarası Dialoq Forumuna başladıq. Əsas səbəblərdən biri Azərbaycan cəmiyyətində məhz sülhün, sabitliyin, həmrəyliyin mədəni müxtəliflik və qarşılıqlı hörmətlə bağlı olmasıdır. Əlbəttə ki, Azərbaycan daxilində hər zaman müsbət mədəniyyətlərarası dialoq olub. Biz bunu gündəlik həyatımızda nümayiş etdirmişik. Biz multikulturalizm haqqında söhbət açanda nəzərdə tuturuq ki, bu, Azərbaycan vətəndaşları üçün nə isə bir abstrakt məfhum deyil, nə isə bir şeyi öyrənmək kimi deyil, bu, məhz bizim həyat tərzimizdir və biz bundan fərəhlənirik. Biz, həmçinin fərəhlənirik ki, bu dəyərləri əsrlər boyu qoruyub saxlaya bilmişik və çox keşməkeşli vaxtlarda – toqquşmalar, münaqişələr, müharibələr vaxtında qoruyub saxlaya bilmişik. Əslində, bütün bu hadisələr bizim sərhədlərimizə çox yaxın bir məsafədə baş verir və həmçinin əvvəllər bir neçə il ərzində Azərbaycan daxilində də olub. Bu, elə bir məsələdir ki, biz onları dostlarımızla bölüşmək istərdik. Həmçinin öz əminliyimizi nümayiş etdiririk ki, biz bu yolda addımlarımızı davam edəcəyik. Əminəm ki, bununla hər bir ölkə uğur qazana bilər. Çünki əgər siz birincisi, bu məsələləri daxilən nəzərdən keçirsəniz, elə bir mühit yaranar ki, bütün etnik qrupların, dinlərin nümayəndələri özlərini ləyaqətli, təhlükəsiz şəraitdə hiss edərlər və onlara münasibət ədalətli olar. Əgər belə olmasa, bu, yalnız ayrı-seçkiliyə, etimadın çatışmazlığına aparıb çıxarar və sonda bu, sosial və bir çox hallarda siyasi çətinliklərlə nəticələnər. Bu, ölkə daxilində parçalanmaya səbəb olar. Buna görə, məhz təcrübəmiz göstərir ki, biz müstəqilliyin ilk illərində çox çətinliklər yaşadıq və bu vəziyyətdən çıxa bildik. Çünki o vaxt işğal var idi, çox iqtisadi və sosial çətinliklər özünü büruzə verirdi. Azərbaycanı parçalamaq cəhdləri var idi və məhz aqressiv separatçılıq var idi. Bütün bunlar Azərbaycan xalqının məhz həmrəyliyini, birliyini sınağa çəkdi. Buna görə milli maraqların qorunması bizim uğurumuz üçün çox vacib amil idi. Əlbəttə ki, bu kontekstdə dini rəhbərlərin rolu xüsusi əhəmiyyət kəsb edir. Elə sizin də müzakirə edəcəyiniz məsələlərdən biri bununla bağlıdır. Forumda yüzdən artıq dini nümayəndə iştirak edir. Əminəm ki, onlar qarşılıqlı anlaşmanın və hörmətin gücləndirilməsinə töhfə verəcəklər.

Azərbaycana gəldikdə, mədəniyyətlərarası dialoq elə bir məfhumdur ki, biz onu güclü şəkildə təşviq edirik. Ölkəmizdə çoxsaylı tədbirlər təşkil edirik. Bunlar dinlərarası dialoqla bağlıdır. Müzakirələrin bir hissəsi olaraq məhz bunu Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində həyata keçiririk və digər tədbirlərdə bu məsələyə toxunuruq. Bununla bağlı xüsusi müzakirə sessiyası və COP29 tədbiri də olacaqdır. Bu dialoq məsələsi orada da müzakirə olunacaqdır. Əminəm ki, bütün dünyadan gələn bu sahə üzrə rəhbərlər bu gün Bakıda həmrəylik nümayiş etdirəcəklər və liderlik göstərəcəklər. Çünki dini nümayəndələrin rolu dünyada bütün xalqlar üçün vacibdir və onlar həmin rəhbərlərdə sülh, tolerantlıq, qarşılıqlı hörmət kimi müsbət mesajları eşitməlidirlər. Bunlar çox vacib amillərdir. Əfsuslar olsun ki, biz bəzi hallarda fərqli mesajları da eşidirik və bu da əlavə gərginlik yaradır. Bir sözlə, düşünürəm ki, bu istiqamətdə müsbət tendensiyalar güclü şəkildə dəstəklənməlidir.

Müzakirə olunacaq məsələlərdən biri də çoxtərəflilikdir. Azərbaycan öz təcrübəsini göstərib. Biz qəti şəkildə çoxtərəfliliyə sadiqik. Biz çoxtərəflilik dəyərlərini 120 ölkənin üzv olduğu Qoşulmama Hərəkatında 2019-cu ildən bu ilin əvvəlinə qədər təşviq etmişik. O, BMT-dən sonra ikinci ən böyük təşkilatdır və həmçinin bununla bağlı yekdil qərarımız oldu, sədrliyimiz yekdil qərarla əlavə bir il də artırıldı. Təbii ki, Qoşulmama

Hərəkatının vacib təməl dəyərləri məhz suverenlik, ölkələrin ərazi bütövlüyü, daxili işlərə qarışmamaqdır. Biz həmin Hərəkatın təsisatlanması seqmentinin gücləndirilməsinə çalışdıq və bununla bağlı daxildə şəbəkə yaratdıq, qadınların və gənclərin təşkilatlarını təsis etdik. Bütün bunlar məhz Azərbaycan tərəfindən yaradılıb.

Əminəm ki, Qoşulmama Hərəkatının təsisatlanması istiqamətində inkişafı gələcəkdə də davam edəcək. Çünki hazırda dünyaya nə lazımdır, bəzi böyük ölkələr bu və ya digər qütbə aid deyil, onların öz hüquqları və öz maraqları var. Onların bəzilərinin çox ağrılı-acılı müstəmləkə tarixçəsi olub və həmin ölkələrin səsi dinlənilməlidir, onlar yaddan çıxarıla bilməz. Buna görə də həmin Hərəkatda bizim sədrliyimiz məhz bu məqsədi güdürdü və biz daha çevik, daha fəal olmağa çalışdıq. İstədik Hərəkat daha təsirli olsun. COVID vaxtlarında biz, həmçinin Qoşulmama Hərəkatının platformasından istifadə edərək həmin faciəvi xəstəliyin fəsadlarını müzakirə etməyə çalışdıq. Çünki pandemiya bütün ölkələrə təsir göstərdi. Azərbaycan məhz o ölkələrdən biri idi ki, fəal şəkildə peyvənd millətçiliyinə qarşı çıxış etdi, səsini qaldırdı və ucaltdı. Bildiyiniz kimi, pandemiyanın ilk aylarında peyvənd çatışmırdı. Pul vəsaitləri çox olan bir sıra ölkələr özlərində çox böyük sayda, hətta beş dəfədən artıq peyvənd topladılar. Bunu necə etmək olar?! Bununla onlar, sadəcə, bir çox digər ölkələrin səhiyyə sistemini heçə endirdi ki, onların da peyvəndlərə çıxışı yox idi. Ona görə milli maraqlar baxımından, əlbəttə ki, Azərbaycan həmin Qoşulmama Hərəkatında sədrliyi zamanı peyvənd milliyyətçiliyinə qarşı mübarizə apardı və biz Baş Assambleyada bununla bağlı təşəbbüskar olduq.

Biz bir məsələni də Qoşulmama Hərəkatının sədri kimi hər zaman təşviq edirdik. Bu, yeni müstəmləkə tendensiyalarına qarşı mübarizədir. Artıq söylədiyim kimi, həmin Hərəkatın üzvlərinin əksər hissəsinin çox ağır, qaranlıq müstəmləkə tarixçəsi olub və buna qarşı mübarizənin aparılması o deməkdir ki, biz buna inanırıq. Çünki biz ədalət naminə danışırıq, çünki biz beynəlxalq hüquq naminə danışırıq. Yəni, biz belə bir məsələyə imkan verə bilmərik ki, indi – XXI əsrdə bəzi Avropa ölkələri digər xalqlara müstəmləkə kimi yanaşsın. Təbii ki, biz öz səsimizi ucaltdıqda, Hərəkatda sədrliyimiz zamanı bu məsələni qaldırdıqda bu, onunla bağlı deyildi ki, biz hansısa ölkələrə qarşı idik. Biz, sadəcə, ədalətə, beynəlxalq hüquqa bağlı idik. Bu, yaddan çıxmalı deyil. Dünya məcburi assimilyasiyaya aparan belə bir iyrənc neokolonializm təcrübəsinə göz yummamalıdır. Ondan çox fransız dənizaşırı ərazisində həyata keçirilən məcburi assimilyasiya əsla qəbuledilməzdir və buna son qoyulmalıdır. Bu səbəbdən Avropa təsisatları bəzən çalışırlar Avropada olmayan ölkələrin daxili işlərinə müdaxilə etsinlər. Amma Avropa Parlamenti və AŞPA bununla bağlı səsini çıxarmır. Çünki yeni müstəmləkə tendensiyaları yenə də davam edir. Onda siz nəyə görə tənqid etmirsiniz? Nəyə görə siz sanksiyalar tətbiq etmirsiniz? Nəyə görə susursunuz? Bəli, biz sədr olaraq Hərəkat daxilində bu işi gördük. Bu, bizim vəzifəmiz idi. İndi görürük ki, digər ölkələrə, imperiyada yaşayan xalqlara gəldikdə, biz bilirik ki, azad və müstəqil olmaq nə deməkdir. Biz bunu bilirik və həmin insanlara kömək etmək istəyirik. Çünki onlar öz hüquqlarını müdafiə etmək, müstəqilliyə qovuşmaq, öz mədəniyyətlərini, öz dillərini qorumaq istəyirlər. Bu, elə bir məsələdir ki, hesab edirəm hər bir normal insan məhz bu hüququ müdafiə edər. Bir sözlə, bu, çox vacib məsələdir. Bu, həmçinin mədəniyyətlərarası dialoq üçün vacibdir. Biz burada ikiüzlü ola bilmərik, ikili standartları tətbiq edə bilmərik. Yaxud da ki, əgər görürüksə ikili standartlar nümayiş etdirilir, biz buna göz yuma bilmərik. Əgər siz insanlara xoş olan tolerantlıqdan, demokratiyadan, insan hüquqlarından danışıb, amma digər tərəfdən, siz dənizdə olan 10-dan artıq ərazidə bunun əksini edirsinizsə, bu, riyakarlıqdan, ikili standartlardan başqa bir şey deyil. Əlbəttə ki, bu sahələrdə həmin yanaşma tətbiq olunacaqdır.

Azərbaycan COP29-a yekdil qərarla ev sahibliyi edən ölkə seçildi. Biz indi öz rolumuzu körpülərin salınmasında görürük. Mən tariximiz, coğrafiyamız, qarşılıqlı əlaqələrimiz, Avropa təsisatları ilə olan münasibətlərimiz, eyni zamanda, coğrafi baxımdan Qərb ilə Şərq arasında yerləşməyimiz barədə söylədim ki, biz bu amillərlə çox iş görə bilərik. Hazırda biz qeyd edirik ki, əvvəlki sədrliyimiz zamanı olduğu kimi körpülər salmağa çalışacağıq.

Əlbəttə ki, iqlim dəyişmələrinə aid olan məsələlərə gəldikdə, bizə maliyyə vəsaiti lazımdır. Bəli, maliyyə məsələsi öz növbəsində COP29-un əsas mövzusu olacaq. Lakin bizə həmrəylik və qarşılıqlı etimad lazımdır. Biz bir-birimizi günahlandırmalı deyilik ki, kim planetə daha çox zərbə vurub. Yaxud da qlobal istiləşməyə görə kimin daha çox məsuliyyət daşıması ilə bağlı mübahisə etməməliyik. Əgər biz bu davranışı davam etdirsək, onda bunun sonu faciə olacaq. Mən bu yaxınlarda tərəfdaşlarımızla iqlim dəyişikliyi ilə bağlı danışdım. Bu, qaçılmazdır. Çünki biz neft hasil edən ölkəyik və dedim ki, neft-qazımızın olması bizim günahımız deyil. Başqalarının da belə təbii sərvətləri var və əlbəttə ki, onların öz təbii sərvətlərindən ölkələrinin faydası üçün istifadə etmək imkanı var. Azərbaycana gəldikdə, bu imkan nəinki Azərbaycana aiddir, biz təbii qazımızı səkkiz ölkəyə çatdıraraq onların enerji təhlükəsizliyinə töhfə veririk. Əgər biz bu gün məhz yol təchizatlarına, enerji təchizatlarına baxsaq görərik ki, onlar çox müxtəlifdir. Ona görə bizim səylərimiz körpülərin salınmasına yönələcək.

Avropa-Qlobal Cənub istiqamətinə və həmrəyliyə gəldikdə, biz buna nail ola bilərik. Bunun üçün biz ürəkdən çalışmalıyıq, gündəliyimiz də buna köklənib. Eyni zamanda, bizim özümüzün yaşıl gündəliyimiz var və biz buna COP29-a ev sahibliyi etmək şərəfinə layiq

görüləndən xeyli əvvəl başlamışıq. 2027-ci ilə qədər bizdə 2 qiqavat Günəş və külək enerjisi stansiyaları işə düşəcək və 2030-cu ilə qədər əlavə 5 qiqavat da istismara veriləcək. Bunun sayəsində bərpaolunan enerjini elektrik enerjisi istehsalında istifadə etmək üçün bizə imkan yaranacaqdır. Bütün bunlar üçün biz çox yaxşı sərmayə şəraiti yaratmışıq, sərmayədarlar var. Biz, həmçinin bərpaolunan enerji mənbələrindən istifadə edirik. Bu, elə bir faktdır ki, biz onun əsasında beynəlxalq ictimaiyyət tərəfindən dəyərləndirilməliyik, yalnız sırf neft-qazın olması ilə deyil. Yəni, biz bununla bağlı hər hansı səhv addım atmırıq. Azərbaycan, onun göstəriciləri, iqlim dəyişmələrinə gəldikdə, hesab edirəm ki, onlar nümunəvi hesab oluna bilər.

Yekun bir məsələni də qeyd edim. Bu da sizin müzakirələr gündəliyinizə aiddir ki, sülh və təhlükəsizlik münaqişədən sonrakı vəziyyətlə bağlı olan məsələlərdir. Azərbaycan sülhü müharibə vasitəsilə təmin etdi. Hesab edirəm ki, bu, lazımınca nəzərdən keçirilməlidir. Biz demək olar 30 il ərzində işğal altında olmuşuq. Bütün əvvəlki dialoq forumlarında mən işğal və ədalətsizlik haqqında danışmışam və bildirmişəm ki, insanlar bundan əziyyət çəkiblər. Bizim beynəlxalq səviyyədə tanınmış ərazimizin 20 faizi demək olar ki, müstəqilliyin ilk illərindən 2020-ci ilədək işğal altında qalıb və bir milyona yaxın azərbaycanlı qaçqın və məcburi köçkün olub, biz etnik təmizləməyə məruz qalmışıq. Bu, Qarabağda və Şərqi Zəngəzurda baş verib. Burada tamamilə yerlə-yeksan olunan sahələri görmüşük. İndi biz azad edilmiş ərazilərə daxil olanda bunu öz gözlərimizlə görürük. Əminəm ki, iştirakçılardan bəziləri azad olunmuş ərazilərə baş çəkəcəklər. Biz öz səsimizi ucaltmışıq, biz ürəkdən çalışdıq, diplomatiya sahəsində işlədik, bütün beynəlxalq təşkilatlar qətnamələri və qərarları qəbul etdi və orada erməni qüvvələrinin çıxarılması tələb olunurdu. O cümlədən BMT-nin Təhlükəsizlik Şurası dörd qətnamə qəbul etdi. Amma bu, işləmədi, çünki implementasiya mexanizmi yox idi. Bu, bizim diqqətimizdən kənarda qala bilməzdi. Həmin qətnamələri qəbul edənlər heç bir şey etmədilər ki, onlar icra olunsun. Odur ki, biz sülhə müharibə yolu ilə nail olmalı idik və 2020-ci ildə 44 günlük Vətən müharibəsi nəticəsində ərazilərimizin böyük hissəsini azad etdik. Ötən ilin sentyabr ayında isə biz öz ərazi bütövlüyümüzü, suverenliyimizi tam şəkildə bərpa etdik. İndi isə biz münaqişədən sonrakı vəziyyətdəyik. Münaqişədən sonrakı vəziyyətə gəldikdə, bir daha deyirəm, Azərbaycan çox fəal çalışır, Azərbaycan məhz Ermənistana sülh sazişi ilə bağlı danışıqlara başlamaq təşəbbüsünü irəli sürdü. Azərbaycan məhz o ölkədir ki, baza prinsiplərini, hətta sülh sazişinin layihəsini hazırladı. İndi iki ölkə arasında danışıqlar gedir və bu danışıqlar bizim təkliflərin layihəsi üzərində aparılır. Demək olar ki, 30 il insanlar əziyyət çəkib, beynəlxalq hüquq pozulub, bizim bütün mədəni, tarixi məkanlarımız, o cümlədən 67 məsciddən 65-i erməni vandalları tərəfindən tamamilə məhv edilib. Qeyd edirəm ki, bəzi ölkələr Ermənistana dəstək verirdi.

Ötən ilin sentyabr ayında biz ərazi bütövlüyümüzü, suverenliyimizi tam bərpa edəndən sonra Ermənistanın dırnaqarası qarantorları tərəfindən siyasi hücumlara məruz qaldıq. Buna baxmayaraq, biz yenə sülh təklif etdik. İndi isə biz, əslində, müsbət tendensiyaya və sülhə doğru gedirik, sərhədlərin delimitasiyası başlayıb. Nəinki delimitasiyası, hətta demarkasiyası başlayıb. Mən burada çıxış etdiyim zaman bu iş gedir. Buna iki ölkə tərəfindən hər hansı bir vasitəçi olmadan nail olunub. Bu, bir daha onu göstərir ki, bizə vasitəçi lazım deyil. Xüsusən də o insanlar ki, məhz öz məqsədlərini güdürlər və yardım etmək istəmirlər. Onlar bizim bölgəyə öz fərdi, siyasi və iqtisadi maraqları naminə müdaxilə etmək istəyirlər. Onlar həmin alova yenidən odun atmaq istəyirlər. Biz Cənubi Qafqazda buna icazə verməyəcəyik, imkan verməyəcəyik. Otuzillik toqquşmadan sonra Ermənistan da aydın şəkildə anlayır ki, biz Cənubi Qafqazda sülh istəyirik və sülh bu bölgədə yalnız Azərbaycanla Ermənistan arasında normallaşma vasitəsilə həll oluna bilər.

Bununla mən çıxışımı yekunlaşdırıram, vaxtınızı çox almaq istəmirəm. Diqqətinizə görə minnətdaram. Sizə müzakirələrinizdə böyük uğurlar diləyirəm. Çox sağ olun, sizə xoş səfər arzulayıram.

## *İlham Əliyev “Euronews” televiziyasına müsahibə verib*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 26-da Almaniyanın paytaxtı Berlində keçirilən “15-ci Petersberq İqlim Dialoqu”nun Yüksək Səviyyəli Seqmentində iştirakı zamanı “Euronews” telekanalına müsahibə verib.

Müxbir: Prezident Əliyev, Sizinlə söhbət etmək həmişə olduğu kimi çox xoşdur. Biz Berlində, Petersberq İqlim Dialoqu tədbirindəyik. Bu, həqiqətən də COP29-a aparan yolun başlanğıcıdır. Yəqin ki, komandanız çox həyəcanlıdır. Builki COP-dan nə gözləyə bilərik, hansı məsələlər icra olunacaq və sadəcə, müzakirə olunmayacaq?

**Prezident İlham Əliyev:** Biz bütün tərəflərin özlərini rahat hiss etdiyi bir mühit yaratmaq istəyirik. Bizim Qoşulmama Hərəkatında körpü rolunu oynamaqda böyük təcrübəmiz var. Bildiyiniz kimi, Hərəkata dörd il sədrlik etdik. Hesab edirəm ki, 120 üzv ölkə ilə biz həqiqətən də böyük tərəqqiyə nail olduq. Biz Avropa İttifaqına üzv olan ölkələrlə fəal işləyirik. Bu gün konfransda dediyim kimi üzv ölkələrin doqquzu ilə strateji tərəfdaşlıq haqqında Bəyannaməni imzalamışıq və qəbul etmişik. Digər sözlə, Qlobal Cənub və Qərb və iqlim dəyişikliyi məsələlərinin öhdəsindən gəlmək üçün birlikdə bu prosesdə necə iştirak etməliyik, həmrəyliyi,

ortaq məsuliyyəti necə gücləndirməliyik və iqlim dəyişikliyi məsələləri ilə bağlı müəyyən inamsızlığı necə azaltmalıyıq? Çünki siz fərqli ideyaları, fərqli fikirləri bilirsiniz.

Müxbir: Qazıntı yanacağı ideyası ötən il BƏƏ-də keçirilən COP28-də üstünlük təşkil edirdi. Bilmək istərdim ki, Sizin fikrinizcə, COP tarixində qazıntı yanacağı hasil edən ölkənin dəyişikliklərin edilməsi və keçid prosesində aparıcı rola malik olması müsbət hadisə olaraq qiymətləndirilirmi?

**Prezident İlham Əliyev:** Biz məhz buna nail olmağa çalışırıq. Konfransda verdiyim mesajlardan biri də o idi ki, bizi malik olduqlarımıza görə mühakimə etməyin. Bizi onlardan necə istifadə etdiyimizə, gündəmimizə görə mühakimə edin. Avropadakı, Qoşulmama Hərəkatındakı iştirakımızla bağlı dediklərimdən əlavə, həmçinin bir məsələni də anlamaq vacibdir ki, biz həm də OPEC+ üzv ölkəsiyik. Biz COP-dan əvvəl daha çox maliyyələşməni təmin etmək üçün Azərbaycan və neft hasil edən digər ölkələrin hansı əlavə töhfələri ola bilər kimi həmrəylik paketini yaratmaq üçün bir çox neft hasil edən ölkələrlə işləyirik. Hesab edirəm ki, neft hasil edən ölkələr, xüsusilə neftin qiyməti yüksək olanda problemin öhdəsindən gəlmək üçün daha çox ödəniş etməli və daha çox töhfə verməlidir. Hesab edirəm ki, həmrəylik maliyyələşmənin və necə uğur qazanacağımızın ayrılmaz hissəsidir.

Müxbir: COP29-un davamlı mirası olaraq nəyi görmək istərdiniz?

**Prezident İlham Əliyev:** Əgər yaşıl dünyaya doğru əlavə və davamlı olan konkret addımlar ata bilsək, bu, ən vacib miras olacaq. Eyni zamanda, bildiyiniz kimi COP üçün yenilik olan bir təşəbbüs bizim tərəfimizdən irəli sürülmüşdür. Üçlük, üç ölkə mexanizminin yaradılması. Burada məqsəd bu üçtərəfli əməkdaşlıq formatını yaratmaq üçün BƏƏ-nin, Azərbaycanın və sonra Braziliyanın təcrübəsindən istifadə etməkdir. Çünki hər üç ölkə müxtəlif regional, iqtisadi, siyasi və sair məsələlərdə iştirak edir. Beləliklə, biz qarşılıqlı səylər, həmrəylik göstərməli, bir-birimizi günahlandırmağı dayandırmalıyıq. Nefti olmayan ölkələr nefti olan ölkələri ittiham etməməlidir, kiçik və inkişaf etməkdə olan ölkələr inkişaf etmiş böyük ölkələrə “siz iqlim fəlakətinə görə məsuliyyət daşıyırsınız” deməklə onlara qarşı tələblər irəli sürməməlidirlər. Beləliklə, bu, diplomatiyadır, siyasətdir, maliyyədir və əlbəttə ki, ev sahibi ölkəsi kimi biz bunun üçün bir platforma yarada bilərik.

Müxbir: Cənab Prezident, Sizinlə söhbət etmək xoş idi. Bu gün bizə vaxt ayırdığınıza görə çox sağ olun.

**Prezident İlham Əliyev:** Çox sağ olun.

## *Bakı Enerji Həftəsi çərçivəsində 29-cu “Caspian Oil&Gas” və 12-ci “Caspian Power” sərgilərinin açılışında İlham Əliyevin nitqi*

– Sabahınız xeyir xanımlar və cənablar.

Əvvəlcə bütün qonaqlarımızı salamlamaq istəyirəm. Azərbaycana xoş gəlmisiniz. Əvvəla, təşkilatçılara minnətdarlığımı bildirmək istəyirəm. Artıq qeyd edildiyi kimi, Xəzər Neft və Qaz Sərgisi otuz il bundan əvvəl 1994-cü ildə fəaliyyətə başlayaraq, Azərbaycanın enerji sektoruna birbaşa xarici investisiyaların cəlb edilməsində mühüm rol oynamışdır. O vaxtdan bəri bu tədbir daha böyük tədbirə çevrilib və enerji siyasətinin bütün əsas seqmentlərini – neft, qaz, kəşfiyyat və hasilat, emal və nəqliyyatı və əlbəttə ki, yaşıl enerjini əhatə etdiyinə görə indi onun adı Bakı Enerji Həftəsidir.

Otuz il bundan əvvəl Azərbaycan, əlbəttə ki, başqa bir ölkə idi. Biz müstəqillik yolunda ilk addımlarımızı atırdıq və bu, çətinliklər, çağırışlar və faciəvi hadisələrlə dolu olan bir dövr idi. Əfsuslar olsun ki, 1991-ci ilin oktyabrında müstəqilliyimizin bərpası qonşu Ermənistanın təcavüzü və torpaqlarımızın demək olar ki, iyirmi faizinin işğalı ilə müşayiət olundu.

Həmin dövrdə adambaşına düşən məcburi köçkünlərin sayına görə biz bəlkə də dünyada birinci yerdə idik və ya birincilərdən biri idik. Hər səkkiz nəfərdən biri məcburi köçkün idi. Bu, həqiqətən də çətin dövr idi və biz humanitar fəlakətlə üzləşdik. İrəliyə getmək üçün yol yalnız investisiyaların cəlb edilməsindən ibarət idi, lakin Azərbaycan çox riskli ölkə hesab olunurdu. Söhbət təkcə Birinci Qarabağ müharibəsi və işğaldan yox, həm də daxili münaqişələrdən gedir. 1993-cü ilin vətəndaş müharibəsi, əslində, ölkəni uçuruma aparırdı.

Buraya iqtisadi çətinlikləri, min faiz səviyyəsində olan inflyasiyanı, sənayemizin durğunluğunu və enerji resurslarının qıtlığını əlavə edə bilərik. Bizdə elektrik enerjisi və təbii qaz qıtlığı var idi – bir neçə onilliklər ərzində enerji resurslarına görə məşhur olan bir ölkədə. Çar Rusiyası və Sovetlər İttifaqı dönəmində Azərbaycan bu sahədə təkcə regional yox, qlobal miqyasda lider idi. Lakin müstəqillik böyük bir enerji böhranı ilə müşayiət olundu.

Beləliklə, 1993-cü il dönüş nöqtəsi oldu. Heydər Əliyevin 1993-cü ilin oktyabrında Prezident seçilməsi ölkənin tarixində yeni səhifə açdı və söhbət təkcə ölkənin enerji seqmentindən getmir. İrimiqyaslı iqtisadi islahatlar, yeni demokratik Konstitusiyanın qəbul edilməsi, senzuranın ləğvi və əlbəttə ki, iqtisadiyyatımızın ən cəlbedici sektoru olan enerji sektoruna investisiyaları cəlb etmək cəhdləri.

Bu tədbir, əslində, ölkənin potensialının ilk beynəlxalq təqdimatı idi. Artıq qeyd edildiyi kimi, birinci Xəzər Neft və Qaz Sərgisinin keçirilməsindən bir neçə ay sonra – 1994-cü il sentyabrın 20-də “Əsrin müqaviləsi” imzalandı. Bu da ölkənin transformasiyasında dönüş nöqtəsi oldu. Biz investorlarımızla çox məhsuldar

münasibətlər qura bildik. Məhz bunun nəticəsidir ki, BP şirkəti otuz ildir bizim strateji tərəfdaşımızdır və bundan sonra da ən azından otuz il ərzində strateji tərəfdaşımız olaraq qalacaq. 1994-cü ildə Birləşmiş Krallıqdan BP və ABŞ-dan "Amoco" beynəlxalq neft şirkətləri konsorsiumuna rəhbərlik edirdilər və onlar bizə etibar etdilər.

Dediyim kimi, bura çox riskli bir ölkə idi, investorlar həmişə siyasi çətinliklərə və geosiyasətə qarşı həssasdırlar. Lakin onlar hökumətə və xalqa etibar etdilər. Qeyd etdiyim kimi, SOCAR və yaradılmış konsorsium arasında çox etibarlı əməkdaşlıq var idi.

Bu, məhz belə başladı və üç il müddətində "Çıraq" platformasından ilk neft hasil olundu. Bu, neft sahəsinin tarixində çox əlamətdar və rekord bir hadisə idi. Müqavilənin imzalanmasından hasilata qədər cəmi üç il vaxt ötdü və sonra Qara dəniz limanlarına gedən iki boru xətti istismara verildi. 1999-cu ildə onların hər ikisi artıq işlək idi. Sonra çox çətin relyef şəraitində və region ölkələrinin və şirkətlərinin güclü əməkdaşlığı ilə uzunluğu 1700 kilometrdən artıq olan Bakıdan Ceyhana gedən əsas neft ixrac boru kəməri ərsəyə gəldi.

Bu, bizim iqtisadiyyatımıza sanki bir nəfəs verdi və bizim iqtisadiyyatımızın necə inkişaf etməsinə nəzər salsanız, onun enerji siyasətimizlə koordinasiyasını görərsiniz. Sonra Azərbaycan özünü artıq etibarlı tərəfdaş kimi sübut etdi və iqtisadiyyatımızın müxtəlif sahələrinə və əlbəttə ki, enerji sektoruna əlavə investisiyalar yatırıldı.

Bu gün 4 iyun tarixi, sadəcə, iyirmi il bundan əvvəl neft və qaz sərgisində "Şahdəniz" müqaviləsinin imzalanması ilə yadda qalmayacaqdır. Bu gün, həmçinin qardaş BƏƏ-dən olan "Masdar" şirkəti tərəfindən inşa ediləcək üç günəş və külək enerjisi elektrik stansiyalarının təməlqoyma mərasiminin keçirilməsi ilə də yadda qalacaq. Bu, Azərbaycanın və onun beynəlxalq tərəfdaşlarının qazıntı yanacağından bərpaolunan enerji resurslarına transformasiyasını nümayiş etdirir və qazıntı yanacağının uzun illər ərzində təkcə bizim üçün yox, həm də tərəfdaşlarımız üçün mühüm əhəmiyyət kəsb edəcəyini bildirir.

Beləliklə, "Şahdəniz" Azərbaycanda qaz qıtlığına son qoydu. Çünki ondan əvvəl biz təbii qazı idxal edirdik, indi onu ixrac edirik və bizim ixracımız artır, çox güman ki, bu il 24 milyard kubmetrdən artıq olacaq. Səkkiz ölkə Azərbaycandan qaz alır və Azərbaycan qaz təchizatında etibarlı tərəfdaş olduğunu bir çox ölkələrə sübut etdi. Bir neçə ay bundan öncə keçirilmiş Cənub Qaz Dəhlizinin Məşvərət Şurasının toplantısında Avropa Komissiyası Azərbaycanı ümum-Avropa qaz təchizatçısı adlandırdı və bu, həqiqətdir. Çünki bizim təbii qazı alan səkkiz ölkədən altısı Avropa ölkəsidir. Qaz təchizatımızın coğrafiyası, əlbəttə ki, artacaq. Hazırda öz enerji təhlükəsizliyini təmin etmək üçün Azərbaycan təbii qazına ehtiyacı olan bir neçə əlavə ölkə ilə danışıqların aktiv fazası gedir.

Dəfələrlə dediyimiz kimi, enerji təhlükəsizliyi milli təhlükəsizliyin ayrılmaz hissəsidir. İdxaldan asılı olan ölkələr, əlbəttə ki, ən etibarlı və uzunmüddətli tərəfdaşlar və müqavilələr axtarır. Onlar Azərbaycanın simasında məhz bunu əldə edirlər. Bizim sözümüz imzamız qədər dəyərlidir. Son 30 il ərzində imzalanmış bütün müqavilələr tam şəkildə icra olunub. Onların hamısı parlament tərəfindən ratifikasiya olunub və qanun şəklində imzalanıb. Orada bir söz belə dəyişilməyib. Bu etibar onilliklər ərzində qazanılıb. Bunun nəticəsidir ki, biz bu gün bərpaolunan enerji sahəsində növbəti sürətli inkişafın şahidiyik.

Bir az sonra iştirak edəcəyimiz mərasim haqqında danışarkən qeyd etdim ki, bu, sadəcə, başlanğıcdır. Yeri gəlmişkən, ötən ilin oktyabrında "Masdar" şirkəti 230 meqavat gücündə günəş elektrik stansiyasını istifadəyə verib. İndi isə daha 1 qiqavat enerji həcmi əlavə edilir.

Hazırda iki layihə işlənilməkdədir – onlardan biri inşaat mərhələsindədir, digərinin tikintisi isə tezliklə başlanacaq. Bununla da Azərbaycanın bərpaolunan enerji potensialı 2 qiqavata yaxın olacaqdır. Buraya təkcə günəş və külək enerjisi daxildir. Qarabağ və Şərqi Zəngəzurda hidroelektrik stansiyalarla bağlı gördüyümüz işləri əlavə etsək görərik ki, 2027-ci ilədək 2 qiqavat həcmində bərpaolunan enerjinin əldə edilməsi tamamilə real hədəfdir. Bir daha təkrar edirəm ki, bu, sadəcə, başlanğıcdır.

Yeri gəlmişkən, Qarabağ və Şərqi Zəngəzurun azad olunmuş ərazilərinin nəhəng hidroelektrik potensialı var. 2020-ci ilin noyabrında həmin ərazilər azad ediləndən sonra orada 270 meqavat həcmində hidroelektrik stansiyalar istifadəyə verilib. 3–5 il ərzində bu rəqəm 500 meqavata çatacaqdır. Beləliklə, bərpaolunan enerjinin 1 qiqavat həcmi bizə yarım milyard kubmetr qaza qənaət etməyə imkan verəcək ki, bazarın bu qaza ehtiyacı var və bu ehtiyac davam edəcəkdir.

Bu gün həqiqətən də əlamətdar gündür. Bakı Neft və Qaz Sərgisində qaz müqaviləsinin imzalanmasından 28 il sonra, 1 qiqavat həcmində bərpaolunan enerji ilə bağlı artıq imzaladığımız müqavilələr nəticəsində bu gün təməlqoyma mərasimi baş tutacaqdır. Artıq qeyd etdiyim kimi, bu, sadəcə, başlanğıcdır, çünki potensialımız nəhəngdir. Bizim tərəfdaşlarımız qlobal səviyyədə aparıcı şirkətlərdir və dediyim ki, "Masdar" yaşıl enerjiyə keçid sahəsində ən öndə gedən şirkətdir.

Hesab edirəm ki, BƏƏ-dən bir il sonra Azərbaycanın COP29-a ev sahibliyi etməsi heç də təsadüf deyil. BƏƏ-nin bizə ötürdüyü miras olduqca dəyərlidir. Birincisi, mən dostum nazir Sultan əl-Cabiri təbrik etmək istəyirəm və salamlarımı qardaşım, BƏƏ Prezidenti Şeyx Məhəmməd bin Zahid Əl-Nəhyana çatdırmağı xahiş edirəm. Həmçinin COP istiqamətində irəlilədiyimiz bu mürəkkəb yolda qardaşımın dostluğuna, tərəfdaşlığına və dəyərli tövsiyələrinə görə təşəkkürümü bildirirəm.

Bu, asan iş deyil, lakin biz buna hazırıq. Dəfələrlə dediyim kimi, neft və qaz ehtiyatlarına sahib olduğu-

muza görə bizi heç kəs günahlandıra bilməz. Bunu bizə Allah yetirib. Bizim işimizə bu ehtiyatların mövcudluğu əsasında deyil, onlardan hansı şəkildə istifadə etdiyimizə görə qiymət verilməlidir. Biz bu sərvəti müxtəlif vasitələrlə cəmiyyətə yönəltmişik, biz inklüziv cəmiyyət qura bilmişik, biz yoxsulluğu 50 faizdən 5 faizə endirə bilmişik, biz xarici borcumuzu təxminən 100 faizdən 7,7 faizə endirməyə müvəffəq olmuşuq.

Yəni, bizə qiymət verilən zaman bütün bu amillər nəzərə alınmalıdır. Bununla yanaşı, COP-a ev sahibliyi etmək kimi məsuliyyətli vəzifəni üzərimizə götürərkən biz bunun həm üstünlüklərini, həm də müəyyən çətinliklərini tam şəkildə dərk edirik. Ancaq biz bu məsələyə sadiqik.

Azərbaycanda iqlim dəyişikliyi Xəzər dənizinin sahilinə nəzər salarkən görünür. İldən-ilə biz dənizin geri çəkildiyinin şahidi oluruq və bunun səbəbi iqlim dəyişikliyi və insanların qeyri-rasional fəaliyyətidir. Çünki Xəzər dənizini qidalandıran mənbə çaylar sərhədlərimizin hüdudları kənarındadır. Bizim bununla bağlı məsuliyyətimiz sıfra bərabərdir və heç bir ciddi tədbirlər görülməzsə, biz böyük bir fəlakətlə üzləşəcəyik. Biz dənizi əlavə su həcmləri ilə təmin etmək üçün yeni bəndlər və su toplanması üçün anbarlar inşa edirik. Lakin Xəzər dənizini qidalandıran əsas mənbələr Azərbaycanda deyil.

İqlim dəyişikliyi hər bir ölkə üçün çağırışdır. Biz proaktiv addımlar atdıq və hazırda tərəfdaşlarımızla birgə çalışırıq. Biz BƏƏ və növbəti COP-a ev sahibliyi edəcək Braziliya ilə birlikdə “Troyka” təsis etmişik. Qoşulmama Hərəkatının keçmiş sədri qismində biz 120 ölkə ilə birlikdə bu təsisat və Avropa İttifaqı arasında körpülərin qurulmasına çalışırıq. Avropa İttifaqına 10 üzv dövlət ilə Azərbaycan arasında strateji tərəfdaşlıq haqqında bəyannamə imzalanıb. Biz hazırda inkişafda olan kiçik ada dövlətləri ilə fəal işləyirik. Onların dəstəklənməsi məqsədilə xüsusi fondun yaradılmasını planlaşdırırıq.

Azərbaycan üçün iqlim dəyişikliyi problemdir, onlar üçün isə bu, ekzistensional təhlükədir. Beləliklə, biz maksimal dərəcədə məsuliyyət nümayiş etdirməyə və eyni zamanda, beynəlxalq ictimaiyyətin müxtəlif komponentləri arasında körpülər qurmağa çalışırıq. Hesab edirəm ki, COP29 çərçivəsində maliyyə məsələləri ilə yanaşı, əldə edə biləcəyimiz ən böyük nəticə qarşılıqlı ittihamlara son qoyulması olacaqdır. Biz baş verənlərə görə bir-birimizi günahlandırmağı dayandırmalı, səylərimizi səfərbər etməli, iddialardan əl çəkməli və diqqətimizi övladlarımız və nəvələrimizin yaşamağa davam edəcəyi bu planetdəki həyatla bağlı gündəliyimizə yönəltməliyik.

Xanımlar və cənablar, bir daha Azərbaycana xoş gəlmisiniz. Bu gün həqiqətən tarixi bir gündür. Artıq qeyd etdiyim kimi, iyunun 4-ü tariximizdə “Şahdəniz” müqaviləsinin imzalanması, həmçinin yaşıl keçidlə bağlı təməlqoyma mərasimi ilə yadda qalacaqdır. Əlbəttə ki, bu vacib toplantı hər zaman yeni ideyalar, yeni təmaslar, yeni müqavilələr ilə nəticələnir və əminəm ki, budəfəki Bakı Enerji Həftəsində mühüm nəticələr əldə ediləcək.

Sizə ən xoş arzularımı çatdırır və fürsətdən istifadə edərək, hər birinizi bu ilin noyabrında COP29-da qonağımız olmağa dəvət edirəm.

Diqqətinizə görə sağ olun.

## *“Euronews” televiziyasında İlham Əliyevin müsahibəsi yayımlanıb*

İyunun 21-də “Euronews” televiziyasında Bakı Ekspo Mərkəzində Bakı Enerji Həftəsi çərçivəsində keçirilən 29-cu Beynəlxalq Xəzər Neft və Qaz - “Caspian Oil&Gas” və 12-ci Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji - “Caspian Power” sərgilərindən reportaj yayımlanıb.

Həmin reportajda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin “Euronews”a müsahibəsi də yer alıb.

İndi həmin müsahibənin tam variantını təqdim edirik.

Müxbir: Cənab Prezident, hər zaman Sizi burada görmək olduqca xoşdur. Bu gün Siz “Masdar” və Zati-aliləri Sultan Əhməd Əl-Cabir ilə çox mühüm xəbər verdiniz. Xahiş edirik, planlarınız barədə daha çox məlumat verərdiniz.

Prezident İlham Əliyev: Bəli, həqiqətən əla tədbirdir və o, əslində, bizim yaşıl gündəliyimizi nümayiş etdirir və eləcə də göstərir ki, Azərbaycan nəinki ənənəvi enerji mənbələrinə, o cümlədən bərpaolunan enerjiyə sərmayə yatıranlar üçün cəlbedicidir. “Masdar” bizim bərpaolunan enerji sahəsində strateji tərəfdaşımızdır. Ötən ilin oktyabrında biz 230 meqavatlıq ilk Günəş enerjisi stansiyasının açılışını etdik. Bu gün isə ümumi gücü 1 qiqavat olan üç Günəş və külək enerjisi stansiyalarının təməlqoyma mərasimini keçirdik. Bu, yalnız başlanğıcdır, çünki biz orta perspektivdə 10 qiqavata və 2030-cu ilədək 5 qiqavata qədər gücü əhatə edən bütün müqavilələri və anlaşma memorandumlarını icra etməyi planlaşdırırıq. Hədəfimiz belədir. Potensial var. Siz Günəşi, istəyimizi və o cümlədən küləyi görə bilərsiniz. Yaxşı sərmayə mühiti var. Bu, həqiqətən göstərir ki, ölkə ənənəvi enerjidən əldə etdiyi gəlirləri hazırda bərpaolunan enerjiyə yönəldir. COP29-a ev sahibliyi edəcək ölkə kimi yaşıl enerjiyə keçid prosesində öndə gedənlərdən olmaq bizim üzərimizə düşən öhdəlikdir.

Müxbir: Ənənəvi enerji sektorunun olması ilə yanaşı, yeni yaşıl bərpaolunan enerjiyə keçidə gəldikdə, çətinliklər hansılardır?

Prezident İlham Əliyev: Bilirsiniz, əslində, hər yeni iş qeyri-müəyyənliklərlə dolu olur. Lakin bizim böyük tərəfdaşlarımız var. Artıq qeyd etdim, "Masdar" strateji tərəfdaşdır. Həmçinin "ACWA Power" var. Daha sonra, BP sərmayədarlarımız sırasındadır və bizimlə işləməyi planlaşdıran digər ölkələrin bir çox şirkətləri var. Bir sözlə, biz neft və qaz sahəsində hər şeyi başdan-ayağa bilirik. Burada isə biz təzə başlayırıq. Çətinliklərə gəldikdə, bu, milli enerji şəbəkəsi ilə bağlıdır, çünki biz onu gücləndirməliyik ki, sərmayədarların verdiyi mümkün qədər çox enerjini qəbul edə bilsin. Digər çətinlik ötürülmə xətləri ilə bağlıdır, çünki bu halda biz öz qonşularımızla fəal çalışmalıyıq. Azərbaycanın özünə planlaşdırdığımız qədər bərpaolunan enerji lazım deyil və bu səbəbdən hədəfimiz ixracdır. Bərpaolunan enerjidən istifadəyə olduqca düşünülmüş yanaşma tətbiq edilməlidir ki, elektrik enerjisi maksimum istehsal olunsun və təbii qaza qənaət edilsin ki, o, əsasən indi Avropaya lazım olan qaydada nəql olunsun. Yalnız daxili gündəliyimizdən asılı olan və həll edilməli bir çox məsələlər, şübhə etmirəm ki, tam reallaşacaq. Lakin beynəlxalq tərəfdaşlıq tələb edən məsələləri biz tərəfdaşlarımızla həll etməliyik.

Müxbir: Bakı Enerji Həftəsində 37-dən artıq ölkədən gəlmiş 300-dən çox iştirakçının olması digər şirkətlərin bu işə sadiqliyini və bu konfransın nəyə görə enerji sektorunda qlobal liderliyi əks etdirdiyini göstərir. Elə deyilmi?

Prezident İlham Əliyev: Mən də belə düşünürəm. Tədbir artıq 30 ildir keçirilir. Birincisi, o, hələ 1994-cü ildə təşkil olunmuşdur. İkincisi, ölkələrin coğrafiyasına və şirkətlərin sayına baxsanız görərsiniz ki, iştirakçıların sayı artır. Heç də hər enerji tədbiri ABŞ Prezidentinin müraciəti şərəfinə nail olmur. Bu tədbirin bütün illəri belə olub və bu, əslində, onun unikal mahiyyətini və gücünü nümayiş etdirir. Düşünürəm ki, bütün bu amillər həmin tədbiri müxtəlif məsələləri həll edən, inkişaf yolunu göstərən, çox inkişaf etmiş və inklüziv platformaya çevirir. Birincisi, Xəzər Neft və Qaz Sərgisi oldu. Sonra biz qaz hasilatına başladıq. Tədbir artıq Xəzər Neft və Qaz Sərgisi və Konfransı adını aldı. Sonra biz bərpaolunan enerji sahəsində işə başladıq və tədbir fərqli sektorları əhatə edən Bakı Enerji Həftəsinə çevrildi. Siz qısa müddət ərzində bir ölkədə hər istiqamətdə – neft, təbii qaz və indi isə yaşıl enerji sahələrində uğurları görə bilərsiniz.

Müxbir: Yeri gəlmişkən, Siz xüsusi Sərəncamla bu ili "Yaşıl dünya naminə həmrəylik ili" elan etdiniz. Elə deyilmi?

Prezident İlham Əliyev: Bəli, ev sahibliyi edən ölkə kimi bizim əsas məqsədlərimizdən biri birliyi və həmrəyliyi yaratmaqdır. Biz COP zamanı və ondan sonra sədrliyimizin davam edəcəyi dövrdə elə müsbət mühit qurmaq istəyirik ki, ölkələr və şirkətlər bir-biri ilə istəklə işləsin və qarşılıqlı iddiaları kənara qoysunlar, planetin qorunması ilə əlaqədar əsas gündəliyə diqqət yetirsinlər.

Müxbir: Cənab Prezident, hər zaman Sizi görməkdən məmnunuq.

Prezident İlham Əliyev: Çox sağ olun.

DOI: 10.30546/2309-1347.2024.2.0010

## DAVAMLI İNKİŞAFIN İDARƏ EDİLMƏSİ
## SUSTAINABLE DEVELOPMENT MANAGEMENT

UOT 328; 342.5; 351/354; 351

**URXAN ƏLƏKBƏROV**

**Azərbaycan Respublikasının Prezidenti yanında**
**Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik**

*e-mail: alakbarovuk@gmail.com*

# AZƏRBAYCAN RESPUBLİKASI ENERJİ STRATEGİYASININ UĞURLARI DÜNYA İQTİSADİ FORUMUNUN HESABATINDA

Azərbaycan Respublikasında seçicilərin yüksək fəallığı şəraitində 2024-cü ildə növbədənkənar Prezident seçkiləri keçirildi. Seçkilərin nəticəsi bir daha göstərdi ki, seçicilərin 92,12 faizi hazırda ölkəyə başçılıq edən cənab İlham Əliyevi ölkə Prezidenti kimi görmək istəyir. Bu nəticə tam gözlənilən idi. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkə qlobal səviyyədə prioritet kimi qəbul olunmuş istiqamətlərdə dünya liderləri sırasına yüksəlib, iqtisadi və sosial sahələrdə yüksək nəticələr qazanıb, BMT Təhlükəsizlik Şurasının Qətnamələri və digər beynəlxalq təşkilatların qərarlarına uyğun olaraq öz ərazilərini tam şəkildə işğaldan azad edərək, ölkənin suverenliyini bərpa edib. Hazırda işğaldan azad edilən ərazilərin iqtisadi, sosial, ekoloji və demoqrafik reabilitasiyası həyata keçirilir, qaçqın və məcburi köçkünlərin öz yurdlarına qayıdışı təmin edilir, uğurlu diplomatik fəaliyyət nəticəsində ölkənin beynəlxalq nüfuzu daim artır. Prezident İlham Əliyevin inauqurasiya nitqi ölkənin gələcək illərdə də inkişafının uğurlu olacağından xəbər verir [1].

Prezident İlham Əliyevin andiçmə mərasimindəki nitqində ölkənin son 20 ildə əldə etdiyi nailiyyətlər də öz əksini tapıb. Göstərilib ki, Azərbaycan Respublikası uğurla inkişaf edir, bu inkişaf davamlıdır və inklüziv cəmiyyətin formalaşmasına xidmət edir. Prezident İlham Əliyev qeyd edib ki, bu uğurların əsasını Ulu Öndər Heydər Əliyev qoyub [1].

Ölkənin uğurlu inkişafı və prosesin innovativliyini müxtəlif beynəlxalq təşkilatların çoxsaylı hesabatları və dərc edilmiş analitik təhlillər də sübut edir. Bu uğurların əsasında ölkə Prezident İlham Əliyev tərəfindən nəzəri baxımdan əsaslandırılmış və real şəraitdə sınaqdan keçirilən yeni dövlət idarəçilik texnologiyaları durur. Sözügedən texnologiyalar müasir elmə əsaslanaraq dövlət idarəçiliyini və dövlət qulluğu sistemini tam yeni səviyyəyə qaldırıb. Bu siyasət və yeni dövlət idarəçilik texnologiyalarının Prezident İlham Əliyev tərəfindən ardıcıl tətbiqi nəticəsində Azərbaycan Respublikası qlobal, bütün bəşəriyyəti narahat edən humanitar, iqtisadi və davamlı inkişaf problemlərinin müzakirəsi platformasına çevrilib [2, 3].

Belə tədbirlər silsiləsindən 2024-ci ilin noyabr ayında Bakıda keçiriləcək iqlim dəyişmələrinə dair qlobal səviyyəli COP 29 toplantısını qeyd etmək olar. Prezident İlham Əliyev sözügedən tədbirlə bağlı çıxışında qeyd edib: "Azərbaycana növbəti dəfə böyük etimad və böyük hörmət göstərilmişdir. Biz buna layiqik, biz apardığımız siyasət nəticəsində dünya miqyasında çox güclü mövqelərə sahib olmuşuq. Azərbaycana beynəlxalq aləmdə olan hörmət günbəgün artır və biz bu hörməti öz

əməlimizlə, işimizlə, siyasətimizlə qazanmışıq" (4). Göründüyü kimi, bu sahədə də Azərbaycan Respublikası əhəmiyyətli nailiyyətlər əldə edib və qazanılmış uğur beynəlxalq təşkilatların digər sənədlərində də öz əksini tapıb. Ötən 2023-cü ilin sonunda Azərbaycan Respublikasının iqlim dəyişiklikləri sahəsində ölkənin uğurlarını əks etdirən, eyni zamanda davamlı inkişafa xidmət edən yeni bir hesabat dərc edilib. Bu hesabat Dünya İqtisadi Forumu tərəfindən hazırlanıb və Cenevrədə 2023-cü ilin oktyabr ayında dərc edilib. Hesabat iqlim dəyişikliklərinin tam və ya əhəmiyyətli dərəcədə qarşısının alınması üçün olduqca əhəmiyyətli bir prosesə – enerji keçidinə (transformasiyasına) həsr olunub (5). Hesabatda eyni zamanda dünyanın müxtəlif ölkələrində enerji keçidinin vəziyyəti xüsusi göstərici – Enerji Keçidi (Transformasiya) İndeksi (EKİ) vasitəsilə dəyərləndirilib. EKİ-nin hesablanması 8 müxtəlif göstəricilər əsasında həyata keçirilir. Bu hesabata əsasən, Azərbaycan Respublikası iqlim dəyişikliklərinin qarşısının alınması üçün ən əhəmiyyətli tədbirlərin nəticəsi olan enerji keçidi (transformasiyası) göstəricisinə görə, dünyada yüksək nailiyyətlər nümayiş etdirib. Belə ki, enerji keçidini səciyyələndirən indeksi (EKİ) Azərbaycan Respublikasında 62-yə bərabərdir və həmin göstərici ilə ölkəmiz dünyada 32-ci yerdədir. Bu göstərici ilə Azərbaycan Respublikası bir çox dünya ölkələrini, o cümlədən "böyük yeddilik" (G 7), Avropa İttifaqı, İqtisadi İnkişaf və Əməkdaşlıq Təşkilatlarının üzvü olan bir sıra dövlətləri də geridə qoyub. Bakıda 2024-cü ildə keçiriləcək COP-29 beynəlxalq konfransı ərəfəsində bu hesabatın dərc edilməsi olduqca önəmlidir və ölkəmizin sözügedən tədbirə ev sahibliyi etməsinin tutarlı əsası kimi qəbul edilə bilər.

İqlim dəyişiklikləri bəşəriyyət qarşısında duran və davamlı inklüziv inkişafı əngəlləyən ən aktual qlobal çağırışlar sırasındadır. Bu çağırışa cavab vermək, iqlim dəyişikliklərinin hazırkı və gələcək nəsillər üçün törətdiyi fəsadları qarşılamaq üçün milli və beynəlxalq səviyyədə bir çox tədbirlər həyata keçirilir. Bu tədbirlər arasında iqlim dəyişikliklərinə dair BMT-nin Çərçivə Konvensiyasına qoşulmuş ölkələrin beynəlxalq konfransları xüsusi əhəmiyyət daşıyır. Konvensiyanın məqsədi iqlim dəyişikliklərinə qarşı mübarizənin gücləndirilməsi və artıq baş vermiş və potensial təsirlərin yumşadılmasıdır. Hazırda göstərilən çərçivə konvensiyasına 190-dan çox ölkə qoşulub və onlar mütəmadi olaraq bu mövzuya həsr olunmuş qlobal miqyasda konfranslar keçirirlər. Bu tədbirlər "konvensiya tərəfdaşlarının konfransı"dır və ingilis dilində "COP" abreviaturası ilə qeyd edilir və tədbirin sayca ardıcıllığını əks etdirən rəqəmlə sıralanır. 2023-cü ildə bu konfrans, yəni COP, Dubayda keçirilmişdi və 1992-ci ildən sonra sayca 28-ci olduğu üçün COP-28 kimi məlumdur. Konvensiya iştirakçılarının ümumi qərarı əsasında 2024-ci ildəki 29-cu konfrans – COP-29 Azərbaycan Respublikasının paytaxtı Bakıda keçiriləcək [4].

Azərbaycan Respublikasının belə bir möhtəşəm dünya miqyaslı tədbirin keçirilməsi üçün seçilməsi təsadüfi deyil. İqlim dəyişikliklərinin qarşısının alınması və artıq bu istiqamətdə baş vermiş təsirlərin yumşadılması ilk növbədə istixana effektini törədən qazların atmosferə tullanmasının ya sıfır səviyyəsinə endirilməsini, ya da əhəmiyyətli dərəcədə azaldılmasını tələb edir. Bu isə öz növbəsində enerji keçidinin (transformasiyanın) əsas istiqaməti olan bərpa olunmayan qazıntı (fossil) enerji mənbələrindən (kömür, neft, qaz, torf, müxtəlif növ bitumlar, çist qazı və s.), bərpa olunan enerjidən (günəş, külək, su axarları və s.) istifadəyə keçmək, bunun üçün müvafiq hüquqi və maliyyə mühitinin, fiziki infrastrukturun yaradılması deməkdir.

Azərbaycan Respublikasında enerji keçidi sahəsində keçən əsrdə müəyyən işlər aparılsa da, ölkədə bu sahənin inkişafı üçün xüsusi əhəmiyyətli tarix 2004-cü il hesab edilə bilər. Həmin ilin 21 oktyabr tarixində Prezident İlham Əliyevin Sərəncamı əsasında ölkədə alternativ və bərpa olunan enerjinin istifadəsinə dair Milli Proqram təsdiq edilmişdi (şəkil 1).




**Şəkil 1.** Azərbaycan Respublikasında enerji keçidinin əsas mərhələləri

Dünya İqtisadi Forumunun hesabatında bu proseslərin son onillikdə, yəni 2014-2023-cü illərdə necə getməsinin təhlili verilib. Bu təhlilə əsasən dünya ölkələrində Enerji Keçidi (Transformasiyası) İndeksi 75.5 (İsveç, dünya maksimumu) və 40 (Yəmən Respublikası, dünya minimumu) arasında dəyişir. Azərbaycan Respublikasının indeksi 62-yə bərabərdir və bu göstərici ilə ölkəmiz dünyada 32-ci yerdədir. Şəkil 2-də Azərbaycan Respublikasının və bəzi iqtisadi inkişaf etmiş ölkələrin enerji keçidi indeksi barəsində məlumatlar təqdim olunmuşdu [2].




**Şəkil 2.** Azərbaycan Respublikası və bəzi iqtisadi inkişaf etmiş ölkələrin Enerji Keçidi (Transformasiya) İndeksi. Mənbə: Dünya İqtisadi Forum, 2023 (5)

Şəkil 1-dən göründüyü kimi, son iyirmi ildə (2004-2023) iqlim dəyişiklikləri kimi qlobal çağırışın qarşılanması istiqamətində Azərbaycan Respublikası əhəmiyyətli işlər həyata keçirib və bunun nəticəsində ölkənin enerji keçidi göstəricisi kifayət dərəcədə yüksəkdir. Şəkil 2-də təqdim olunmuş məlumatlar bunu təsdiq edir [5]. Bu nailiyyətlərin arxasında ilk növbədə Prezident İlham Əliyevin inkişaf strategiyasının innovativ və davamlı olması, dövlət idarəçiliyində dünyada ilk dəfə tətbiq etdiyi tam yeni dövlət idarəçilik texnologiyalarının ardıcıl olaraq tətbiqinin nəticəsidir. Təsadüfi deyil ki, hələ 20 il öncə ölkədə alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı qəbul edildi, 2009-cu ildə isə bərpa olunan və alternativ enerji üzrə Dövlət Agentliyi yaradıldı. Sonrakı illərdə də Azərbaycan Respublikasında enerji transformasiya problemləri daim diqqət mərkəzində olub. Belə ki, hələ 10 il əvvəl Prezident İlham Əliyev ölkənin Nazirlər Kabinetinin 9 yanvar 2014-cü ildə keçirilən hesabat toplantısında demişdi: "Günəş, külək enerji növlərinin inkişafı ilə bağlı işlər daha da sürətlə getməlidir. Bu imkanlardan istifadə etməmək, əlbəttə ki, böyük səhv olardı" [6]. Hazırda iqlim dəyişikliklərinin qarşısının alınması sahəsində qazanılan uğurlar Prezident İlham Əliyevin




**Şəkil 3.** Azərbaycan Respublikası və bəzi iqtisadi inkişaf etmiş ölkələrdə hər nəfərə düşən Ümumdaxili Məhsulun dəyəri (ABŞ dolları, alıcılıq qabiliyyəti pariteti (AQP) ilə) və Enerji Keçidi İndeksi (5,7).

uzaqgörənliyinin və davamlı inkişafa xidmət edən bu sahənin milli prioritet olmasının daha bir nümunəsi kimi dəyərləndirilə bilər.

Dünya İqtisadi Forumunun enerji keçidinə həsr olunmuş hesabatı 2023-cü ilin sonunda dərc edilib və tədqiqata 120 ölkə cəlb olunub. Onların çoxu Dünya Bankının təsnifatına görə, hər nəfərə düşən gəlirlərə görə yüksək, ortadan yüksək və orta gəlirləri olan ölkələr qruplarına aiddir. Azərbaycan Respublikası ilə birlikdə Şəkil 2-də təqdim olunmuş ölkələr də yüksək gəlirləri olan dövlətlər qrupundadır. Bizim ölkə isə hazırda orta gəlirli ölkələr sırasında dəyərləndirilir. Buna baxmayaraq, Azərbaycanın enerji keçidi sahəsində qazandığı nəticələr göstərilən yüksək gəlirli ölkələrdən daha üstündür (Şəkil 3).

Şəkil 3-də təqdim olunmuş rəqəmlərdən aydın olur ki, müqayisə edilən ölkələrin iqtisadi imkanları fərqlidir. Bu ölkələr arasında çox yüksək iqtisadi imkanlara malik olan Belçika və İtaliya da yer alıb ki, onlarda hər nəfərə düşən ÜDM-nin həcmi, müvafiq olaraq, 50–60 min ABŞ dollarından (alıcılıq qabiliyyəti pariteti ilə) yüksəkdir. İtaliya, Belçika ilə yanaşı, Litva və Yunanıstan da bu ölkələr sırasındadır. Şəkil 3-də təqdim olmuş Avropa İttifaqının digər üzvləri – Slovakiya, Çexiya, Polşada da hər nəfərə düşən illik gəlir kifayət dərəcədə yüksəkdir və ildə 40 min ABŞ dollarını (alıcılıq qabiliyyəti pariteti ilə) üstələyir. Şəkildə təqdim olunmuş digər ölkələrin iqtisadi göstəriciləri Azərbaycan Respublikası ilə müqayisədə daha yüksəkdir. Bu ölkələrdə hər nəfərə düşən ÜDM-in dəyəri 30 min ABŞ dollardan (alıcılıq qabiliyyəti pariteti ilə) çoxdur. Belə bir şəraitdə iqtisadi imkanları daha məhdud olan Azərbaycan Respublikası enerji keçidində daha yüksək nəticələr əldə etmişdir. Qeyd edilməlidir ki, iqtisadi göstəricilərə dair bilgilər 2024-cü ildə Dünya Bankı tərəfindən dərc edilmiş məlumatlara əsaslanır və eyni mənbədəndir [7].

Dövlət idarəçiliyində çox sadə bir qayda mövcuddur: nəticə iki amil – imkan və bu imkanların necə idarə olunmasından asılıdır. Bu qaydaya əsasən, əgər nisbətən məhdud iqtisadi imkanlar şəraitində yüksək nəticələr qazanılırsa, bu idarəçiliyin yüksək səviyyəsi kimi qəbul edilir. Beynəlxalq statistikada bu prosesi dəyərləndirmək üçün istifadə olunan üsullardan biri Ümumdaxili Məhsulun (ÜDM) hər vahidinin istifadəsi ilə əldə edilmiş nəticədir. Enerji keçidinə (transformasiya) dair bu təhlilin nəticələri Şəkil 4-də təqdim olunub.




**Şəkil 4.** Enerji keçidi prosesinin iqtisadi səmərəliyi: ÜDM-nin hər vahidinə (1000 ABŞ dolları, alıcılıq pariteti qabiliyyəti nəzərə almaqla) qazanılmış enerji keçidi indeksi [5,7].

Dünya Bankı və Dünya İqtisadi Forumunun məlumatları əsasında tərtib edilmiş Şəkil 4-dən göründüyü kimi müqayisə edilən ölkələr arasında enerji keçidinin təmin edilməsi sahəsində ən yüksək iqtisadi səmərəliliyi Azərbaycan Respublikası nümayiş etdirib. Nisbətən məhdud resurslarla daha yüksək nəticələr əldə edilməsi yalnız mükəmməl idarəetmə şəraitində mümkündür. İqlim dəyişməsi üçün önəmli olan enerji keçidi sahəsində Azərbaycan Respublikasının qazandığı üstünlüklər ölkə Prezidenti İlham Əliyevin dövlət idarəçilik elmi və təcrübəsinə gətirdiyi yeni texnologiyalar kompleksinin səmərəliliyinin təzahürüdür. Bu kompleksə sinergetik, komplementar, kompensasion və komplimentar (komplementar ilə qarışdırılmasın) texnologiyalar aid edilə bilər. Bu texnologiyaların formalaşmasında və həyata keçirilməsində ölkənin Birinci Vitse-Prezidenti, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın xüsusi xidmətləri danılmazdır [2, 3].

Qeyd edilməlidir ki, enerji keçidi sahəsində fəaliyyətinə görə Azərbaycan Respublikası keçmiş SSRİ ölkələri arasında da liderdir (şəkil 5).

Ümumiyyətə qeyd edilməlidir ki, 2023-cü ilin sonunda Dünya İqtisadi Forumu tərəfindən Cenevrədə dərc edilmiş və enerji keçidinə həsr olmuş hesabatda dünyanın yalnız 120 ölkəsi haqqında məlumatlar təqdim edilmişdir. Bu ölkələr arasında 7 postsovet ölkələri də var. Şəkil 5-dən göründüyü kimi, Dünya İqtisadi Forumu tərəfindən tədqiqata cəlb edilmiş keçmiş SSRİ ölkələri arasında da Azərbaycan Respublikası enerji keçidi (transformasiyası) sahəsində liderdir. Dünya İqtisadi Forumunun təhlilində təqdim olunmuş rəqəmlərdən aydın olur ki, ölkəmiz və bu qrupa aid olan dövlətlərin göstəriciləri arasında fərq olduqca böyükdür. Keçmiş SSRİ ölkələri arasında Azərbaycana öz enerji transformasiyası indeksinə görə ən yaxın ölkə Gürcüstandır. Lakin bu ölkənin müvafiq indeksi Azərbaycandan 7.2 vahid azdır. Bu kifayət dərəcədə böyük fərqdir. Adətən bir qrupa aid ölkələrin enerji keçidi indeksi arasında müşahidə edilən fərqlər yalnız bir neçə vahid, ya ondan da az olur [5].




**Şəkil 5.** Azərbaycan Respublikası və bəzi keçmiş SSRİ ölkələrinin Enerji Keçidi (Transformasiya) İndeksi (5).

Bəllidir ki, qlobal iqlim dəyişikliklərinin səbəblərindən biri və ən əsası enerji mənbəyi kimi qazıntı (fossil) yanacaq növlərindən istifadə edilməsidir (8,9). Bu yanacaq növlərinə kömür, neft, qaz, bitum, torf və bəzi digər bərpa olunmayan təbii enerji mənbələri aid edilə bilər. Bu səbəbdən fossil təbiətli enerji mənbələrindən istifadə, xüsusən neft və qaz ixrac edən ölkələrin enerji keçidi sahəsində həyata keçirdiyi siyasət beynəlxalq təşkilatların və vətəndaş cəmiyyətinin hər zaman diqqət mərkəzindədir. Bu qrupa aid olan bəzi ölkələrin enerji keçidi göstəriciləri Şəkil 6-da təqdim olunub.

İqlim dəyişiklikləri konvensiyası ilə əlaqədar konfranslar (COP) dünya üçün çox əhəmiyyətlidir. Bir daha qeyd edilməlidir ki, bu qlobal əhəmiyyətli tədbirin Bakıda keçirilməsi ilə əlaqədar olan və 15 dekabr 2023-cü ildə keçirilən müşavirədə Ölkə Prezidenti İlham Əliyev qeyd etmişdi: “Bu qərarı bütün dünya ölkələri bir neçə gün bundan əvvəl qəbul etmişdir və beləliklə, Azərbaycana növbəti dəfə böyük etimad və böyük hörmət göstərilmişdir”. Davamlı inkişaf edən inklüziv cəmiyyətin formalaşması üçün iqlim dəyişikliklərinin qarşısının alınması və ya əhəmiyyətli dərəcədə azaldılması vacib şərtdir. Ölkənin bu sahədə qazandığı nəticələr eyni zamanda milli və regional davamlı inkişafa vacib töhfədir.

Şəkil 6-da təqdim olunmuş məlumatlardan aydın olur ki, Azərbaycan Respublikası tanınmış neft və qaz ixrac edən ölkələr arasında da enerji transformasiyası sahəsində yüksək nəticələr əldə etmişdir. Bu göstəriciyə görə yalnız Norveç Krallığı Azərbaycan Respublikasından irəlidir. Norveçin irəlidə olması təbiidir: bu ölkə dünyada enerji transformasiyasına görə üçüncü, insan inkişafına görə isə birinci yerdədir [5,11]. İqlim dəyişikliklərinin qarşısının alınmasında mühüm əhəmiyyət daşıyan və bu sahədə ən müasir göstərici olan enerji transformasiyası göstəricilərinə görə Azərbaycan Respublikası Səudiyyə Ərəbistanından və Küveytdən irəlidədir. Bu ölkələr isə dünyanın əsas neft ixracatçılardır [6].

Qeyd edilməlidir ki, Dünya İqtisadi Forumu və Dünya Bankının rəsmi məlumatlarına əsasən neft və qaz ixrac edən ölkələr arasında Azərbaycan Respublikası enerji keçidinin təmin edilməsi üçün maliyyə mənbələrini ən optimal idarə edən ölkədir (Şəkil 7).




**Şəkil 6.** Azərbaycan Respublikası və bəzi neft və qaz ixrac edən ölkələrin Enerji Keçidi (Transformasiya) İndeksi (5).




**Şəkil 7.** Enerji keçidi prosesinin iqtisadi səmərəliliyi: ÜDM-nin hər vahidinə (1000 ABŞ dolları, alıcılıq pariteti qabiliyyəti nəzərə almaqla) qazanılmış enerji keçidi indeksi [5, 7].

İqlim dəyişikliklərinə həsr olunmuş və müxtəlif ölkələrdə keçirilən konvensiya tərəfdaşlarının konfranslarında bu problemin müxtəlif aspektləri müzakirə edilmişdir. Bakıda keçirilən COP 29 toplantısının əsas fokusu iqlim dəyişmələrin qarşısının alınmasının idarə edilməsində maliyyə məsələlərinin həllidir. Bir çox hallarda inkişafda olan ölkələr iqtisadi




**Şəkil 8.** Enerji keçidi (transformasiyası) indeksinin hesablanmasında nəzərə alınan göstəricilər.

baxımdan yüksək inkişafa nail olmuş ölkələrin iqlim dəyişmələrinin qarşısının alınması və yaxud bu istiqamətdə təsirlərin yumşadılması üçün kifayət dərəcədə maliyyə ayırması haqqında fikir irəli sürürlər. Şəkil 7-də təqdim olunmuş məlumatlar göstərir ki, inkişafda yüksək nəticələr əldə etmiş ölkələrin iqlim dəyişmələrinə daha çox maliyyə ayırması üçün yüksək potensial mövcuddur (12). Təsadüfi deyil ki, Bakıda keçiriləcək COP 29-un əsas mövzusu iqlim dəyişmələr ilə əlaqədar tədbirlərin maliyyələşdirilməsidir.

Qeyd edilməlidir ki, enerji transformasiyası indeksinin hesablanmasında enerji mənbəyi ilə yanaşı bir sıra digər amillər də nəzərə alınır (Şəkil 8).

Şəkil 8-dən göründüyü kimi, iqtisadiyyat və məişətdə istifadə olunan enerjinin növü, onun davamlı inkişafın tələbləri ilə əlaqədar "yaşıl" olması uğurlu enerji keçidinin (transformasiyasının) yalnız bir şərtidir. Ölkə Prezidenti İlham Əliyevin tətbiq etdiyi yeni idarəçilik texnologiyalarının sinergetik komponenti ölkədə son 20 ildə Şəkil 5-də göstərilən bütün istiqamətlərin inkişafını təmin edib.

Enerji transformasiyanın vacib şərti enerji səmərəliliyidir. Beynəlxalq statistikaya əsasən, Azərbaycan Respublikası bu sahədə də dünya liderləri sırasındadır.

Enerji səmərəliliyinin dəyərləndirilməsi üçün Dünya Bankı və digər beynəlxalq təşkilatlar bir necə üsuldan istifadə edir. Onların biri hər vahid enerjinin istifadəsi nəticəsində yaradılmış ÜDM-nin dəyəridir. Digər üsul isə müxtəlif ölkələrin 1000 ABŞ dolları (alıcılıq qabiliyyəti nəzərə almaqla) dəyərində məhsulların istehsalına sərf edilmiş enerjinin miqdarıdır. Enerji səmərəliliyinin təhlili xüsusi əhəmiyyət daşıyır və növbəti məqalənin mövzusudur.

**Ədəbiyyat:**


1. Əliyev İ.H. Prezident İ.H. Əliyevin and-içmə mərasimində nitqi. https://fulltext.preslib.az/icixislar/Uun0i17aZW.html, 14.02.2024.
2. Alakbarov U.K. Innovative technologies of public administration driving world lidership of the Republic of Azerbaijan in sustainable inclusive development. Dövlət İdarəçiliyi: nəzəriyyə və təcrübə. Elmi-nəzəri jurnal (ISSN 2309-1347), 2019, №1 (65), s.99-108.
3. Алакбаров У.К. Подготовка государственных служащих в области управления устойчивым развитием как фактор формирования инклюзивного общества // Государственная служба (ISSN 2500-4344), 2023, т.25, № 5, с. 55-60.
4. Əliyev İ.H. COP29-un gələn il ölkəmizdə keçirilməsi ilə əlaqədar Prezident İ. H. Əliyevin nitqi. https://president.az/az/articles/view/62875, 15 dekabr, 2023.
5. Energy transition. World Economic Forum, 2023. https://www.weforum.org/agenda/2023/10/energy-transition-progress-trilemma/, 09.10.2023
6. Əliyev İ.H. Prezident İlham Əliyevin Nazirlər Kabinetinin 2013-cü ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2014-cü ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasındakı yekun nitqi. 09.01.2014
7. https://data.worldbank.org/indicator/NY.GDP.PCAP.PP.CD%0A, 09.01.2014
8. How Do Fossil Fuels Affect Climate Change - How to Use Fossil Fuels More Efficiently? https://www.scientificworldinfo.com/2018/05/fossil-fuels-and-climate-change.html, 18 may 2018.
9. https://www.epa.gov/ghgemissions/sources-greenhouse-gas-emissions, 01.03.2024
10. https://yandex.ru/search/?clid=2285101&text=CO2+emissions+from+the+fossil+energy+total+and+by+the+economy+sectors&lr=10253, 01.03.2024
11. Human Development Reports, UNDP. https://www.un-ilibrary.org/content/periodicals/24123129, 02.02.2024
12. https://finance.rambler.ru/economics/48421082-top-stran-po-dobyche-i-eksportu-nefti-v-2022-godu/, 02.02.24
13. Əliyev İ. İqlim konfransına (COP 29) həsr olunmuş müşavirədə çıxışı. https://president.az/az/articles/view/62562, 15.12.2023.


***Açar sözlər:*** *dövlət idarəçiliyi, davamlı inkişaf, iqlim dəyişmələri, enerji transformasiyası, enerji səmərəliyi, resursların idarəedilməsi*

**Urkhan Alakbarov**

*Rector of the Academy of Public Administration under the President of the Republic of Azerbaijan, Academician*

# ACHIEVEMENTS OF THE ENERGY STRATEGY OF THE REPUBLIC OF AZERBAIJAN IN THE REPORT OF THE WORLD ECONOMIC FORUM

## ABSTRACT

The article discusses the strategy and key stages of implementing the policy pursued in the Republic of Azerbaijan in the field of energy transformation. It is shown that the foundations of this strategy and actual practical actions towards transitioning to renewable energy sources and enhancing energy efficiency were laid in 2004 when the State Program on the Use of Alternative and Renewable Energy Sources was adopted in the country. According to the World Economic Forum's Report published at the end of 2023 on the Energy Transition Index, the Republic of Azerbaijan ranks 32nd in the world, surpassing several countries with high economic indicators, including those in the G7, the European Union, and the Organisation for Economic Co-operation and Development. Azerbaijan is also a leader in energy transformation among hydrocarbon-producing and exporting countries. All of this serves as the basis for Baku hosting the COP 29 global climate change conference in 2024.

***Keywords:*** *public administration, sustainable development, climate change, energy transformation, energy efficiency, resources management*

**Урхан Алакбаров**

*Ректор Академии Государственного Управления при Президенте Азербайджанской Республики, академик*

# УСПЕХИ ЭНЕРГЕТИЧЕСКОЙ СТРАТЕГИИ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ В ОТЧЕТЕ ВСЕМИРНОГО ЭКОНОМИЧЕСКОГО ФОРУМА

## РЕЗЮМЕ

В статье рассмотрены стратегия и основные этапы реализации политики, проводимой в Азербайджанской Республике в области энергетической трансформации. Показано, что основы этой стратегии и реальные практические действия по переходу на возобновляемые источники энергии и повышению эффективности использования энергии были заложены в 2004 году, когда в стране была принята Государственная программа по использованию альтернативных и возобновляемых источников энергии. Показано, что в соответствии с Отчетом Всемирного Экономического Форума, опубликованным в конце 2023 года по Индексу Энергетической Трансформации, Азербайджанская Республика занимает 32-ое место в мире, опережая по этому показателю ряд стран с высокими экономическими показателями, том числе входящие в «большую семерку» (G7), Европейский Союз, Организацию Экономического Сотрудничества и Развития. Азербайджанская Республика является также лидером по энергетической трансформации среди стран производителей и экспортеров углеводородного сырья. Все это является основанием того, что глобальная конференция по изменениям климата COP 29 пройдет в Баку в 2024 году.

***Ключевые слова:*** *государственное управление, устойчивое развитие, изменения климата, энергетическая трансформация, энергоэффективность, управление ресурсами*

DOI: 10.30546/2309-1347.2024.2.0012

**D Ö V L Ə T  İ D A R Ə Ç İ L İ Y İ**
**P U B L I C  A D M I N I S T R A T I O N**

UOT 328; 342.5; 351/354; 351

**ADİL VƏLİYEV**

**Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri, siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent**

*e-mail:adil-veliyev@yahoo.com*

# AZƏRBAYCAN RESPUBLİKASININ ENERJİ TƏHLÜKƏSİZLİYİ SAHƏSİNDƏ DÖVLƏT SİYASƏTİNİN SİYASİ-İQTİSADİ ASPEKTLƏRİ

İqlim fəlakətinin qarşısını almaq üçün enerji istehsal və istehlak ənənələrinin dəyişdirilməsi nəhəng neft və qaz ehtiyatlarına malik olan ölkələr üçün xüsusilə vacibdir. Bugünkü reallıqda, ənənəvi enerji mənbələrindən təmiz enerji növlərinə keçid istisnasız olaraq hamı üçün qaçılmaz prosesdir. Belə ki, uzunmüddətli perspektivdə karbohidrogen yanacaqlarının ixracından əldə olunan gəlirlərin azalması fonunda cəmiyyətin və iqtisadiyyatın daha baha başa gələn yaşıl enerji mənbələrinə uyğunlaşdırılması prosesi vaxtında başladılmasa neft-qaz ölkələri keçid prosesində ikiqat problemlə üzləşə bilərlər. Bu səbəbdən sözügedən ölkələr ətraf mühiti qorumaq, iqtisadiyyatı inkişaf etdirmək, daha ədalətli, tərəqqiyönümlü və inklüziv cəmiyyət formalaşdırmaq üçün öz enerji gələcəklərini diqqətlə planlaşdırmaqda israrlıdırlar.

Bu xüsusda, karbohidrogen mənbələri ilə zəngin olan Azərbaycan təbii enerji resurslarından səmərəli istifadə edərək qlobal miqyasda enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır və ədalətli enerji keçidini dəstəkləyir. Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu milli maraqlara əsaslanan praqmatik siyasət ölkəmizi regional miqyaslı və qlobal əhəmiyyətli transmilli layihələrdə mərkəzi oyunçuya çevirmişdir. Azərbaycan gələcəkdə də yaşıl enerji istehsalı və ixracı ilə qitənin enerji təhlükəsizliyinin təmininə böyük töhfələr vermək iqtidarındadır.

Qəbul etmək lazımdır ki, dayanıqlı enerji təchizatı enerji mənbələrinin şaxələndirilməsindən asılıdır. Enerji təhlükəsizliyini təmin etmək üçün bir mənbəyə arxalanmaq olmaz. Bununla yanaşı, ənənəvi enerji mənbələrinin istifadəsindən dərhal imtina etməklə ədalətli enerji keçidi mümkün deyil. Enerji resurslarının müxtəlifliyi enerji bazarını sabitləşdirir. İqtisadi inkişaf, sosial rifah və ekoloji təhlükəsizlik məhz enerji təhlükəsizliyinə əsaslanır.

Bərpa olunan enerji bu gün qlobal olaraq çox vacib və aktual mövzudur, çünki o, enerji mənbələrini şaxələndirməyə, enerji təhlükəsizliyini gücləndirməyə, istixana qazları emissiyalarını azaltmağa və yeni iqtisadi imkanlar yaratmağa kömək edir. Eyni zamanda, yaşıl sənayenin inkişafı davamlı tərəqqi edən, inklüziv cəmiyyət qurulmasının və ekoloji sivilizasiyaya keçidin mühüm komponentidir. Davamlı inkişaf və ekoloji sivilizasiya şəraitində yaşıl sənayeni xarakterizə edən özəlliklərdən biri də enerji, o cümlədən bərpa olunan enerjinin səmərəli istifadəsi, enerjiyə qənaət edən texnologiyaların tətbiqidir [5].

Qlobal və milli çağırışlar, enerji təhlükəsizliyi, ekoloji dayanıqlıq və iqtisadi inkişaf imkanları ilə bağlı olduğundan, bərpa olunan enerjidən istifadənin genişləndirilməsi mövzu-

sunun aktuallığı ölkəmizdə də yüksəkdir. Yaşıl enerjidən istifadənin inkişafı Azərbaycan üçün strateji prioritetdir. Belə ki, bərpa olunan enerji iqtisadiyyatı şaxələndirməyə, karbohidrogen yanacaqlarından asılılığı azaltmağa, enerji səmərəliliyini artırmağa və iqlim dəyişikliyinin təsirlərinin azaldılması məqsədlərinə töhfə verə bilər.

Bərpa olunan enerji həm də, yeni iş yerlərinin yaradılması, əhalinin sağlamlığının yaxşılaşdırılması və ucqar ərazilərdə elektrik enerjisinə əlçatanlığın artırılması kimi sosial faydalar təmin etməklə yanaşı, davamlı inkişafı da şərtləndirə bilər. Davamlı inkişafı səciyyələndirən və bu prosesi qiymətləndirmək üçün xüsusi göstəricilərdən istifadə olunur ki, bərpa olunan mənbələrdən alınan enerjinin ümumi enerji balansındakı payı da bu göstəricilərdəndir.

Eyni zamanda, COP29 beynəlxalq konfransının 2024-cü ildə Azərbaycanda keçirilməsi və bu ilin ölkəmizdə Yaşıl dünya naminə həmrəylik ili elan edilməsi mövzunun aktuallığını daha da artırır. Qeyd edək ki, Azərbaycanda bərpa olunan enerji mənbələrinin, xüsusən də günəş və külək enerjisinin potensialını, istifadə vəziyyətini, çağırışlarını və imkanlarını təhlil edən bir sıra tədqiqatlar mövcuddur.

Davamlı inkişaf konsepsiyasında "enerji təhlükəsizliyi" anlayışı. Davamlı inkişafın effektiv göstəricilərindən biri də müxtəlif ölkələrdə ÜDM (Ümumi Daxili Məhsul) istehsalına sərf olunan enerjinin miqdarıdır. Bu proseslərin monitorinqini aparan beynəlxalq qurumlar müqayisələr aparmaq üçün, AQP (alıcılıq qabiliyyəti pariteti) nəzərə alınmaqla, 1000 ABŞ dolları dəyərində məhsul və xidmətlərin istehsalına sərf olunan enerji miqdarı göstəricisindən istifadə edirlər. Davamlı inkişaf indikatorlarından biri kimi bu göstəricinin istifadəsi perspektivi aşağıdakı faktorlarla müəyyən olunur:

– Oxşar iqtisadi nəticənin əldə edilməsi üçün (bu nümunədə 1000 ABŞ dolları dəyərində məhsul və xidmətlərin istehsalı) daha az enerji sərfi iqtisadi baxımdan əlverişlidir və davamlı inkişaf vəzifələrinə müvafiqdir. Həqiqətən də, az enerji sərfi məhsulun maya dəyərini də aşağı salır.

– Analoji ÜDM həcminin (bu nümunədə 1000 ABŞ dolları) istehsalı üçün daha az enerji, xüsusilə də fossil (mədən) enerji sərfi enerji resurslarının səmərəli istifadəsi deməkdir. Təbii resursların qənaətlə istifadəsi və gələcək nəsillər üçün qorunub saxlanması davamlı inkişafın mühüm vəzifələrindəndir.

– Analoji ÜDM həcminin (bu nümunədə 1000 ABŞ dolları) alınması üçün az enerji sərfi qlobal iqlim dəyişikliklərinə təsir göstərən atmosferə istixana qazlarının daha az atılması deməkdir. Bu da özlüyündə davamlı inkişaf naminə resursların optimal idarə edilməsinin xarakteristikasıdır.

Beləliklə, enerji istifadəsi səmərəliliyinin artırılması ölkədə gerçəkləşdirilən inkişaf strategiyasının davamlı inkişaf məqsədlərinə uyğunluğunu nümayiş etdirən universal indikator ola bilər. Bu yanaşmanın üstünlüyü ondadır ki, bu barədə informasiya müntəzəm olaraq toplanır və Dünya Bankı, digər beynəlxalq qurumların saytlarına dərc olunur. Enerji istifadəsi səmərəliliyi haqqında informasiyanın vahid metodika əsasında toplanması və eyni mənbədən yayılması faktı sistematik beynəlxalq monitorinqin aparılması və müxtəlif ölkələrdə əldə olunan nəticələrin tutuşdurulması üçün imkan yaradır.

Enerji istifadəsi səmərəliliyinin monitorinqi və bu prosesin davamlı inkişaf məqsədlərinə uyğunluğunun qiymətləndirilməsi başqa üsulla da gerçəkləşdirilə bilər. Bu halda müxtəlif ölkələrdə bir vahid enerjinin istifadəsi nəticəsində istehsal olunmuş məhsul və xidmətlərin (ÜDM), alıcılıq qabiliyyəti pariteti nəzərə alınmaqla, ABŞ dollarında dəyəri müəyyənləşdirilir. İndikatorun əhəmiyyəti və istifadəsi səmərəliliyi 1000 ABŞ dolları dəyərində ÜDM istehsalına enerji sərfi ilə

eynidir. Hesablamalarda bir vahid enerjinin ekvivalenti kimi onun bir kiloqram neftdəki (neftin bir barrelində təxminən 136 kq neft var) miqdarı götürülür.

Enerji müxtəlif mənbələrdən alına bilər: istilik, su və atom stansiyalarında, günəş, külək və digər bərpa olunan mənbələr hesabına istehsal oluna bilər. Lakin mənbəyindən asılı olmayaraq, enerji vahidi kimi onun bir kiloqram neftdəki miqdarı götürülür. Enerji vahidi kimi onun bir kiloqram neftdəki miqdarının götürülməsi onunla bağlıdır ki, müəyyən zaman kəsiyində bütün dünyada neftin qiyməti eynidir. Bu, müxtəlif ölkələrin enerji istifadəsi səmərəliliyinin idarə edilməsi və həmin texnologiyaların davamlı inkişaf məqsədlərinə uyğunlaşdırılması üzrə fəaliyyətini müqayisə etmək üçün şərait yaradır. Qeyd etmək lazımdır ki, son illər dünyada enerji sərfi səmərəliliyi xeyli artıb ki, bu da davamlı inkişaf məqsəd və vəzifələrinə cavab verir.

**Azərbaycanda müasir enerji siyasətinin istiqamətləri və enerji təhlükəsizliyi strategiyası.** Cənubi Qafqazın lider dövləti olan Azərbaycan enerji sahəsində xarici təchizatçılardan asılılığı olmayan ölkədir [1]. Üstəlik həm neft-qaz, həm də elektrik enerjisi ixracatı bu gün region ölkələri ilə yanaşı Avropa ölkələrinin də enerji təhlükəsizliyinə töhfə verir. Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu rasional enerji siyasəti bu gün də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ərazi bütövlüyünü tam bərpa etmiş dövlətimizin hərtərəfli və dayanıqlı inkişafını təmin edir.

Dünyada və regionda mövcud olan geosiyasi vəziyyəti dərindən təhlil edən Heydər Əliyev Azərbaycanın siyasi-iqtisadi maraqlarını qoruyaraq "Əsrin müqaviləsi"nin imzalanmasına, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin çəkilməsinə, Azərbaycan neftinin dünya bazarlarına çıxarılmasına nail oldu [8].

Ulu Öndər ölkəmizin siyasi və iqtisadi müstəqilliyini möhkəmləndirib, hərtərəfli tərəqqini təmin edən milli inkişaf modeli ilə dövlətimizi regional inkişafın hərəkətverici qüvvəsinə çevirdi. Mükəmməl strategiya və qlobal əməkdaşlıq layihələri ilə bugünkü qüdrətli Azərbaycanın müəllifi Ümummilli lider müxtəlif ictimai-siyasi formasiyalarda müstəqilliyin açarını enerji təhlükəsizliyində görürdü. Bu gün enerji müstəqilliyinin dünyanın aparıcı dövlətlərinin gündəliyində bir nömrəli məsələyə çevrilməsi və bu məsələdə Azərbaycanın enerji təchizatçısı kimi strateji mövqeyinin güclənməsi də bir daha Heydər Əliyevin enerji təhlükəsizliyinə dair baxışlarının zamanın fövqündə olduğunu təsdiqləyir.

Heydər Əliyev sayəsində SSRİ dövründə Qafqazın ən iri istilik elektrik stansiyası "Azərbaycan" İES ərsəyə gəlmişdir. Bununla yanaşı, ümumi gücü 3 min meqavatdan çox 6 elektrik stansiyası və müxtəlif gərginlikli 17 yarımstansiyanın qurulması da onun adı ilə bağlıdır. Müstəqillik illərində isə 620 MVt gücündə elektrik stansiyaları və 6 yarımstansiya istismara verilmişdir ki, neft sənayesinin inkişafı kimi bu elektroenergetika infrastrukturu da Heydər Əliyevsiz mümkün olmazdı.

Ulu Öndər fərqində idi ki, Azərbaycanın sözün əsl mənasında müstəqilliyi enerji marşrutlarının şaxələndirilməsindən keçir. Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan kəmərləri də Heydər Əliyevin əsərləridir. Azərbaycanın uzunmüddətli enerji siyasətinə Heydər Əliyevin digər böyük töhfəsi 1996-cı ildə "Şahdəniz" qaz yatağı ilə bağlı imzalanmış saziş olub. Həmin saziş sayəsində Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin çəkilməsinə, Cənub Qaz Dəhlizinin ərsəyə gəlməsinə imkan yaranıb. Bu gün bu layihələrin hər biri ölkəmizin və tərəfdaşlarımızın enerji təhlükəsizliyinin, iqtisadi uğurlarımızın mühüm mənbələridir. Azəri-Çıraq-Günəşli və Şahdəniz yataqlarından 569 milyon tona yaxın neft, 40,6 milyon ton kondensat, təxminən 390 milyard kubmetr qaz çıxarılıb, 170 milyard dollardan çox gəlir əldə edilib. Bakı-Supsa 99,4 milyon ton, BTC isə 477,5 milyon tonu Azərbaycana, 55,4 milyon tonu digər ölkələrə məxsus ümumilikdə 533 milyon tondan çox nefti dünya bazarına nəql edib. İndiyə kimi ixraca yönləndirilmiş 130 milyard kubmetr qaz üçün bazarlar Cənub

Qafqaz Boru Kəməri, TANAP və TAP vasitəsilə daha da şaxələndirilib. 27 il ərzində neft-qaz sektoruna 89 milyard dollar xarici sərmayə qoyulub [9].

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev öz qətiyyəti, strateji baxışı, yüksək liderlik keyfiyyətləri ilə ölkəmizin davamlı inkişafının, ərazi bütövlüyünün və regionda yeni geosiyasi reallıqların memarı olmaqla Azərbaycanın enerji siyasətini böyük uğurla yeni mərhələyə yüksəldib. Dövlət başçısının zənginləşdirdiyi müstəqil enerji siyasətinin zirvəsi olan Cənub Qaz Dəhlizi ilə 3 il ərzində Avropaya 31.5 milyard kubmetr qaz tədarük edilib.

Neft sahəsində Xəzərlə Aralıq dənizi, təbii qaz sahəsində Xəzərlə Adriatik dənizi arasında enerji bağlantısı yaratmış Azərbaycan Xəzər dənizi ilə Qara dənizi 4 QVt gücündə enerji dəhlizi ilə əlqələndirmək əzmindədir. Artıq bu istiqamətdə BP, Masdar, ACWA Power, Fortescue, China Gezhouba, Total Energies, Nobel Energy və Czech Engineering şirkətləri ilə ümumi gücü 28 QVt olan layihələrin həyata keçirilməsi üzrə əməkdaşlığa dair sənədlər imzalanıb.

“Milli Təhlükəsizlik haqqında” Azərbaycan Respublikası Qanununun 17.2.10-cu yarımbəndində təsbit olunur ki, iqtisadi sahədə təhlükəsizliyin təmin edilməsi amillərindən biri də enerji ehtiyatlarının hasilatı, nəqli və istismarı ilə bağlı layihələrin və ölkəni qlobal iqtisadiyyatla birləşdirən nəqliyyat dəhlizinin həyata keçirilməsidir [7].

Enerji təhlükəsizliyi insanlar, cəmiyyət, dövlət və iqtisadiyyat üçün enerji ehtiyatlarının təchizatına mane ola biləcək hər hansı təhlükələrdən qorunma vəziyyətidir. Enerji təhlükəsizliyi əhalinin keyfiyyət və qiymət baxımından ehtiyaclarına cavab verən enerji resurslarına çıxışının təmin edilməsini nəzərdə tutur. Bu, həm də digər ölkələrin müdaxiləsi kimi həm xarici təhlükələrdən, həm də qəzalar, təxribatlar kimi daxili təhlükələrdən müdafiəni əhatə edir [6, s.4].

Azərbaycan Respublikası zəngin karbohidrogen ehtiyatlarına malikdir və bu ehtiyatlar enerji istehsalı və ixracının əsas mənbəyidir. Ölkə enerji resurslarını səmərəli və təhlükəsiz şəkildə nəql etməyə imkan verən yanacaq-enerji infrastrukturuna malikdir. Daxili enerji tələbatını xarici mənbələrdən asılı olmadan ödəyə bilir. Bu enerji ehtiyatları təkcə Azərbaycan Respublikasının enerji təhlükəsizliyi üçün deyil, həm də iqtisadi inkişafı üçün həyati əhəmiyyət kəsb edir. Onlar sənaye, kənd təsərrüfatı, ticarət və digər xidmətlər kimi milli iqtisadiyyatın bütün sahələrinin dinamik inkişafı üçün zəmin yaradır. Azərbaycan Respublikası öz iqtisadi təhlükəsizliyini təmin etmək üçün öz təbii ehtiyatlarından və enerji potensialından səmərəli və davamlı şəkildə istifadə edir. Enerji istehlakını optimallaşdırmağa, enerji mənbələrini şaxələndirməyə, enerji səmərəliliyini artırmağa və ətraf mühiti qorumağa çalışır.

Enerji təhlükəsizliyi ölkənin və cəmiyyətin rifahına təsir göstərir. Cəmiyyətin enerji təchizatı vasitəsilə təhdidlərdən qorunmaq qabiliyyəti çox vacibdir. Bu təhdidlər mənşəyindən asılı olaraq xarici və ya daxili ola bilər. Xarici təhlükələr qlobal enerji bazarına, enerji resurslarının mövcudluğuna və qiymətinə təsir edən geosiyasi və makroiqtisadi problemlər kimi ölkə xaricindən gələn təhlükələrdir. Daxili təhdidlər isə istehsal, ötürmə, paylama, istehlak, tənzimləmə və idarəetmə kimi milli enerji sektoru ilə bağlı məsələlər kimi ölkə daxilindən yaranan təhlükələrdir. Strateji və mühüm obyektlərin enerji ilə etibarlı təmin olunması, sərf edilmiş yanacaq ehtiyatlarının yerinin doldurulması, yanacağın və enerji növlərinin şaxələndirilməsi, ekoloji tələblərin nəzərə alınması, enerji ehtiyatlarından səmərəsiz istifadənin qarşısının alınması, daxili və xarici bazarlarda enerji ehtiyatlarının lazımi gəlir gətirməsi və səmərəli ixrac üçün azad iqtisadi şəraitin yaradılması enerji təhlükəsizliyinin təmin olunmasının əsas prinsiplərindəndir [10].

Neft-qaz sənayesi ölkəmizdə iqtisadi artımın sürətinə və büdcə gəlirlərinə böyük təsir göstərməkdədir. Neft-qaz gəlirlərindən qaynaqlanan iqtisadi inkişaf qeyri-neft sektorunun tərəqqisinə və yeni iş yerlərinin

açılmasına güclü stimul verir. Bu da iqtisadi təhlükəsizliyin təmini üçün əsas şərtlərdəndir.

Eyni zamanda, Azərbaycan həm qonşu ölkələrin, həm də Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında iştirak edir. Həm xam neft, təbii qaz, neft məhsulları, həm də elektrik enerjisi ixrac edilir.

Azərbaycan Prezidentinin təşəbbüsü ilə yaradılan Cənub Qaz Dəhlizi hazırda dünya enerji təhlükəsizliyi sisteminə şaxələnməni mənbə və marşrutun hər biri üzrə təqdim edən ilk real layihədir. Layihə enerji təhlükəsizliyi baxımından həssas region sayılan Cənub Şərqi Avropa bazarına istiqamətlənsə də, gələcəkdə daha çox Avropa ölkələrini əhatə etmək perspektivinə malikdir. Deməli Cənub Qaz Dəhlizinin inkişafı ilə Avropada enerji təhlükəsizliyi daha geniş miqyasda təmin ediləcək [10].

Eyni zamanda, 18 iyul 2022-ci il tarixində Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair imzalanmış Memoranduma əsasən sözügedən dəhlizin genişləndirilməsi və ixrac edilən qaz həcminin 2027-ci ilədək ikiqat artırılması planlaşdırılır [2].

Əgər 2006-cı ildə respublikanın daxili ehtiyaclarını tam ödəmək üçün 2,4 milyard kilovat-saat elektrik enerjisi idxal edilirdisə, 2023-ci ildə 3 milyard kilovat-saatdan çox elektrik enerjisi ixrac edilmişdir. İxrac olunan elektrik enerjisinin 1.6 milyard kilovat-saatı Türkiyənin, 1.5 milyard kilovat-saatı Gürcüstanın, 33.4 milyon kilovat-saatı İranın, 104 milyon kilovat-saatı isə Rusiyanın payına düşür.

Bütövlükdə, Azərbaycan Respublikasının Prezidenti olaraq İlham Əliyevin fəaliyyəti dövründə son 20 ildə enerji təhlükəsizliyi sahəsində böyük nailiyyətlər əldə edilmişdir:

- Elektrik enerjisinin istehsalı gücü artaraq 8 000 MVt-ı keçmişdir. Keçən dövr ərzində ümumi gücü 4000 MVt-a yaxın 71 elektrik stansiyası istismara verilmişdir;
- Elektrik enerjisinin istehsalı 38% artaraq 21 milyard kVt·st-dan 29 milyard kVt·st-a çatmışdır;
- Elektrik enerjisinin ixracı 3 dəfədən çox artaraq 870 milyon kVt·st-dan 3 milyard kVt·st-a çatmış, ölkə enerji ixracatçısına çevrilmişdir;
- Elektroenergetika sektorunda bazar münasibətlərinin tətbiqi üçün hüquqi baza formalaşdırılmışdır;
- Neft (kondensatla birlikdə) hasilatı 2 dəfə artaraq 15,4 milyon tondan 30,2 milyon tona, təbii qaz hasilatı 9,3 dəfə artaraq 5,2 milyard kub metrdən 48,3 milyard kub metrə (2003-2023-cü illər), təbii qazın ixraca nəqli 14 dəfə artaraq 1,7 milyard kub metrdən 23,9 milyard kub metrə (2007-2023-ci illər), təbii qazdan istifadə edən əhali abonentlərinin sayı 2,3 dəfə artaraq 1,1 milyon abonentdən 2,5 milyon abonentə (2008-2023-cü illər) çatmışdır;
- 13 iyul 2006-cı il tarixində Ceyhanda Heydər Əliyev adına BTC kəmərinin təntənəli açılış mərasimi keçirilmişdir;
- Neft-qaz hasilatının perspektiv təminatı üçün istehsal modernləşmişdir;
- 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəməri (Cənubi Qafqaz qaz boru kəməri) istifadəyə verilib və "Şahdəniz" yatağının birinci mərhələsi çərçivəsində hasil edilən qazın Gürcüstan, Türkiyə və Yunanıstan istiqamətində ixraca nəqlinə başlanmışdır;
- 2011-ci ildə Avropa İttifaqı və Azərbaycan Xəzərdən Avropaya birbaşa qaz nəql edən marşrutların yaradılmasını dəstəkləyən Birgə Bəyanat imzalamışdır;
- Heydər Əliyev adına Neft Emalı, Metanol, SOCAR Polimerin Polipropilen, Yüksək sıxlıqlı polietilen, "Star" neft emalı, Karbamid, Petkim kimi zavod və komplekslərin tikilməsi və infrastrukturunun gücləndirilməsi ölkənin neft emalı və neft-kimya sənayesinin gücləndirilməsində mühüm rol oynamışdır;
- 2017-ci il sentyabrın 14-də Bakıda Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağı-

nın dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və hasilatın pay bölgüsü haqqında yeni Saziş imzalanmışdır;

– 2020-ci ildə “Qarabağ” yatağı müstəqilliyimiz dövründə kəşf edilmiş ilk neft yatağı olaraq tarixə düşüb;
– Hasil ediləcək təbii qazın genişləndirilmiş Cənubi Qafqaz Qaz Boru Kəməri, TANAP və TAP vasitəsilə ilkin olaraq Türkiyəyə və Cənubi Avropaya ixracı təmin edilmişdir;
– 2021-ci il yanvarın 21-də Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında Xəzər dənizində “Dostluq” yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənilməsi və mənimsənilməsi haqqında Anlaşma Memorandumu imzalanmışdır;
– 2023-cü ildən “Abşeron” yatağından qaz hasilatına başlanmışdır;
– Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyinin artırılması üçün hüquqi baza formalaşdırılmış, müasir enerji səmərəliliyi alətlərinin tətbiqinə başlanılmışdır;
– Bərpa olunan enerji mənbələrindən istifadənin gücləndirilməsi və enerji keçidinin təmin edilməsi prioritet olaraq müəyyən edilmiş, bunun üçün hədəflər müəyyənləşdirilmiş, yaşıl enerji zonalarının yaradılmasına başlanılmış, hüquqi baza və infrastruktur formalaşdırılmışdır. Bu sahədə özəl sektorla əməkdaşlıq genişləndirilmiş və investisiya müqavilələri imzalanaraq layihələrin icrasına başlanılmışdır.

Beləliklə, Prezident İlham Əliyevin şəxsi nüfuzu, siyasi liderlik qabiliyyəti sayəsində Avropanın enerji təhlükəsizliyinin təmin edilməsi sahəsində atdığı addımlar dövlətin beynəlxalq nüfuzunun möhkəmləndirilməsinə töhfə verib, etibarlı tərəfdaş imicini formalaşdırıb və Azərbaycanı qlobal problemlərin həll olunduğu platformaya çevirib. Azərbaycanda hazırda nəhəng enerji infrastrukturu yaradılıb və bununla da, Avrasiyanın enerji xəritəsi dəyişdirilib.

**Azərbaycan Respublikasında yaşıl enerji potensialı və bərpa olunan enerjidən istifadədə mövcud vəziyyət və gələcək hədəflər.** Azərbaycan bərpa olunan enerji mənbələri üzrə yüksək potensiala malik olan ölkələrdəndir. Bu xüsusda Azərbaycanın enerji balansında hazırda ümumi gücün 20,3%-ni təşkil edən yaşıl enerji mənbələrinin payının artırılması mühüm prioritetlərdəndir. Hazırda ölkədə 9 günəş elektrik stansiyası, 5 külək elektrik stansiyası, 3 hibrid stansiya, 34 su elektrik stansiyası, 1 bərk məişət tullantılarının yandırılması zavodu və bir neçə sosial obyektdə quraşdırılmış yaşıl texnologiyalar daxil olmaqla 50-dən çox yaşıl enerji istehsalı müəssisəsi fəaliyyətdədir.

2004-cü ildə “Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı” qəbul edilib. Proqramın qəbulu yaşıl enerji mənbələrinin istifadəsində əsaslı dəyişikliklərin həyata keçirilməsinə və ölkəmizin bu sahədəki potensialının dəyərləndirilməsinə geniş imkanlar yaradıb.

2020-ci il 22 sentyabr tarixində Azərbaycan Respublikası Prezidentinin 1159 nömrəli Fərmanı ilə Azərbaycan Respublikasının Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi yaradılıb.

Ölkəmizdə “yaşıl enerji”dən istifadə sahəsinin inkişaf etdirilməsi, bu sahədə qanunvericilik və institusional mühitin təkmilləşdirilməsi məqsədilə müvafiq qanun və normativ hüquqi aktlar qəbul edilmişdir. Bərpa olunan enerjinin inkişafına xüsusi töhfə verən “Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında” Azərbaycan Respublikasının 2021-ci il 31 may tarixli 339-VIQ nömrəli Qanunu təsdiq edilmişdir. Qanunun tətbiqi və icrasının təmin edilməsi məqsədilə alt qanunverici sənədlərin hazırlanması istiqamətdə müvafiq tədbirlərin icrası davam etdirilir.

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” sənədinin 5-ci

bəndində ("Təmiz ətraf mühit" və "Yaşıl artım ölkəsi") iqlim dəyişikliyi və onunla mübarizə istiqamətində, eləcə də ölkəmizdə yaşıl enerji məkanı prinsiplərinə əsaslanan bərpa olunan enerjidən iqtisadiyyatın bütün sahələrində tətbiqi məsələləri öz əksini tapmışdır. Belə ki, ölkənin sosial-iqtisadi inkişafı üzrə prioritetlərə uyğun olaraq, cari və gələcək dövrdə bərpa olunan enerji mənbələrindən istifadəyə, "yaşıl" texnologiyaların tətbiqinin genişləndirilməsinə daha çox diqqət ayrılmaqdadır. Bu sahədə aparılan işlər çərçivəsində bərpa olunan enerji mənbələri potensialına malik ərazilərin müəyyənləşdirilməsi və prioritetləşdirilməsi istiqamətində ölkə üzrə kameral araşdırmalar davam etdirilir. Milli Prioritetlər BMT-nin "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"dən irəli gələn öhdəliklərin icrası istiqamətində də xüsusi əhəmiyyət kəsb edir.

Ölkə Prezidentinin "Azərbaycan Respublikasının energetika sektorunda islahatların sürətləndirilməsi haqqında" 2019-cu il 29 may tarixli 1209 nömrəli sərəncamı ilə verilmiş tapşırıqların icrasının təmin edilməsi məqsədilə ölkədə bərpa olunan enerji sahəsində yeni istehsal güclərinin yaradılması və sahəyə özəl, o cümlədən xarici investisiyaların cəlb edilməsi istiqamətində Dünya Bankı Qrupuna daxil olan Beynəlxalq Maliyyə Korporasiyası ilə "Azərbaycanda dənizdə külək enerjisinin inkişafı üzrə yol xəritəsi" hazırlanmışdır.

Beləliklə, Prezident İlham Əliyevin bu ilin mart ayında "Euronews" televiziyasına müsahibəsində söylədiyi kimi Azərbaycanın bərpaolunan enerji layihələri gündəliyi çox iddialıdır. Dövlətimizin başçısının bu layihələrlə bağlı yaxın gələcək üçün verdiyi proqnozlara diqqət yetirək: "Biz artıq bu mühüm yolu qət etməyə başlamışıq. 10 ilə ölkədə bərpaolunan enerjidən maksimum dərəcədə istifadə etməyi və daxili bazarda təbii qaz istehlakını azaltmağı planlaşdırırıq" [3].

Gələcək hədəflər və öhdəliklər. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədinin "Təmiz ətraf mühit" və "Yaşıl artım ölkəsi" adlı 5-ci bəndində iqtisadiyyatın bütün sahələrində bərpa olunan enerjinin tətbiqi məsələləri öz əksini tapmışdır. Cari onillikdə sosial-iqtisadi inkişaf üzrə prioritetlərə uyğun olaraq bərpa olunan enerji mənbələrindən istifadəyə, "yaşıl texnologiya"ların tətbiqinin genişləndirilməsinə daha çox diqqət ayrılır. Bu sahədə aparılan işlər çərçivəsində bərpa olunan enerji mənbələri potensialına malik ərazilərin müəyyənləşdirilməsi və prioritetləşdirilməsi istiqamətində ölkə üzrə kameral araşdırmalar davam etdirilir. Milli Prioritetlər BMT-nin "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"dən irəli gələn öhdəliklərin icrası istiqamətində də xüsusi əhəmiyyət kəsb edir.

2030-cu ilə qədər bərpa olunan enerji üzrə qoyuluş gücünün ölkənin ümumi enerji balansında ən az 30%-ə çatdırılması əsas hədəf kimi müəyyən edilmişdir. İxrac da nəzərə alınmaqla ümumilikdə 2027-ci ilədək 3 QVt-dan çox, 2030-cu ilə isə daha 5 QVt-lıq layihələrin reallaşdırılması planlaşdırılır [4].

Paris Sazişinə əsasən Azərbaycan Respublikası tərəfindən qlobal iqlim dəyişmələrinə təsirlərin yumşaldılması təşəbbüslərinə töhfə olaraq 1990-cı illə müqayisədə 2030-cu ilədək istixana effekti yaradan qaz emissiyalarının 35%, 2050-ci ilə qədər isə 40%-dək azaldılması öhdəliyi qəbul edilib. Eyni zamanda, işğaldan azad edilmiş ərazilərdə "netto sıfır emissiya" zonasının yaradılması nəzərdə tutulur.

Yaşıl Dünya üçün həmrəylik ili, COP29 və bu sahədə qanunvericilik öhdəliklərinin təkmilləşdirilməsi. İqlim dəyişikliyi ilə bağlı ən böyük beynəlxalq konfransa – COP29-a ev sahibliyi etmək milli, regional və qlobal miqyasda iqlim dəyişikliyi probleminin həllində Azərbaycanın liderliyinin və səylərinin tanınmasını nümayiş etdirir. İqlim dəyişikliyinin milli sərhədləri aşan qlobal çağırış olduğu bir vaxtda COP29 yaşıl dünya üçün həmrəylik içində irəliləmək üçün güc verməyi hədəfləyib.

Beynəlxalq təcrübə göstərir ki, müvafiq fəaliyyət sayəsində parlament və parlamentarilər də iqlim böhranının mənfi təsirlərinin

qarşısının alınmasında fəal iştirak edirlər. Belə ki, qanunverici orqanlar da milli iqlim hədəflərinin və ümumilikdə iqlimin qorunmasının effektivliyinə töhfə verə bilərlər. Milli iqlim fəaliyyətinə, yaşıl gündəliyin təşviqinə Parlamentin cəlb edilməsi COP29 ərəfəsində də aktuallığını qoruyub saxlayır. Azərbaycan Respublikasının Milli Məclisi bu istiqamətdə fəal iş aparır. Müxtəlif ölkələrin parlament rəhbərləri və ya nümayəndələrinin ölkəmizə səfəri, eləcə də xarici səfərlər zamanı Milli Məclisdə keçirilən görüşlərdə Azərbaycanın COP29-a ev sahibliyi, bu tədbirin qlobal iqlim dəyişikliyinə töhfəsi geniş müzakirə olunur.

Bu il Cenevrədə Azərbaycan Respublikası Milli Məclisi ilə Parlamentlərarası İttifaq arasında BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29 çərçivəsində Parlament Konfransının təşkili ilə əlaqədar imzalanan Anlaşma Memorandumu bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Təsadüfi deyil ki, Parlamentlərarası İttifaq da iqlim dəyişikliyini təcili müdaxilə tələb edən dörd prioritet sahədən biri kimi təyin edib.

Parlament konfransı COP29 çərçivəsində keçiriləcək tədbirlərə parlament platformasında dəstək verərək, fikir mübadiləsi aparmağa və iqlim dəyişikliyi ilə mübarizədə təkliflərlə, yeni ideyalarla çıxış etməyə imkan verəcək. Parlament konfransı parlament diplomatiyası və qlobal çağırışlara qarşı birgə mübarizə baxımından tarixi bir hadisə olacaq.

Cari ilin mart ayında isə Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi və Asiya Parlament Assambleyasının iri miqyaslı tədbirləri çərçivəsində "İqlim dəyişikliyi ilə mübarizədə parlament fəaliyyətinin canlandırılması" mövzusu ətrafında səmərəli müzakirələr aparıldı.

Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi yanında beynəlxalq təşkilatlara müşahidəçi statusunun verilməsi haqqında qərarlar qəbul olundu, tədbirin yekunlarına dair Cenevrə Bəyannaməsi qəbul edildi. Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi ilə Parlamentlərarası İttifaq arasında Anlaşma Memorandumu da imzalandı. Bu da qarşılıqlı-faydalı əməkdaşlıq üçün mühüm əhəmiyyət kəsb edir.

Cari ilin iyun ayında TÜRKPA çərçivəsində keçirilmiş "Türk dünyası üçün yaşıl üfüqlər: Yaşıl gündəliyin həyata keçirilməsində parlamentlərin rolu" adlı beynəlxalq konfransda da faydalı müzakirələrin aparılması nəzərdə tutulur.

Deyə bilərik ki, parlamentlər beynəlxalq əməkdaşlıq və iqlimlə mübarizədə ən yaxşı təcrübələrin mübadiləsi üçün uğurlu platformalardan biridir.

Azərbaycanın bu mötəbər tədbirə ev sahibliyi etməsi ölkəmizin iqlim dəyişikliyi ilə mübarizədə təkcə milli deyil, həm də regional və qlobal miqyasda sərgilədiyi səylərin tanınmasının göstəricisidir.

Bu xüsusda Parlament dialoqu üçün inklüziv platforma yaratmaq, milli və beynəlxalq səviyyədə təcili iqlim səylərini dəstəkləmək, COP öhdəliklərini icra edilə bilən reallıqlara çevirmək əsas hədəflərdən biridir.

Parlament Platforması parlamentlərin iqlim gündəliyinə sadiqliyini təsdiqləyir. Bu, qanunvericilik tədbirlərinin qlobal iqlim məqsədlərinə uyğunlaşdırılması, əməkdaşlığın gücləndirilməsi və ekoloji problemlərin həllində qanunverici orqanların rolunun artırılması istiqamətində irəliləyişi ifadə edir. Bundan əlavə, bu platforma böyük qlobal proses çərçivəsində parlamentin iştirakçılıq səviyyəsinin artmasına da imkanı verir.

Burada qanunvericilik öhdəliklərinin təkmilləşdirilməsi də olduqca vacibdir. Azərbaycan Prezidenti 2024-cü ili "Yaşıl Dünya üçün Həmrəylik İli" elan edərək, ölkəmizin iqlimlə bağlı fəaliyyətə milli səviyyədə və onun hüdudlarından kənarda təkan verməsini təmin edib.

Bu gün Azərbaycan yaşıl enerjiyə keçid sahəsində regional liderdir. Son illər biz bütün ölkədə yaşıl layihələrə üstünlük veririk. Biz işğaldan azad edilmiş ərazilərdə ağıllı şəhərlər və kəndlər salırıq. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları, Naxçıvan Muxtar Respublikası 2050-ci ilə qədər xalis sıfır emissiya zonaları olacaq. 2030-cu ilədək Azərbaycanda

elektrik enerjisi istehsalında bərpa olunan mənbələrin payı 30%-ə çatacaq.

Bu reallıq və hədəflər parlament çərçivəsində keçirilən ikitərəfli və çoxtərəfli görüşlərdə də geniş təbliğ olunur. COP29-a ev sahibliyi edən ölkə kimi Azərbaycanın nümunəvi mövqeyi, iqlimlə bağlı tədbirlərin milli planlarımızın mərkəzinə daxil edilməsi beynəlxalq ictimaiyyət, o cümlədən müxtəlif ölkələrin parlamentləri tərəfindən də dəstəklənir.

Bu gün parlament diplomatiyasının əhəmiyyəti getdikcə artır, parlamentlər sülh və qarşılıqlı anlaşmanın əldə olunmasında mühüm rola malikdir. Fikrimizcə, parlament diplomatiyası COP29 çərçivəsində iqlim dəyişikliyi ilə mübarizə, bu sahədə fəaliyyətlərini səfərbər etmək, eləcə də iqlim maliyyələşdirməsini gücləndirmək səylərinə də öz töhfəsini verəcək.

Ümumi iş naminə toplumları və ölkələri birləşdirmək potensialına malik olan Azərbaycan beynəlxalq ictimaiyyətin iqlim dəyişikliyinə yönəlmiş, ədalətli və dayanıqlı gələcəyin gerçəkləşdirilməsi səylərini istiqamətləndirməyə hazırdır.

Əminliklə deyə bilərik ki, Azərbaycanın ev sahibliyi ilə keçiriləcək COP29 Şimal, Cənub, Şərq və Qərbi birləşdirən, qlobal istiləşmənin dayandırılmasında irəliləyiş əldə etmək üçün beynəlxalq ictimaiyyəti səfərbər edən qüvvə olacaq.

Beləliklə, Azərbaycan özünün zəngin enerji ehtiyatlarından səmərəli istifadə etməklə beynəlxalq miqyasda enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayan başlıca aktorlardan birinə çevrilib və o da təsadüfi deyil ki, Azərbaycanın iştirakı olmadan bu gün regionda heç bir layihə gerçəkləşdirilmir. Azərbaycanın enerji siyasəti regionda təhlükəsizliyin möhkəmlənməsində strateji faktor kimi çıxış edir. Qarşılıqlı investisiya qoyuluşunun artması, yeni əməkdaşlıq platformalarının gündəmə gətirilməsi, enerji resurslarının, karbohidrogen ehtiyatlarının əlverişli və təhlükəsiz marşrutlarla daşınması regional miqyasda hazırkı əməkdaşlığın səmərəli nəticələridir. Təbii ki, bu reallıqların həyata keçirilməsinin daha bir mühüm amili Prezident İlham Əliyevin Ulu Öndər Heydər Əliyev siyasətini uğurla davam etdirməsi gerçəkliyinə söykənir.

**Ədəbiyyat:**


1. Analitik Qrup. Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu və “Əsrin müqaviləsi”nin imzalanması ilə reallaşdırılmasına başlanan rasional enerji siyasəti Azərbaycanın hərtərəfli inkişafını təmin etdi. Yeni Azərbaycan qəzeti. 20.09.2014
2. Avropa Komissiyası tərəfindən təmsil olunan Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu
3. Azərbaycan Respublikasının Prezident İlham Əliyevin “Euronews” televiziyasına 2 mart 2024-cü il tarixli müsahibəsi
4. Energetika Nazirliyi. Press-reliz. Energetika naziri Pərviz Şahbazovun Çin Beynəlxalq Enerji Keçidi Forumunda çıxışı.
5. Ələkbərov U.K., “Davamlı inkişaf və ekoloji sivilizasiyanın idarə edilməsinin əsasları” Bakı, 2017, 175 s.
6. Həsənov Ə.M Azərbaycanın enerji təminatı və təhlükəsizliyi siyasəti. Azərbaycan. 2014, 24 yanvar.
7. Milli təhlükəsizlik haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 29 iyun 2004 cü il. № 712-IIQ
8. Ruafqızı G.R Yeni Azərbaycan modeli - Heydər Əliyev siyasətinin uğurlu nəticəsi. Modern.az
9. Şahbazov P.O. “Ümummilli lider Heydər Əliyev Azərbaycanın müstəqil energetika siyasətinin müəllifidir” adlı tədbirdə çıxış
10. Şahbazov P.O. 5-ci Münhen Təhlükəsizlik Konfransında çıxışı


***Açar sözlər:*** *enerji təhlükəsizliyi, yaşıl dünya, bərpa olunan enerji, COP29, iqlim dəyişikliyi*

**Adil Valiyev**

*Milli Majlis Administration*
*Head of the Social Legislation Department*
*Associate Professor, PhD in Political Sciences*

# POLITICAL AND ECONOMIC ASPECTS OF THE STATE POLICY IN THE SPHERE OF ENERGY SECURITY OF THE REPUBLIC OF AZERBAIJAN

## ABSTRACT

As a country independent of foreign suppliers in the energy sector, Azerbaijan contributes significantly to the energy security of not only regional but also European countries through its oil, gas, and electricity exports. Today, under the leadership of the President of the Republic of Azerbaijan, Ilham Aliyev, the rational energy policy established by the National Leader, Heydar Aliyev, ensures our country's comprehensive and sustainable development.

This article primarily analyses the directions of modern energy policy and the energy security strategy in Azerbaijan. It highlights that the country's rich hydrocarbon resources and the fuel-energy infrastructure that enables efficient and safe transportation of these energy resources are vital for Azerbaijan's energy security and economic development. The article emphasizes the need to focus on the use of renewable energy sources and the expansion of "green" technologies in accordance with the country's socio-economic development priorities. Economic and political-legal mechanisms to maximize the use of renewable energy in the country are proposed for continued action in this direction.

Furthermore, the article analyses the reinforcement of legislative commitments in this field. It emphasizes the significance for Azerbaijan of hosting COP29, the largest international conference on climate change, in a political and economic context. It also examines the current situation and prospects in this field.

***Keywords:*** *energy security, green world, renewable energy, COP29, climate change*

**Адиль Велиев**

*Заведующий отделом Социального законодательства Аппарата Милли Меджлиса Азербайджанской Республики, доктор философии по политическим наукам, доцент*

# ПОЛИТИКО-ЭКОНОМИЧЕСКИЕ АСПЕКТЫ ГОСУДАРСТВЕННОЙ ПОЛИТИКИ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ В СФЕРЕ ЭНЕРГЕТИЧЕСКОЙ БЕЗОПАСНОСТИ

## РЕЗЮМЕ

Азербайджан, как государство не зависящее от иностранных поставщиков в сфере энергетики, вносит большой вклад в энергетическую безопасность европейских стран, а также стран региона в области экспорта нефти, газа и электроэнергии. Сегодня рациональная энергетическая политика, основы которой заложены Великим лидером Гейдаром Алиевым, обеспечивает всестороннее и стабильное развитие нашей страны под руководством Президента Азербайджанской Республики господина Ильхама Алиева.

В статье, в первую очередь. анализируются направления современной энергетической политики и стратегии энергетической безопасности в Азербайджане. Отмечается, что наша страна обладает богатыми углеводородными ресурсами, а топливно-энергетическая инфраструктура, позволяющая эффективно и безопасно транспортировать эти энергоресурсы, имеет жизненно важное значение не только для энергетической безопасности Азербайджанской Республики, но и для ее экономического развития. Подчеркивается, что в соответствии с приоритетами социально-экономического развития страны больше внимания следует уделять использованию возобновляемых источников энергии и расширению применения «зеленых» технологий в текущем и будущем периоде. В целях непрерывного принятия мер в указанном направлении предлагаются экономические и политико-правовые механизмы максимального использования возобновляемых источников энергии в стране.

Кроме того, в статье исследуется совершенствование законодательных обязательств в этой сфере, а также обосновывается особое значение проведения крупнейшей международной конференции по изменению климата – COP29 для нашей страны с политического и экономического контекста, а также рассматривается текущая ситуация и перспективы в этой области.

***Ключевые слова:*** *энергетическая безопасность, зеленый мир, возобновляемые источники энергии, COP29, изменение климата*

DOI: 10.30546/2309-1347.2024.2.0014

# HÜQUQ
# LAW

UOT 327(091); 342

**НАМИК АЛИЕВ**

**Заведующий кафедрой «Международных отношений и внешней политики»**
**Академии Государственного Управления**
**при Президенте Азербайджанской Республики,**
**доктор юридических наук, профессор,**
**Чрезвычайный и Полномочный Посол**

*e-mail: namikamal1@gmail.com*

# ИЗМЕНЕНИЯ В КОНСТИТУЦИЮ РЕСПУБЛИКИ АРМЕНИЯ КАК ПРЕДУСЛОВИЕ МИРНОГО ДОГОВОРА С АЗЕРБАЙДЖАНОМ (НЕКОТОРЫЕ АСПЕКТЫ)

Для продвижения в мирном процессе с Азербайджаном Республике Армения предстоит приводить в порядок свое законодательство с тем, чтобы создать атмосферу доверия в переговорном процессе, а подпись премьер-министра Республики Армения под мирным договором с Азербайджаном была легитимной.

Декларация о независимости и Конституция Республики Армения, а также основанные на них другие законодательные акты и международные договоры содержат в себе нормы, направленные на аннексию территорий соседних стран. Эти правовые новеллы делают изначально международные договоры Армении не соответствующими внутригосударственному законодательству, а потому рискующими не быть ратифицированными либо отмененными Конституционным судом этой страны. Очевидно, что именно данное обстоятельство позволило премьер-министру Пашиняну так легко подписать Трехстороннее заявление от 9/10 ноября 2020 года [См.: 1], а затем отказаться от его исполнения. В данной ситуации (даже если отвлечься от исторического опыта) подпись лидеров Республики Армения ничего не стоит и не заслуживает доверия.

Но давайте обратимся к некоторых правовым документам Республики Армения, которые мешают мирному процессу в регионе.

23 августа 1990 года Верховный Совет Армянской ССР, «основываясь на совместном Постановлении Верховного Совета Армянской ССР и Национального Совета Нагорного Карабаха от 1 декабря 1989 года «О воссоединении Армянской ССР и Нагорного Карабаха», развивая демократические традиции независимой Республики Армения, образованной 28 мая 1918 года», принял Декларацию о независимости Армении [2].

Совместное Постановление Верховного Совета Армянской ССР и Национального Совета Нагорного Карабаха от I декабря 1989 года «О воссоединении Армянской ССР и Нагорного Карабаха» [3] находилось в противоречии с действующими на тот момент Конституцией СССР, Конституцией Армянской ССР, Конституцией

Азербайджанской ССР. Следовательно, оно априори являлось не легитимным и не имело юридической силы. Насколько, в таком случае, является правильным, считать легитимной эту декларацию?

Очевидно, опираясь на эту нелегитимность, Республика Армения нарушила ст. 4 Декларации, гласящую, что «граждане Республики Армения пользуются ее защитой и поддержкой. Республика Армения обеспечивает свободное и равноправное развитие своих граждан независимо от национальности, расовой принадлежности и вероисповедания. Изгнав в конце 1980-х гг. со своей территории 300 тысяч азербайджанцев, Армения одну часть своих граждан она превратила в беженцев, а другую в «пушечное мясо».

Стало общеизвестным как Республика Армения, проигнорировав положение ст. 5 своей Декларации о том, что «Вооруженные силы Республики Армения могут быть использованы только по решению ее Верховного Совета», не получив согласие своего парламента осуществила оккупацию территорий Азербайджанской Республики. Таким образом была сделана попытка, скрыть агрессию и оккупацию в отношении соседнего государства. Но, несмотря на это, агрессию и оккупацию признали практически все серьезные международные организации. Напомним о 4-х резолюциях Совбеза ООН 1993 года, резолюцию Генеральной Ассамблеи ООН №A/RES/62/243 от 14 марта 2008 года «Положение на оккупированных территориях Азербайджана», резолюцию ПАСЕ 1416 (2005) «О конфликте в нагорно-карабахском регионе, решением которого занимается Минская конференция ОБСЕ» и мн. др. [См.: 4, 5, 6, 7, 8].

В ст. 6 Декларации Верховный Совет Армянской ССР установил, что «Республика Армения, как субъект международного права, проводит независимую внешнюю политику, устанавливает прямые отношения с другими государствами, национально-государственными образованиями СССР, участвует в деятельности международных организаций». О субъектности Республики Армения и ее «независимой внешней политике» написано и сказано столько, что нет необходимости повторяться в данной публикации. Но следует обратить внимание на то как армянство, а затем Республика Армения последовательно на разных этапах своей истории меняли «хозяев» и обслуживали их интересы: Персия, Россия, а теперь и Франция. Кстати, попутно предавая хозяев и решая свои вопросы.

Так, к примеру, приведу один документальный пример, обнаруженный мною в грузинских архивах. В деле дипломатической канцелярии при Главноуправляющем Закавказским краем Российской империи от 4 июня 1824 года об Арзрюмском (Эрзерумском) купце Антоне Грикурове, изъявившем готовность армян-несториан действовать против персиян, содержится Докладная записка Тифлисского военного губернатора о желании армян-несториан, проживающих в Персии близ Салмаста, принять подданство России и готовности их действовать совместно с Россией против Персии. Текст и смысл документа настолько ясны и однозначны, что вряд ли у кого-либо могут найтись аргументы и факты для его опровержения. Особенно интересным в документе являются пожелания армянского купца успехов России в завоевании Азербайджана, что свидетельствует о вековых устремлениях армян к завоеванию азербайджанских земель, переселению на них. Обращаясь к военному губернатору, купец Грикуров говорит: «…Письмо сие для вручения въ собственныя руки Патриарха, должно быть дано мне, которое отнесу къ нему, отправясь туда съ тремя проводниками, изъ коихъ одинъ мой переводчикъ. Я полагаю, что убеждениямъ Русскимъ поверятъ они весьма скоро: ибо уверены они въ непобедимой силе Российского войнства и надеются завоевания Адербиджана, близко коего имеютъ они жительство свое, после чего и

они будутъ благоденствовать подъ скипетромъ Российского Монарха» [Алиев, Намик. Армянская экспансия и международные договоры по Южному Кавказу в XX-XX вв. – Киев: Издательский дом Дмитрия Бураго, 2021, с. 62].

Будучи на протяжении всей истории своего существования в составе СССР дотационной республикой, Армения в ст. 7 Декларации определила для себя, что «Республика Армения обладает правом на долю национального богатства СССР, в том числе – золотого запаса, алмазного и валютного фондов».

В ст.11 Декларации записано, что «Республика Армения поддерживает дело международного признания геноцида армян 1915 года в Османской Турции и Западной Армении». Необходимо обратить внимание на данную норму: ограничиваясь декларативными признаниями, Республика Армения и армянство не допускают перевода этого вопроса в правовую плоскость: открытия архивов, обнаружения «доказательств», рассмотрения его в международных судах. Нам не представляется в этой связи, реальность урегулирования Республикой Армения дипломатических отношений с Турцией.

Вышеуказанная Декларация объявила себя основой для разработки Конституции Республики Армения, внесения изменений и дополнений в действующую на момент развала СССР Конституцию Армянской ССР, деятельности государственных органов, разработки нового законодательства Республики Армения (ст.12). Таким образом, очевидно, что все законодательство Республики Армения пронизано духом этой нелегитимной декларации. Поэтому после принятия новой Конституции Республики Армения потребуется системное обновление для всех отраслей армянского законодательства.

Действующая Конституция Республики Армения была принята 5 июля 1995 года. В 2005 году в нее были внесены изменения, а 6 декабря 2015 года она была изложена в новой редакции. В ее Преамбуле подтверждается приверженность нелегитимной Декларации о независимости 1990 года: «Армянский народ, основываясь на фундаментальных принципах армянской государственности и общенациональных целях, закрепленных в Декларации о независимости Армении, осуществивший священный завет своих свободолюбивых предков о восстановлении суверенного государства, преданный делу укрепления могущества и процветания Родины, во имя обеспечения свободы поколений, общего благосостояния, гражданского согласия, подтверждая свою верность общечеловеческим ценностям, принимает Конституцию Республики Армения» [12].

Об устремления армянской стороны к миру свидетельствуют не только затянувшийся на три десятка лет Минский процесс (по армянскому законодательству Карабах находился все это время в составе Армении, а Армения вела переговоры в Минской группе), но и противоречивые, показательные «миролюбивые» заявления и выступления после полного восстановления Азербайджаном своей территориальной целостности и суверенитета в 2023 году.

В октябре 2022 года в ходе переговорного процесса, в Пражском заявлении, принятом лидерами Азербайджана и Армении при посредничестве европейцев, была впервые упомянута Алма-Атинская декларация Содружества Независимых Государств от 21 декабря 1991 года [10]. В дальнейшем она упоминалась в Сочинском Заявлении лидеров Азербайджана, Армении и России от 31 октября 2022 года в контексте взаимного признания суверенитета, территориальной целостности и нерушимости границ в соответствии с Уставом ООН. Никол Пашинян делал заявления о готовности признать и признании территориальной целостности Азербайджана на основе этой декларации.

Сама по себе Алма-Атинская декларация, которая декларирует цели и принципы СНГ, его основы, фактически подтвердила Беловежское соглашение и является документом о присоединении восьми государств – бывших советских республик к трем славянским республиками республикам бывшего Союза, заключивших Беловежские соглашения. И неправ здесь Левон Зурабян, бывший помощник президента Левона Тер-Петросяна, когда говорит, что декларация повторяет Беловежские соглашения [13]. Эти документы разные по форме, объему и содержанию.

После того, как Тер-Петросян подписал Алма-Атинскую декларацию, Верховный Совет Республики Армения 18 февраля 1992 года ее ратифицировал. Однако во время ратификации, по утверждению Левона Зурабяна, армянский парламент принял 10 оговорок. Текст всех оговорок найти в сетях не удалось. Никола Пашинян витиевато опровергает факт наличия оговорок, заявляя, что «Оговорки Армении на момент подписания Алма-Атинской декларации представлены не были». Обратите внимание: «на момент подписания», а не в процессе ратификации. Такая игра слов скорее в пользу факта принятия парламентом Армении оговорок. Время же принятия оговорок делает их юридически ничтожными для всех подписантов Алма-Атинской декларации, как международно-правового документа. Эта оговорка имеет юридическую силу на территории Армении, но реализовать ее вне пределов страны невозможно.

Обнародованная Зурабяном 10-я оговорка гласит, что «второй абзац 13-й статьи (Беловежского соглашения о создании СНГ – Н.А.) после слов «открыт для всех стран СССР» дополнить «в том числе, для бывших автономных образований СССР, которые до принятия декларации Верховного Совета СССР «О прекращении существования СССР» (от 26 декабря 1991 года – Н.А.) провели всенародный референдум о провозглашении независимости, и на основе этого высший исполнительный орган властей автономного образования обратился в СНГ с просьбой о принятии в его состав» [14]. Поэтому обнародование армянской властью указанных оговорок, хотя и не в ее интересах, но важно для истории.

Всем очевидно, для чего была принята эта оговорка, которая так и не была реализована в период оккупации азербайджанских территорий. Однако, в законодательстве Республики Армения она и по настоящее время не потеряла силу и является составной частью ее законодательства.

Однако, содержание вышеуказанной оговорки свидетельствует о том, что в очередной раз в армянских документах имеет место подтасовка фактов. В то время как в декабре 1991 года в Нагорном Карабахе собирались проводить референдум, самой НКАО как автономного образования уже не существовало: Законом Азербайджанской Республики от 26 ноября 1991 года в соответствии с Конституцией Азербайджанской Республики и Конституционным актом о государственной независимости Нагорно-Карабахская автономная область была упразднена [См.: 15]!

К тому времени, когда уже ликвидированная НКАО проводила референдум, в результате «Беловежского Соглашения» о создании Содружества Независимых Государств» между Российской Федерацией, Украиной и Белоруссией от 8 декабря 1991 года как «субъект международного права и геополитическая реальность прекратил свое существование» и Союз ССР [См.: 16].

Присоединившись к Содружеству Независимых Государств и подписав Алма-Атинскую Декларацию, Республика Армения признала территориальную целостность и нерушимость границ Азербайджанской Республики, в пределах которых находился и Нагорный Карабах. Именно поэтому, тогдашний министр обороны, а в последствии президент Республики Армения Серж Саркисян (Саргсян) в 2005 году

указывает на то, что референдум был проведен 8 декабря 1991 года, в то время как, на самом деле он состоялся двумя днями позже, а именно 10 декабря 1991 года [См.: 17], т.е. после того, как Советского Союза не стало.

26 декабря 1991 года Верховный Совет принимает Декларацию о прекращении существования Советского Союза [18], фиксируя уже существующую реальность. Обращаться к Верховному Совету СССР было уже некому.

Таким образом, мы имеем в законодательстве Республики Армения правовые нормы, которые создавались для создания видимости легитимности сепаратистского движения в Карабахском регионе Азербайджана, оправдания армянской агрессии в отношении азербайджанской территории. Без изменения Конституции Республики Армения, приведения всего законодательства в соответствии с прин-ципами и нормами международного права, с основами демократического общества, подписание мирного договора между Республикой Армения и Азербайджанской Республикой, на наш взгляд, является невозможным.

**Литература:**


1. Трехстороннее заявление Президента Азербайджанской Республики, премьер-министра Республики Армения, Президента Российской Федерации от 9/10 ноября 2020 года. – Заявление Президента Азербайджанской Республики, премьер-министра Республики Армения, Президента Российской Федерации» Официальный сайт президента Азербайджанской Республики (president.az) дата обращения 28.06.2024
2. Декларация о независимости Армении от 23 августа 1990 года. - Декларациисуверинитет (gorby.ru) дата обращения 28.06.2024
3. О воссоединении Армянской ССР и Нагорного Карабаха. Совместное Постановление Верховного Совета Армянской ССР и Национального Совета Нагорного Карабаха от 1 декабря 1989 года. - «ВС Армянской ССР и Национальный совет Нагорного Карабаха провозглашают воссоединение Армянской ССР и Нагорного Карабаха»: 32 года Миацуму - armenia.im дата обращения 28.06.2024
4. Резолюция 822 (1993) Совета Безопасности ООН от 30 апреля 1993 года. – http://www.un.org/russian/documen/scresol/res1993/res822.htm
5. Резолюция 853 (1993) Совета Безопасности ООН от 29 июля 1993 года. – http://www.un.org/russian/documen/scresol/res1993/res853.htm
6. Резолюция 874 (1993) Совета Безопасности ООН от 14 октября 1993 года. – http://www.un.org/russian/documen/scresol/res1993/res874.htm
7. Резолюция 884 (1993) Совета Безопасности ООН от 12 ноября 1993 года. – http://www.un.org/russian/documen/scresol/res1993/res884.htm
8. Резолюция 1416 (2005) «Конфликт в нагорно-карабахском регионе, решением которого занимается Минская конференция ОБСЕ» Парламентской Ассамблеи Совета Европы от 25 января 2005 года. –http://assembly.coe.int
9. Алиев, Намик. Армянская экспансия и международные договоры по Южному Кавказу в XX-XX вв. – Киев: Издательский дом Дмитрия Бураго, 2021, с. 62

10. Алма-Атинская декларация от 21 декабря 1991 года. - Алма-Атинская Декларация (Алма-Ата, 21 декабря 1991 г.) | ГАРАНТ (garant.ru) дата обращения 28.06.2024
11. Сочинское Заявление лидеров Азербайджана, Армении и России от 31 октября 2022 года. - Совместное заявление лидеров России, Армении и Азербайджана (полный текст) / Новости / Независимая газета (ng.ru) дата обращения 28.06.2024 дата обращения 01.07.2024
12. Конституция Республики Армения. - Конституция Республики Армения (legalns.com) Конституция Республики Армения (legalns.com) дата обращения 01.07.2024
13. Соглашение о создании Содружества Независимых государств. - Соглашение о создании Содружества Независимых Государств — Викитека (wikisource.org) дата обращения 01.07.2024
14. Почему же Ереван настаивает на Алма-Атинской декларации? - Почему же Ереван настаивает на Алма-Атинской декларации? - Зеркало.az (zerkalo.az) дата обращения 01.07.2024
15. Об упразднении Нагорно-Карабахской автономной области Азербайджанской Республики. Закон Азербайджанской Республики от 26 ноября 1991 года. – Ведомости Верховного Совета Азербайджанской Республики, 1991, № 24, ст.448; http://karabakh-doc.gen.az/ru/law/law012.htm
16. О создании Содружества Независимых Государств. Соглашение от 8 декабря 1991 года. - Сборник документов Содружества Независимых Государств, 1991, № 1, ст.6
17. "Акт о результатах референдума и независимости Нагорно-Карабахской Республики". - www.nkr.am/rus, www.nkrusa.org/nk_conflict/declaration_independence.html"
18. О прекращении существования Союза Советских Социалистических Республик. Декларация Верховного Совета СССР от 26 декабря 1991 года № 142-Н. - Декларация Совета Республик ВС СССР от 26.12.1991 № 142-Н — Викитека (wikisource.org) дата обращения 01.07.2024

***Ключевые слова:*** *мирный договор, международное право, территориальная целостность, конституционные реформы, Азербайджанская Республика, Конституция Республики Армения, Южный Кавказ, политическая стабильность, мирное урегулирование, права и свободы граждан*

**Namiq Əliyev**

*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası*
*"Beynəlxalq münasibətlər və xarici siyasət" kafedrasının müdiri,*
*hüquq elmləri doktoru, professor,*
*Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli Səfiri*

# ERMƏNİSTAN RESPUBLİKASININ KONSTİTUSİYASINA DƏYİŞİKLİKLƏR AZƏRBAYCANLA SÜLH MÜQAVİLƏSİNİN İLKİN ŞƏRTİ KİMİ (BƏZİ ASPEKTLƏR)

## XÜLASƏ

Bu araşdırmada müəllif Azərbaycanla sülh sazişinə nail olmaq üçün Ermənistan Respublikasının Konstitusiyasına dəyişikliklərin zəruriliyi ilə bağlı suallar qaldırır. Konstitusiyaya ziddiyyətlərin həllinə və müəyyən bir bölgədə uzunmüddətli sülh üçün şərait yaratmağa kömək edə biləcək əsas dəyişikliklər araşdırılır. Ərazi bütövlüyü, əhalinin hüquq və azadlıqlarının qorunması, həmçinin Ermənistanın beynəlxalq öhdəliklərinə əməl olunması məsələləri diqqət mərkəzindədir. Tədqiqat təklif olunan dəyişikliklərin həyata keçirilməsinə mane ola biləcək potensial siyasi və hüquqi maneələri araşdırır və onları aradan qaldırmaq üçün strategiyalar təklif edir. Müəllif belə qənaətə gəlir ki, Konstitusiya dəyişiklikləri sülh yolu ilə nizamlanmanın əldə olunmasında əsas rol oynayır və Cənubi Qafqazda uzunmüddətli sabitlik və təhlükəsizliyin bərqərar olmasına kömək edə bilər.

***Açar sözlər:*** *sülh müqaviləsi, beynəlxalq hüquq, ərazi bütövlüyü, Konstitusiya islahatları, Azərbaycan Respublikası, Ermənistan Respublikasının Konstitusiyası, Cənubi Qafqaz, siyasi sabitlik, sülh yolu ilə nizamlanma, vətəndaşların hüquq və azadlıqları*

**Namiq Aliyev**

*The Academy of Public Administration under the*
*President of the Republic of Azerbaijan,*
*Head of the Department of International Relations and Foreign Policy,*
*Extraordinary and Plenipotentiary Ambassador of the Republic of Azerbaijan,*
*Second Degree State Counselor, Professor, Dr. of Law Sciences*

# AMENDMENTS TO THE CONSTITUTION OF THE REPUBLIC OF ARMENIA AS A PRECONDITION FOR A PEACE TREATY WITH AZERBAIJAN (SOME ASPECTS)

## ABSTRACT

In this study, the author raises questions about the need to amend the Constitution of the Republic of Armenia in order to reach a peace agreement with Azerbaijan. The main constitutional amendments that could help to resolve differences and create the conditions for long-term peace in the region are being examined. The focus was on territorial integrity, the protection of the rights and freedoms of the population and compliance with Armenia's international obligations. The study examines potential policy and legal obstacles that may stand in the way of implementing the proposed changes and proposes strategies to overcome them. The author concludes that constitutional changes play a key role in achieving a peaceful settlement and can contribute to the establishment of long-term stability and security in the South Caucasus.

***Keywords:*** *peace treaty, international law, territorial integrity, constitutional reforms, Republic of Azerbaijan, Constitution of the Republic of Armenia, South Caucasus, political stability, peaceful settlement, rights and freedoms of citizens*

DOI: 10.30546/2309-1347.2024.2.0016

**B E Y N Ə L X A L Q  M Ü N A S İ B Ə T L Ə R**
**I N T E R N A T I O N A L  R E L A T I O N S**

UOT 327-027.21

**ETİBAR NƏCƏFOV**

**Azərbaycan Respublikasının Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin baş məsləhətçisi, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Fəlsəfə və Sosial Psixologiya kafedrasının professoru, fəlsəfə elmləri doktoru**

*e-mail: eanajafov@gmail.com*

# BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN YAŞIL SİYASƏT NƏZƏRİYYƏSİ VƏ ONUN ƏSAS MÜDDƏALARI

Yaşıl siyasət nəzəriyyəsi beynəlxalq münasibətlərin müasir tənqidi nəzəriyyələrindən biridir. Məlum olduğu kimi, beynəlxalq münasibətlər nəzəriyyələri iki qrupa bölünürlər: hakim və tənqidi nəzəriyyələr (9, s.106-110). Hakim nəzəriyyələr mövcud sosial və siyasi strukturları legitimləşdirir, bu strukturların mövcud olmalarına bəraət qazandırır. Tənqidi nəzəriyyələr isə sosial gerçəklik ilə ictimai elmlər sahəsinə aid olan bilik, nəzəriyyə, o cümlədən beynəlxalq münasibətlər nəzəriyyəsi arasında sıx əlaqənin, daha konkret desək, bu biliyin, nəzəriyyənin sosial gerçəkliyin inikası olduğunu göstərir. Bununla tənqidi nəzəriyyələr ictimai elmlər sahəsində tədqiqatın subyekti ilə obyektinin bir-birindən ayrılması və obyektiv biliyin olması ideyalarını rədd edir.

Tənqidi nəzəriyyələrin nümayəndələri öz nəzəriyyələrinin hakim nəzəriyyələrdən əsas fərqini tənqidi nəzəriyyələrin mövcud siyasi, iqtisadi, sosial, ekoloji, mədəni və digər durumda, o cümlədən beynəlxalq münasibətlər sahəsində ciddi problemlərin olduğunu göstərməsində və bu problemlərin həll olunması üçün burada köklü dəyişikliklərin həyata keçirilməsinə dair tövsiyələrin və təkliflərin verməsində görürlər. Onların fikrincə, bu dəyişikliklərin reallaşdırılması cəmiyyətin bütün sahələrində sosial ədaləti bərqərar edəcək, dövlət daxilində əhalinin bütün təbəqələrinin, beynəlxalq münasibətlər sistemində isə bütün dövlətlərin maraqlarına cavab verən şərait yaradacaqdır.

Beynəlxalq münasibətlərin hakim nəzəriyyələri hesab olunan realizm, liberalizm, neorealizm, neoliberalizm, İngilis Məktəbi (rasionalizm) və digər nəzəriyyələri nə dövlətdaxili, nə də ki, dövlətlərarası münasibətlərdə hökmranlığa, istismara son qoyur. Tənqidi nəzəriyyələrin nümayəndələri hesab edirlər ki, hakim nəzəriyyələrin irəli sürdükləri ideyalar ölkə daxilində hakimiyyətdə olan siniflərin, beynəlxalq müstəvidə isə hegemon dövlətlərin maraqlarını müdafiə edir və mövcud siyasi, iqtisadi və sosial vəziyyətin dəyişməsini öz qarşısında məqsəd kimi qoymur.

Avstraliyalı politoloq Riçard Devetak tənqidi nəzəriyyələri xarakterizə edərkən qeyd

edir ki, bu qrupa daxil olan nəzəriyyələr (yaşıl siyasət, feminizm, modernizm, post-modernizm, konstruktivizm) aralarındakı müəyyən fərqlərə baxmayaraq onlar bir ideya ətrafında birləşirlər: beynəlxalq münasibətlərin tədqiq olunması azadedici siyasət tərəfindən istiqamətləndirilməlidir (2, p.138-139). Devetakın dediklərini belə izah etmək lazımdır – beynəlxalq münasibətlərin tədqiqi elə bir nəzəri yanaşmaların əsasında aparılmalıdır ki, bu yanaşmalar ictimai həyatın daxili və beynəlxalq sahələrindəki istismara və hökmranlığa son qoysun, sosial ədaləti bərqərar etsin, bütün aktorların maraqlarını eyni səviyyədə müdafiə etsin, bu sahələrdə mövcud olan problemlərin həll olunmasına kömək etsin.

Tənqidi nəzəriyyələrin meydana gəlməsi Avropanın İntibah dövrünə təsadüf edir. Tənqidi yanaşmanın cizgilərini İmmanuel Kant, Georq Vilhelm Fridrix Hegel, Karl Marks, Fridrix Nitsşe və başqa mütəfəkkirlərin yaradıcılıqlarında görmək olar. Bu mütəfəkkirlər yaşadıqları dövrün, cəmiyyətin siyasi, iqtisadi, sosial və mənəvi reallıqlarını tənqid edirdilər. Məsələn, Karl Marks kapitalist cəmiyyətini ədalətsiz, istismar üzərində qurulmuş, müharibəyə səbəb olan bir cəmiyyət kimi tənqid edərək onun yeni ictimai-iqtisadi formasiya olan kommunizmlə əvəz olunmasının yollarını göstərirdi.

Hakim nəzəriyyələrdən fərqli olaraq tənqidi nəzəriyyələr sosial gerçəkliyə tənqidi münasibət bəsləyərək onu əsaslı şəkildə dəyişmək istəyir. Tənqidi nəzəriyyələrin mövqeyinin mahiyyəti Karls Marksın “Feyerbax haqqında tezislər” adlı əsərinin 11-ci tezisində aydın şəkildə ifadə olunmuşdur. Burada Marks özündən əvvəlki fəlsəfəni qiymətləndirərkən qeyd edir: “Filosoflar dünyanı müxtəlif cür izah edirdilər, lakin əsas məsələ onu dəyişməkdən ibarət idi” (6, c.3). “Dünyanı dəyişmək,” cəmiyyətin müxtəlif sahələrində əsaslı dəyişikliklər həyata keçirmək məsələsi tənqidi nəzəriyyələrin qarşısında duran əsas məsələdir. Bu dəyişikliklərin əsas əhəmiyyəti ictimai həyatın daxili və beynəlxalq sahələrində istismara, hökmranlığa son qoymaq, sosial ədaləti bərqərar etmək, ümumiyyətlə insanın azad olunmasına nail olmaqdır.

Beynəlxalq münasibətlərin tənqidi nəzəriyyələrinin müasir növlərindən biri olan yaşıl siyasət nəzəriyyəsi yaşıl hərəkatın tərkin hissəsidir. Yaşıl siyasət hərəkatı mühüm siyasi qüvvə kimi bir çox ölkələrdə 1970-ci illərin ortalarından başlayaraq özünü büruzə verməyə başladı. Həmin vaxt beynəlxalq münasibətlərə yaşıl siyasət yanaşması ətraf mühitlə bağlı problemlərin artmasına cavab olaraq formalaşmışdır. Artıq ötən əsrin sonlarında yaşıl siyasət nəzəriyyəsi beynəlxalq münasibətlər nəzəriyyəsi fənnində öz yerini tutdu.

Beynəlxalq münasibətlərin yaşıl siyasət nəzəriyyəsinin görkəmli nümayəndələrindən Metyu Patersonu, Hyu Dayeri, Endryu Dobsonu, Robin Ekkerslini, Erik Helleyneri, Robert Qudini və başqalarını göstərmək olar. Bu müəlliflərin əsərlərində beynəlxalq münasibətlərə dair yaşıl siyasət nəzəriyyəsinin əsas müddəaları əks olunmuşdur.

Tədqiqat metodlarından danışarkən tarixə nəzər salınmış, eləcə də XX əsrin əvvəllərinə, SSRİ dövrünə toxunulmuş, əsasən hazırki müasir mərhələdə Azərbaycan-Rusiya miqrasiya əlaqələrinə baxış tədqiq olunmuşdur. Məqalədə tarixilik, təhlil, müqayisə və elmi tənqid metodlarına diqqət yetirilmişdir. İkitərəfli miqrasiya əlaqələrinin öyrənilməsində xalqlararası dostluq münasibətlərinin inkişafından, sosial-iqtisadi, siyasi-diplomatik perspektivlərin emiqrasiya və immiqrasiyaya təsirindən bəhs olunmuşdur.

Materiallara gəldikdə, tədqiqatın yerinə yetirilməsində ümumilikdə otuz altı mənbə və ədəbiyyata istinad olunmuşdur. Onların ara-

sında – elmi ədəbiyyat, miqrasiyaya dair hesabatlar, dövri mətbuat materialları, elektron informasiya resursları əsas yer tutur. Qeyd etmək lazımdır ki, miqrasiya Azərbaycanda elmi istiqamət kimi son vaxtlar "Beynəlxalq münasibətlər tarixi", "Vətən tarixi", "Ümumi tarix" və digər kontekstlərdə tədqiqat işlərinə cəlb olunur. Elmi-tədqiqat işində yaxın tarixdə Azərbaycan-Rusiya miqrasiya əlaqələrinə dair əsasən monoqrafiya və məqalələrdən, xüsusilə beynəlxalq təşkilatların araşdırma materiallarından, Azərbaycanla bağlı məqamlardan istifadə olunmuşdur.

### Dövlətlərarası münasibətlərdə miqrasiya faktoru

Hər zaman aktuallığını qoruyan, müasir dövrdə dövlətlərarsı münasibətlərdə diqqət çəkən mövzu kimi, yaxın tarixdən miqrasiya əlaqələrinin öyrənilməsi hazırda Azərbaycan-Rusiya çoxtərəfli əməkdaşlığında əhəmiyyət daşıyan sahələrdən biridir. Son otuz ildə postsovet tarixində baş verən ictimai-siyasi, sosial-iqtisadi hadisələr heç şübhəsiz regionda gedən miqrasiya proseslərinə də təsirsiz ötüşməmişdir. SSRİ-nin süqutundan sonra yaranan müstəqil respublikalarda, o cümlədən Azərbaycan Respublikasında bir müddət emiqrasiya proseslərinin yüksəlməsi müşahidə olunmuşdur. Azərbaycanlı əməkçi miqrantların üz tutduqları dövlətlər sırasında Rusiya və Türkiyə birinci sıralarda gəlirdi. Tədricən, illər ötdükcə Azərbaycanda inkişaf edən müstəqil iqtisadi-siyasi mühit, yeni iş yerlərinin açılması miqrasiyanın genişlənməsini zəiflətmiş, respublikadan emiqrasiyanı əhəmiyyətli dərəcədə azaltmışdır.

Beynəlxalq və regional miqrasiya demək olar ki, Rusiyanın postsovet tarixi boyunca aktual bir problemdir [25, s.205]. 1959-cu il siyahıyaalınmasına görə, SSRİ-də 3,9 milyon azərbaycanlıdan yalnız 71 mini və ya 2,4%-i Rusiyada, əsasən Dağıstanda yaşayırdı [35, s.86]. Azərbaycanlıların kompakt yaşadığı şəhərlərdən biri Dərbənddir. Burada uzun yüz illər boyunca yaşamış, bu gün də respublikanın əməkçi miqrantları Rusiyanın həmin şəhərinə hələ də maraq göstərməkdədirlər. Ümumilikdə Dağıstan regionuna işləmək üçün gedən azərbaycanlılar az da olsa var.

Azərbaycandan Rusiya Federasiyasına əmək miqrasiyası ötən əsrin 60-cı illərindən fəal inkişaf etməyə başlayıb. Bundan əvvəl Azərbaycanda əmək miqrasiyasının saldosu müsbət olub. Həmçinin, bir neçə onilliklər ərzində digər sovet respublikalarından olan işçilər və mütəxəssislər Azərbaycana gəlmiş, bəziləri daimi yaşamaq üçün qalmışlar. Geri axın miqyasına görə daha kiçik olmuşdur [22, s.194]. Qeyd olunan illərdə Azərbaycandan Rusiyaya və ya digər ittifaq respublikalarına kiçik sayda olsa da miqrasiya prosesləri müşahidə olunmuşdur. 1960-1980-ci illərdə, həmçinin SSRİ-nin müxtəlif bölgələrindən Azərbaycana əsasən neft, inşaat, memarlıq kimi həyati əhəmiyyətli sahələrdə işləmək üçün gələnlərin sayı az deyildi. Eləcə də qeyd etmək lazımdır ki, sovet dövləti ilə əlaqələrə malik Kuba, Çin, Vyetnam, İraq kimi ölkələrdən də Azərbaycana əsasən neft mühəndisliyi sahəsində təhsil almağa gələn tələbələr çoxluq təşkil edirdi. Məhdud çərçivədə olsa da Azərbaycana olan intellektual miqrasiya nəhəng beyin axını sayılmasa da indi həmin ölkələrdə yüksək postlar tutan keçmiş tələbələr tərəfindən respublikanın təhsil sistemi yüksək qiymətləndirilir.

Azərbaycandan Rusiyaya nisbətən kütləvi əmək miqrasiyası hələ 1980-ci illərdə müşahidə olunurdu. SSRİ-nin tənəzzül dövründə isə azərbaycanlılar müvəqqəti olaraq Moskvada və Rusiyanın digər böyük şəhərlərində məskunlaşmışdılar, lakin rəsmi olaraq vətənlərində məşğul sayılmağa davam edirdilər [27, s. 89]. 1980-ci illər, xüsusilə də sonlarına doğru bütün ittifaq respublikalarında olduğu kimi Azərbaycanda da sosial-iqtisadi vəziyyət qənaətbəxş deyildi. Həmin illərdə baş verən ictimai-siyasi, hərbi hadisələrin fonunda Azərbaycanın qarşılaşdığı çətinliklər daxili miqrasiyanın yüksəlməsinə səbəb yaratmışdır.

1989-cu ilin son Ümumittifaq siyahıyaalınmasının materiallarına görə Moskvada 20,727 nəfər azərbaycanlı yaşayırdısa, 2002-ci il Ümumrusiya əhali siyahıyaalınmasına müvafiq olaraq 95,563 nəfər qeydiyyata alınmışdır.

Müvafiq olaraq Moskva vilayətində – 5974 və 14651, Sankt-Peterburqda – 11804 və 16613, Tümen vilayətində – 19455 və 42359, Krasnodar diyarında – 11363 və 11944, Saratov vilayətində – 10610 və 16417, Rostov vilayətində – 1215 və 16498 azərbaycanlı yaşayırdı [29, s. 147]. Göstərilən rəqəmlər statistik baxımdan diqqət çəkir, sovet dövründə və sonrakı illərdə azərbaycanlıların Rusiya ərazisində yayılma arealını göstərir. Moskva və Rusiyanın digər şəhərlərində yaşayan azərbaycanlılar biznes fəaliyyəti ilə yanaşı Azərbaycan diaspor təşkilatları ilə əlaqələr quraraq ölkələrinin mədəni dəyərlərinin təbliğində yaxından iştirak etmişlər.

Müasir dövrdə Azərbaycan Respublikasının xarici siyasət fəaliyyətində, şübhəsiz ki, mərkəzi yerlərdən birini onun "Rusiya istiqaməti" tutur [18, s. 29]. İkitərəfli münasibətlərin inkişafında və siyasi-diplomatik əlaqələrin davamında miqrasiya məsələləri hər zaman müzakirə obyekti olmuş, azərbaycanlıların son 30 ildə Rusiyaya emiqrasiyası diqqət çəkmişdir.

Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında diplomatik əlaqələrin qurulmasından indiyədək dostluq, əməkdaşlıq və təhlükəsizlik haqqında 200-dən çox ikitərəfli sənəd imzalanıb, qarşılıqlı əlaqələr möhkəmlənib [7, s.5]. Həmin sənədlər arasında miqrasiyanın xüsusi yeri var. Azərbaycan-Rusiya miqrasiya əlaqələrinə baxıldıqda burada əsasən qanuni miqrasiya və əməkçi miqrantların və onların ailələrinin sosial hüquqlarının qorunması kimi məsələlər gündəmə gətirilir. Miqrasiya dövlətlərin milli təhlükəsizliyinin qorunması kimi vacib məqamların müzakirəsinə yol açır və Azərbaycan-Rusiya münasibətlərində mövcud sahədə əməkdaşlığın davam etdiyini göstərir.

Bu gün Rusiyada yaşayan azərbaycanlılar üç qrupa bölünür: 1. Rusiyada doğulmuş və özlərini yerli hesab edənlər; 2. Postsovet dövründə Rusiyaya gələn və Rusiya vətəndaşlığının alınmasına yönəlmişlər, inteqrasiya edənlər; 3. İşləməyə gələnlər və ilk fürsətdə vətənə, Azərbaycana qayıtmağa və ya başqa ölkəyə getməyə hazır olanlar [36, s.7]. Tarixin bütün dövrlərində Azərbaycan Rusiya ilə qarşılıqlı faydalı əlaqələr qurmaqda maraqlı olmuş, yuxarıda qeyd olunduğu kimi Rusiyada yaşayan azərbaycanlılardan ibarət böyük bir intellektual təbəqə formalaşmışdır. Azərbaycanlılar arasında Rusiyada yaşayan əməkçi miqrantlarla yanaşı həmin ölkənin vətəndaşlığını qəbul etmiş şəxslər, orada doğulub, inteqrasiya edərək özlərini yerli hesab edənlər də az deyil. Həmin azərbaycanlılar Rusiyanın ictimai-mədəni, elmi həyatında rol oynayaraq ikitərəfli münasibətlərə töhfə verməyə davam edirlər.

1992-ci ildən etibarən Azərbaycan Respublikasında miqrantlar və onların inteqrasiyası ilə bağlı hüquqi-normativ aktların qəbul olunmasına başlanmışdır [4, s.6]. Bu baxımdan, Azərbaycan-Rusiya miqrasiya əlaqələrinin qurulması və gələcək inkişafında miqrasiya qanunvericiliyi bazası hüquqi əhəmiyyətə malik olmuş, sosial-iqtisadi, humanitar, mədəni əməkdaşlığa yol açmışdır.

1997-ci ilin 2 iyulunda müstəqil dövlətin başçısı kimi Heydər Əliyevin Rusiyaya rəsmi səfəri ikitərəfli münasibətlərin inkişafına əhəmiyyətli təsir göstərmiş, dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında müqavilə imzalanmışdır [1, s.6]. Miqrasiya proseslərinin tənzimlənməsində təhlükəsizlik məsələlərinin həlli əməkdaşlıq münasibətlərində əsas xətt təşkil edir. Görkəmli dövlət və siyasi xadim Heydər Əliyev Azərbaycan-Rusiya diplomatik münasibətlərinin inkişafına töhfə verərək dostluq və əməkdaşlığın möhkəmlənməsinə çalışmışdır. Burada müstəqil dövlətin miqrasiya siyasəti, diaspor quruculuğu və demoqrafik inkişafı kimi məsələlər xüsusilə qabarıq şəkildə öz əksini tapır. Rusiya ilə diplomatik münasibətlərin növbəti mərhələsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev əməkdaşlıq əlaqələrinin genişlənməsində əhəmiyyətli rol oynamışdır. Hazırda Azərbaycan Rusiyanın strateji tərəfdaşı kimi ikitərəfli iqtisadi-ticari münasibətlərini uğurla davam etdirir. Əməkdaşlıq əlaqələrinin inkişafında miqrasiya kimi həssas mövzu hər iki dövlətin diqqət yetirdiyi sahələrdən biri kimi aktual olaraq qalır.

2004-cü ilin fevral ayının əvvəllərində Azərbaycan Respublikasının Prezidenti kimi

Rusiyaya ilk rəsmi səfəri çərçivəsində İlham Əliyev ikitərəfli iqtisadi münasibətləri yüksək qiymətləndirmişdir: "İqtisadi əməkdaşlıq çox uğurla inkişaf edir, əmtəə dövriyyəsi ilbəil çox sürətlə artır və hər iki dövlət bunun iki dəfə artırılmasını istəyir" [2, s.15]. Qeyd etmək lazımdır ki, diplomatik münasibətlərdə iqtisadi və sosial faktor miqrasiya sahəsində əməkdaşlıq üçün yeni imkanlar açır. Qeyd olunan ildə ikitərəfli münasibətlərdə miqrasiya prosesləri davam etmişdir.

2004-cü ildə Azərbaycanda miqrasiyanın müsbət saldosu 20 mindən bir qədər çox olub ki, bu da 1990-cı illərin ortalarındakı göstəricilərdən müqayisəolunmaz dərəcədə azdır. Həm Azərbaycanda, həm də MDB və Baltikyanı ölkələrin qalan hissəsində emiqrant axını xeyli azalıb [21, s.145]. 2004-cü il Azərbaycan Respublikasında regional və beynəlxalq əməkdaşlıq əlaqələrinin dinamik inkişaf mərhələsinin uğurlu başlanğıcı kimi yadda qalmışdır. Qonşu Rusiya ilə reallaşdırılan yeni iqtisadi və ticari layihələr əmək miqrasiyasının müsbət inkişafına şərait yaratmaqla, mövcud sahədə yeni əməkdaşlıq üçün müzakirələrin aparılmasını vacib etmişdir.

## Miqrasiya əlaqələrində dinamizm və inkişaf

"Həmvətənlərimizin köçürülməsinə kömək edən dövlət proqramı bir sıra ölkələrə, o cümlədən Azərbaycanın vətəndaşlarına Rusiyaya köçməyə, həmçinin daimi vətəndaşlıq, iş yeri və s. əldə etməyə dəstək verir. Bu gün həmin proqram çərçivəsində neçə Azərbaycan vətəndaşının Rusiyaya köçdüyünü təxmin etmək çətindir, çünki bu məlumatlar ictimaiyyətə açıqlanmır. Ümumilikdə, Azərbaycana mühacirət edən vətəndaşların sayı ildə 2500-3000 nəfər təşkil edir və bu rəqəm hər il azalır". Bunu "Exo" qəzetinin miqrasiya məsələləri üzrə eksperti Azər Allahveranov qeyd edib [5, s.1]. Müasir dövrdə davam edən regional miqrasiya prosesləri fonunda Azərbaycandan Rusiyaya üz tutmuş əməkçi miqrantların və ya əksinə Azərbaycana daxil olmuş Rusiya miqrantlarının fəaliyyətinin tənzimlənməsində dövlət proqramları mühüm əhəmiyyətə malikdir. Hər iki ölkənin inkişaf etmiş miqrasiya qanunvericiliyi əməkdaşlıq üçün hüquqi baza yaratmaqla, qanunsuz miqrasiyanın qarşısının vaxtında alınmasına müsbət təsir göstərir. Bəzi hallarda hər iki tərəfin miqrasiya ilə bağlı məlumatlarının və statistik rəqəmlərin məhdud çərçivədə paylaşılması həmin sahədə dəqiq proqnoz vermək üçün yetərli sayıla bilməz.

2006-cı ilin payızında Rusiya hakimiyyəti miqrantların ticarətlə məşğul olması üçün məhdudiyyət tətbiq etmək qərarına gəldikdə və ictimaiyyət bu xəbəri fəal şəkildə müzakirə etməyə başladıqda, Moskva mətbuatı aşağıdakı məlumatları açıqladı. Həmin ilin ikinci rübündə Rusiyadan Azərbaycana 94,2 milyon dollar pul köçürməsi daxil olub. Qeyd olunan rəqəmi dördə vururuq və Azərbaycana köçürülən orta illik məbləği alırıq. Bu, əlbəttə ki, təsir edicidir, lakin digər ölkələrlə müqayisə olunmur. Düzdür, söhbət yalnız rəsmi olaraq sadalanan məbləğlərdən gedir, başqa yollarla ölkəyə ötürülmür [15, s. 164]. Azərbaycanlı miqrantların rəsmi yollarla respublikaya göndərdikləri müəyyən məbləğlər ümumilikdə milyonlarla dollarla ölçülür. Bu fakt Azərbaycan iqtisadiyyatı üçün miqrasiyanın aparıcı qüvvə sayılmasa da göstərilən statistika əmək miqrasiyasının sosila əhəmiyyətinə diqqət çəkir. Bu səbəbdən, ikitərəfli münasibətlərdə və miqrasiya əlaqələrində müşahidə olunan müsbət iqtisadi tendensiyalar miqrasiya sahəsində Azərbaycan-Rusiya əməkdaşlığının davam etməsinin və müzakirələrin aparılmasının vacib olduğunu göstərir.

Tərəflər qarşılıqlı hesablaşmalarda milli valyutalardan istifadəyə, bank kartlarına birgə xidmət daxil olmaqla, ödəniş sistemlərinin qarşılıqlı uyğunluğuna, eləcə də iki ölkənin bankları arasında birbaşa müxbir münasibətlərin inkişaf etdirilməsinə imkan yaradırlar [14]. İkitərəfli miqrasiya proseslərinin tənzimlənməsində Azərbaycan-Rusiya banklarının qarşılıqlı fəaliyyəti son dərəcə vacib amillərdən biridir. Birbaşa müxbir hesabların yaradılması isə əməkçi miqrantların sosial hüquqlarının müdafiəsi sahəsində atıla biləcək əsas addımlardan biridir. Bu baxımdan, Azərbaycan və

Rusiya bankları arasında münasibətlərin və əməkdaşlığın artırılması təbii proses olan miqrasiya sahəsində yaranan valyuta problemlərinin həllinə müsbət təsir göstərir.

2009-cu il noyabrın 10-da "Azərbaycan Respublikası hökuməti ilə Rusiya Federasiyası hökuməti arasında əmək miqrasiyası sahəsində əməkdaşlığa dair saziş" layihəsinin müzakirəsi keçirilmiş, iclasın yekunlarına dair protokol noyabrın 11-də imzalanmışdır [8, s.6]. Müzakirə zamanı əməkçi miqrant kimi fəaliyyət göstərən hər iki ölkə vətəndaşlarının hüquqlarının qorunması, onların sosial müdafiəsinin təmin olunması və fəaliyyəti üçün əlverişli şəraitin yaradılması məqsədilə, iki ölkə arasında miqrasiya sahəsində əməkdaşlığın gücləndirilməsinin mühüm əhəmiyyət kəsb etdiyi qeyd olunmuşdur. Miqrasiya proseslərinin, ümumilikdə dövlətlərin miqrasiya siyasətinin möhkəmlənməsi və təhlükəsizliyinin təmin olunmasında qanunların aliliyi prinsipləri hər iki ölkə arasında əməkdaşlığı sürətləndirmiş olur.

2009-2011-ci illərdə Rusiya Mərkəzi Bankının rəsmi statistikasına görə, il ərzində Azərbaycana bir milyard dollara yaxın, qeyri-rəsmi olaraq iki milyarda yaxın vəsait köçürülüb. İllər ötdükcə Rusiya ərazisində azərbaycanlı miqrantların sayının əhəmiyyətli dərəcədə azalması ilə əlaqədar 2013-cü ildə köçürmələrin məbləği təxminən 600 milyon dollar təşkil etmişdir. Bununla da cari ildə Rusiyadan Azərbaycana pul köçürmələrinin həcmi 45% azalmışdır [6, s.2]. Göründüyü kimi 2004-2013-cü illər ərzində Rusiyadan Azərbaycana pulköçürmələrində yüksəlmə və azalma müşahidə olunmuşdur. Ümumilikdə son iyirmi ildə Azərbaycanda həyata keçirilən sosial-iqtisadi siyasət, yeni iş yerlərinin açılması ilə nəticələnmişdir. İqtisadi tərəqqi xarici ölkələrə emiqrasiya axınının qarşısını alaraq respublikada vətəndaş hüquqlarının yüksək səviyyədə qorunduğunu təsdiq edir.

2010-cu ilin 15 yanvarında Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətində (DMX) Rusiyanın Azərbaycandakı səfiri ilə keçirilən görüşdə miqrasiya sahəsində respublikada aparılan islahatlar və qanunvericilikdən bəhs olunmuşdur. Həmçinin, Azərbaycan ərazisində yaşayan və haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olan Rusiya vətəndaşlarının da müvafiq sənədləşmə və qeydiyyat məsələləri müzakirə olunmuşdur [23]. Azərbaycan Respublikasında vahid miqrasiya siyasəti həyata keçirən DMX yarandığı 2007-ci ildən ötən qısa dövr ərzində Rusiya daxil olmaqla dövlətlər və təşkilatlarla regional, beynəlxalq səviyyədə – ikitərəfli, həmçinin çoxtərəfli münasibətlər qurmuşdur. Azərbaycanın strateji tərəfdaşı kimi Rusiya ilə qurulan miqrasiya əlaqələri tədricən əməkdaşlıq münasibətlərinin inkişafına təkan vermişdir. Bu səbəbdən, DMX-də Rusiyanın Azərbaycandakı səfiri və digər rəsmi nümayəndələrilə keçirilən görüşlər miqrasiyanın diplomatik münasibətlərdə mühüm yer tutduğunu təsdiq edir.

Rusiyanın Azərbaycandakı səfiri ilə DMX-də növbəti görüş 2013-cü il fevralın 12-də keçirilmişdir. Görüşdə Azərbaycanda miqrasiya sahəsində dövlət siyasəti, idarəetmə sisteminin inkişaf etdirilməsi, DMX-nin yaranma tarixi, fəaliyyəti, həmçinin son dövrlər Azərbaycan Respublikasının qanunvericiliyinə edilmiş əlavə və dəyişikliklər barədə ətraflı məlumat verilmişdir [24]. Göründüyü kimi Rusiya rəsmi nümayəndələri ilə keçirilən görüşlər, aparılan müzakirələr miqrasiya sahəsində qarşılıqlı müsbət təcrübənin öyrənilməsi və tətbiq olunmasının əhəmiyyətli ola biləcəyini göstərir. Azərbaycanın miqrasiya idarəçiliyi sahəsində əldə etdiyi mütərəqqi təcrübə Beynəlxalq Miqrasiya Təşkilatının (BMqT) illik hesabatlarında da qeyd olunur.

2000-ci ildə Rusiyadan Azərbaycana immiqrasiya edənlərin ümumi sayı – 2710, 2005-ci ildə – 1158; 2010-cu ildə – 1706; 2011-ci ildə – 1655; 2012-ci ildə – 1628 nəfər təşkil etmişdir. Həmçinin, 2000-ci ildə Azərbaycandan Rusiyaya emiqrasiya edənlərin ümumi sayı – 14906; 2005-ci ildə – 4600; 2010-cu ildə – 14500; 2011-ci ildə – 22316; 2012-ci ildə – 22287 nəfər təşkil etmişdir [3, s. 37]. Azərbaycan və Rusiyanın statistika sahəsində fəaliyyət göstərən dövlət qurumlarının 2013-cü ildə kitab halında nəşr olunan qarşılıqlı proqnozlarına əsasən 2000-2012-ci illərdə miqrasiya

əlaqələrində say etibarilə müəyyən dəyişikliklər olmuşdur. Göründüyü kimi, Azərbaycandan Rusiyaya gedən əməkçi miqrantların sayında ilk illər artım müşahidə olunsa da, sonrakı illərdə tədricən azalma baş vermişdir. Azərbaycanın respublikada, eləcə də regionda həyata keçirdiyi meqa layihələr, enerji siyasəti və qeyri-neft sektorunun inkişafı son illər əməkçi miqrantları özünə cəlb etməyə davam edir. Hazırda Azərbaycan dünyada yaşıl enerji istehsalçısı kimi tanınmağa başlayır, mövcud sahədə beynəlxalq tədbirlərə ev sahibliyi etməyə maraqlı olduğunu bəyan edir.

2014-cü ilin 19-20 iyun tarixlərində Azərbaycan nümayəndə heyəti Tatarıstan Respublikasının paytaxtı Kazanda Təhlükəsizlik məsələləri üzrə yüksək nümayəndələrin V Beynəlxalq görüşündə iştirak etmişlər [10, s.1]. Çıxışlar zamanı narkotiklərin yaratdığı qlobal təhlükə ilə mübarizə və transmilli cinayətkar qruplar tərəfindən qeyri-qanuni miqrasiyadan istifadənin qarşısının alınması sahəsində beynəlxalq əməkdaşlıq diqqət mərkəzində olmuşdur. Həmin görüş Azərbaycan-Rusiya regional miqrasiya əlaqələrinin öyrənilməsi baxımından gələcək əməkdaşlığa yol açmışdır.

12 oktyabr 2015-ci ildə DMX-nin nümayəndə heyəti Soçidə "Miqrasiyanın idarə edilməsinin yeni strategiyaları cəmiyyətin uğurlu inkişafının rəhni kimi" mövzusunda keçirilən "dəyirmi masa"da iştirak etmişdir. Qeyd edilmişdir ki, enerji-nəqliyyat sahələrində beynəlxalq və regional layihələrin həyata keçirilməsi, ölkədə mövcud olan ictimai-siyasi sabitlik, yüksək templi iqtisadi inkişaf əcnəbilərin Azərbaycana marağına səbəb olan əsas faktorlardır. Həmçinin, Azərbaycanda tolerantlığın yüksək səviyyədə olması miqrasiya proseslərinə təsir edən, heç də az əhəmiyyət kəsb etməyən amil kimi göstərilmişdir [11]. Müasir dünyada miqrasiya proseslərinin inkişafı və ölkələr arasında əməkdaşlıq əlaqələrinin genişlənməsində, sosial-iqtisadi reallıq qədər tolerantlıq – multikultural faktorun mühüm rol oynaya biləcəyini göstərir. Bu baxımdan, Azərbaycanda həyat tərzi olan tolerantlıq mühiti yüksək səviyyədədir. Respublikada azsaylı xalqlara münasibətdə mehriban qonşuluq şəraitinin mövcud olması əslində Azərbaycan tarixinin, mədəniyyətinin dərinliklərindən XXI əsrə qədər uzanan tərəqqi yolu və sivilizasiyaların qovuşması, vəhdət halında yaşamasıdır.

2015-ci il noyabrın 27-də MDB iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleyasının "Beynəlxalq miqrasiya: problemlər, əməkdaşlıq və inkişaf perspektivləri" mövzusunda 43-cü plenar iclasında Azərbaycan nümayəndə heyətinin rəhbəri "Miqrantların hüquqlarının qorunmasında ikitərəfli əməkdaşlığın əhəmiyyəti" mövzusunda çıxış etmişdir [12]. Qeyd etmək lazımdır ki, Azərbaycanın Rusiya ilə ikitərəfli və MDB çərçivəsində çoxtərəfli əməkdaşlığında miqrasiya məsələsi hər zaman aktual olmuşdur. Respublikanın postsovet ölkələrilə əməkdaşlıq münasibətlərində leqal, qanunsuz miqrasiya, miqrant hüquqları, miqrasiya idarəçiliyi, miqrasiya siyasəti kimi problemlər bu gün də, müzakirə obyekti kimi mövcud sahədə əlaqələrə baxışın mühüm elmi-nəzəri əhəmiyyət daşıdığını göstərir.

2018-ci il 17 dekabrda BMT Baş Assambleyası tərəfindən "Təhlükəsiz, qanuni və nizamlı miqrasiya üzrə Qlobal Pakt" və "Qaçqınlar üzrə Qlobal Pakt" qəbul olunmuşdur [9, s. 49]. Həmin beynəlxalq sənəd miqrantların hüquqlarının qorunmasına yüksək səviyyədə diqqət yetirilməsinin vacib olduğunu bəyan etmişdir. Azərbaycanın 1990-cı illərin əvvəllərində qarşılaşdığı işğal siyasətinin nəticəsində yüksələn daxili miqrasiyası və qaçqın problemi bir zamanlar mənfi nəticələrlə yadda qalmışdır. Keçən otuz ildən yuxarı vaxt ərzində Azərbaycanın qonşu Rusiya ilə çoxşaxəli münasibətlərinin inkişafı, əməkçi miqrantların hüquqlarının qarşılıqlı tanınması və qorunması istiqamətində əməkdaşlıq əlaqələrinin artırılmasının və yeni sənədlərin imzalanmasının müsbət nəticə verdiyini əks etdirir.

Rusiyada 2020-ci ilin iqtisadi monitorinqinə həsr olunmuş kitabçada 2014-2020-ci illərdə MDB ölkələrindən Rusiyaya gələnlər arasında Azərbaycanla bağlı illər üzrə ümumi statistik rəqəmlər diqqət çəkir: 04.12.2014 –

598646; 01.12.2015 – 531080; 01.12.2016; 542588; 01.12.2017 – 601704; 01.12.2018 – 667513; 01.12.2019 – 758377; 01.12.2020 – 548389 [33, s.19]. Pandemiya dünya xalqlarının həyatında mürəkkəb dövr kimi yaxın tarixə çevrilmişdir. Yüzlərlə, minlərlə insanın tələf olduğu 2020-ci il miqrasiya proseslərinə də mənfi təsir göstərmiş, rəsmi təmasların yox olması onlayn platformaların yaranmasına gətirib çıxarmışdır. Göstərilən illərdə müşahidə olunan statistik rəqəmlər faiz etibarilə yüksəlmiş və tədricən azalmağa doğru getmişdir.

Koronavirus epidemiyası dünyanın bütün ölkələrində əməkçi miqrantların vəziyyətini pisləşdirmişdir. Bu baxımdan Rusiya və Azərbaycan da istisna deyildi. 2020-ci ilin mart ayında karantin tədbirlərinin tətbiqi bir çox müəssisənin, xüsusən də çox sayda xarici işçinin çalışdığı sahələrdə fəaliyyətini qismən və ya tamamilə dayandırmışdı [13, s.1]. Pandemiyanın gətirdiyi məhrumiyyətlər, əməkçi miqrantların sosial vəziyyətinə təsirsiz ötüşməmişdir. Bir çox ölkələrdə, o cümlədən Azərbaycan və Rusiyada müəssisələrin bağlanması və ya məhdud qrafik ilə çalışması əmək miqrasiyası sahəsini iflic etmiş, xərclərin yüksəlməsinə səbəb yaratmışdır.

Rusiya Prezidentinin 15 iyun 2021-ci il tarixli “Yeni növ koronavirus infeksiyasının sonrakı yayılma təhlükəsi ilə əlaqədar olaraq Rusiya Federasiyasındakı xarici vətəndaşların və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyətinin tənzimlənməsinə dair müvəqqəti tədbirlər haqqında” Fərmanına əsasən Azərbaycan vətəndaşlarının daha çox səfər etdikləri və yaşadıqları ölkələrdən olan Rusiyada pandemiya dövrünün tələblərindən irəli gələrək miqrantlarla bağlı tətbiq edilmiş bir sıra güzəştlərin müddətinin uzadılması ikitərəfli münasibətlərdə miqrasiya amilinin əhəmiyyətinə diqqət çəkmişdir [26]. Qanunlar ən mürəkkəb şəraitdə belə miqrasiya proseslərinin tənzimləndiyini, əməkçi miqrantların və onların ailə üzvlərinin hüquqlarının qorunmasında ciddi əhəmiyyət daşıdığını göstərir. Azərbaycanlı miqrantlarla bağlı güzəştlərin uzadılması Rusiya ilə diplomatik-humanitar münasibətlərin davam etdiyini, mürəkkəb vəziyyətdən çıxış yolunun tükənmədiyini əks etdirir.

2021-ci illə müqayisədə regionda pul köçürmələri 2022-ci ildə fərqli dinamika nümayiş etdirib. Gürcüstan, Azərbaycan, Qazaxıstan və Belarusa pul köçürmələri müvafiq olaraq 55%, 40%, 19% və 18% artıb [20, s. 20-21]. Göstərilən ildə Azərbaycan daxil olmaqla ölkələrə pul köçürmələrinin ümumi statistikası fərqli olmuşdur. Burada da bir ölkə üçün dəqiq rəqəm söyləmək mümkün deyil. Bunun səbəbi mətbuata açıq olmayan məlumatlarla bağlıdır. 2021-2022-ci illər yaxud 2023-cü ilin son statistik göstəriciləri region dövlətlərinə daxil olan valyutanın faiz etibarilə yüksəldiyini və ya cüzi fərqlərlə azaldığını təsdiq edir.

Azərbaycan Respublikasının 10 noyabr 2020-ci ildə Vətən müharibəsində qazandığı qələbədən sonra Rusiya ilə diplomatik münasibətlər yeni əməkdaşlıq mərhələsinə keçid almışdır. Münasibətlərin gedişində miqrasiya əlaqələri davam etmiş və son dörd ildə keçirilən rəsmi görüşlər, aparılan müzakirələr mövcud sahədə yarana biləcək mənfi halların qarşısının alınması və həllində müsbət nəticələrlə yadda qalmışdır.

**Nəticə**

Azərbaycan Respublikasının Rusiya Federasiyası ilə diplomatik-siyasi münasibətləri uğurla davam edir. Tarixi qonşuluq əlaqələri müasir dövrdə iqtisadi-ticari münasibətlərin inkişafında mühüm rola malikdir. İkitərəfli münasibətlərdə miqrasiya əlaqələrinə baxış mövzunun hazırda aktual səsləndiyini göstərir. Mövcud sahədə dövlət nümayəndələrilə baş tutan qarşılıqlı təmas və imzalanan sənədlər əməkdaşlıq üçün perspektiv imkanlar açır. Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətinin Rusiya Federasiyası ilə əməkdaşlıq əlaqələrinin yaranması və davamında hər iki ölkənin miqrasiya sahəsində müsbət təcrübəsinin öyrənilməsi tədqiqat işinin elmi-nəzəri əhəmiyyət kəsb etdiyini əks etdirir. Məqalə boyu Azərbaycan-Rusiya münasibətlərində miqrasiya əlaqələrinə dair müsbət

məqamları aşağıdakı kimi sadalamaq mümkündür:

- ✓ Qlobal xarakter daşıyan miqrasiya proseslərində yaxından iştirak edən Qafqaz regionu və Cənubi Qafqazın inkişaf etməkdə olan dövləti Azərbaycanın Rusiya ilə münasibətlərində əmək miqrasiyası kimi həssas məsələlər vacib yer tutur;
- ✓ Mövzu çərçivəsində aparılan təhlillər göstərir ki, Azərbaycanın son otuz ildə keçdiyi siyasi və iqtisadi tərəqqi yolu, uğurlu enerji layihələri, yeni iş yerlərinin açılması respublikanın emiqrasiya proseslərinə pozitiv təsir göstərmiş və ölkədən gedənlərin sayı xeyli azalmışdır;
- ✓ Hər iki ölkədə müşahidə olunan sosial-iqtisadi inkişaf əmək miqrasiyasını aktuallaşdırır və əməkdaşlıq əlaqələrinin genişlənməsinə şərait yaradır;
- ✓ Azərbaycanın Rusiya ilə BMT və MDB çərçivəsində həyata keçirdiyi əməkdaşlıq münasibətlərində miqrasiya və əməkçi miqrantların hüquqlarının qorunması məsələsi diqqət mərkəzindədir;
- ✓ Diplomatik münasibətlərdə miqrasiya və diaspor kimi mühüm məqamların elmi-nəzəri təhlili gələcəkdə Azərbaycan-Rusiya miqrasiya əlaqələrinin öyrənilməsinə müsbət təsir göstərəcək.

**Ədəbiyyat:**


1. Азербайджан-Россия: новый этап в развитии отношений дружбы и сотрудничества / составитель: О.Садыхов. – Баку: Восток-Запад, 1997, – 164 с. (на азерб. яз.)
2. Алиев, И.Г. Развитие наша цель (в 125 книгах, III к.) / И.Г.Алиев – Баку: Азернешр, 2009, – 416 с. (на азерб. яз.)
3. Азербайджан и Россия. 2013: статистический сборник / Государственный Статистический Комитет Азербайджанской Республики / Федеральная Служба Государственной Статистики России / ответственные за выпуск: М.Б. Амирова, Л.С.Керимова, А.А.Халилова. – Баку: 2013, – 342 с. (на азерб. яз.).
4. Алиев, А., Мамедова, С. Интеграция мигрантов в Азербайджанской Республике. «Научно-исследовательский отчет 2013/20». КАРИМ Восток – Консорциум прикладных исследований по международной миграции / А.Алиев, С.Мамедова. – Италия, 2013, – 14 с.
5. Алекперова, Дж. Сколько граждан Азербайджана переселилось в Россию? / Дж.Алекперова // «Эхо», – 20 апреля 2013, – с. 1-5.
6. Алекперова, Дж. Азер Аллахверанов: «Количество азербайджанских мигрантов в РФ сократилось почти на 50 тысяч человек» / Дж.Алекперова // «Эхо», – 7 ноября, 2014, – с. 2.
7. Байрамов, В. Азербайджано – российские отношения строятся на дружбе и взаимовыгодном сотрудничестве / В.Байрамов // «Народная газета», – 5 апреля 2017, – с. 5. (на азерб. яз.).
8. В Баку обсуждался проект соглашения между правительствами Азербайджана и России о сотрудничестве в области трудовой миграции // г. «Азербайджан», – 11 ноября, 2009, – с. 6. (на азерб. яз).
9. Важные международные документы, подписанные в сфере миграции // журнал аналитической информации «Миграция», – № 21, – 2019, – с. 49. (на азерб. яз).
10. Делегация Азербайджана приняла участие в V Международной встрече высоких представителей по вопросам

безопасности // г. «Азербайджан», – 24 июня 2014 г., – с. 1. (на азерб. яз.).
11. Делегация Государственной миграционной службы Азербайджанской Республики приняла участие в «круглом столе» на тему «Новые стратегии управления миграцией как показатель успешного развития общества» в городе Сочи Российской Федерации / https://www.migration.gov.az/az/news_detail/9352 (13.10.2015) (на азерб. яз.).
12. Делегация Государственной миграционной службы Азербайджанской Республики была в официальном визите в городе Санкт-Петербург Российской Федерации / https://www.migration.gov.az/az/news_detail/9403 (30.11.2015) (на азерб. яз.).
13. Денисенко, М., Мукомель, В. Трудовая миграция в России в период коронавирусной пандемии / М.Денисенко, В.Мукомель // «Демографическое обозрение» – 2020. Том 7, №3, с.84-107.
14. Декларация о союзническом взаимодействии между Азербайджанской Республикой и Российской Федерацией / https://president.az/az/articles/view/55498 (22 февраля 2022) (на азерб. яз.).
15. Зенькович, Н.А. Ильхам Алиев. Взгляд из Москвы / Н.А.Зенькович – М.: Яуза, Эксмо, 2008, – 512 с.
16. Кулиев, А.Н. Из истории азербайджано-российских отношений / А.Н.Кулиев – Баку: «Ренессанс-А», – 2015, – 56 с. (на азерб. яз.).
17. Корнилов, Г.Е., Прищепа, А.И. Азербайджанцы западной Сибири / Г.Е.Корнилов, А.И.Прищепа // «Северный регион: наука, образование, культура». – № 4 (52) 2022, – с. 48-54.
18. Мамед-заде, Н.С. Взаимоотношения азербайджанской республики со славянскими странами СНГ и восточной Европы / Н.С.Мамед-заде – Баку, 2006, – 145 с.
19. Мустафаева, Р.С. Россия-Азербайджан: Роль диаспор в развитии культурно-гуманитарного сотрудничество / Р.С.Мустафаев // Вестник Пермского Государственного Гуманитарно-Педагогического Университета. 2015. с.99-101.
20. Миграционный прогноз на 2023 год: Восточная Европа и Центральная Азия. 6 тенденций в сфере миграции, на которые стоит обратить внимание в 2023 году. Истоки, ключевые события и приоритеты для Европы / İnternational Center for Migration Policy Development (ICMPD), – pp. 1-37.
21. Нагиев, С.К. Участие Азербайджана в миграционных процессах в постсоветском пространстве / С.К.Нагиев // «Вестник Бакинского Университета». Серия естественных наук, – № 4, 2006, – с. 144-149.
22. Нагиев, С.К. Миграция населения из Азербайджана в ближнее и дальнее зарубежье / С.К.Нагиев // «Вестник Бакинского Университета». Серия естественных наук, – № 3, 2008, – с. 191-196.
23. Начальник Государственной миграционной службы принял посла Российской Федерации в Азербайджане / https://www.migration.gov.az/az/news_detail/8365 (15.01.2010) (на азерб. яз.).
24. Начальник Государственной миграционной службы принял посла Российской Федерации в Азербайджане / https://www.migration.gov.az/az/news_detail/9008 (13.02.2013) (на азерб. яз.).
25. Пешкова, В.М. Эволюция «этнического» бизнеса в России: сравнительный анализ предпринимательства мигрантов из Азербайджана и Кыргызстана / В.М.Пешкова // «Социологическая наука и социальная практика». – №4(36), 2021, – с. 205-220.
26. Продлен срок льгот, предоставляемых иностранцам и лицам без гражданства в Российской Федерации / https://www.migration.gov.az/az/news_detail/14631 (16.06.2021) (на азерб. яз.).
27. Резникова, О. Перспективы миграций на постсоветском пространстве /

О.Резникова // «Кавказ и глобализация» – Том 2, Выпуск 2008, – с. 81-96.
28. Статистика международной миграции. Практическое руководство для стран Восточной Европы и Центральной Азии. Европейская Экономическая Комиссия ООН Фонд ООН в области народонаселения / подготовитель О.Чудиновских, – Женева: 2011, – 103 с.
29. Сеидбейли М.Г. Азербайджанская диаспора в России: особенности и тенденции формирования и развития (1988 – 2010 гг.). Второе дополненное издание / М.Сеидбейли – Баку: Издательский дом «Шарг-Гарб», – 2011, – 576 с.
30. Тахирова, Х.М. Экономико-географические проблемы влияния миграции на демографические процессы (на примере Нахчыванской Автономной Республики) / Х.М.Тахирова / автор. дисс. док. философии по географии. – Баку, 2014, – 28 с. (на азерб. яз.)
31. Трофимов, Е.А. Миграционные процессы на постсоветском пространстве в XXI веке / Е.А.Трофимов // Bulletin of Baikal State University, 2020, – vol. 30, no. 1, – pp. 23-29.
32. Толмачева, А.Ю. Семьи мигрантов из постсоветских государств: между родиной и Россией / А.Ю.Толмачева // Вестник Института социологии. 2022. – Т. 13. № 3, – с. 49-69. EDN: PGADOO. DOI: 10.19181/vis.2022.13.3.830.
33. Флоринская, Ю.Ф. Миграция в Россию: самый низкий уровень за десятилетие / Ю.Ф.Флоринская // «Мониторинг экономической ситуации в России». 2020. – № 30(132). Декабрь, – с. 16-20.
34. Эйвазова, Н.В. Миграционные процессы в северном Азербайджане в XIX – начале XX века / Н.В.Эйвазова // дисс. на соис. уч. степ. док. фило. по истории. – Баку: «Турхан» НПБ, 2016, – 31 с.
35. Юнусов, А.С. Миграционные процессы в Азербайджане / А.С.Юнусов – Баку: «Адильоглы», 2009, – 344 с.
36. Юнусов, А.С. Фактор интеграции в миграционных процессах в Азербайджане / А.С.Юнусов / «Научно-исследовательский отчет 2013/08». КАРИМ Восток – Консорциум прикладных исследований по международной миграции, – Италия, 2013, – 17 с.

***Açar sözlər:*** *Şuşa, təhlükəsizlik, miqrasiya, əməkdaşlıq, regional, beynəlxalq, bəyannamə*

**Agil Ahmadov**
*The Institute of History and Ethnology named after A.A. Bakykhanov (ANAS)*
*Ph.D. Candidate, Associate Professor, PhD in History*

## A LOOK AT THE AZERBAIJAN-RUSSIAN MIGRATION TIES

### ABSTRACT

The XXI century, in which information technologies are rapidly developing, has also expanded the area of migration processes. Migration has never been as relevant as it is now. Especially as a result of natural phenomena and military conflicts, migration is more like forced displacement than a natural process. At a time when migration processes are going through a sensitive period, the study of such important points as labor migration in interstate relations allows us to understand the global process better. In the scientific work, the migration factor against the background of diplomatic and economic relations was studied based on statistical data and documents. The study uses the historical-critical method of comparison. The author draws a conclusion based on a look at bilateral migration ties using 36 scientific literature and sources. The history of migration ties,

which are of no minor importance in Azerbaijani-Russian relations, attracts attention. The friendly relations between the two states and interethnic ties positively impact the involvement of labor migration in discussions and the emergence of new prospects for cooperation. The topic "A look at Azerbaijani-Russian migration ties," researched by the author, is of interest to both states and is one of the important points contributing to the development of bilateral relations. The article briefly digresses the history of Azerbaijani-Russian migration relations and lists. It analyzes in detail the important factors that contributed to cooperation in the field of migration, especially in the period since the early 1990s.

***Keywords:*** *South Caucasus, migration, history, cooperation, labor migration*

**Агиль Ахмедов**

***Диссертант программы доктора наук по специальности «История международных отношений» Института Истории и Этнологии им. А.А.Бакыханова Национальной Академии Наук Азербайджана, доктор философии по истории, доцент***

## ВЗГЛЯД НА АЗЕРБАЙДЖАНО-РОССИЙСКИЕ МИГРАЦИОННЫЕ СВЯЗИ

### РЕЗЮМЕ

XXI век, в котором стремительно развиваются информационные технологии, также расширил ареал миграционных процессов. Миграция никогда не была такой актуальной, как сейчас. Особенно в результате природных явлений, военных конфликтов и других причин миграция больше похожа на вынужденное перемещение, чем на естественный процесс. В то время, когда миграционные процессы проходят чувствительный период, изучение таких важных моментов, как трудовая миграция в межгосударственных отношениях, позволяет лучше понять глобальный процесс. В научной работе миграционный фактор на фоне дипломатических и экономических отношений исследовался на основе статистических данных и документов. Используя историко-критический метод сравнения, были проанализированы фактические материалы, привлеченные к исследованию. На основе взгляда на двусторонние миграционные связи с использованием 36 научных литератур и источников был сделан научный вывод. История миграционных связей, представляющая малое значение в азербайджано-российских отношениях, привлекает в этом плане внимание. Существующие между обоими государствами дружественные отношения, межнациональные связи положительно влияют на вовлечение трудовой миграции в дискуссии и появление новых перспектив сотрудничества. Исследованная автором тема представляет интерес для обоих государств и является одним из важных моментов, способствующих развитию двусторонних отношений между ними. В статье представлен краткий экскурс в историю азербайджано-российских миграционных связей, перечислены и подробно проанализированы важные факторы, способствовавшие сотрудничеству в сфере миграции, особенно в период с начала 1990-х годов.

***Ключевые слова:*** *Южный Кавказ, миграция, история, сотрудничество, трудовая миграция*

DOI: 10.30546/2309-1347.2024.2.0024

# BEYNƏLXALQ MÜNASİBƏTLƏR TARİXİ
# HISTORY OF INTERNATIONAL RELATIONS

UOT: 655.51; 347.232.1

**YƏHYA BABANLI**
**AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun doktorantı, tarix üzrə fəlsəfə doktoru**
*e-mail: y_babanli@yahoo.com*

## AZƏRBAYCAN DİASPORUNUN MÜASİR İNKİŞAF SƏVİYYƏSİ: "İCTİMAİ DİPLOMATİYA" VƏ "YUMŞAQ GÜC" TƏZAHÜRLƏRİ

### Giriş

Hazırda dünyada baş verən geosiyasi və geoiqtisadi dəyişikliklər, elmi-texniki tərəqqi, virtuallaşma, sosial şəbəkələrin geniş vüsət alması, ən əsası, sərhədlərarası sərbəst giriş-çıxış imkanları miqrasiya proseslərini yüksək dərəcədə intensivləşdirir. Qloballaşma şəraitində milyonlarla insan təmin olunmuş həyat tərzi sürmək və komfort yaşamaq arzusu ilə mənşə ölkəsindən təyinat ölkəsinə səpələnir. Bütün bunlar dövlətlərin etnososial və etnomədəni konfiqurasiyasını dəyişməklə yanaşı, yeni multikultural cəmiyyətlərin - etnik birliklər, milli icmalar, ictimai qruplar və diaspor təşkilatlarının yaranması ilə nəticələnir. Bu nöqteyi-nəzərdən yeni dövr etnik-milli baxımdan müasir əməkdaşlıq və dialoq sahələrinin yenilənməsini qaçılmaz edir. Beləliklə, sosial-mədəni konstitusiya quruluşuna malik olan diaspor daxili və xarici təsirlərə məruz qalaraq dəyişməyə məhkum olur və müvafiq forma alır. Bu fenomenin qeyri-bərabər şəbəkə quruluşu son dərəcə mürəkkəb olmaqla, sistem xüsusiyyətlərindən biri kimi özünü kəskin göstərir, gözlənilməz hallar baş verir.

Məhz bu xüsusda, diaspor və lobbi anlayışları müasir dövlətlərarası münasibətlərin atributlarından sayılır. Diaspor mənşəyinə görə sosial-mədəni hadisə olub müxtəlif cəhətlərə malik etnik-milli forma və məzmun daşıyır. Diaspor anlayışına konseptual şəkildə yanaşmaq, təhlil etmək və onun tədqiqinə ayrı-ayrı nəzəri-praktiki məsələləri vahid bir sistem halına gətirmək üçün yerli və xarici tədqiqatçılar tərəfindən daim cəhd edilir. Mütəxəssislər diasporu "yeni həyat tərzinin davranışı" adlandırırlar. Diasporlar yalnız tarixi vətənlərindən kənarda olan icmalara şamil edilir və bu xüsusda formasını dəyişir. Öz gücünü və təsir imkanlarını artırmaq məqsədilə lobbiçilik sahəsində təzahür edir. Eyni zamanda, etnik lobbiçilik də indiki dövrün çağırışı kimi prioritetdir. Siyasi-iqtisadi məzmuna malik lobbi fəaliyyəti formaca daha həssas-strateji mahiyyət kəsb edir. Çünki, bu yöndə xarici təhdidlərə qarşı duruş gətirmək gərəkir və üstəlik nəzərə alsaq ki, bu proses sabit deyil, onda daha da diqqətli olmaq lazımdır. Ona görə ki, özünü inkişaf etdirən sosial-mədəni sistem olaraq diasporlar yeni təşkilatlar formalaşdırır. Hər bir halda diasporun göstərilən spesifik xüsusiyyətləri sistem təşkil edir - onun məqsədyönlülüyü fəaliyyəti və hərəkətliliyi ilə rabitə təşkil edir.

Belə olduğu təqdirdə müasir dövrün əsas aktorlarından birinə çevrilən, etnik məzmun daşıyan mürəkkəb konstruksiyalı və insanların mobilizasiyası fonunda yaranan diaspor potensialının effektiv koordinasiya edilməsi, bu istiqamətdə adaptasiya və inteqrasiyaya diqqət yetirilməsi və lobbi fəaliyyətinin

düzgün yönləndirilməsi ayrı-ayrı dövlətlərin humanitar siyasətlərində mühüm yer tutur. Diasporlar qloballaşmanın transmilli faktoru kimi beynəlxalq münasibətlər sisteminin "milli özünüdərk və özünüifadə" elementi hesab olunur. Ümumilikdə götürsək etnosiyasi araşdırmaçılar və humanitar sahə üzrə mütəxəssislər diasporu indiki zamanın trendi olaraq görürlər.

Hazırda "ictimai diplomatiya" (ingiliscə: public diplomacy və ya xalq diplomatiyası - xarici ictimaiyyətdə hökumətin strateji hədəflərinə qarşı əminlik və ya dözümlülük qurulması məqsədi ilə hökumət hesabına xarici ictimaiyyətin məlumatlandırması və onlara təsir etməyin vasitəsi ilə bilavasitə əlaqə yaradılmasıdır) və "yumşaq güc" (ingiliscə: soft power) - siyasi hakimiyyət forması kimi ifadə olunur. Yumşaq gücə apellyasiya və cazibə yolu ilə başqalarının üstünlüklərini formalaşdırmaq qabiliyyəti daxildir. Yumşaq gücün əsas xüsusiyyəti qeyri-zorakılıqdır; yumşaq gücün valyutası isə mədəniyyət, siyasi dəyərlər və xarici siyasətdir) müasir dövlətlərarası münasibətlərdə təsir elementi kimi xarakterizə olunur. "İctimai diplomatiya" və onun məntiqi davamı kimi "xalqlararası diplomatiya" (public diplomacy) diaspor quruculuğu kimi mühüm sahədə sosial-mədəni münasibətlərin inkişafına əhəmiyyətli təsir göstərir. Eyni zamanda da dövlətlərin xarici siyasət strategiyasında xüsusi rol oynayır və "yumşaq güc" faktoru olaraq diplomatik mexanizmlərin diaspor işinə xeyli dərəcədə müsbət təsir göstərdiyini əks etdirir. Məhz diaspor anlayışının bu istiqamətdə formalaşması və təkamülünün izlənilməsi, müxtəlif xalqların timsalında müvafiq sahədə diasporlaşma, onun siyasi məqsəd və vəzifəsi, yəni lobbiləşməsi proseslərinin nəzərdən keçirilməsi, habelə Azərbaycan diasporu, eləcə də lobbiçiliyinin hərəkət və fəaliyyətini, hədəfinin nədən ibarət olduğunun təhlil edilməsini dövrün tələbi olaraq qeyd etmək mümkündür.

XX əsrin sonlarında dünya nizamının dəyişməsi, kürəsəl proseslər və regional hadisələr fonunda Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etməsi, təkcə ölkə ərazisində yaşayan azərbaycanlıların həyatında deyil, bəşər tarixinin müxtəlif dövrlərində ayrı-ayrı ölkələrə səpələnən, oranı özlərinə ikinci vətən seçən soydaşlarımızın və həmvətənlərimizin də həyatında yeni bir mərhələnin başlanmasına səbəb oldu. Xaricdə yaşayan azərbaycanlılarla əlaqələrin yaradılması, diaspor quruculuğu və bu sahədə təşkilatlanma mühüm əhəmiyyət kəsb edirdi. Bu amil milli və dünyəvi dəyərlərin qorunması baxımından vacib məsələ olduğu üçün dövlət səviyyəsində müvafiq işlərin görülməsini və müasir dövrün tələblərinə cavab verən mexanizm qurulmasını aktual etmişdi. Zaman keçdikcə bunu daha da dərindən hiss etməyə başladıq və milli dövlətçilik quruculuğunda, xarici siyasət strategiyasında "xaricdə yaşayan azərbaycanlılar" anlayışının, habelə diasporun yeri və rolunun vacib olduğunu hiss etdik.

XXI əsrin qeyri-müəyyən nizamı fonunda sürətlə dəyişən dünyanın yeni reallıqları bütün etnoslar qarşısında milli nöqteyi-nəzərdən taleyüklü vəzifələr qoyur. Dövlətlər və xalqlar arasında gedən inteqrasiya prosesləri, planetin ümumi mənzərəsini köklü şəkildə dəyişdirən hadisələr bəşər sivilizasiyasının növbəti inkişaf mərhələsinə keçid etdiyini göstərir.

Bütün bunlar bir daha göstərir ki, müasir dövrün trendinə çevrilən diasporun Azərbaycan kontekstində tədqiq və təhlili vacib əhəmiyyət daşıyır. Bu sahənin yeni fazaya daxil olaraq təsir elementinə çevrilməsi, xalqlararası əlaqələrdə və dövlətlərarası münasibətlərdə oynadığı "ictimai" və "yumşaq" rolun araşdırılması milli və bəşəri nöqteyi-nəzərdən effektiv ola bilər.

"Müasir dövrdə baş verən qlobal transformasiyalar, dövlət sərhədlərinin dəyişməsi, dünya xəritəsində yeni dövlətin meydana gəlməsi şəraitində biz yer kürəsi əhalisinin kütləvi şəkildə yerdəyişməsinin və ayrı-ayrı ölkələrdə milli diasporların formalaşmasının şahidi oluruq. Diasporların yaranması və formalaşması proseslərinin tədqiqi təkcə akademik tarixi tədqiqat üçün deyil, ilk növbədə, öz vətənindən kənarda yaşayan ayrı-ayrı millətlərin milli maraqlarına cavab verən bir

məsələdir. Bu kontekstdə dünyanın müxtəlif regionlarında fəaliyyət göstərən Azərbaycan diasporunun formalaşmasının hərtərəfli və dərindən öyrənilməsi xüsusi elmi, siyasi və sosial-mədəni aktuallıq kəsb edir" [1].

Göründüyü kimi, "ictimai diplomatiya" və "yumşaq güc" elementlərini ehtiva edən diaspor və lobbi məfhumları hər bir sahədə, inkişaf prosesində və müxtəlif problemlərdə özünü bariz şəkildə göstərməyə başladı. Təsadüfi deyil ki, Azərbaycan Respublikasının müstəqilliyinin ilk illərində qəbul edilən, milli dövlətçiliyimiz üçün strateji əhəmiyyət kəsb edən müvafiq sənədlərdə xaricdə yaşayan azərbaycanlıların hüquq və əsas azadlıqlarının təmin edilməsi diqqət mərkəzində saxlanılmışdır.

Azərbaycanın dünyada artan nüfuzunun daha da möhkəmlənməsi, ölkəmizin beynəlxalq aləmdə tanıdılması və təbliğ olunmasında dövlətlə yanaşı, diaspor təşkilatlarının da payı vardır. Onların üzərinə Ana vətənin hüdudlarından kənarda, beynəlxalq miqyasda Azərbaycanın fəal təmsilçi və təbliğatçısı kimi kifayət qədər böyük vəzifə və məsuliyyət düşür. Diaspor təşkilatlarının fəaliyyət istiqamətlərindən biri də Azərbaycanın beynəlxalq arenada tanınmasına, qədim və zəngin mədəniyyətə malik olan xalqımız haqqında obyektiv ictimai rəyin formalaşmasına kömək etməkdir. Bu sahədə optimal yollardan biri də xalqlararası münasibətlərin möhkəmlənməsinə xidmət edən fəaliyyətin genişlənməsidir. Azərbaycan diaspor təşkilatları öz milli-mənəvi dəyərlərinin qorunub saxlanması, xaricdəki azərbaycanlı nəslin sağlam ruhda böyüməsində və bu qəbildən olan digər missiyaların yerinə yetirilməsinə töhfə verir. Burada "ictimai diplomatiyanın" xalqlararası münasibətlərə müsbət təsiri və bunun diplomatik missiyada təzahürü kimi mühüm məsələlər Azərbaycan diaspor təşkilatlarının fəaliyyətində yeni perspektiv əməkdaşlıq üçün zəmin yaratmaqdadır. Nəticə etibarilə Azərbaycan haqqında dünya ictimaiyyətində aydın təsəvvür yaranır, etnik xüsusiyyətlərimiz, multikultural və tolerant həyat tərzimiz beynəlxalq münasibətlərə asanlıqla təqdim olunur.

Azərbaycan dövləti dünya azərbaycanlılarının real və potensial imkanlarını dəyərləndirmək, bunu milli yöndə səfərbər etmək, müstəqil dövlət quruculuğu prosesində iştiraka cəlb etmək, vahid ideologiya - "azərbaycançılıq" ətrafında birləşmək və mütəşəkkil qüvvəyə çevirmək səylərinə ciddi əhəmiyyət verir.

Bu xüsusda, 2001-ci ildə strateji və əhəmiyyətli addımlardan biri noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi olmuşdur. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 2001-ci il mayın 23-də imzaladığı sərəncama əsasən keçirilmiş bu qurultay dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın və həmvətənlərimizin müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, dünya azərbaycanlıları arasında birliyin və həmrəyliyin təmin olunması, habelə Azərbaycan icmaları, cəmiyyət və birliklərinin fəaliyyətinin gücləndirilməsi və koordinasiyası üçün şərait yaratdı. Həmçinin, elmi-intellektual potensialın formalaşmasına və inkişafına rəvac verdi. Bu siyasətin davamı olaraq, Azərbaycan ziyalılarından, tanınmış şəxslərdən, dövlət və hökumət nümayəndələrindən ibarət Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının yaradılması bu sahəyə xüsusi əhəmiyyət verildiyini bir daha təsdiqlədi. Bakı şəhərində Dünya Azərbaycanlılarının 2006-cı ildə ikinci, 2011-ci ildə üçüncü, 2016-cı ildə dördüncü və Şuşa şəhərində 2022-ci ildə beşinci Qurultayları keçirilmişdir [9].

İndiki zamanın tələbləri nəzərə alınaraq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2008-ci il noyabrın 19-da imzaladığı müvafiq sərəncamla Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin əsasında Diasporla İş üzrə Dövlət Komitəsi yaradılması da məhz zərurətdən irəli gəlirdi ki, bu da diaspor sahəsinin yeni mərhələdə inkişafına hesablanmışdı. Komitənin yaradılmasından sonra xaricdəki azərbaycanlıların təşkilatlanması və onlarla müvafiq işin aparılması daha geniş vüsət almış, bu sahədə konseptual yanaşma ortaya qoyulmuşdur.




Birinci Qurultaydan sonra Azərbaycan diaspor fəaliyyəti təşəkkül tapmış və mövcud sahədə tamamilə yeni mərhələ başlamışdır. Ümummilli lider Heydər Əliyev bu sahədə sistemli dövlət siyasətinin həyata keçirilməsini təmin etmək məqsədilə 2002-ci il 5 iyul tarixində "Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması barədə" fərman imzalamışdır [7].

Komitənin yaradılması xaricdəki Azərbaycan cəmiyyətlərinin, birliklərinin və dərnəklərinin fəaliyyətinin vahid mərkəzdən koordinasiyasına, habelə onların dövlətin birbaşa diqqəti və qayğısı ilə əhatə olunmasına geniş imkanlar vermişdir. Komitə dünya azərbaycanlılarının konsolidasiyasında, diaspordan lobbiyə doğru inkişafında yeni bir mərhələnin başlanğıcını qoymuşdur. Komitə qısa müddətdə dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın və həmvətənlərimizin "azərbaycançılıq" ideologiyası və Azərbaycan dövləti ətrafında "mütəşəkkil ordu" kimi birləşməsi istiqamətində bir sıra işlər görməyə müvəffəq olmuşdur.

2002-ci il 27 dekabr tarixində Azərbaycan Respublikasının Milli Məclisində "Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmiş və bu sahədə dövlət siyasətinin məqsəd və vəzifələri müəyyən olunmuşdur [9].

"Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında" Azərbaycan Respublikası Qanununa əsasən, xaricdə yaşayan və fəaliyyət göstərən azərbaycanlıların əsas hüquq və azadlıqları Azərbaycan dövləti səviyyəsində qorunur. Habelə, iş adamı olan azərbaycanlıların ölkə iqtisadiyyatına sərmayə qoyması üçün qanunda gömrük, vergi güzəştləri nəzərdə tutulur. Bu qanun xaricdə yaşayan azərbaycanlılarla bağlı Azərbaycan Respublikasının dövlət siyasətinin məqsəd və prinsiplərini və bu siyasətin həyata keçirilməsini müəyyənləşdirən mühüm sənəd kimi təqdirəlayiqdir.

Bu dövr ərzində Azərbaycan diasporunun etnik rəngarəngliklərini və milli koloritlərini qoruyub saxlaması, soydaşlarımızın və həmvətənlərimizin tarixi vətənləri ilə əlaqələrinin yaradılması, onlara öz kimlikləri və ata-baba yurdları qarşısında duran vəzifə və funksiyaların xatırladılması məqsədilə dünya azərbaycanlılarının qurultayları keçirilmiş, dövlət proqramları və həmrəylik xartiyası qəbul edilmişdir [7].

Hazırda bu sahədə yeni mərhələyə başlanılmışdır. Belə ki, xaricdə "Azərbaycan evləri"nin yaradılması, milli tariximizi əks etdirən eksponatların sərgisinin keçirilməsi, milli brend məhsullarından ibarət yarmarkaların təşkili, butiklərin açılması kimi tədbirlərin reallaşdırılması ənənəsi mühüm əhəmiyyətə malikdir. "Azərbaycan evləri"nin yaradılması bu baxımdan milli diaspor təşkilatlarımızın fəaliyyət göstərdiyi ölkələrdə "ictimai diplomatiya"nın, xalqlararası münasibətlərin genişlənməsinə əlverişli təsir göstərir.

Qeyd etməliyik ki, diaspor işində nailiyyətlərlərimizlə yanaşı problemlərimiz də möv-

cuddur. Bunun da ən başlıca səbəbi Azərbaycan diasporunun imkanlarından tam mənada istifadə edə bilməməyimiz və fərdi marağın ümumi mənafedən üstün tutulması problemidir. Bu əsasən elmi potensialdan, kütləvi informasiya vasitələrindən və müasir texnologiyanın imkanlarından yetərincə yararlanmamağımızdan irəli gəlir. Eləcə də şəxsi ambisiyalar, fərdi maraqların etnik-milli mənafedən üstün tutulması, diaspor rəhbərlərinin öz arlarında "birincilik" mübarizəsi Azərbaycan diasporunu "ictimai diplomatiya" və "yumşaq güc" üsullarından tamamilə uzaq salır.

Bu gün xarici ölkələrdə açılan "Azərbaycan evləri"nin konsepti azərbaycanlıların birliyi və həmrəyliyi, milli inkişafı ilə yanaşı, "ictimai diplomatiya" və "yumşaq güc"ə hesablanmışdır. Burada Azərbaycan haqqında aydın təsəvvürün yaradılması, ziyarətçilər üçün geniş məlumatlılığın olması və gerçəkləşdirilən müxtəlif tədbirlərin qayəsi bu iki istiqamətə hesablanmışdır.

Bildiyimiz kimi, diaspor amili müasir dünyada mühüm əhəmiyyət kəsb etməklə, beynəlxalq aləmdə də xalq diplomatiyasının subyekti statusu qazanmışdır. Hətta, mütəxəssislər diasporu müasir dünyanın ayrılmaz atributu hesab edirlər, çünki diaspor dünyada gedən qlobal proseslər, geosiyasi hadisələr fonunda baş verən dəyişikliklər nəticəsində "siyasi alətə" çevirilərsə, milli müxtəlifliyin qorunmasına, saxlanılmasına zərbə vura bilər. Bu da bizi bir daha düşündürməyə vadar edir və milli dövlətçiliyimizdə həssas məsələ hesab oluna biləcək diaspor potensialından düzgün istifadə etməyin və istqamətləndirməyin vacibliyini ön plana çəkir.

Diaspor fəaliyyətində başlıca şərt mənsub olduğu etnik azlığın mədəniyyətini, dilini qoruyub saxlamaqdan ibarət olmalıdır. Beynəlxalq səviyyədə isə müxtəlif diasporlarla birgə milli və bəşəri inkişaf kontekstində fəaliyyət planlarının, proqramlarının hazırlanması və tədbirlərin həyata keçirilməsi məqsədəuyğundur. Nəzərə almalıyıq ki, diaspor könüllü fəaliyyət olub, ictimai xarakter daşıyır. Diasporu milli maraqların, adət-ənənələrin qorunmasında vasitə kimi görürüksə, onun hər hansı bir mərkəz adı altında birləşməsi o qədər də əhəmiyyət kəsb etmir. Buna görə də burada sağlam diaspor şüuruna malik şəxsin hər hansı bir mərkəzləşdirilmiş təşkilatda birləşməsi vacib deyil. Əgər o kəsdə "diaspor şüuru" formalaşıbsa, o, yaşadığı cəmiyyətə inteqrasiya etməklə öz milli xüsusiyyətlərini, dilini qoruyub saxlayacaq və vətənini təmsil edəcəkdir. Əslində bu bir neçə nəfərin hansısa təşkilatda, konqresdə birləşib, ayda, ildə və yaxud da xüsusi günlərdə bir araya gəlməsindən və tədbir keçirməsindən daha faydalıdır. Həmçinin, akademik yanaşma mühüm əhəmiyyətə malikdir. Xarici ölkələrin dərs vəsaitlərinə ölkəmizlə bağlı məlumatların salınması və ya təhsil ocaqlarında azərbaycanlı mütəxəssislərin iştirakı ilə dərs saatlarının keçirilməsi effektiv ola bilər.

Diaspor çox mürəkkəb təyinata malikdir. Bundan düzgün istifadə edilməzsə, müxtəlif qüvvələr diasporu neqativ hallar üçün vasitə kimi istifadə edə bilərlər. Ona görə də strategiya düzgün qurulmalıdır ki, bundan xüsusi maraqlar üçün yox, ümumi məqsəd və vəzifə, milli maraq və mənafe üçün istifadə edilsin.

O cümlədən, xaricdə azərbaycanlılar ilə bağlı üç həssas və strateji məsələyə xüsusi diqqət yetirilməli, İranın Qərbi və Şərqi Azərbaycan ostanlığı (Cənubi Azərbaycan), Rusiyanın Dağıstan Respublikası (Dərbənd) və Gürcüstanın Aşağı Kartli diyarı (Borçalı) ərazisində yaşayan azərbaycanlılar diaspor kateqoriyasına şamil edilməməlidir. Çünki onlar tarixi-etnik vətənlərində yaşayırlar. Bəllidir ki, diaspora aborigenlər şamil olunmur və gəlmələr bu kateqoriyaya daxildir. Bütün sadalanan məsələlərə kompleks baxış və yanaşmanın ortaya qoyulması diaspor sahəsində siyasətə məsul qurum olan Diasporla İş üzrə Dövlət Komitəsinin üzərinə düşür.

Bununla, Diasporla İş üzrə Dövlət Komitəsi ilə Xarici İşlər Nazirliyinin müvafiq vəzifələrinə yenidən baxmaq və konkretləşdirmək lazımdır. Daha yaxşı olar ki, Nazirliyin xaricdə nümayəndəliklərinin olmasını nəzərə

alaraq, o, təşkilati işlər və təmsilçi seçimi məsələlərində birbaşa iştirak etsin, Komitə isə onların inkişafına kömək məqsədilə öz tövsiyə xarakterli təkliflərini, proqramlarını versin və keçirilməsi planlaşdırılan müvafiq tədbirin təsnifatına uyğun materiallarla onları təmin etsin. Xaricdə yaşayan azərbaycanlı ailələri bu fəaliyyətə cəlb etmək üçün stimullaşdırıcı tədbirlər həyata keçirilməli və diaspor kontingentin ictimai mənşəyi, demoqrafik vəziyyəti, miqrasiya etmə səbəbləri və hansı işlə məşğul olduqları nəzərə alınaraq iş aparılmalıdır. İstənilən diaspor nümayəndəsinin sosial mənşəyindən asılı olmayaraq, Komitə ilə əlaqə yaratmaq imkanı olmalıdır. Bunlarla yanaşı, aşağıdakı tədbirlərin görülməsi effektiv ola bilər:

- ✓ Komitənin fors-major hallarda fəaliyyətini operativ şəkildə reallaşdırmaq və yüksək keyfiyyətlə təmin etmək.
- ✓ Komitənin qeyri-müəyyən vəziyyətlərdə öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən digər icra hakimiyyəti orqanları, yerli özünüidarəetmə orqanları, qeyri-hökumət təşkilatları, Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurası, Azərbaycan Respublikasının səfirlik, konsulluq və digər diplomatik nümayəndəlikləri, xaricdə yaşayan azərbaycanlılar, eləcə də onların təsis etdiyi diaspor təşkilatları, habelə Azərbaycana dost münasibət bəsləyən digər xalqların diasporları ilə qarşılıqlı əlaqədə olmaq;

Belə ki, Komitənin istənilən situasiyalara çevik reaksiya verən mexanizmini qurmaq və etibarlı imic qazanması ideoloji baxımdan vacibdir.

Xaricdə ölkəmizin iqtisadi və siyasi maraqlarını təmin etmək məqsədilə lobbi fəaliyyətini inkişaf etdirmək gərəkdir. Bu xüsusda lobbi institutunun yaradılması, milli qanunvericiliyin qəbul edilməsi və müvafiq tədbirlərin həyata keçirilməsi üçün mexanizmin qurulması məqsədəuyğundur. Həmçinin Azərbaycan diasporunun inkişafına dəstək olmaq və bu istiqamətdə fəaliyyət göstərən təşkilatların maddi-texniki bazasını gücləndirmək, ölkəmizin tanıtımı və təbliği ilə bağlı həyata keçirilən yerli, regional və beynəlxalq layihə və proqramları qrant şəklində məqsədli maliyyələşdirmək, bu sahədə nəzəri-praktiki konfrans, seminar, simpozium və digər tədbirlərin təşkili üzrə layihələri dəstəkləmək məqsədilə Azərbaycan Diasporuna Dəstək Fondunun yaradılması ümumi işimizin xeyrinə hesab oluna bilər.

Ən əsası, diasporun hərtərəfli inkişafı üçün həm mövcud olduğu ölkənin, həm tarixi vətəninin, həm də beynəlxalq təşkilatların, beynəlxalq hüququn norma və prinsiplərinə uyğun strategiya qəbul olunmalıdır. Bu gün regional deyil, qlobal təşkilatlarda təmsil olunaraq beynəlxalq birliklərin yaradılması zəruridir.

Dünyada istər klassik, istərsə də müasir diasporlar mütəxəssislər tərəfindən qəbul edilmiş model üzərində fəaliyyətlərini qururlar.

Birincisi, həmvətənlərin azadlığı və hüquqlarının müdafiəsi;

İkincisi, diasporun potensialından milli maraqların və dövlətlərarası münasibətlərin inkişafında istifadə edilməsi,

Üçüncüsü, "qeyri-vətənpərvər"lik imicinin yaradılması ilə məqsədyönlü işlərin həyata keçirilməsi.

Tarixdən məlumdur ki, yüzilliklərlə yaşı ölçülən dünyəvi yəhudi diasporu öz strategiyasını "qeyri vətənpərvər"lik metodu ilə qurub və dövlətə hər cür köməklik edir ki, onlar yaşadıqları yerlərdə məskunlaşsınlar. Öz mədəniyyət və ideologiyalarının daşıyıcıları olsunlar. Dünyanın müxtəlif qitələrinə səpələnən yəhudilərin belə bir yanaşma ortaya qoyması ideoloji cəhətdən milli məqsədyönlülük olaraq vahid dövlətin qurulması və inkişafına hesablanmışdır. Onlar buna, adətən islamın ilk qibləsi Qüdsə bu qaydada and içirlər: "Əgər mən səni unutsam, Yerusəlim, qoy mənim sağ əlim qurusun, əgər, Yerusəlimi öz sevincimin zirvəsinə yüksəltməsəm, qoy dilim qırtlağıma yapışsın") [6].

Gəlin görək, Azərbaycan diasporu sadaladığımız modellərdən hansı ilə işləyir!? Bəlkə




bizə də yeni bir ideologiya, yeni bir "and" lazımdır!?. Məsələn elə himnimizin sözlərində deyildiyi kimi: "Azərbaycan, Səndən ötrü can verməyə cümlə hazırız!".

Diaspor quruculuğunda müasir dövrün tələb və təklifləri nəzərə alınmalı, bu məsələdə ona uyğun inkişaf etdirilməlidir. Zamanın tələblərinə cavab verən mexanizm yaradılmalı və daim fəallıq göstərməlidir. Azərbaycan naminə diasporun imkanlarından geniş istifadə olunmalı və respublikamızda müxtəlif sahələrdə meydana çıxan problemlərin həllində onun fəal iştirakının təmin edilməsi yolunda işlər görülməlidir. "Azərbaycan diasporunun təşəkkül tapması və inkişafının tədqiqi, diasporun Azərbaycanla və azərbaycanlıların yaşadıqları ölkələrdə əlaqələrinin möhkəmləndirilməsindəki rolu da araşdırılmalıdır. Eyni zamanda, bu ölkələrin ictimai həyatında azərbaycanlıların iştirakının müəyyənləşdirilməsi, Azərbaycan diasporunun tarixi Vətəni ilə əlaqəsinin gücləndirilməsinin öyrənilməsi, Azərbaycan lobbisinin siyasi və iqtisadi potensialının və ondan istifadə imkanlarının müəyyən edilməsi və s. qarşıda duran vəzifələrdəndir". [10]

Bu sahədə isə ən başlıca şərt Azərbaycanın hüdudlarından kənarda məskunlaşan soydaşlarımızın və həmvətənlərimizin doğma torpağa yadlaşmaması məsələsinin diqqətdə saxlanılmasıdır.

Təkcə 30 il ərzində Erənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı problem və prosesləri nəzərdən keçirəndə görürük ki, diasporların müasir dünyada yeri və rolu son dərəcə böyükdür. Eləcə də erməni diasporunun məkirli simasında aparılan təbliğat və təşviqatın nəticəsində, yəni "ictimai diplomatiya" və "yumşaq güc"ün təzahürləri fonunda Azərbaycana qarşı yaranan qeyri-obyektiv münasibətə diqqət etmək kifayətdir.

Bundesverin Aparıcı Kadrlar Akademiyası yanında Beynəlxalq Təhlükəsizlik Elmi Forumunun üzvü (Berlin, Almaniya), professor Yohannes Rau bunu belə təhlil edir: "Müəllif burada bilərəkdən "Dağlıq Qarabağ münaqişəsi" terminindən istifadə etmir, çünki iki dövlət arasında qarşıdurmanın məzmunu Azərbaycanın Qarabağ separatçıları ilə mübarizəsindən daha genişdir və tarixən dərindir. ...Məhz "erməni təcavüzü" ona görə deyilir ki, Qarabağın Azərbaycanın tərkibindən çıxma hərəkatında, həmçinin təcavüz və işğalda böyük ideoloji, təşkilati və maddi-maliyyə rolunu ümumdünya erməni icması, bir çox ölkələrdə kifayət qədər nüfuzlu erməni diasporu oynamışdır və oynayır" [5].

“Müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar, ilk növbədə, öz milli kimliklərini dərk etməli və qorumalı, Azərbaycanın dilini, mədəniyyətini, incəsənətini, mütərəqqi ənənələrini, tarixini yaşatmalı, inkişaf etdirməlidirlər. Hər bir xalqın mövcudluğunun ideoloji-siyasi və mənəvi təməl prinsipi kimi nəzərdən keçirilən bu meyarlar xaricdəki soydaşlarımız üçün də əsas olmalı, daim diqqətdə saxlanılmalıdır. Bu, bütün dünyada yaşayan soydaşlarımızın mədəni-mənəvi birliyinin təminatı baxımından bəlkə də ən mühüm şərtdir” [4].

**Nəticə**

Gəldiyimiz yekun nəticəyə əsasən yeni mərhələdə Azərbaycan diasporunun fəaliyyətini genişləndirmək və gücləndirmək üçün aşağıdakı müddəalara diqqət yetirmək olar:

- ✓ diasporun fəaliyyətinin genişləndirilməsi üçün nüfuzlu azərbaycanlılar bu işə cəlb edilməlidir;
- ✓ Azərbaycan diaspor təşkilatlarının potensialının artırılması və onların beynəlxalq arenaya çıxması istiqamətində iş aparılmalıdır;
- ✓ dövlətin diaspor sahəsində siyasəti dövrün tələblərinə uyğun təkmilləşdirilməli, rəsmi şəxslər, xarici səfərə gedən nümayəndə heyətləri həmvətənlərimizlə müntəzəm görüşməli, diaspor nümayəndələrinə baş çəkməli və onların vəziyyəti, problemləri ilə yaxından maraqlanılmalıdır;
- ✓ elm, təhsil müəssisələrində bu sahəyə xüsusi diqqət yetirilməli və tələbə-gənclər arasında diaspor şüuru formalaşdırılması istiqamətində proqramlar hazırlanmalıdır;
- ✓ diaspor təşkilatlarına rəhbərlik edən şəxslər düzgün seçilməli və diasporun bütün zümrəsi tərəfindən qəbul olunması nəzərə alınmalıdır;
- ✓ Azərbaycan lobbiçiliyi ilə bağlı konsepsiya qəbul olunmalı, müasir dövrün çağırışları nəzərə alınaraq həyata keçirilməlidir;

Bütün bunlar, müasir dövrün meyillərinə və çağırışlarına uyğun olaraq, diaspor sahəsində konseptual baxışın ortaya qoyulması və proqramların qəbul olunmasını labüd edir. Bu xüsusda, ən başlıca məsələlərdən biri diasporla iş üzrə fors-major hallarda düzgün əlaqələndirmənin və koordinasiyanın qurulmasıdır.

- ✓ Hər bir qitə üzrə birləşmiş diaspor təşkilatı yaradılsa və ümumdünya azərbaycanlıları konqresi yaradılarsa bunun qlobal səviyyədə milli inkişafa müsbət təsiri olardı. Beynəlxalq təşkilatlarla əməkdaşlıq edilməsi və müvafiq status alınması zamanı artıq yetişmişdir. Azərbaycan diasporunun inkişafına dəstək olmaq və bu istiqamət üzrə fəaliyyət göstərən təşkilatların maddi-texniki bazasını gücləndirmək, həmçinin, respublikamızın tanınması və təbliği ilə bağlı həyata keçirilən yerli, regional, beynəlxalq layihə və proqramları qrant şəklində məqsədli maliyyələşdirmək, bu sahədə nəzəri-praktiki konfrans, seminar, simpozium və digər tədbirlərin təşkili üzrə layihələri dəstəkləmək məqsədilə diaspor fondunun yaradılması da günün tələblərindən hesab oluna bilər.

Dünya Azərbaycanlılarının Həmrəylik Xartiyasında göstərilir ki, “Müasir dövrdə xarici ölkələrdə yaşayan azərbaycanlılar arasında milli-mənəvi birliyin möhkəmləndirilməsi, soydaşlarımızın təşkilatlanması prosesi keyfiyyətcə yeni məzmun kəsb etməkdədir. Bu, Azərbaycan diaspor quruculuğu işinə xarici ölkələrdə yaşayan azərbaycanlı ziyalıların, gənclərin və qadınların daha geniş şəkildə cəlb olunması, eləcə də Azərbaycanda yaşayan digər xalqların xarici ölkələrə köçmüş nümayəndələrinin cəlb olunması zərurəti ilə bağlıdır. Bu sahədə Azərbaycan diaspor təşkilatlarının əsas fəaliyyət istiqamətlərindən biri xarici ölkələrdə yaşayan azərbaycanlılar arasında ideoloji, mənəvi, siyasi və iqtisadi amillərə əsaslanan birliyin təmin olunmasına səy göstərilməsi, azərbaycanlılar arasında milli həmrəylik və birlik ideyalarını təbliğ etmək olmalıdır” [2].

Bu gün diasporlar təmsil etdikləri dövlətlərin xarici siyasətində mühüm əhəmiyyət kəsb




edir, diplomatik münasibətlərdə, siyasi dairələrlə əlaqələrdə təsir mexanizmi hesab olunur. Azərbaycan Respublikasının xarici siyasətində diasporun yeri və rolu danılmazdır. Bu amil dövlət siyasətimizin ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Azərbaycan diasporu dövlətlərarası münasibətlərin inkişafı, xalqlararası dostluğun möhkəmləndirilməsi, etnik-mədəni dəyərlərimizin, milli-mənəvi irsimizin, tariximizin, mədəniyyətimizin, ədəbiyyatımızın, musiqimizin tanıdılması və təbliğində mühüm vasitədir.

Diasporlar dövlətlər arasında sosial, mədəni, iqtisadi və siyasi münasibətlərin də formalaşmasında mühüm rol oynayır. Bu faktor ikitərəfli və çoxtərəfli münasibətlərdə böyük əhəmiyyət kəsb edir. Müxtəlif xalqların diasporları fəaliyyət göstərdikləri ölkələrdə yaratdıqları ictimai birliklər vasitəsilə bu missiyanı həyata keçirməklə dünyada qarşılıqlı əməkdaşlığın təminatçısına və sülhün, əmin-amanlığın təbliğatçısına çevrilirlər. Bu kontekstdə Rusiya-Azərbaycan münasibətlərini belə şərh etmək olar: "İki ölkə arasında münasibətlərin inkişafında humanitar əlaqələr də az əhəmiyyət kəsb etmir və bu sahədə də son illər çox işlər görülmüşdür. Xüsusilə Rusiyada "Azərbaycan ili"nin, Azərbaycanda "Rusiya ili"nin keçirilməsi, Azərbaycan diasporunun Rusiya rəsmi dairələri tərəfindən dəstəklənməsi, rus dilinə Azərbaycanda olan münasibət və sair bu kimi məsələlər ölkələr arasında münasibətlərin möhkəmlənməsinə öz töhfələrini verir" [3; 7].

Rusiya hazırda azərbaycanlıların miqrasiya etdikləri ölkələr sırasında ilk sıralarda gəlir. Bu ölkədə Azərbaycan diaspor təşkilatlarının fəaliyyəti diqqət çəkir və "ictimai diplomatiyanın" Rusiya-Azərbaycan münasibətlərində, xalqlararası diplomatiyada və mədəni dəyərlərimizin inteqrasiyası kimi məsələlərdə vacib rol oynaya biləcəyindən xəbər verir.

Yeni dünya mənzərəsində diaspor beynəlxalq aləmdə aktuallıq kəsb etməklə diplomatiyanın vacib elementinə çevrilmişdir. Hazırda diaspor məsələsi beynəlxalq təşkilatlar və güclü dövlətlər tərəfindən diqqətdə saxlanılır. BMT yanında Yəhudi Konqresinin rəsmi status alması və ya ABŞ-da Qlobal Diaspor Forumunun keçirilməsinin ənənə halını alması buna bariz misaldır. 2011-ci ildə "Vətənə kömək edərək irəliyə getmək" şüarı ilə ikinci dəfə keçirilən Forumda ABŞ dövlət katibi H.Klinton öz nitqində: "Birləşmiş

**/ Humanitar inkişaf üzrə əlaqələndirmə halqası /**

**Diasporun fövqəladə hallar zamanı inkişafa cavab verən tədbirlərinin strukturu**




**Çevik reaksiya – Düzgün koordinasiya – Açıq informasiya**

Ştatlarda diaspor icmalarının nümayəndələrinin ya özləri fərdi qaydada, ya da Amerika hökuməti ilə tərəfdaşlıq əsasında vətənlərində problemlərin həllinə kömək edə biləcəyinə inandığını, Suriya diaspor üzvlərinə dəstək və tövsiyənin onların vətənində baş verənlərə qarşı məsələlərdə körpü rolu oynayacağını" qeyd etmişdir [8].

Şərh olunan nüanslar hazırda diasporun ayrı-ayrı dövlətlərin siyasətində və beynəlxalq münasibətlər sistemində böyük əhəmiyyət kəsb etdiyini bir daha təsdiq edir. Belə demək mümkündürsə, müasir sosial-mədəni aləmdə milli mənliyi olan və yad ölkədə uyğunlaşmanın lazımi mərhələlərini keçən insanların diaspor adı altında birləşmələrinin əsas məramı və missiyası sabit həyat tərzi qazanmaq, öz milli genefondunu qorumaq və gələcək inkişaflarını təmin etməkdir. Dünya diasporlarının Azərbaycanda forumunun keçirilməsi və həmin tarixin təqvimdə "Beynəlxalq Diaspor Günü"nün təsis edilməsi milli və bəşəri baxımından əhəmiyyətli olardı. Ümumilikdə, diaspor hər hansısa bir etnosun vahid orqanizmi kimi qəbul edilməli, bu fenomen bütün hallarda diqqətdə saxlanılmalı və qayğı ilə əhatə olunmalıdır. Adi vaxtlarla yanaşı, böhran vəziyyət üçün strategiya və planlar işlənib hazırlanmalıdır.

Diaspor fəaliyyətinin mühüm formasını siyasi funksiyalarının yerinə yetirilməsi təşkil edir. Bu funksiyalar siyasi partiyalar, ictimai təşkilatlar yaratmaq, parlament və bələdiyyə seçkilərində iştirak etmək yolu ilə həyata keçirilir ki, bunda da əsas məqsəd yaşadıqları ölkələrin həyatında daha yaxından iştirak etmək, öz tarixi vətənlərinin vasitəçisi olmaqdır. Azərbaycan diasporu da bu modelləri təhlil etməli, müasir dövrün çağırışlarını nəzərə alaraq, milli inkişafa uyğun yeni model yaratmalıdır.

Bir sözlə, diaspor, lobbi təşkilatlarının əsas missiyası yaşadıqları və fəaliyyət göstərdikləri ölkələrin qayda və qanunları çərçivəsində mənsub olduğu xalqın adət-ənənəsini yaşatmaq, birliyi və həmrəyliyinin təminatçısı olmaq, tarixi vətəninin maraqlarını təbliğ etmək, mənafeyini qorumaq və xalqlararası əlaqələrin, dövlətlərarası münasibətlərin inkişafına müsbət mənada təsir göstərməlidir.

Bütün mövcud reallıq göstərir ki, Azərbaycan diasporunun potensialından geniş

istifadə olunması, ölkə həyatının müxtəlif sahələrində meydana çıxan problemlərin həllində onun fəal iştirakının gerçəkləşdirilməsi, ölkəmizin beynəlxalq nüfuzunun daha da artmasına xidmət edən mütəşəkkil, sanballı bir qüvvəyə çevrilməsi yolunda hələ çox işlər görülməlidir. Bu baxımdan,Azərbaycan diasporunun müasir inkişaf səviyyəsində “ictimai diplomatiya” və “yumşaq güc”ün təzahürləri milli inkişafa, beynəlxalq aləmdə mədəni inteqrasiya proseslərinin sürətlənməsinə əminlik yaradacaqdır. Tam əminliklə demək olar ki, bu istiqamətdə həyata keçirilən tədbirlər Azərbaycan diasporunun inkişafı prosesinə mühüm töhfə olmaqla, dünya azərbaycanlılarının daha sıx birliyinə və həmrəyliyinə, yeni mərhələdəki konseptual fəaliyyətinə geniş imkanlar açacaqdır.

**Ədəbiyyat:**

1. Azərbaycan diasporu: tarix və müasirlik / layihənin rəh. Y. M. Mahmudov; elmi red. M. H. Seyidbəyli; AMEA A.A. Bakıxanov adına Tarix İnstitutu.- Bakı: Turxan NPB, 2016.- 384 s.
2. Dünya Azərbaycanlılarının Həmrəylik Xartiyası. Bakı, 2008, 19 dekabr.
3. Hüseynzadə F. Diasporologiya¬ tarix elmində yeni istiqamətdir // “Paritet” qəzeti. 2011, -24¬-25 may.
4. Niyazov X. Dünya Azərbaycanlıları mütəşəkkil qüvvəyə cevrilir // "Azərbaycan" qəzeti, 2006, 24 may.
5. Rau Y. Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanmasına dair Avropanın mövqeyi // Azerbaijan Focus (Beynəlxalq münasibətlərə dair jurnalı). 2010, № 2 (2), s. 107-118
6. Еврейская диаспора: http://www.russian club.net/article_1376.html
7. Prezident Kitabxanası: https://files.preslib.az/projects/diaspora/articles/eart2017.pdf (Diasporla İş üzrə Dövlət Komitəsinin saytı: http://diaspor.gov.az/qanunvericilik/qanunlar/1.pdf)
8. Dünya Azərbaycanlılarının İnformasiya Mərkəzi: http://www.daim.az/view.php?lang=az&menu=17&id=18452
9. Vikipediya, azad ensiklopediya:https://az.wikipedia.org/wiki/D%C3%BCnya_Az%C9%99rbaycanl%C4%B1lar%C4%B1n%C4%B1n_Qurultay%C4%B1
10. Zaur Əliyevin bloku: http://zaur.azeriblog.com/

***Açar sözlər:*** *miqrasiya, diaspor, lobbi, “ictimai diplomatiya”, “yumşaq güc”, xarici siyasət, dövlətlərarası münasibətlər*

**Yahya Babanli**
*The Institute of History named after A.A. Bakikhanov of ANAS,*
*Doctoral student, Ph.D. in History*

## THE MODERN LEVEL OF DEVELOPMENT OF AZERBAIJANI DIASPORA: MANIFESTATIONS OF "PUBLIC DIPLOMACY" AND "SOFT POWER"

### ABSTRACT

In the scientific article, the state policy regarding Azerbaijanis living abroad after the restoration of independence of the Republic of Azerbaijan was discussed. Establishing relations with Azerbaijanis living abroad, building diaspora and organization in this field are of great importance. In the 21st century, the concepts of diaspora and lobby are considered to be attributes of modern interstate relations, based on relevant facts. The modern level of development of the Azerbaijani diaspora was scientifically analyzed, research was conducted on the manifestations of "public diplomacy" and "soft power". During the period of independence, the historical path of the Azerbaijani diaspora was reviewed, and the current realities were compared according to the situation. The importance of paying attention to a number of points in order to expand and strengthen the activities of the Azerbaijani diaspora at the new stage was noted, the main priorities ahead were determined and a number of suggestions and recommendations were given.

***Keywords:*** *migration, diaspora, lobby, “public diplomacy,” “soft power,” foreign policy, international relations*

**Яхья Бабанлы**
*Докторант Института Истории имени А.А.Бакиханова НАНА,*
*доктор философии по истории*

## СОВРЕМЕННЫЙ УРОВЕНЬ РАЗВИТИЯ АЗЕРБАЙДЖАНСКОЙ ДИАСПОРЫ: ПРОЯВЛЕНИЯ «ПУБЛИЧНОЙ ДИПЛОМАТИИ» И «МЯГКОЙ СИЛЫ»

### РЕЗЮМЕ

В научной статье обсуждалась государственная политика в отношении азербайджанцев, проживающих за рубежом, после восстановления независимости Азербайджанской Республики. Установление связей с азербайджанцами, проживающими за рубежом, создание диаспоры и организации в этой сфере имеют большое значение. В XXI веке понятия диаспоры и лобби считаются атрибутами современных межгосударственных отношений, основываясь на соответствующих фактах. Научно проанализирован современный уровень развития азербайджанской диаспоры, проведены исследования проявлений «народной дипломатии» и «мягкой силы». В период независимости был рассмотрен исторический путь азербайджанской диаспоры и сопоставлены нынешние реалии с учетом ситуации. На новом этапе была отмечена важность уделения внимания ряду моментов в целях расширения и укрепления деятельности азербайджанской диаспоры, определены основные предстоящие приоритеты и сформулирован ряд предложений и рекомендаций.

***Ключевые слова:*** *миграция, диаспора, лоббизм, “публичная дипломатия”, “мягкая сила”, внешняя политика, международные отношения*

DOI: 10.30546/2309-1347.2024.2.0026

## RƏQƏMSAL DÖVLƏT İDARƏÇİLİYİ VƏ İNTELLEKTUAL SİSTEMLƏR
## DIGITAL PUBLIC ADMINISTRATION AND INTELLIGENT SYSTEMS

UOT 354

**ELÇİN ABASOV**

**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının “Dövlət idarəçiliyində informasiya texnologiyaları” kafedrasının müdiri, dosent**

*e-mail: abasov_e@mail.ru*

**AYTƏN ƏLİYEVA**

**Elm və Təhsil Nazirliyi Fizika İnstitutunun “Yarımkeçiricilərdə və yarımkeçirici nanostrukturlarda köçürmə hadisələri” laboratoriyasının aparıcı elmi işçisi, dosent**

*e-mail: aliyeva.aytan81@gmail.com*

# DÖVLƏT GEOİNFORMASİYA SİSTEMLƏRİ: MÜASİR TENDENSİYALARIN YAŞIL İNKİŞAFA TƏSİRİ

Kəskin qlobal istiləşmə nəticəsində iqlim dəyişikliyinin təsirləri gün keçdikcə daha da artır. Bu və bunun kimi təhlükələri nəzərə alaraq xalqın rifahı və sonrakı nəsillərin parlaq gələcəklə təmini üçün dövlət idarəçiliyində davamlı inkişafı prioritet halına gətirmək lazımdır.

Ənənəvi ekoloji tədqiqatlara nisbətən informasiya sisteminin vaxt və resurs baxımdan daha səmərəli, verilən nəticələrin daha dəqiq olması bu sahəyə artan maraq üçün əsas faktor hesab edilir. Ətraf mühitlə bağlı məlumatların alınması üçün ekoloji biliklərdən əlavə texniki biliklərin də olmasına da ehtiyac duyulur.

Son illərin ən mühüm mövzularından biri olan dövlət idarəçiliyində davamlı inkişafın təmin edilməsi mövzusunda yaşıl İT və yaşıl texnologiya sahəsinin də rolu danılmazdır. Yaşıl texnologiya gücün səmərəli istifadə edilməsi, tullantıların azaldılması, ekologiya dostu məhsulların yaradılması, təhlükəli materialların istifadəsinin məhdudlaşdırılması kimi təşəbbüsləri özündə cəmləyir. Həm inkişaf etmiş, həm də inkişafda olan ölkələr üçün İKT(İnformasiya və Kommunikasiya Texnologiyaları) iqtisadi və sosial cəhətdən istiqamət verən güclərdəndir.

Dayanıqlı İnkişaf Məqsədləri (DİM) 2015-ci ildə Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən qəbul edilmiş və 2030-cu ilə qədər bütün ölkələr tərəfindən əldə edilməsi nəzərdə tutulan 17 məqsəddən ibarətdir. İnformasiya texnologiyaları ilə birbaşa əlaqəli olan Dayanıqlı İnkişaf Məqsədi 9-cu məqsəd, yəni “Sənaye, İnnovasiya və İnfrastruktur”dur. Bu məqsəd davamlı infrastrukturun inkişaf etdirilməsini, inklüziv və davamlı

sənayeləşmənin təşviq edilməsini, bütün ölkələrdə innovasiyaların inkişaf etdirilməsini və artırılmasını tələb edir.

İnformasiya texnologiyalarının potensialından istifadə etməklə Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq və beləliklə daha yaxşı gələcək qurmaq mümkündür. Buna nümunə olaraq, distant təhsil platformaları, elektron səhiyyə, mobil bankçılıq, ağıllı kənd təsərrüfatı, bərpa olunan enerji kimi töhfə verəcək texnologiyaları göstərmək olar.

- **Distant təhsil platformaları:** İnkişaf etməkdə olan ölkələrdə məktəblilər və tələbələr üçün təhsil bacarıqlarının inkişafı imkanlarını təmin etmək üçün istifadə edilə bilər.
- **Elektron səhiyyə:** Uzaq ərazilərdə yaşayan insanlara tibbi yardım və diaqnostika üçün istifadə edilə bilər.
- **Mobil bankçılıq:** Bank xidmətlərinə çıxışı artırmaq və maliyyə inklüzivliyini təşviq etmək üçün istifadə edilə bilər.
- **Ağıllı kənd təsərrüfatı:** Su və gübrə istifadəsini optimallaşdırmaq və kənd təsərrüfatı məhsuldarlığını artırmaq üçün istifadə edilə bilər.
- **Bərpa olunan enerji:** Günəş və külək enerjisi kimi bərpa olunan enerji mənbələrinin inkişafı və istifadəsi üçün istifadə edilə bilər.

Bu nümunələr informasiya texnologiyalarının Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaqda mühüm vasitə ola biləcəyini göstərir [3]. Hökumətlər, özəl sektor və qeyri-hökumət təşkilatları informasiya texnologiyalarının imkanlarından bütün bəşəriyyətin rifahı naminə istifadə etmək üçün birgə işləyə bilərlər (şəkil 1).

Ətraf mühitin qorunması və gələcək nəsillərə ötürülməsi “yaşıl” düşüncə tələb edir. Hazırda dünyada və ölkəmizdə bu sahəyə böyük diqqət ayrılır, innovativ yanaşmalar təqdim edilir. 25 dekabr 2023-cü il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəmizdə 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri “Təmiz ətraf mühit və yaşıl artım ölkəsi” kimi müəyyənləşdirilməsi qeyd olunur [1] .




**Şəkil 1.** Dayanıqlı inkişaf məqsədləri




**Şəkil 2.** İT sahəsində ətraf mühit üçün istifadə olan yanaşmalar

"Yaşıl Ekologiya"nın təşkil olunması üçün müasir tendensiyaları nəzərə alaraq qeyd etmək lazımdır ki, kompüter biliklərinin tətbiqi də bu sahədə vacib məsələlərdən hesab olunur [2]. Burada ətraf mühitə təsirini minimuma endirməyə yönəlmiş yanaşmalara istinad edir (şəkil 2). Bu yanaşma aşağıdakı ikitərəfli yanaşmaları özündə ehtiva edir:

1. **Resurslara qənaət edən proqram təminatının yaradılması:** Bu, daha az enerji sərf edən və güclü aparata ehtiyacı minimuma endirən kodun yazılmasını nəzərdə tutur.
2. **Ekoloji həllər üçün bir vasitə kimi proqram təminatının hazırlanması:** Bu, enerjinin idarə edilməsi, ağıllı kənd təsərrüfatı və ya istehsalda resurs istifadəsinin optimallaşdırılması kimi digər sektorlarda ekoloji problemləri həll etmək üçün proqram təminatından istifadəni nəzərdə tutur.

Yaşıl proqram təminatının inkişaf etdirilməsi metodologiyalarının bəzi əsas aspektləri kimi bunları qeyd edə bilərik [3]:

- Effektiv proqramlaşdırma dillərinin seçilməsi;
- Optimallaşdırmış kodu;
- Bulud hesablamalarından səmərəli istifadə;
- Uzunömürlü dizaynın hazırlanması;

Yaşıl İT (green computing) kompüterlərin dizaynı, istehsalı, istifadəsi və utilizasiyası ilə ətraf mühitə minimal və ya heç bir təsiri olmayan resurslardan istifadə üçün effektiv yanaşmadır.

Yaşıl hesablamanın məqsədləri gücü və enerjini səmərəli şəkildə idarə etmək, ekoloji cəhətdən təmiz avadanlıq (hardware) və proqram təminatı(software) seçimi etmək, məhsulun istifadə müddətini artırmaq, materialın təkrar emal edilməsini təmin etməkdən ibarətdir. Yaşıl hesablama termini 1992-ci ildə ABŞ-da "Energy Star" proqramının başladılması ilə ortaya çıxdı. Bu, elektrik enerjisinə qənaəti və kompüterlərin yaratdığı istilik miqdarının azaldılmasını hədəfləyirdi. Fərdi kompüterlərin hissələri ətraf mühit üçün biolojik olaraq parçalanan olmayıb, parçalarının çox uzun müddət təbiətdə qalması və nadir hallarda təkrar istifadə edilə bilinməsi baxımından pisdir. Ətraf mühitin çirklənməsinin səbəbi istehsal qüsurları və kompüterlər üçün utilizasiya üsulları ola bilər. Kompüterlərin istehsalında istifadə olunan zəhərli kimyəvi maddələr var və biz onları bilmədən ataraq ətraf mühitə zərərli təsir göstərmiş olarıq. Beləliklə ətraf mühitimizi qorumaq və kompüterlərin zərərli təsirlərini azaltmaq üçün bu mövzuda məlumatlı olmalıyıq. [5]

Yaşıl hesablamalar bütün tullantıları azaltmaq, təkrar istifadə etmək və təkrar emalı təklif edən davamlı proseslər və təcrübələrə uyğunlaşdırmaqla həllər hazırlaya bilər.

Yaşıl hesablamalar 90-cı illərdə ABŞ-da enerji müdafiəsi ilə "Energy Star" Proqramı-

**Cədvəl 1.**

Yaşıl hesablamanın müsbət və mənfi tərəfləri

| Yaşıl hesablamanın müsbət tərəfi | Yaşıl hesablamanın mənfi tərəfi |
|---|---|
| Elektrik enerjisinə qənaət etməklə karbon qazının istifadəsini aşağı salmaq | Cihazların maliyyət baxımından bahalı olması |
| İstehsalı və istifadəsində az elektrik enerjisi sərfiyyatı | Bəzi yaşıl kompüterlərin zəif olma riski |
| Az elektrik enerjisi, az maliyyət prinsipinin qorunması, təkrar emal, resurslardan istifadə | Anidən texnoloji dəyişim |

nın başladılması ilə ortaya çıxdı. "Energy Star" kompüterlərə və digərlər elektron cihazlara verilən etiket növüdür [7].

Yaşıl hesablamanın (Green Computing) müsbət tərəfləri olduğu kimi, mənfi tərəfləri də mövcuddur (Cədvəl 1).

Əsas məqsədləri təhlükəli materialdan istifadəni azaldılması, məhsulun enerji səmərəliliyini maksimuma çatdırılması, təkrar emal qabiliyyətinin yaradılması məqsədilə olan yaşıl proqramlaşdırmada əməliyyat sisteminin arxitekturalaşdırılması 3 mərhələdən ibarətdir.

1. Fiziki təchizat xidməti qatı
2. Əməliyyat sistemi xidmət qatı
3. Tətbiq xidməti qatı

Yaşıl Ekologiya İnformasiya Sistemlərində istifadə olunan bəzi texnologiyalara nəzər salaq: [8]

**1. Enerji İdarəetmə Sistemləri (EİS):** Bu sistemlər binalardan, fabriklərdən və digər




**Şəkil 3.** Enerji İdarəetmə Sistemi




**Şəkil 4.** Ağıllı Şəbəkə təsviri

obyektlərdən enerji istifadəsi haqqında məlumat toplayır. Bu məlumatlar daha səmərəli istifadəsini hədəfləyən sahələri müəyyən etmək üçün istifadə edilə bilər (Şəkil 3).

**2. Ağıllı şəbəkələr:** Ağıllı şəbəkələr elektrik enerjisinin çatdırılmasının səmərəliliyini, etibarlılığını və davamlılığını artırmaq üçün İT-dən istifadə edən elektrik şəbəkələridir (şəkil 4).

**3. Dəqiq Kənd Təsərrüfatı Sistemi:** Dəqiq kənd təsərrüfatı torpaq şəraiti, məhsuldarlıq və digər amillər haqqında məlumat




**Şəkil 5.** Dəqiq Kənd Təsərrüfatı Sisteminin işləmə mexanizmi




**Şəkil 6.** Ətraf Mühitin Monitorinq Sistemləri təsviri

toplamaq üçün İT-dən istifadə edir. Bu məlumatlar daha sonra gübrələrin, pestisidlərin və suyun istifadəsini optimallaşdırmaq üçün istifadə edilə bilər (Şəkil 5).

**4. Ətraf Mühitin Monitorinq Sistemləri:** Bu sistemlər havanın keyfiyyəti, suyun keyfiyyəti və digər ətraf mühit amilləri haqqında məlumat toplayır. Bu məlumatlar daha sonra




**Şəkil 7.**Təchizat Zənciri İdarəetmə Sistemlərinin təsviri

ekoloji tendensiyaları izləmək və potensial problemləri müəyyən etmək üçün istifadə oluna bilər (şəkil 6).

**5. Təchizat Zənciri İdarəetmə Sistemləri:** Bu sistemlər xammaldan tutmuş utilizasiyaya qədər məhsulların həyat dövrü boyunca ətraf mühitə təsirini izləmək üçün istifadə edilə bilər (şəkil 7).

Bunlar "Yaşıl Ekologiya" İnformasiya Sistemlərində istifadə olunan bir çox texnologiyaların əsas nümunələri hesab edilə bilər. İnformasiya texnologiyaları inkişaf etməyə davam etdikcə, ətraf mühiti qorumaqda bizə kömək edə biləcək daha da innovativ və optimal həllərin yaranacağı aydın məsələdir.

## Nəticə

Yaşıl Ekologiya İnformasiya Sistemi ətraf mühitə dair məlumatları asanlıqla əldə etmək yolu ilə şəffaflığı gücləndirir. Yaşıl Ekologiya İnformasiya Sistemi daxilində hazırlanmış vizualların əsas üstünlükləri bunlardır:

**Davamlılıq üçün təkmilləşdirilmiş qərar qəbuletmə:** PowerBI idarə panelləri kimi alətlər vasitəsilə aydın və əlçatan məlumat vizualizasiyasını təmin etməklə, sistem istifadəçilərə ətraf mühitin rifahını təşviq edən məlumatlı seçimlər etmək üçün lazım olan məlumatı verir. Bu, suvarma məlumatlarına əsaslanaraq sudan istifadə ilə bağlı seçim edən fərdlərdən tutmuş ətraf mühit məlumatlarına əsaslanan davamlı kənd təsərrüfatı təcrübələrini inkişaf etdirən təşkilatlara qədər hər şey ola bilər.

**Şəffaflıq və ictimai iştirak:** Yaşıl Ekologiya İnformasiya Sistemi ətraf mühitə dair məlumatları asanlıqla əldə etmək yolu ilə şəffaflığı gücləndirir. Bu, ictimaiyyətin ətraf mühitin mühafizəsi təşəbbüslərinə inamını artıra və mühafizə səylərində iştirakını təşviq edə bilər. Məsələn, milli parklar və qoruqlar haqqında məlumatların vizuallaşdırılması qorunan ərazilər haqqında məlumatlılığı artıra bilər, tullantıların və təkrar emal panelləri isə ictimaiyyət arasında məsuliyyətli utilizasiya üsullarını təbliğ edə bilər.

Qeyd edilən üstünlər vasitəsilə "Yaşıl Gələcək" yolunda addımlar atmaq mümkündür. Beləliklə həm ətraf mühiti qoruya, həm də ətraf mühitlə bağlı məlumatlı ola bilərik.

## Ədəbiyyat:


1. Agarwal, S., Basu, K., Nath, A. (2013). "Green Computing and Green Technology based teaching learning and administration in Higher Education Institutions"
2. https://eco.gov.az/az/nazirlik/xeber?newsID=20466
3. https://azerbaijan.un.org/az/sdgs
4. https://e-qanun.az/framework/42046
5. https://jouneidraza.medium.com/change-data-capture-cdc-and-slowly-changing-dimension-scd-in-data-warehousing-unveiling-the-9d7c3db4a1dd
6. https://news.microsoft.com/source/features/sustainability/project-natick-underwater-datacenter/
7. https://president.az/az/articles/view/62737
8. https://www.eia.gov/energyexplained/wind/history-of-wind-power.php


***Açar sözlər:*** *informasiya texnologiyaları, yaşıl ekologiya, informasiya sistemi, Yaşıl dünya, COP 29*

**Elchin Abasov**

*The Academy of Public Administration under the President of the Republic of Azerbaijan, Head of the Department of Information Technologies in Public Administration, Associate Professor*

**Aytan Aliyeva**

*The Institute of Physics of the Ministry of Education and Science Associate Professor, Leading Researcher of the Laboratory of Transfer Phenomena in Semiconductors and Semiconductor Nanostructures*

## ABSTRACT

## STATE GEOINFORMATION SYSTEMS: MODERN TRENDS OF GREEN DEVELOPMENT ORGANIZATIONS

Technologies that will contribute to the achievement of the Sustainable Development Goals by using the potential of information technologies, such as distance learning platforms, electronic medicine, mobile banking, smart agriculture, renewable energy sources. Besides, the main examples of many technologies used in "Green Ecology" information systems are shown.

***Keywords:*** *information technologies, green ecology, information system, Green World, COP29*

**Эльчин Абасов**

*Заведующий кафедрой «Информационные технологии в государственном управлении» Академии Государственного Управления при Президенте Азербайджанской Республики, доцент*

**Айтан Алиева**

*Ведущий научный сотрудник лаборатории «Явлений переноса в полупроводниках и полупроводниковых наноструктурах» Института физики Министерства Образования и Науки, доцент*

## ГОСУДАРСТВЕННЫЕ ГЕОИНФОРМАЦИОННЫЕ СИСТЕМЫ: СОВРЕМЕННЫЕ ТЕНДЕНЦИИ ОРГАНИЗАЦИИ ЗЕЛЕНОГО РАЗВИТИЯ

## РЕЗЮМЕ

В статье подчеркивается, что к технологиям, которые будут способствовать достижению Целей устойчивого развития за счет использования потенциала информационных технологий, относятся такие как платформы дистанционного обучения, электронная медицина, мобильный банкинг, умное сельское хозяйство, возобновляемые источники энергии и другие. В этом контексте показаны основные примеры многих технологий, используемых в информационных системах «Зеленая экология».

***Ключевые слова:*** *информационные технологии, зеленая экология, информационная система, Зеленый мир, COP29*

DOI: 10.30546/2309-1347.2024.2.0028

# RƏQƏMSAL DÖVLƏT İDARƏÇİLİYİ VƏ İNTELLEKTUAL SİSTEMLƏR
# DIGITAL PUBLIC ADMINISTRATION AND INTELLIGENT SYSTEMS

UOT 354

**İLAHİYƏ QƏDİROVA**

**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Dövlət idarəçiliyində informasiya texnologiyaları" kafedrasının müəllimi**

*e-mail: ilahiyemusayeva@gmail.com*

## SÜNİ İNTELLEKTLİ SİSTEMLƏRİN İNKİŞAFININ DÖVLƏT İDARƏÇİLİYİNƏ TƏSİRİ

Konseptual əsasları XVII-XVIII əsrlərdə qoyulmuş müasir dövlətlər sonrakı iki əsrdə dünya səviyyəsində qəbul edilmiş idarəetmə sisteminə keçdi. Lakin idarəetmə dinamikası xüsusilə son 50 ildə sürətlə dəyişdi. Bu prosesdə rəqəmsal texnologiyaların təsirini inkar etmək olmaz. Üstəlik, süni intellektə əsaslanan müzakirələr daha effektiv idarəetmə yanaşmasına malikdir.

Bəzi ölkələr süni intellektin bəşəriyyətin yaxın tarixdə qarşılaşdığı ən maraqlı və potensial transformasiya imkanlarından biri olduğunu artıq qəbul ediblər. Demək olar ki, bu ölkələr Süni İntellektə yatırılan investisiya baxımından bir-biri ilə rəqabət aparır. Dövlətlərin gündəmindəki ən mühüm motivasiya isə yarışda digər ölkələrlə müqayisədə geri qalmamaqdır. ABŞ, Çin, Rusiya və Avropa İttifaqı bu sahəyə böyük sərmayələr qoyur və bu sahəyə rəhbərlik edir.

Beynəlxalq Məlumat Korporasiyasının (International Data Corporation-IDC) ekspertləri süni intellekt texnologiyalarının yaxın gələcəyinə nəzər salmağa çalışıblar və belə nəticəyə gəliblər ki, 2025-ci ilə qədər ABŞ-da süni intellektə xərclənən vəsait 120 milyard dollara çatacaq. Bu təxmin 2021 və 2025-ci illər arasında 26.0% CAGR [CAGR (Compound Annual Growth Rate) - Mürəkkəb illik artım sürəti]-ə uyğundur. ABŞ-ın 19 əsas sənayesində artım 20% və ya daha çox olacaq. Hazırda bütün qlobal süni intellekt xərclərinin yarısından çoxu ABŞ-ın payına düşür.

Bu sahəyə sərmayələrinin böyük hissəsini ayırmağa başladığı üçün ABŞ-a rəqib ölkə Çindir. Əvvəllər Silikon Vadisində istehsal olunan texnologiya məhsullarının surətlərini istehsal edən və "Çinin Facebooku" və ya "Çinin Twitteri" kimi tanınan bir çox Çin markası indi də orijinal məhsullarını dünya bazarına çıxarmağa başlayıb. Dörd-beş il əvvələ qədər dünyanın ən böyük 20 texnologiya şirkəti siyahısında yer tapa bilməyən Çinin indi bu siyahıda 9 şirkəti var (son məlumatlara görə). Siyahıdakı digər 11 yeri ABŞ şirkətləri təşkil edir. ABŞ şirkətlərinin hələ də zirvədə olmasına baxmayaraq, Çin şirkətlərinin qısa müddətdə sürətli yüksəlişi diqqət çəkir.

Çin gələcək illərdə rəqəmsal iqtisadiyyata daha çox investisiya qoymağı planlaşdırır. Xüsusilə, Çinin böyük məlumat mərkəzlərinə investisiyasının 14-cü Beşillik Plan dövründə

(2021-2025) hər il 20%-dən çox artacağı gözlənilir. Beləliklə, bu yaxınlarda ölkənin ən yüksək iqtisadi tənzimləyicisi olan əlaqəli sahələrə məcmu sərmayənin 3 trilyon yuanı (471 milyard ABŞ dolları) keçməsi nəzərdə tutulur. Çinin rəqəmsal iqtisadiyyata ayırdığı bu nəhəng büdcənin ən böyük payı süni intellekt investisiyalarına ötürülür. Təkcə Çin şirkətləri deyil, Çin hökuməti də süni intellekt üzərində böyük səylər göstərir. Hökumətin orta məktəb şagirdləri üçün nəşr etdirdiyi süni intellekt dərsliyində süni intellektin gündəlik həyatda istifadəsi haqqında şagirdləri məlumatlandırmaq və bu mühitə maraq yaratmaq məqsədi daşıyır. Süni intellekt texnologiyasında ABŞ-dan az qala 5 dəfə çox patent tətbiq edən Çin, bu mövzuda dünyada həm də ən çox akademik məqalə yazan ölkədir.

Ölkələrin süni intellekt araşdırmalarını müqayisə edən müxtəlif indekslər var [3, s.63]. Government AI Readiness Index 2021" jurnalının 21 yanvar 2022-ci il buraxılışında Cənub və Mərkəzi Asiya ölkələri üzrə şəkildən də göründüyü kimi Azərbaycan Regionda AI [Artificial Intelligence – Suni İntellekt] Hazırlığında 4-cü yerdədir [3, s.49]. Dünya üzrə sıralamada isə 67-ci yerdədir [3, s.64].

Bütün dünyada texnoloji tərəqqinin sürətli inkişafı və qloballaşma prosesində internet və kompüter texnologiyalarının inkişafı hökumətləri onların yeni şəraitə uyğunlaşmasını asanlaşdıracaq siyasətlər hazırlamağa vadar edir. Müxtəlif nizamnamələrlə dövlət idarəçiliyinin vəzifə və məsuliyyətləri dəyişir, ictimai təşkilatlar isə rəqəmsallaşan dövrün tələblərinə uyğun olaraq günü-gündən dəyişir və ehtiyaclar üçün müxtəlif islahatlar aparırlar.

Barth və Arnold [4, s.336] süni intellektli sistemlər ilə, yəni öyrənməyi öyrənə bilən maşınlarla qərar qəbulunda "nəyə nail olmaq olar?" və "hansı zərərlər qarşılaşa bilərik?" sualları ətrafında araşdırma aparıblar. Onlar dövlət idarəçilərinin qərar qəbul edərkən ictimai maraqları nəzərə alaraq qərar verməli olduqlarını bildirir. Onlar həmçinin vurğulayırlar ki, bəzən dövlət sektorunda çalışan, öz vəzifəsindən sui-istifadə edərək, ictimaiyyətin mənafeyi üçün deyil, qurumun və öz maraqları naminə istifadə edən idarəçilər olur. Lakin maşınların yalnız rasional davranış nümayiş etdirəcəyini müdafiə edən müəllif, onların qərəz və eqoizm kimi insani hisslərdən uzaq olduqları üçün arzuolunmaz dəyərlərin aradan qalxması ilə maşınların idarəçilərin cavabdehliyini təkmilləşdirə biləcəyinə diqqət yetirirdi.



İdarəçilər üçün qərar verə bilən süni intellektli maşınlar hələ yaradılmasa da, süni intellektin tətbiq olunduğu müxtəlif proqram təminatları sayəsində idarəçilərin məlumat əldə edilməsi həm sürətlənə bilər, həm də məlumatların dəqiqliyi və etibarlılığı asanlıqla qiymətləndirilə bilər. Beləliklə bu yolla əldə olunmuş məlumatlarla daha dəqiq qərarlar verilə bilər.

Vətəndaşlara xidmət sektorunda dövlət qurumları tərəfindən hazırlanmış "Çatbotlar" ("Chatbot") sayəsində vətəndaşlara xidmət baxımından çox mühüm irəliləyişlərə nail olmaq olar. Bu yolla dövlət işçilərinin iş yükü azalacaq və daha çox texniki işlərlə məşğul olacaqlar. Bu cür ağıllı tətbiqlərlə vətəndaşlara daha sürətli xidmət göstərilə bilər. Bunu etməkdə əsas məqsəd xidmət göstərilməsini transformasiya etməkdir.

Məlumat analitikasının istifadəsi süni intellektin dövlət sektoruna böyük töhfəsidir. Sağlamlıq sahəsində çox əhəmiyyətli olan bu üsulla çox sayda məlumat girişi təmin edilərək, xəstələr və xəstəliklər haqqında məlumatlara çox daha praktik şəkildə çatmaq olar. Hematologiya-onkologiya sahələrində süni intellektin mümkün və mövcud təsirlərindən danışan ABD-li Dr. Hashmi, xəstələrlə bağlı bütün müayinə və laboratoriya nəticələrinin müxtəlif kompüter proqramları ilə asanlıqla qeyd oluna biləcəyini, hər cür məlumatın, diaqnoz və müalicə tövsiyələrinin verildiyini və bu proqramların hal-hazırda sağlamlıq sahəsində xəstələrin klinik göstəricilərə uyğun olaraq müəyyən edilməsi üçün istifadə edildiyini qeyd edir [6, s.1].

Səhiyyə sahəsində süni intellekt tibbi görüntüləmədən tutmuş risk təhlilinə və sağlamlıq vəziyyətinin diaqnozuna qədər müxtəlif vəzifələri öz üzərinə götürərək, insan fəaliyyətini həqiqətən genişləndirə bilər. Misal üçün; İcmadakı müxtəlif sağlamlıq qruplarının yerli, əyalət, milli və qlobal ictimai sağlamlığının monitorinqi tez-tez ortaya çıxan sağlamlıq hadisələrinə vaxtında, diqqətli və effektiv cavab tapmaq üçün bir çox qurumun koordinasiyasını tələb edir. Bu koordinasiya, ictimai sağlamlıq nəzarətinə kömək edə biləcək süni intellekt və maşın öyrənmə kimi müxtəlif alqoritmlərin tətbiqi ilə əldə edilə bilər və bu tətbiqlər epidemiyaların və b. fövqəladə halların qarşısını erkən və sürətli aşkarlamağı təmin edə bilər [7, s.56]. Çində süni həkimlərin imtahanlardan müvəffəqiyyətlə keçdiyi və insan həkimləri kimi diaqnoz qoyduğu müşahidə olundu[8]. Süni intellektli həkimlərin bu uğuru gələcəkdə bu cür tətbiqlərin nə dərəcədə inkişaf edəcəyinə işıq salır.

Məlumatların təhlili təkcə səhiyyə sahəsində deyil, həm də bütün növ fövqəladə vəziyyətlərdə rahatlıq təmin edə bilər. Misal üçün; ABŞ-ın Ohayo ştatındakı Cincinati Yanğın İdarəsi fövqəladə hallarda cavabı optimallaşdırmaq üçün bu üsuldan istifadə edir [5]. "TriTech" şirkətinin "Inform Mobile" adlı proqram təminatı ilə polis idarəsinin əməkdaşları hər bir yanğınsöndürən maşınının və təcili tibbi yardım maşınının yerindən xəbərdar olur və operativ şəkildə hadisə yerində olan cavabdehlərə lazımi məlumatları çatdıra bilirlər. Beləliklə, fövqəladə vəziyyət olduqda, zərər çəkmişə mümkün qədər tez kömək etmək olur.

Dövlət sektorunda xidmət göstərilməsi baxımından böyük rahatlıq təmin edə biləcək digər vasitə isə dronların istifadəsidir. Süni intellektin məhsulu olan bu vasitələr bəzi ölkələrin ictimai təhlükəsizlik siyasətlərində əhəmiyyətli inkişaflara səbəb olur. Bu sistemlərlə bir çox bölgə kameralarla davamlı olaraq izlənilə bilər. Beləliklə, cinayət nisbətlərinin qarşısının alınması nöqtəsində əhəmiyyətli qazanc əldə etmək olar. Misal üçün; ABŞ-ın bir çox şəhərində hər hansı cinayətə səbəb ola biləcək anomaliyaları tez bir zamanda müəyyən etmək üçün dronlardan istifadə olunur [5, s.33].

İndi isə gəlin bir az da bu əhəmiyyətli sahədəki inkişafın dövlət idarəçiliyində və siyasətində hansı potensial faydaları və təhlükələri olduğuna baxaq.

### Dövlət idarəçiliyində və siyasətdə süni intellektli sistemlərin mümkün faydaları

Dövlət idarəçiliyində və siyasətlərdə süni intellektin tətbiqi ilə dövlət idarələrinin rəqəmsallaşmış dünya ilə ayaqlaşmaları asanlaşacaq. Dövlət qurumlarının insanların suallarına, problemlərinə və istəklərinə qurumlarda çalışan dövlət işçilərindən qat-qat tez cavab verə bilməsi və öz internet saytları vasitəsilə həll yolları təqdim etməsi həm dinc, həm də xoşbəxt cəmiyyətin yaranmasına, eyni zamanda dövlət işçilərinin lazımsız iş yükündən qurtulmaq və daha vacib xidmətləri yerinə yetirmələrinə səbəb olacaq.

Süni intellektə əsaslanan tətbiqlər potensial olaraq geriləmələri, xərcləri və resurs məhdudiyyətlərini azalda, işçiləri adi işlərdən azad edə bilər. O, prosesləri və sistemləri ağıllı şəkildə dizayn edə və saxta əməliyyatları proqnozlaşdıra, üz tanınması ilə cinayətkarları və şübhəliləri müəyyən etməyə kömək edə bilər və biz insanların təkbaşına edə bilməyəcəyi bir çox şeyi təkmilləşdirə bilər. Buna ən sadə nümunə kimi ən yaxşı nəticəni əldə etmək üçün milyonlarla sənədi tez bir zamanda nəzərdən keçirməyi(incələməyi) gətirə bilərik [9, s.3].

Maşın öyrənməsi və təbii dil emalı kimi süni intellekt növləri dövlət idarəçiliyinin bir çox sahələrində, məsələn, səhiyyə, ictimai asayiş, təhsil sahələrində istifadəsi ön plandadır. Məsələn, Çin Hökuməti pilot sınaqlar vasitəsilə tədricən inkişaf etdirdiyi Sosial Kredit Sistemini tətbiq edir. Ölkə toplanmış rəqəmsal məlumatlar və süni intellektlə dəstəklənən alt sistemlər sayəsində bütün vətəndaşları üçün etibarlılıq dərəcəsi verməyi planlaşdırır. Sistemin əsas məqsədi fərdlərin “daha yaxşı vətəndaş” olmalarıdır.

### Mümkün Təhlükələr

Məşhur iqtisadçı Zimmermann, süni intellektin məşğulluğa təsir edəcəyini, lakin iş yükümüzü azaltmayacağını düşünür [Klaus F. Zimmermann ilə üz-üzə, 23 may 2018-ci il, Berlin EBES Konfransı]. Əksinə, ixtisaslı işçi qüvvəsinə ehtiyacın artması gözlənilir. İdarəçilərin legitimliyini itirmə riski də mümkün təhlükələr sırasında sayıla bilər.

Ölkə çərçivəsində süni intellektə əsaslanan həllərin geniş şəkildə mövcudluğu bu sistemlərdən sosial asılılığı artırır. Bu vəziyyət səlahiyyət və nəzarətlə bağlı aşağıdakı narahatlıqları gündəmə gətirdi:

- Süni intellekt alqoritmləri insanlar tərəfindən yazılır və yüklənmiş rəqəmsal məlumatlara istinad edərək öyrənirlər. Beləliklə, qərəzli olmaq və ya mövcud səhvlərimizi kopyalamaq potensialı var.
- Alqoritmik sistemlər mürəkkəb strukturları ilə sistemin hansı kriteriyalarla işləməsi ilə bağlı qeyri-müəyyənliklər yaradır. Başqa sözlə işləməsi məlum olmayan “qara qutu” tipli sistemlər getdikcə daha çox yayılır.

Uzunmüddətli perspektivdə süni intellektin ən böyük təhlükəsi insanları əvəz etmə ehtimalının olmasıdır. Ancaq bir insanın edə biləcəyi hər şeyi maşının edə biləcəyi anlayışı hələ də uzaq görünür. Bu səbəbdən süni intellekt və insan faktorundan birgə istifadə edilərsə, görülən işi mükəmməlləşdirmək və görülən işlərdə xəta payını azaltmaq mümkün olacaq [11, s.2-3].

Süni intellektin sosial həyata tətbiqi ilə idarəetmə paradiqmasında qarşılaşılacaq ən böyük dəyişikliklər qanunverici orqanın yeni vəziyyətə necə reaksiya verəcəyindən asılıdır. Süni gövdəli və ya bədəni olmayan avtonom sistemlər (xidmət robotları, avtonom silahlar, səs köməkçiləri, proses proqramları, sürücüsüz quru, dəniz və hava nəqliyyat vasitələri və s.) geniş yayıldıqca, bu sistemlərin fəaliyyətlərdəki məsuliyyətləri və onlara qarşı hüquqi tədbirlər görülməsi tələb edə bilən fəaliyyətlərdə olmaları ehtimalları artır. Məsələn, 2018-ci ildə ABŞ-ın Arizona ştatında sınaqdan keçirilən Uber şirkətinə məxsus sürücüsüz özünü idarə edən avtomobil tarixdə ilk dəfə ölümlə nəticələnən qəza törədib.

Süni intellektin yayılması qaçılmazdır. Riskli olması başqalarının onu alıb istifadə etməsinə mane olmadığı üçün vaxtında bilib ona uyğun strateji planlaşdırma, siyasət müəyyən etmə və tətbiq etmə dövlət idarələrinin üzərinə düşür.

Süni intellekt sistemləri müasir dövlətlərin bugünkü cəmiyyətlərin çatdığı inkişaf səviyyəsindən imtina edə bilməyəcəyi bir texnologiyadır. Hal-hazırda rəqəmsal məlumatların idarə edilməsi, məxfilik, milli təhlükəsizlik, qlobal texnologiya şirkətlərinin texniki üstünlüyü, qanunvericilik bazası, məşğulluq və yeni peşəkar bacarıqların əldə edilməsi kimi bir çox çətin sahələrdə tədqiqatlar davam edir. Alqoritmik idarəetmə üsulları geniş yayıldıqca, bu sistemlərdə nəzarət, hesabatlılıq və şəffaflıq prinsiplərinin tətbiqi daha çox əhəmiyyət kəsb edir. Dövlətlərin vəzifəsi hər hansı digər şirkətlərdən daha vacib və önəmlidir. Dövlətlər həm dövrün tələb etdiyi öz struktur və kadr transformasiyalarına nail olmaq, həm də sosial rifahı və qlobal sülhü qorumaq üçün zəruri olan asanlaşdırıcı, nəzarətedici, qabaqlayıcı və tənzimləyici siyasətləri həyata keçirə bilməlidirlər.

**Ədəbiyyat:**

1. https://www.aa.com.tr/tr/analiz-haber/cin-ve-abd-nin-yapay-zek%C3%A2-sav asi/1389150
2. https://opengovasia.com/big-data-investment-rises-with-chinas-growingdigital-economy/
3. AI4D, "Government Artificial Intelligence Readiness Index 2021", 2021. https://www.oxfordinsights.com/governm ent-ai-readiness-index2021
4. Barth, T. Arnold, E. (1999). "Artificial Intelligence and Administrative Discretion-Implications for Public Administration". American Review of Public Administration, Vol. 29, No. 4: 332-351
5. Vashisht, M. (2017). "How is Artificial Intelligence Changing the Public Sector".ISHIR. https://www.ishir.com/blog/4662/artificial intelligence-changing -public-sector.html
6. Accenture. (2017) "Artificial Intelligence: Healthcare's New Nervous System" https://www.accenture.com/t20171215T0 32059Z__w__/usen/_acnmedia/PDF-49/Accenture-Health-Artificial-Intelligence.pdf
7. Neill, D. (2012). "New Directions in Artificial Intelligence for Public Health Surveillance" Event and Pattern Detection Laboratory).
8. Basnews (2017). Çin'de doktor yazılı sınavı geçti. http://www.basnews.com/index.php/tr/lifestyle/technology/393905
9. Eggers, W. Schatsky, D. Viechnicki, P. (2017). "AI-Augmented Government-Using cognitive technologies to redesign public sector work". DeloitteUniversityPress. https://www2.deloitte.com/content/dam/insights/us/articles/3832_AI-augmented-government/DUP_AI-augmented government.pdf
10. J. M. Zeng, "China's Social Credit System puts its people under pressure to be model citizens", The Conversation, 2018.
11. Centre for Public Impact (2017). Destination Unknown: Exploring the Impact of Artificial Intelligence on Government. https://www.centreforpublic impact.org /ai-government-working-paper/
12. A.J. Hawkins, "Serious safety lapses led to Uber's fatal self-driving crash, new documents suggest", The Verge, 06-Kas-2019.

***Açar sözlər:*** *süni intellekt, maşın öyrənməsi, dövlət idarəçiliyi, sosial xidmət*

**İlahiya Qadirova**

*The Academy of Public Administration under the President of the Republic of Azerbaijan Teacher of the Department of Information Technologies in Public Administration*

# THE IMPACT OF THE DEVELOPMENT OF ARTIFICIAL INTELLIGENT SYSTEMS ON PUBLIC ADMINISTRATION

## ABSTRACT

The increase in digitalization and the expansion of the use of smart systems are also changing the expectations of citizens from public services. The demand for citizens to be able to perform any type of transaction in the public sector in a short period of time and manage their transactions digitally without going to any institution sheds light on the relationship between artificial intelligence and public administration. But this is a transitional phase and a new process. In this process, in addition to the positive impact of artificial intelligence on public administration and politics, there are also negative effects. This article discusses the possible benefits and dangers of the development in the field of artificial intelligence for public administration.

***Keywords:*** *artificial intelligence, machine learning, public administration, social service*

**Илахия Гадирова**

*Преподаватель кафедры Информационных технологий в государственном управлении Академии Государственного Управления при Президенте Азербайджанской Республики*

# ВЛИЯНИЕ РАЗВИТИЯ ИСКУССТВЕННО ИНТЕЛЛЕКТУАЛЬНЫХ СИСТЕМ НА ГОСУДАРСТВЕННОЕ УПРАВЛЕНИЕ

## РЕЗЮМЕ

Рост цифровизации и расширение использования интеллектуальных систем также меняют ожидания граждан от государственных услуг. Требование, чтобы граждане могли совершать любые транзакции в государственном секторе за короткий период времени и управлять своими транзакциями в цифровом виде, не обращаясь в какое-либо учреждение, проливает свет на взаимосвязь между искусственным интеллектом и государственным управлением. Но это переходный этап и новый процесс. В данном процессе, кроме положительного влияния искусственного интеллекта на государственное управление и политику, есть и отрицательные эффекты. В представленной статье рассматриваются возможные преимущества и опасности развития в области искусственного интеллекта для государственного управления.

***Ключевые слова:*** *искусственный интеллект, машинное обучение, государственное управление, социальная служба*

DOI: 10.30546/2309-1347.2024.2.0031

# İ Q T İ S A D İ Y Y A T
# E C O N O M Y

UOT 338.1; 330.34/.35; 338.26/.28; 338.12

**YAŞAR MƏMMƏDOV**
**Azərbaycan Respublikasının Prezidenti yanında**
**Dövlət İdarəçilik Akademiyasının**
**Dövlət idarəetməsi və menecment kafedrasının dosenti,**
**iqtisad üzrə fəlsəfə doktoru**
*e-mail: yashar-mamedov@yahoo.com*

## AZƏRBAYCANDA TURİZM XİDMƏTİNİN İNKİŞAFI XÜSUSİYYƏTLƏRİ

### Giriş

Dünyanın müxtəlif regionları arasında informasiya və əmtəə mübadiləsinin artdığı, nəqliyyat sisteminin inkişaf etdiyi müasir dövrdə turizm əksər ölkələrdə real, yaxud potensial gəlir mənbəyi kimi ilk sıralarda dayanır. Ümumdünya Turizm Təşkilatına görə, istirahət, iş və digər məqsədlərlə öz daimi yaşayış məkanlarının hüdudlarından kənara səyahət edən və ya bir ilədək başqa mühitdə yaşayan insanlar turist hesab olunurlar. Dünyada il ərzində beynəlxalq turizm səyahətlərinə sərf olunan vəsait 1 trilyon ABŞ dollarından çoxdur. Daxili turizmə sərf olunan səyahət xərclərini də nəzərə aldıqda turizm sektorunun çox böyük həcmdə maliyyə axınlarına təkan verdiyi aydın olur. Azərbaycan da turizmin inkişafı üçün geniş imkanlara malikdir və təcrübə göstərir ki, bu xidmət sahəsinin perspektiv inkişafı yüksəkdir. Ölkədə milli iqtisadiyyat üzrə qəbul olunan strateji yol xəritələrində prioritet istiqamətlərdən biri kimi ixtisaslaşmış turizmin müəyyənləşdirilməsi və turizmin inkişafı istiqamətində görülən işlərin davamlılığına diqqətin artırılması xüsusi zərurətdən irəli gəlməkdədir. Azərbaycan Respublikasının cəlbedici turizm məkanı kimi qabaqcıl mövqe tutmasına imkan yaratmaq, qarşılıqlı əlaqələrdən və mövcud turizm potensialından səmərəli istifadə edilməklə bu sektorun iştirakçıları arasında əməkdaşlığın inkişafını və Azərbaycanda turizm xidmətləri üzrə keyfiyyətin yüksəldilməsini təmin etmək müvafiq sənədlərdən öz vacibliyi ilə əsaslandırlır [1;4].

### Azərbaycanda turizmin inkişafı üçün yaradılan mühit

Turizm sektoru iqtisadiyyatın sürətlə inkişaf edən sektoru olmaqla davamlı dəyişən demoqrafik göstəricilərə və müxtəlifləşən coğrafiyaya malikdir. Turizm sektoru iqtisadiyyatın həssas sektoru kimi qlobal iqtisadi böhranların təsirinə birbaşa məruz qalmasına baxmayaraq, son maliyyə böhranından sonra, xüsusən də 2009-cu ildən etibarən dördillik müddət ərzində böhranın təsirindən çıxaraq yenidən sürətli inkişafa başlamışdır. Bu inkişafın əsasını iki mühüm amil təşkil edir [2;4]:

Bir tərəfdən ABŞ, Yaponiya və Avropanın bir çox inkişaf etmiş ölkələrində müşahidə olunan iqtisadi canlanma nəticəsində həmin ölkələrdən gəlmə turistlərin və müvafiq olaraq

onların gəlirlilik səviyyəsinin artması, eləcə də orta sinfin genişlənməsi;

Digər tərəfdən dövlətlərin turizmin inkişafına artan dəstəyi nəticəsində Asiya və Latın Amerikası ölkələrində də turizm sektorunun inkişafı, həmçinin aşağıbüdcəli hava nəqliyyatı xidmətlərinin mövcudluğu bu sektordakı artımın əsas təkanverici amilləri qismində çıxış edir (Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi).

Azərbaycanın zəngin mədəniyyəti mədəni və əyləncə turizmi üçün geniş imkanlar yaradır. Bu baxımdan, turizm obyektlərində mütəmadi olaraq milli musiqimizi, rəqslərimizi, geyimlərimizi, eləcə də xalq rəvayətlərini, adət-ənənələrini və s. təbliğ edən kiçik konsertlərin, şouların təşkili də turistlərin marağına səbəb ola bilər. Azərbaycanın turizm imkanlarının - istirahət turizmini əhatə edən istiqamətləri genişdir. Ölkəmizin biznes mühitinin və xarici iqtisadi əlaqələrinin inkişafı ilə əlaqədar, həmçinin irimiqyaslı layihələrin, eləcə də Avroviziya, Avropa Oyunları, qarşıdan gələn “Formula-1” yarışları, İslam Həmrəylik Oyunları kimi beynəlxalq miqyaslı müsabiqələrin təşkilində iştirak məqsədilə hər il Azərbaycana minlərlə biznes turisti də səyahət edir. Turizmin inkişafı Azərbaycanda dövlət siyasətidir. Azərbaycan turizminin daha bir uğuru respublikamızın 2001-ci ilin sentyabr ayının 25-də Cənubi Koreyanın paytaxtı Seul şəhərində Ümumdünya Turizm Təşkilatının (ÜTT) XIV Baş Assambleyasında bu beynəlxalq təşkilata üzv seçilməsi olmuşdur. Bu və sonrakı belə tədbirlər isə respublikamıza turizm fəaliyyəti üzrə tövsiyələr və əməli yardım edilməsinə imkan yaratmışdır. Ölkədə turizmi inkişaf etdirmək və turizm ehtiyatlarından səmərəli istifadə etmək məqsədilə respublika Prezidentinin 2002-ci il 27 avqust tarixli Sərəncamı ilə “Azərbaycan Respublikasında 2002-2005-ci illərdə turizmin inkişafına dair Dövlət Proqramı” təsdiq olunmuşdur [4;5]. “2009-2018-ci illərdə Azərbaycan Respublikasında kurortların inkişafı üzrə Dövlət Proqramı” isə ölkəmizdə turizm-kurort sahələrinin planlı surətdə inkişaf etdirilməsinə və səmərəli istifadəsinə normativ zəmin yaratmışdır. Ölkəmiz Londonda (WTM), Berlində (ITB), Moskvada (MITT), İstanbulda (MTE) və digər şəhərlərdə keçirilən 20-dək ən nüfuzlu beynəlxalq turizm forumlarında iştirak edib [6]. Azərbaycanda turizmin inkişafı bu sahədə müasir dünyada baş verən proseslərin diqqət mərkəzində saxlanılmasını ön plana çəkməkdədir.

Turizm sərgilərinin təşkili və beynəlxalq sərgilərdə iştirak, Azərbaycanı təbliğ edən reklam çarxlarının və nəşrlərin hazırlanması, xarici ölkələrdə konsert və tədbirlərin keçirilməsi ilə yanaşı, ölkəmizdə son illərdə baş tutan nüfuzlu beynəlxalq mədəniyyət və idman müsabiqələri, humanitar forumlar da Azərbaycana marağı artırıb. Turizm sektorunun inkişafına nail olmaq üçün turizm növlərinə də xüsusi diqqət yetirməklə, tələb və təklifin məqsədyönlü şəkildə uzlaşmasını təmin etmək tələb olunur [7]. Təklif nöqteyi-nəzərindən hər bir turizm növü üzrə rəqabətqabiliyyətli sahələrin araşdırılmasına və həmin sahələr üzrə rəqabətin təmin edilməsinə ehtiyac vardır. Tələb amili baxımından isə bazarlara yaxınlıq, viza rejimi və nəqliyyat əlaqələri, o cümlədən birbaşa uçuşların mövcudluğu ən əsas hərəkətverici mexanizmlərdir. Buna əlavə olaraq, sosial, demoqrafik və səyahətlə bağlı davranışların öyrənilməsi ən səmərəli proqramların qurulmasına kömək edə bilər.

Müasir təcrübədə ölkələr və turizm məkanları turizm brendinin hazırlanmasına və təbliğinə daha çox diqqət yetirirlər. Dünya miqyasında yeni biznes modelləri, sosial şəbəkə və güclü istehlakçı kütləsinin formalaşması qlobal bazarı nəzərəçarpacaq şəkildə dəyişmişdir. Turistlərin sayının artmasını nəzərə alaraq, fərqli maraq dairəsinə malik turistlərə xidmət məqsədilə turizm sektoru mümkün olan bütün seçimləri və növləri diversifikasiya etmişdir. Turizm məkanlarının geniş seçimini təmin etməklə yanaşı, bu amillər yeni bazar təmayüllərinə uyğunlaşmaq üçün mövcud struktur və marketinq strategiyalarının yenidən qiymətləndirilməsi zərurətini ortaya çıxarmışdır. Bu

baxımdan, dövlət və özəl sektorun nümayəndələri eksklüziv və innovativ təklifləri artırmaqla ixtisaslaşmış turizmi, müxtəlif biznes modellərini və məhsul brendlərini hədəfləyərək, turizm mərkəzlərini daha da təşviq etmək üçün təşəbbüslər həyata keçirməyə çalışırlar. Həmçinin, dünya ölkələrində mühüm amil kimi hava əlaqəsinin və əlçatanlığın gücləndirilməsinə xüsusi diqqət yetirir. Belə ki, qabaqcıl ölkə təcrübələrində iqtisadi səmərə üçün milli aviadaşıyıcıya sahib olmaqla yanaşı, həm də uyğun qiymətə aviabiletlərin təşkili məqsədilə müxtəlif istiqamətli tədbirlər görülür və bazarın genişləndirilməsi təmin edilir. Bundan əlavə, əksər ölkələr ciddi investisiya qoyuluşu həyata keçirmədən əlçatanlığın yaxşılaşdırılması məqsədilə viza proseslərini asanlaşdıracaq tədbirlər həyata keçirirlər.

Turizm məkanları üzrə flaqman layihələr sektor strategiyasının həyata keçirilməsi baxımından mühüm element hesab edilir. Flaqman layihələr sektor strategiyasını dəstəkləyən operativ, böyükmiqyaslı və nəzərəçarpan investisiya layihələridir və daha geniş islahatların həyata keçirilməsində həm güclü əlaqə vasitəsi, həm də marketinq aləti rolunu oynaya bilər. Nəhayət, bu cür layihələr coğrafi əhatə dairəsini kiçiltmək və islahatların mürəkkəbliyini azaltmaqla, bütövlükdə sektor üçün səmərəli təsir göstərə bilər [2;4;5].

## Ölkəmizdə turizm xidmətlərinin müasir inkişaf səviyyəsi

Azərbaycan, Şərqlə - Qərbin qovuşmasında yerləşən müasir infrastrukturu və qədim zəngin tarixi abidələri olan paytaxt Bakı şəhərindən başlamaqla, ecazkar təbiətə və milli parklara malik regionları ilə məşhurdur. Ancaq təsadüfi deyildir ki, Bakı şəhəri Azərbaycanın qlobal turizm sektorundakı payının böyük bir hissəsinə sahibdir. Turizm üzrə məşhur internet portallarının məlumatına görə, ölkəyə gələn xarici turistlərin üstünlük verdikləri turizm mərkəzlərinin 75 faizi Bakıda yerləşir. Digər hissə isə gələcəkdə artımdan xəbər verən regional turizmin payına düşür [3;9;10]. Azərbaycanın turizm sektoru, bütövlükdə, yüksəliş dövrünü yaşayır. Covid – 19 pandemiyasına qədər, yəni: 2010-2019-cu illər ərzində Azərbaycanda turizm müəssisələrinin sayında ortalama ildə 4,5%, turizm sahəsində məşğulluq səviyyəsində ildə 6%, turizm məqsədilə gələn xarici ölkə vətəndaşlarının sayında isə 8,5% artım müşahidə edilmişdir. Dünya Səyahət və Turizm Şurasının məlumatlarına əsasən, Azərbaycanda turizm sektoru birbaşa ÜDM-in 2,8%-ni, məşğulluğun isə 2,6%-ni təşkil edir ki, bu da dünyada orta hesabla 3% birbaşa ÜDM və 3,6% birbaşa məşğulluq göstəricilərindən cüzi fərqlənir. Bu isə gələcək inkişaf potensialından xəbər verir [8;11;12]. Ümumilikdə isə, Azərbaycanda turizm xidmətinin inkişafı üçün yaradılan şərait bu sahədə bir sıra irəliləyişlərin əldə edilməsinə səbəb olmuşdur. Belə ki, 2010-cı illə müqayisədə - 2022-ci ildə ölkədə fəaliyyət göstərən turagent və turoperatorların (fiziki və hüquqi şəxslər) sayı iki dəfəyə yaxın artmaqla – 240-a çatmışdır. Eyni zamanda, bu sahədə əldə edilən gəlirlərin həcmi – 2,8 dəfə artmaqla – 53,4 milyon manat təşkil edilmişdir. Turzim sektorunun fəaliyyətinin genişləndirilməsi məqsədilə turagent və turoperatorların müvafiq dövrdə çəkdiyi xərclərin həcmi – 2,4 dəfə yüksəlməklə – 42,6 milyon manata çatmışdır. Təhlillər göstərir ki, müvafiq dövrdə sektor üzrə çalışan, sahibkarlıq fəaliyyəti ilə məşğul olan turagent və turoperatorların əldə etdiyi mənfəətin həcmi 19% artmaqla – 11 milyon manat təşkil etmişdir [8] (qrafik 1).

Bütün bu sahədə əldə olunan irəliləyişlərə baxmayaraq, müvafiq sektor üzrə nəzərə çarpacaq neqativ tendensiyalar da baş vermişdir. Belə ki, bu sahədə çalışan turagent və turoperatorların sayı isə - 12% azalmışdır. Eyni zamanda, bu dövr ərzində ölkədə satılan turizm zərflərinin sayı xeyli, daha doğrusu 2 dəfə azalmaqla – 16803 ədədə enmişdir. Göstərmək lazımdır ki, müqayisə olunan dövrdə, həmçinin - satılmış turizm zərflərinin dəyərində də 1,6 dəfə azalma müşahidə edilmiş və bu göstərici son ildə – 16 milyon manat təşkil etmişdir. Ölkədə gələn turistlərin sayı iki

**Qrafik 1.** Turagent və turoperatorların fəaliyyətinin maliyyə nəticələri (milyon manat).




Mənbə: Qrafik [8] mənbəyi əsasında müəlliflər tərəfindən hazırlanmışdır.

dəfədən də çox aşağı düşməklə – 31801 nəfər səviyyəsinə enişdir [8]. Turizm sektoru üzrə belə azalmaya əsas səbəb 2020-2021-ci illərdə COVID-19 pandemiyasının təsirləri olmuşdur.

Azərbaycana gələn və ölkədən xaricdə istirahət üçün gedən turistlərin sayında əsas artım dövrü 2019-cu ilədək müşahidə edilmişdir. Göstərmək lazımdır ki, 2010-cu il illə müqayisədə 2019-cu ildə bu göstərici ümumilikdə - 30% artmaqla 99507 nəfər təşkil etmişdir. Həmin dövr ərzində ölkəyə gələn turistlərin sayı – 28%, ölkədən xaricə gedən turistlərin isə - 33% artması ilə diqqəti cəlb etmişdir. Müqayisə olunan dövrdə tur-günlərin sayı (adam-gün) da artması ilə fərqlənmişdir. Belə ki, bu dövr ərzində qəbul edilən və göndərilən tur-günlərin sayı ümumilikdə - 19% artmaqla – 565590 gün olmuşdur. Qeyd etmək lazımdır ki, ölkəyə gələn turistlər üzrə bu göstərici – 10% azalsa da, lakin xaricə gedən turistlər üzrə - 25% yüksəlmişdir (qrafik 2) [8].

Azərbaycanda turizm sektorunun göstəricilərində son on ildə fərqli inkişaf meylləri nəzərə çarpmışdır. Belə ki, bu sektorda çalışan işçilərin sayı 2010-cı illə müqayisədə 2022-ci ildə 28% artmaqla – 63109 nəfərə çatmışdır. Ölkənin müxtəlif turizm sahələrində yaradılan əlavə dəyərin həcmi həmin dövr ərzində 1,6 dəfə yüksələrək 3,9 milyard manat təşkil etmişdir. Həmçinin göstərmək lazımdır ki, 2010-cı illə müqayisədə 2022-ci ildə bu sahələrdə yaradılan əlavə dəyərin ölkə ÜDM-indəki xüsusi çəkisi 1,6 dəfə azalmaqla – 2,9%

**Qrafik 2.** Ölkəyə gələn və ölkədən xaricə gedən turistlərin sayı




Mənbə: Qrafik [8] mənbəyi əsasında müəlliflər tərəfindən hazırlanmışdır.

səviyyəsinə enmişdir. Bununla yanaşı, turizm sahələrinə qoyulan investisiyaların həcmində də müqayisə olunan dövrdə ciddi – daha doğrusu 11 dəfə azalma baş vermiş və bu göstərici 99 milyon manat təşkil etmişdir [8].

## Azərbaycanda turizmin inkişaf potensialı

Azərbaycan dünyanın, demək olar ki, hər bir ölkəsindən turistlər qəbul edir. Ölkənin turizm prioritetləri mövcud olan imkanlardan maksimum istifadə etməklə beş əsas mənbədən formalaşır:

- ✓ Azərbaycan (yerli turistlərin tələbatı);
- ✓ Türkiyə, İran, Gürcüstan və Rusiya da daxil olmaqla qonşu ölkələr;
- ✓ Səudiyyə Ərəbistanı, Bəhreyn, Küveyt, İraq, Oman, Qətər və Birləşmiş Ərəb Əmirlikləri də daxil olmaqla Fars körfəzi regionu ölkələri;
- ✓ Qazaxıstan, Ukrayna və Özbəkistan da daxil olmaqla Müstəqil Dövlətlər Birliyinə üzv ölkələr (MDB);
- ✓ Kanada, Çin, Avropa İttifaqı, Hindistan, Yaponiya, Cənubi Koreya və Amerika Birləşmiş Ştatları da daxil olmaqla kütləvi turizm ölkələri.

Azərbaycanın turizm sektoruna xaricdən tələbat daha çox Gürcüstan, İran, Türkiyə və Rusiya kimi qonşu ölkələrdəndir və bu ölkələrin də hər birindən Azərbaycana turist axınının mümkünlüyü yüksəkdir (qrafik 4). Belə ki, coğrafi yaxınlıq, ümumi mədəni dəyərlər və Azərbaycan əsilli əhalisinin olması bu ölkələrdən yüksək turist axınına səbəb olan amillərdəndir. Eyni zamanda, bu göstərici Azərbaycana qohum ziyarətinə gələn etnik azərbaycanlıları da əhatə edir. Ümumiyyətlə, dörd region ölkəsindən olan turist səfərləri üzrə Azərbaycan, ən əsas turizm mərkəzlərindən biri olmaqla, Gürcüstan və Türkiyənin başlıca rəqiblərindəndir. Bununla belə, Gürcüstandan Türkiyəyə gedən turistlərin sayı Gürcüstandan Azərbaycana gələn turistlərin sayından üç dəfə, İrandan Türkiyəyə gedən turistlərin sayı isə İrandan Azərbaycana gələn turistlərin sayından 10 dəfə çoxdur [13].

## Nəticə

Dünya təcrübəsində yüksək gəlir əldə etmək potensialına malik olan turizm məhsulları və xidmətləri daim diqqət və istehlakçı istəklərinə uyğunlaşma tələb edir. Azərbaycan Respublikasında turizm məhsulunun inkişafı üçün özəl təşəbbüslərin dəstəklənməsi, yerli və regional səviyyədə əlverişli koordinasiyanın qurulması, bütün diqqətin istehlakçının tələbinə yönəldilməsi, məhsulun inkişafında regional və tematik hədəfin gücləndirilməsi, həmçinin maraqlı və cəlbedici məhsulların bir-biri ilə əlaqələndirilməsi vacib məqamlardandır. Ümumiyyətlə, Azərbaycanın bir çox turizm növləri üzrə potensialı vardır və həmin potensialın reallaşdırılması üçün dövlətin, eləcə də özəl sektorun davamlı dəstəyi vacib amillərdəndir. Qeyri-neft sektorunun inkişafı fonunda əhəmiyyəti artan turizm sektoru iqtisadiyyatın əlverişli bir hissəsi olmaqla xırda və orta sahibkarlıq üçün möhkəm baza formalaşdırır. Bundan əlavə, bölgələrdə turizmin inkişafı yeni iş yerlərinin açılmasına, region infrastrukturunun formalaşdırılması və təkmilləşdirilməsinə əlverişli şərait yaradır. Bütün bunlar Azərbaycanın yeni inkişaf hədəflərinə çatması yönündə dövlətin qarşıya qoyduğu vəzifələrin icrasına xidmət edir və ölkəmizin düzgün inkişaf yolunda irəlilədiyini təsdiqləyir.

**Ədəbiyyat:**


1. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası. Bakı – 2012. https: //president.az/files/future_az.pdf.
2. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. Bakı: - 2021. http://e-qanun.az/framework/46813.
3. Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası. Bakı, 2022. https://static.president.az/upload/Files/2022/07/22/5478ed13955fb35f0715325d7f76a8ea_3699216.pdf.
4. Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi. Bakı, 2016. https://president.az/az/articles/view/22134.
5. Azərbaycan Respublikasında 2002-2005-ci illərdə turizmin inkişafına dair Dövlət Proqramı. Bakı, 2002. https://e-qanun.az/framework/1615.
6. 2009-2018-ci illərdə Azərbaycan Respublikasında kurortların inkişafı üzrə Dövlət Proqramı. Bakı, 2009. https://e-qanun.az/framework/16143.
7. Azərbaycan Respublikasının Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyası. https://azranking.az/az/ratings/aparilan-islahatlar-49; https://azranking.az/az/ratings/dinamika-48
8. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları. Bakı, 2024. https://www.stat.gov.az.
9. https://www.lonelyplanet.com.
10. https://www.tripadvisor.com.
11. https://tourism.gov.az/news/azerbaycan-dunya-seyahet-ve-turizm-shurasinin-resmi-destinasiya-terefdashi-sechilib.
12. https://www.worldbank.org/en/home.
13. Euromonitor 2015-2019. https://go.euromonitor.com/white-paper-EC-2023-Top-10-Global-Consumer-Trends-EN.html.


***Açar sözlər:*** *turizm, turizm xidmətləri, hüquqi mühit, iqtisadi inkişaf, potensiallar*

**Yashar Mammadov**

*The Academy of Public Administration under the President of the Republic of Azerbaijan*
*The Department of State Governance and Management*
*Associate Professor, Doctor of Economics*

# FEATURES OF THE DEVELOPMENT OF TOURISM SERVICES IN AZERBAIJAN

## ABSTRACT

As one of the main sectors of the non-oil sector in Azerbaijan, the development of the tourism sector is treated with special care at the state level. Necessary conditions have been created for developing the sectors included in this sector, and reforms in the relevant direction are being continued. Although a number of improvements have been made, the direction of the tourism service development has vast potential in this area. The article examines the environment created for developing the tourism sector in Azerbaijan and evaluates the results achieved in this area. Also, ideas are put forward for the development of tourism.

***Keywords:*** *tourism, tourism services, legal environment, economic development, potential*

**Яшар Мамедов**

*Доцент кафедры “Государственное управление и менеджмент”*
*Академии Государственного Управления*
*при Президенте Азербайджанской Республики,*
*доктор философии по экономике*

## ОСОБЕННОСТИ РАЗВИТИЯ ТУРИСТИЧЕСКОГО СЕРВИСА В АЗЕРБАЙДЖАНЕ

### РЕЗЮМЕ

В представленной статье подчеркивается, что особое внимание на государственном уровне в Азербайджане уделяется развитию сектора туризма как одной из основных отраслей ненефтяного сектора. Созданы необходимые условия для развития отраслей, входящих в этот сектор, и продолжаются реформы в соответствующем направлении. Хотя в направлении развития туристического сервиса был достигнут ряд успехов, но в этой сфере есть большой потенциал. В этом контексте в статье исследуется среда, созданная для развития туристического сектора в Азербайджане, оцениваются результаты, полученные в этой области, также выдвигаются идеи и предложения по развитию туризма в стране.

***Ключевые слова:*** *туризм, туристические услуги, правовая среда, экономическое развитие, потенциал*

DOI: 10.30546/2309-1347.2024.2.0032

**G Ə N C T Ə D Q İ Q A T Ç I L A R**
**Y O U N G R E S E A R C H E R S**

**B E Y N Ə L X A L Q M Ü N A S İ B Ə T L Ə R**
**I N T E R N A T I O N A L R E L A T I O N S**

UOT 327; 930.22

**ЗАУР МАМЕДОВ**

**Докторант кафедры “Международные отношения и внешняя политика” Академии Государственного Управления при Президенте Азербайджанской Республики, советник**

*e-mail: zaur.mammadov@dia.edu.az*

# ОТНОШЕНИЯ АЗЕРБАЙДЖАНА И ЕС: ПОЛИТИКО-ЭКОНОМИЧЕСКИЕ ПЕРСПЕКТИВЫ И ВЫЗОВЫ

Рассматривая внешнеполитическую деятельность государств в мире глобализации, становится отчетливо понятным, что правильное построение внутренней и внешней политики, которые между собой тесно связаны является одним из важнейших факторов для безопасности и развития обществ. Тем более, в евразийском пространстве, где геополитические разногласия между глобальными акторами приобретают острейший характер. Ни для кого не секрет, что в настоящее время глобальные международные системы безопасности, сформированные после Второй мировой войны, сталкиваются с определенными угрозами и вызовами.

Сегодня, глядя на политическую, экономическую и военную карту мира, можно понаблюдать как несколько глобальных геополитических центров активизируют свое присутствие в важных частях мира. Тем самым, именно от их влияния и отношения с субъектами тех или иных регионов зависит стабильность и благополучие или наоборот анархия и хаос в тех или иных регионах, географиях. Мир впервые после формирования Ялтинско – Потсдамской системы сталкивается с политическими, военными кризисами охватывающий глобальный характер. Говоря о кризисах, некоторые эксперты особенно отмечают энергетический и финансовый кризисы, которые являются важным поворотом в изменении глобальных коммуникационных путей [2]. Так или иначе, практика показала, что распад Советского Союза и окончание холодной войны не объединило бывших противников. Не дали результатов и попытки перенести центр принятия решений на площадки различных европейских региональных организаций. Вместо этого с трибун данных структур стали звучать призывы и обращения, больше напоминающие поучения и тон строгого педагога [1]. Следовательно, мировая конкуренция за каждый регион между доминирующими странами планеты требует от остальных государств трезвого и рационального внешнеполитического подхода. Учитывая, что сегодня ситуация вокруг Черноморско-Каспийского региона всё больше характеризуется как взрыво-

опасной, где с одной стороны борьба за Армению между Россией и США выходит на открытый уровень, а с другой стороны, в Украине, на Ближнем Востоке происходит форматирование старой геополитической конфигурации. Нет сомнения, что происходящие сегодня процессы являются началом нового этапа, который будет характеризоваться формированием новой региональной и глобальной оси. В этой связи особо важное место занимают позиции тех стран, которые находятся на перекрестке этих конфронтаций и коммуникационных – транспортных узлов.

В данном случае нас интересует регион Южного Кавказа и региональный центр в лице Азербайджанской Республики. За последние два десятилетия Азербайджанская Республика смогла построить сбалансированные и взаимовыгодные отношения с важными конкурирующими геополитическими центрами, такими как, Россия, англосаксонский и Европейский Союз, обеспечив нацеленную на будущее трезвую и стабильную перспективу.

Говоря о европейском направлении во внешнеполитической деятельности официального Баку стоит признать особое место этой организации или объединений государств в мире, которое на протяжении более семь десятилетий сохраняет свое уникальное место в глобальных процессах. Здесь стоит особо отметить, что уникальность внешней политики азербайджанского государства состоит в том, что Баку, начиная от прихода Гейдара Алиева во внешнеполитической деятельности в отношении США, ЕС, РФ и Британии всегда пытался развивать партнерское взаимовыгодное сотрудничество. На протяжении десятилетий Азербайджана с Европой связывал партнерские отношения на основе которых лежит энергетический фактор и фактор безопасности. В партнерстве с ЕС уже три десятилетия реализуются такие программы как TACİS, TRACECA (транспортный коридор Европа – Кавказ – Азия), İNOGATE (межправительственная программа по транспортировке нефти и газа в Европу), ECHO (программа гуманитарной помощи) и другие. Но, тут стоит отметить, что базовые соглашения между двумя акторами (Соглашение о партнерстве и сотрудничестве от 1996 года, которое вступило в силу 1999 г.) уже устарели, но из-за нестабильной и порой несправедливой оценки процессов в нашем регионе со стороны Брюсселя новый документ между сторонами так и все еще не подписан [8]. Кстати говоря, ЕС в 1998 году назначил своего специального представителя в столице Азербайджана, а в 2000 году Баку открыл своё представительство в Брюсселе. В 2004 году Азербайджан присоединился к Европейской политике соседства, в 2009 году же к программе «Восточное партнерство» [7]. А в 2017 году между сторонами начался диалог о новом всестороннем соглашении, которое определяло бы равноправный и взаимовыгодный дух партнерства. В рамках этого диалога в 2018 году был подписан «приоритеты партнерства» между ЕС и Азербайджаном. В декабре 2021 года по взаимному согласию действие документа "Приоритеты партнерства ЕС-Азербайджан" было продлено до 2024 года. К сожалению, на данный момент отношения ЕС – Азербайджан сталкиваются с определенными вызовами и в первую очередь со стороны руководства Франции.

В отличии от других стран, которые тоже подключались в программу Восточное партнерство, наша страна никогда не стучала в двери каких – либо организаций, а наоборот, желала взаимного соблюдения интересов в двусторонних и многосторонних отношениях. Пожалуй, эти озвученные выше и ниже нюансы обезопасили Баку от многих глобальных угроз. Результат этой политики заключался в минимизации политических рисков, сохраняя баланс между геополитическими акторами. Здесь стоит особо отметить те страны,

которые в отношении Азербайджана не делали грубые маневры и пытались сохранить баланс в карабахском вопросе. То есть, изюминка внешнеполитической деятельности официального Баку заключается в трезвости оценок с партнерами.

Лидер Кавказа – Азербайджан формирует двусторонние отношения предвидя будущие события и правильно рассчитывая, какой вклад принесет та или иная организация или международный актор, а какой нет. Как результат, сегодня отношения Азербайджан – ЕС более продуктивны и стабильны, чем у других стран Восточного партнерства с точки зрения реализации национальных интересов.

Для ЕС Азербайджан является окном возможностей для старого контингента. Тем более, когда южное и северное снабжение Европы находятся под угрозой и переживает кризис, серединный путь коммуникации носит еще более актуальный характер. Азербайджан реализует масштабные энергетические и транспортные проекты совместно с ЕС и транснациональными компаниями Запада. Во-вторых, наша страна, как уже говорилось выше, особенно в связи с событиями в Украине, является ключевой страной в транспортно-коммуникационных связях Запада с Восточной Азией.

Война между Россией и Украиной, точнее между Россией и Западом на украинской земле еще раз продемонстрировала дальновидную внутреннюю и внешнюю политику руководства Азербайджана. В настоящее время одним из главных стремлений Европы является увеличение объемов импортируемого из Азербайджана газа, что является свидетельством особой роли Баку в энергетической безопасности контингента. Еще до начала войны в Украине в начале февраля 2022 года представители Запада обсуждали возможность увеличения азербайджанского природного газа в Европу на восьмом министерском заседании Консультативного Совета Южного Газового коридора в Баку с участием президента Ильхама Алиева. [12]. Тогда, после завершения мероприятия комиссар ЕС по вопросам расширения и политики соседства Оливер Варгели выступил с заявлением о выделении Азербайджану 2 млрд. евро в рамках экономического инвестиционного плана. Это несмотря на то, что после завершения 44 дневной войны ЕС планировал выделить Армении в несколько раз больше в рамках экономического инвестиционного плана, чем Азербайджану. Тогда, комментируя такую дискриминацию лидер Азербайджана Ильхам Алиев на встрече с президентом Совета ЕС Шарлем Мишелем, находившимся с визитом на Южном Кавказе, заявил, «важно устранить этот несправедливый подход». [4] Наконец, этот подход ЕС был устранен. Это всего лишь один из многих примеров политики двойных стандартов Запада в отношении Азербайджана.

Но, несмотря на попытки некоторых сил испортить отношения ЕС с Азербайджаном официальный Баку всегда вел хладнокровную внешнюю политику. Ни для кого не секрет, что, понимая, что за каждой международной организацией стоят интересы тех или иных стран, официальный Баку в своей внешнеполитической деятельности предпочитает развивать двусторонние взаимовыгодные отношения именно с национальными республиками. В результате этого, несмотря на несправедливую политику Европарламента и Совета Европы, где преобладают проармянские и профранцузские группировки, Азербайджан продолжает расширять свое геоэкономическое влияние в восточном побережье ЕС. Так, Азербайджан имеет стратегическое партнерство с 9 членами Европейского Союза. Сегодня такие страны как Италия, Греция, Болгария, Румыния, Венгрия, Сербия являются покупателями азербайджанского природного газа. А с 2026 года Албания станет следующей страной, где расширится география TAP. До 2030 года

Босния и Герцеговина, Черногория, Северная Македония, Словакия и Хорватия также планируют поставки азербайджанского газа. Говоря о цифрах, если Азербайджан по итогам 2023 года экспортировал в Европу около 12 млрд кубометров газа, то согласно меморандуму о взаимопонимании по стратегическому сотрудничеству в сфере энергетики между ЕС и АР поставки природного газа в Европу увеличатся до 20 млрд кубометров [6]. Стоит отметить, что поставки азербайджанского газа в Европу, а точнее в Италию по Трансадриатическому газопроводу с месторождения «Шахдениз» начались в 2020 году с пропускной способностью 12 млрд кубометров в год. В 2023 году в данную страну из Азербайджана экспортировался в объеме около 10 млрд кубометров газа. Согласно же свежим данным официальный Баку в 16 раз увеличил поставки природного газа в Италию.

По словам известного итальянского политолога Сальвадора Сантанджело, «Азербайджан укрепляет свои позиции в качестве второго по величине поставщика газа в Италию. Две страны на сегодняшний день ведут активную работу над расширением своего всестороннего партнерства, о чем свидетельствуют недавние сделки в сфере бизнеса на миллион евро, а также участие итальянских фирм в восстановлении Карабахского региона. Также продолжаются переговоры по расширению пропускной способности ТАР» [5].

Кроме Италии за последнее время роль Азербайджана в укреплении энергетической безопасности на Балканах ежегодно растет. Официальный Баку укрепляет связи со странами данного региона, о чем свидетельствуют регулярные визиты лидеров друг – другу и экономические показатели. Два года назад начал работать интерконнектор Греция – Болгария. Тем самым азербайджанский газ впервые поступил на Балканы. После эксплуатации данного коннектора энергетическое и транспортное взаимодействие между сторонами приобрели еще более значимый характер. Как результат, Балканские страны сегодня являются не только надежными партнерами Азербайджана в энергетической сфере и сфере альтернативной энергетики где уже после нескольких лет сформируется новая ось Каспий – Балканы, но также наблюдается координированное взаимодействие на международной арене. К примеру, в декабре 2022 года и августе 2024 года Албания как непостоянный член в Совете Безопасности ООН, защитила справедливую позицию Баку выступая против предложения Франции, поднятого в рамках обсуждений процессов вокруг Карабаха.

Отметим, что поставки азербайджанского газа в Европу по Трансадриатическому газопроводу с газоконденсатного месторождения "Шахдениз" начались в конце 2020 года. В настоящее время пропускная способность трубопровода составляет 12 млрд кубометров газа в год. Подписание в июле 2022 года в Баку Меморандума о стратегическом партнерстве в области энергетики между Азербайджаном и ЕС стал еще одним свидетельством важности нашей страны в экономическом плане для Западного мира. Согласно соглашению, планируется удвоить экспорт голубого топлива и расширение пропускной возможности газопроводной линии Южногазового коридора.

Другой важный фактор в двусторонних связах зеленая энергетика. Наряду с классической энергетикой зеленая энергетика является той сферой, где Каспийский бассейн является привлекательной географией для Запада. Понимая нуждаемость Европы в этой области (согласно «Европейской зеленой сделке» к 2050 году планируется использование экологически чистой электрической энергии, нулевого суммарного загрязнения окружающий среды и т.п. [3]) Азербайджан предлагает Западу альтернативные виды энергетики.

Уже 22 декабря 2022 года в столице Румынии, в Бухаресте между правительствами Азербайджана, Грузии, Венгрии и Румынии было подписано «Соглашение о стратегическом партнерстве в области развития передачи энергии». [6]. Согласно соглашению по дну Черного моря будет проложен электрический кабель, который будет доставлять зеленую энергию из Азербайджана в Европу.

Международные эксперты, анализируя политику Азербайджана в сфере альтернативной энергетики, рассматривают Баку как главного союзника в этой сфере. Так, в опубликованной на сайте Ассоциации НАТО Канады статье Роберта Катлера - специалиста по энергетической безопасности и геоэкономике, научного сотрудника Канадского института энергетических исследований подчеркивается, что – «1 марта 2024 года столица Азербайджана - город Баку стал ключевым центром сближения в энергетическом секторе. Состоялось 10-е заседание министров в рамках Консультативного совета Южного газового коридора (ЮГК) наряду со вторым заседанием министров по "зеленой" энергетике. Встреча стала важной вехой в сотрудничестве Европейского союза с Азербайджанской Республикой, а также продемонстрировала, как динамично развиваются глобальные энергетические стратегии» [10]. Здесь стоит отметить, что на заседании приняли участие представители 23 государств, 6 международных организаций и 44 компаний, а также представители стран Евросоюза, где состоялись такие пленарные секции как «Министерская сессия по Южному Газовому Коридору и зеленой энергии», также «использование возобновляемой энергии на фоне COP 29.

По мнению экспертов официальный Баку к 2030 году планирует создать 7 ГВт альтернативной энергетики делая акцент на возобновляемые источники. Не исключено, что больше половины из этого ресурса будет экспортировано в Европу по двум маршрутам: Каспий – Черное море – Балканы и Каспий – Турция – ЕС. По мнению генерального исполнительного директора ассоциации Windeurope Джайлса Диксона, энергия является трансграничным вопросом. «Возьмем Азербайджан. Они хотят построить на Каспийском море многочисленные станции ветряной энергии. Они не будут сами потреблять эту энергию. Они будут транспортировать ее по новому электрическому кабелю, который будет проложен от Кавказа по дну Черного моря до Европы. Это – международное сотрудничество. Такую работу можно проделать лишь при консолидации правительств, причем они приводят в соответствие промышленность, готовящуюся построить это», - добавил Дж. Диксон [9].

Анализируя данные факторы становится очевидным, что снабжение зеленой энергией Европы наряду с увеличением и диверсификацией природного газа в Старом Свете придает особое место Азербайджану в будущем экономическом портрете континента. Истинные национальные интересы европейских стран заключаются не в давлении на Азербайджан, приводя в пример разные поводы, а интеграции и кооперации экономик и развития политических отношений.

По мнению еще одного зарубежного эксперта, работающего в институте CIFE, сотрудника Центра стратегических исследований Begin-Sadat в Израиле и Фонда европейской и внешней политики Греции Джорджа Цогопулоса «Азербайджан на протяжении многих лет занимает важное место среди партнеров Европы и является надежным поставщиком природного газа на континент. «Азербайджан победил Армению в Карабахской войне. Значение Азербайджана в регионе высоко, и он имеет собственное видение региональных вопросов. У Азербайджана налажены хорошие отношения с Россией и добрые, дружеские связи с Турцией. Кроме того, особого внимания заслуживают отношения

с Ираном. После Карабахской войны нам следует внимательно следить за развитием отношений между этими двумя странами. Энергетические ресурсы и природный газ являются двумя основными факторами, имеющими значение для отношений между Азербайджаном и Европой, но существует много других возможностей для бизнеса». [13].

Таким образом, в целях обеспечения максимального учета интересов Азербайджана в отношениях с ЕС, который является еще одной глобальной площадкой и одним из крупнейших политических и экономических центров, президент Ильхам Алиев обозначил контуры, по которым в ближайшие месяцы и годы стороны должны будут действовать.

**Литература:**


1. Азербайджан: модель новой внешней политики и взгляда в будущее. [Электронный ресурс].https://azertag.az/ru/xeber/azerbaidzhan_model_novoi_vneshnei_politiki_i_vzglyada_v_budushchee-892354
2. Глава МЭА: Мир переживает первый глобальный энергетический кризис. 25.10.22. [Электронный ресурс]. https://report.az/ru/energetika/glava-mea-mir-perezhivaet-pervyj-globalnyj-energeticheskij-krizis/
3. Зеленый пакт для Европы. https://ru.wikipedia.org/wiki/%D0%97%D0%B5%D0%BB%D1%91%D0%BD%D1%8B%D0%B9_%D0%BF%D0%B0%D0%BA%D1%82_%D0%B4%D0%BB%D1%8F_%D0%95%D0%B2%D1%80%D0%BE%D0%BF%D1%8B
4. Пакет экономической помощи Азербайджану должен быть не меньше, чем Брюссель предлагает Армении. 02.10.2021. [Электронный ресурс]. https://interfax.az/view/846443
5. Сальваторе Сантанджело: «Теперь, когда Карабах освобожден от оккупации…». 1 апреля 2024. [Электронный ресурс]. https://minval.az/news/124384277
6. Соглашение о стратегическом партнерстве в области развития передачи энергии. 17.12. 2022. [Электронный ресурс]. https://president.az/ru/articles/view/58222
7. Урсуна фон дер Ляйен . Меморандум укрепит энергетическое сотрудничество ЕС и Азербайджана. 18.07.2022. [Электронный ресурс]. https://report.az/ru/energetika/ursula-fon-der-lyajen-podpisannyj-memorandum-ukrepit-energeticheskoe-sotrudnichestvo-es-i-azerbajdzhana/
8. Azərbaycan – Avropa İttifaqı münasibətləri. [Электронный ресурс]. https://mfa.gov.az/az/category/regional-teskilatlar/azerbaycan-avropa-ittifaqi-munasibetleri
9. Euronews: A discussion of mutual cooperation in the field of energy and the transition to green energy took place in Azerbaijan. 12.03. 2024. [Internet resource]. https://azertag.az/ru/xeber/euronews_v_azerbaidzhane_sostoyalos_obsuzhdenie_vzaimnogo_sotrudnichestva_v_oblasti_energetiki_i_perehod_k_zelenoi_energii_video-2947389
10. Partnership and Cooperation Agreement between the European Communities and their Member States, of the one part, and the Republic of Azerbaijan, of the other part. 01.07.1999. [Internet resource].

https://eur-lex.europa.eu/legal-content/EN/ALL/?uri=CELEX%3A21999A0917%2801%29
11. Southern Gas Corridor Meeting Deepens EU – Azerbaijan Energy Cooperation.19.03.2024. [Internet resource].. https://natoassociation.ca/southern-gas-corridor-meeting-deepens-eu-azerbaijan-energy-cooperation/
12. 8 th Ministerial Meeting of Southern Gas Coridor Advisory Council was held in Baku. 04.02.2022. [Internet resource]. https://minenergy.gov.az/en/xeberler-arxivi/bakida-cenub-qaz-dehlizi-mesveret-surasi-cercivesinde-nazirlerin-viii-toplantisi-kecirilib
13. Di Francesko De Palo. L'importanza dell'Azerbaigian va oltre il gas. L'analisi di Tzogopoulos. 09.02.2024. [Internet resource]. https://formiche.net/2024/02/azerbaigian-aliyev-analisi-di-tzogopoulos/#content

***Ключевые слова:*** *Азербайджан, Европейский Союз, внешняя политика, геополитика, TAP, традиционная энергетика, альтернативная энергетика, коммуникации, Евразия, Каспийско-Черноморский регион, Южный Кавказ*

**Zaur Məmmədov**

*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyasının müşaviri,*
İnstrumental legitimlik iqtisadi inkişaf və ya sosial sabitlik kimi konkret məqsəd və nəticələrə nail olmaqda hökumətin səmərəli fəaliyyətinə əsaslanır. Məsələn, iqtisadi çağırışları uğurla həll edən və öz vətəndaşlarının həyat səviyyəsini yaxşılaşdıran hökumət, İnstrumental effektivliyinə görə legitim hesab edilə bilər. İnstrumental legitimlik nəticəyə yönəlib, hökumətin nəzərəçarpacaq faydaları təmin etmək və əhalinin ehtiyaclarını ödəmək qabiliyyətinin vacibliyini vurğulayır. Hökumətin legitimliyi onun müsbət nəticələr əldə etmək qabiliyyətindən asılıdır. Bu baxımdan, legitimliyin yaradılması sadəcə olaraq bir hadisə deyil; xidmətin göstərilməsi, seçkilər və qanunun aliliyi təkbaşına legitimlik yaratmır. Dövlətin legitimliyi vətəndaşların dövlət haqqında təsəvvür və gözləntilərinə əsaslanır və bunlar dövlət subyektləri ilə vətəndaşlar arasında birgə yaradıla bilər. Bu kontekstdə Makkalou göstərir ki, müxtəlif ölkələrdə müxtəlif xidmətlərin göstərilməsi dövlət legitimliyi təşkil edir. Məsələn, Nepalda ictimai su təminatı problemi, Pakistanda isə səhiyyə xidmətləri birbaşa olaraq dövlətin legitimliyi ilə bağlı idi. Lakin legitimlik yarada bilən təkcə dövlətlər deyil. Digər hakimiyyət orqanları, məsələn, münaqişə zonalarındakı dominant silahlı qruplar əhalinin müəyyən təbəqələri üzərində dövlətdən daha sərt legitimlik qura bilər [9 s.9-14].

İnstrumental legitimliyin qiymətləndirildiyi ümumi sahələrdən biri iqtisadi fəaliyyətdir. Böyüməyə kömək etmək, işsizliyi azaltmaq və sabitliyi təmin etmək üçün iqtisadi siyasəti uğurla idarə edən hökumətlər alət baxımından qanuni hesab edilə bilər. Sosial məsələlərin həllində, əsas xidmətlərin göstərilməsində və inkişafın təşviqində hökumətin effektivliyi onun hüquqi legitimliyinə kömək edir. Vətəndaşlar çox vaxt hökumətin qanuniliyini onun yaşayış standartlarını yaxşılaşdırmaq və ümumi ictimai rifahı yüksəltmək qabiliyyətinə əsaslanaraq qiymətləndirirlər. Səhiyyə, təhsil, nəqliyyat və kommunal xidmətlər kimi əsas dövlət xidmətlərinin göstərilməsi İnstrumental qanunilik üçün çox vacibdir. Bu xidmətləri səmərəli şəkildə həyata keçirən hökumətlər daha çox qanuni hesab olunurlar. İnstrumental legitimlik hökumətin təhlükəsizliyi qorumaq və qanunun aliliyinə riayət etmək imkanlarını əhatə edir.

Vətəndaşlar hökumətdən ümumi qanuniliyinə töhfə verərək ictimai təhlükəsizliyi təmin etməyi və fərdi hüquqları qorumasını gözləyirlər. Ekoloji problemlər, ictimai sağlamlıq böhranları və sosial bərabərsizlik kimi aktual problemlərin həllində hökumət siyasətinin effektivliyi İnstrumental legitimliyin əsas müəyyənedici amilidir. Effektiv siyasət həyata keçirdiyini nümayiş etdirən hökumətlər öz legitimliyini artırır. İnstrumental legitimlikdə ictimai rəy mühüm rol oynayır. Vətəndaşlar hökumətin onların qayğı və ehtiyaclarını uğurla həll etdiyini hiss etsə, məmnunluq səviyyəsi yüksəlir və hökumətin legitimliyinə töhfə verir. İnstrumental legitimlik çox vaxt kəmiyyətlə ölçülə bilən və ölçülə bilən nəticələrə əsaslanır. İqtisadi artım, işsizlik səviyyəsi, yoxsulluğun azaldılması və digər əsas göstəricilərlə bağlı statistik məlumatlar hökumətin fəaliyyətini və legitimliyini qiymətləndirmək üçün istifadə olunur [11].

Demokratik legitimlik dövlətin səlahiyyətinin azad və ədalətli seçkilər vasitəsilə idarə olunanların razılığından irəli gəldiyi fikrini vurğulayır. Məsələn, vətəndaşların iştirakı, siyasi plüralizm və fərdi hüquqların müdafiəsi kimi demokratik prinsiplərə üstünlük verən ölkələr öz legitimliyini demokratik proseslərdən alırlar. Demokratik legitimlik, bir dövlətin səlahiyyətlərinin qanunvericilik və ictimai razılıq əsasında idarə olunması ilə əlaqələndirilir. Bu mənada, demokratik legitimlik, dövlətin hakimiyyətini təşkil edən strukturların, vətəndaşların ictimai razılığa əsaslanan qanunvericilik prosesləri vasitəsilə məşruiyyətini qazanması ilə əlaqəlidir [8, s.203].

Demokratik proseslər, ölkələrdə siyasi plüralizmin təmin edilməsi, fərdi hüquqların qorunması, ictimai razılığın təmin edilməsi və həmçinin qanunvericilik proseslərinin şəffaflığı və intizamı kimi prinsiplərlə birləşdirilir. Bu prinsiplər, vətəndaşların siyasi proseslərə aktiv iştirakını təmin edir və onların hakimiyyətə olan inamını və dəstəyini artırır. Demokratik legitimlik mövzusunda, əlavə

məlumatlar şəbəkənin nəzərindən dövlətin demokratik proseslərini təmin etməsi, ictimaiyyətin razılığını qazanmaq üçün şəffaflığı, həmrəyliyi və hər bir vətəndaşın eşit hüquqlara sahib olduğu bir mühit yaradılması ilə bağlı olacaq. Bu məlumatlar, demokratik proseslərin inkişaf etməsi üçün siyasi təşviqatın və təhsilin önəmini vurğulayır və həmçinin medianın və sivil cəmiyyətin rolunu da qeyd edir.

Kosmopolit legitimlik milli dövlətin hüdudlarından kənara çıxır və transmilli məsələlərin həlli üçün qlobal idarəetmə strukturlarının zəruriliyini vurğulayır. Məsələn, iqlim dəyişikliyi və ya qlobal pandemiya kimi müəyyən problemlərin qlobal miqyasda əməkdaşlığı tələb etməsi və beynəlxalq səylərdə iştirakdan legitimliyin əldə oluna biləcəyi ideyasından irəli gəlir. Bu problemləri tək bir dövlətin gücü ilə həll etmək mümkün deyil. Beləliklə, kosmopolit legitimlik ideyası bu problemlərin həllində beynəlxalq əməkdaşlığın və qlobal səviyyədə formalaşmış idarəetmə strukturlarının rolunu və zəruriliyini vurğulayır. İqlim dəyişikliyi və epidemiyalarla mübarizə kimi məsələlərdə dövlətlər arasında əməkdaşlıq və məlumat mübadiləsi vacibdir [11].

Kosmopolit legitimlik konsepsiyası belə beynəlxalq əməkdaşlığa və ümumi həll yollarına təkan verir. Bundan əlavə, bu problemlərin həllində ümumi həll yolları tapmaq və müvafiq siyasət həyata keçirmək üçün beynəlxalq təşkilatların ictimai və siyasi dəstəyə ehtiyacı var. Bundan əlavə, kosmopolit legitimlik konsepsiyası milli dövlətlərin təkbaşına həll edə bilməyəcəyi qlobal miqyasda bir çox problemlərin həlli üçün beynəlxalq əməkdaşlığın təşviqini vurğulayır. Dünya əhalisinin ümumi problemləri həll etmək üçün bir araya gəlməsini, beynəlxalq təşkilatlar vasitəsilə birgə işləməsini və bu prosesdə iştirakını qanuniləşdirir.

Postkolonial legitimlik müstəmləkəçilik tarixlərindən yaranan dövlətlərin üzləşdiyi problemlərə diqqət yetirir və tarixi ədalətsizliklərin aradan qaldırılması və postkolonial kontekstdə legitimliyin qurulması zərurətini vurğulayır. Məsələn, bir çox postkolonial xalqlar dekolonizasiya, dövlət quruculuğu və müstəmləkə idarəçiliyinin tarixi təsirləri ilə bağlı məsələləri həll etməklə legitimlik yaratmağa çalışırlar.

Postkolonial legitimlik müstəmləkə idarəçiliyinin sona çatdığı tarixi kontekstdə yerləşir. Afrika, Asiya və Amerikadakı bir çox dövlətlər 20-ci əsrin ortalarında müstəmləkə güclərindən müstəqillik əldə etdilər və bu, yeni siyasi nizamların yaradılması zərurətinə səbəb oldu. Postkolonial dövlətlərin legitimliyi çox vaxt müstəqillik uğrunda mübarizələrdə köklərə malikdir. Müstəmləkə zülmü və istismarına qarşı mübarizə aparan hərəkatlar və liderlər tez-tez ehtiramla anılır, yeni yaranmış dövlətin legitimliyinə töhfə verirlər.

Postkolonial legitimlik mürəkkəb dövlət quruculuğu prosesini əhatə edir. Çox vaxt müstəmləkə keçmişinə qarşı qurulan kollektiv milli kimliyin yaradılması dövlətin legitimliyi üçün həlledici əhəmiyyət kəsb edir. Bir çox post-müstəmləkə dövlətləri müstəmləkəçilik dövründə torpağa sahiblənmə, iqtisadi istismar və mədəni sıxışdırma kimi tarixi ədalətsizlikləri aradan qaldırmaq problemi ilə üzləşirlər. Bu haqsızlıqları etiraf etmək və düzəltmək legitimliyə töhfə verə bilər [11]. Siyasi müstəqillik əldə etməyi və milli sərvətlər üzərində nəzarəti bərpa etməyi nəzərdə tutan dekolonizasiya prosesi postkolonial legitimliyin mərkəzidir. Uğurlu dekolonizasiya çox vaxt dövlətin legitimliyinin təməl elementi kimi qəbul edilir. Postkolonial legitimlik çox vaxt müstəqillik uğrunda mübarizə zamanı əhalinin dözümlülüyünü, müqavimətini və fədakarlıqlarını vurğulayan anti-müstəmləkəçilik hekayələrinin təbliğini nəzərdə tutur. Bu təbliğat milli qürur və legitimlik hissinə töhfə verir. Bəzi postkolonial dövlətlər mədəni dirçəliş və yerli dillərin, adət və ənənələrin təbliğini fərqli milli kimlikləri təsdiq etmək və legitimliyi gücləndirmək yolu kimi vurğulayırlar.

Postkolonial legitimlik həm də dövlətin iqtisadi inkişafı dəstəkləmək və həyat səviyyəsini yaxşılaşdırmaq qabiliyyəti ilə bağlıdır. Yoxsulluğun, bərabərsizliyin aradan qaldırılmasında və iqtisadi artımın təşviqində uğur qazanan hökumətlər öz legitimliyini artırırlar. Postkolonial kontekstdə demokratik idarəetmə sistemlərinin qurulması və saxlanması legitim-

liyə töhfə verir. Demokratik proseslər və institutlar çox vaxt müstəmləkə avtoritarizmindən qopma kimi qəbul edilir. Postkolonial legitimlik bəzən bir dövlətin qlobal səhnədə öz suverenliyini təsdiq etmək qabiliyyəti ilə əlaqələndirilir. Beynəlxalq münasibətləri uğurla idarə etmək və neokolonial təsirlər qarşısında müstəqilliyi təsdiqləmək legitimliyi gücləndirə bilər [5, s.547-552].

### Dövlət hakimiyyətində legitimliyi zəiflədən faktorlar

Avtoritarizm, bir sistem kimi, dövlət hakimiyyətinin legitimliyinə ciddi problem yaradır. Belə sistemlərdə siyasi hakimiyyət bir liderin və ya kiçik bir qrupun əlində cəmləşir, çox vaxt ümumi əhalinin məhdud və ya heç bir iştirakı olmadan həyata keçirilir. Demokratik proseslərin olmaması və idarə olunanların razılığının olmaması geniş yayılmış narazılıq və müqavimətlə nəticələnə bilər. Avtoritar rejimlər nəzarəti saxlamaq üçün çox vaxt məcburiyyətə, senzuraya və müxalif fikrin yatırılmasına əsaslanır. Etirazçılara qarşı güc tətbiqi, söz azadlığının məhdudlaşdırılması, siyasi təqiblər qorxu mühiti yaradır və ədalətli və legitim hakimiyyət anlayışını sarsıdır. Avtoritar liderlər həqiqi xalq dəstəyindən məhrum ola bilər, onların hakimiyyətini davam etdirmək üçün qorxu və manipulyasiyaya güvənirlər. Bu baxımdan, həqiqi legitimliyin olmaması daimi mübarizəyə səbəb ola bilər, çünki rəhbərlər narazı əhalinin müqaviməti ilə üzləşə bilər.

Bundan əlavə, korrupsiya dövlət hakimiyyətinin legitimliyini əhəmiyyətli dərəcədə poza bilən geniş yayılmış problemdir. Liderlər öz səlahiyyətlərindən şəxsi maraqları üçün sui-istifadə edən kimi qəbul edildikdə, bu, ictimai inamı və idarəetmə sisteminin ədalətliliyinə inamı sarsıdır. Korrupsiya çox vaxt şəxsi zənginliyi artırmaq üçün dövlət vəsaitlərinin və resurslarının mənimsənilməsini nəzərdə tutur. Resursların ictimai xidmətlərdən və infrastruktur layihələrindən kənara yönəldilməsi hökumətin elitanın maraqlarını ümumi əhalinin maraqlarından üstün tutduğu qənaətini gücləndirir. Geniş yayılmış korrupsiya qanunun aliliyini poza bilər, çünki siyasi əlaqələri olan şəxslər öz hərəkətlərinə görə cəzasız qala bilərlər. Bu da öz növbəsində hüquq sisteminin ədalətli və qərəzsiz fəaliyyət göstərdiyinə inamı daha da sarsıdır.

Eyni zamanda, davamlı sosial və iqtisadi bərabərsizlik narazılıq mənbəyi ola bilər ki, bu da dövlət hakimiyyətinin legitimliyini şübhə altına alır. Bu bərabərsizlikləri aradan qaldıra bilməyən hökumətlər əhalinin dəstəyini itirmək riski ilə üzləşirlər. Sərvətlər, imkanlar və resurslar qeyri-bərabər paylandıqda, təcrid olunmuş təbəqələr arasında ədalətsizliyə məruz qalmaq hissi baş qaldıra bilər. Partik Haack isə müəyyən qrupların imtiyazlı rəftar görməsi, digərlərinin isə sistemli ayrı-seçkiliklə üzləşməsi barədə təsəvvür ədalətli və legitim dövlət ideyasını sarsıdığını düşünürdü. Əgər sosial və iqtisadi hərəkətlilik məhdudlaşdırılırsa, dövlət aparatı qeyri-mütənasib olaraq cəmiyyətin müəyyən qruplarına üstünlük verirsə, bu, insanlarda siyasi sistemin qapalı və ədalətsiz bir sistem olduğu qavrayışını yaradır ki, bu da öz növbəsində dövlət hakimiyyətinin legitimliyi məsələsini sual altında qoyur[4].

Qeyri-ənənəvi və müstəqil inkişafın təmin edilməsi də mühüm məsələdir. Dövlət müxtəlif qrupların inkişafına kömək etməli, hər bir mütərəqqi vətəndaşın potensialını üzə çıxarmalı, bütün cəmiyyətin inkişafını təmin etməlidir. Söhbət dövlətin cəmiyyətdə ədalətin, bərabərliyin və inkişafın təmin edilməsi, hər bir fərdin hüquq və mənafeyini qoruyan struktura malik olması üçün səmərəli addımlar atmasından gedir. Bu cür addımlar dövlətin legitimliyini qoruyacaq və siyasi sistemə inamı qoruyub saxlamağa kömək edəcək.

Ümumiyyətlə, nepotizm, başqa sözlə, idarəçiliyin müxtəlif aspektlərində qohumlara və ya yaxın adamlara üstünlük verilməsi təcrübəsi uzun müddətdir ki, dövlət hakimiyyətinin legitimliyinə dərin təsirləri olan aşındırıcı qüvvə kimi tanınır. Nepotizm müxtəlif formalarda, o cümlədən ailə üzvlərinin əsas dövlət vəzifələrinə təyin edilməsi, işgüzar sövdələşmələrdə imtiyazlı münasibət, resursların qərəzli şəkildə bölüşdürülməsi kimi özünü göstərə bilər. Bu cür təcrübələr meritokratiya və ədalətli rəqabət prinsiplərinə xələl

gətirir, dövlətin qərar qəbul etmə proseslərinin legitimliyi ilə bağlı suallar yaradır. Nepotizm kadrların ləyaqət və bacarıqlara deyil, şəxsi münasibətlərə əsaslanaraq təyin edilməsinə gətirib çıxarır. Meritokratiyanın bu cür məhvi dövlət institutları tərəfindən ədalətli şəkildə kadr qəbulunu azaldır. Nəticə etibarı ilə ictimaiyyət dövlət aparatını imtiyazlı azlıq üçün müstəsna bir oyun sahəsi kimi qəbul edir.

Burada qeyd etmək yerinə düşər ki, ictimai etimad dövlət legitimliyinin əsas sütunudur. Bu baxımdan, dövlət aparatında qohumbazlıq üstünlük təşkil etdikdə və təyinatlar bu istiqamətdə edildikdə, resurslar fərdi meritokratiyadan daha çox ailə əlaqələri əsasında xərcləndikdə hökumətin dürüstlüyünə inam azalır. Cəmiyyət üzvləri dövlət təsisatlarına vətəndaşlara xidmət edən qurumlar kimi yox, bir qrup insana xidmət edən qurumlar kimi baxmağa başlaya bilər ki, bu da hökumətin ictimaiyyətin maraqlarına uyğun hərəkət etmək qabiliyyətinə inamın aşınmasına gətirib çıxara bilər.

Başqa sözlə, nepotizm mövcud sosial və iqtisadi bərabərsizlikləri gücləndirməyə meyllidir. Çox vaxt imtiyazlı ailələrdən olan seçilmiş fərdlər ardıcıl olaraq imtiyazlı rəftar gördükdə, bu, resursların bir neçə ailə arasında cəmləşdiyi sistemi davam etdirir. Bu da öz növbəsində sosial parçalanmaları gücləndirir və ədalətsizlik hissini gücləndirir, eyni zamanda dövlətin legitimliyini daha da sarsıdır.

Nəhayət, nepotizm idarəetmənin keyfiyyəti üçün ağır nəticələrə səbəb ola bilər. Sebekində qeyd etdiyi kimi, qərarlar rasional təhlil və ekspertizadan daha çox şəxsi münasibətlərə əsaslananda, dövlətin mürəkkəb problemləri həll etmək qabiliyyəti zəifləyir. Bu, siyasi kursun effektiv həyata keçirilməsinə maneçilik törətməklə yanaşı, həm də hakimiyyətdə olanların səriştəsi ilə bağlı şübhələr yaradır və dövlətin legitimliyini sual altına alır [10]. Nepotizmin varlığı, dövlət idarəetməsində müəyyən problematik məsələlərə səbəb ola bilər. Ən əsası, qərarların obyektivliyinə və effektivliyinə təsir edir. Şəxsi münasibətlərə əsaslanan təyinatlar, dövlət işlərində və qərarlarında məsuliyyət və ədalətin zəifləməsinə səbəb ola bilər, çünki mütəxəssislərin və layiqli kadrların yerinə, şəxsi əlaqələr və qohumluq əlaqələrinə üstünlük verilir. Bu təyinatlar və qərarlar, dövlətin mürəkkəb problemlərini həll etmək qabiliyyətini zəiflədir və effektiv idarəetməni maneələyə bilər. Buna görə də, dövlət işlərinin effektiv və ədalətli həll edilməsində problem yaradır və bu da ictimai etibarın və dövlətin legitimliyinin azalmasına səbəb olur.

Nepotizm həmçinin siyasi fəaliyyətin effektiv həyata keçirilməsini maneələr ələyə bilər. Əgər dövlət işlərində şəxsi münasibətlər və qohumluq əlaqələri nəzərə alınırsa, siyasi qərarlar və iradələr siyasi partiyalar və ya həmçinin hökmdarların şəxsi maraqlarına əsaslanır və bu da demokratik proseslərin və siyasi kursun doğruluğunun pozulmasına səbəb ola bilər. Bu cür idarəetmə dövlət rəhbərliyinin səriştəsinə şübhələr yaradır. Hər hansı bir idarəetmə sisteminin etibar və qanunçuluq prinsiplərindən danışılırken, nepotizm ilə əlaqəli idarəetmə praksiyası dövlətin hakimiyyətinin legitimliyini sual altına salır və ictimai etibarını zəiflətdirir.

Nepotizmə qarşı mübarizə, dövlətin və cəmiyyətin qabaqcıl və ədalətli inkişafı üçün vacibdir. Obyektiv qərarlar, dövlətin keyfiyyətli və sürətli inkişafını təmin edərək, cəmiyyətin güvənini qazanmağa kömək edir və dövlətin mürəkkəb problemləri ilə həll etmə qabiliyyətini artırır.

**Nəticə**

Bu nəzəri yanaşmalar dövlət hakimiyyətinin legitimliyini təhlil etmək və anlamaq üçün müxtəlif çərçivələr təklif edir. Praktikada dövlətlər tez-tez bu yanaşmaların birləşməsindən istifadə edirlər və legitimliyin dinamikası dəyişən sosial, siyasi və iqtisadi kontekstlərə cavab olaraq zamanla inkişaf edə bilir.

Müasir dünyada isə dövlət hakimiyyətinin legitimliyi məsələsinin yeni problemləri meydana çıxıb. Məsələn, xalqlar arasında artan iqtisadi, mədəni və siyasi qarşılıqlı asılılıq ilə qeyd olunan davam edən qloballaşma prosesi dövlət hakimiyyətinin legitimliyinə yeni çağırışlar gətirib. Milli dövlətin öz sərhədləri daxilində məsələlərin həllində ənənəvi rolu

əməkdaşlıq həllini tələb edən qlobal problemlər tərəfindən yenidən formalaşdırılır. Bu baxımdan, qlobal ekoloji problemlər, xüsusən də iqlim dəyişikliyi fərdi dövlət tədbirlərinin məhdudiyyətlərini qabardır.

Gördüyümüz kimi, avtoritarizm, korrupsiya, sosial bərabərsizlik və nepotizm dövlət hakimiyyətinin legitimliyini sarsıdan əsas faktorlar olaraq dövlət aparatının işləməsində böyük problemlər yaradır.

**Ədəbiyyat:**


1. Castello, I. Searching for New Forms of Legitimacy Through Corporate Responsibility Rhetoric. Journal of Business Ethics (2011) 100:11–29.
2. Bloom, J. Black against Empire: The History and Politics of the Black Panther Party (The George Gund Foundation Imprint in African American Studies). California: University of California Press, 2016. 562 pages.
3. Glassman, R. Legitimacy and Manufactured Charisma. Social Research. Vol. 42, No. 4, Charisma, Legitimacy, Ideology and Other Weberian Themes (WINTER 1975), pp. 615-636.
4. Haack, P.; Sieweke, J. The Legitimacy of Inequality: Integrating the Perspectives of System Justification and Social Judgment. https://doi.org/10.1111/joms.12323
5. Jauregui, B. Cultures of Legitimacy and Postcolonial Policing: Guest Editor Introduction. Law & Social Inquiry, Vol. 38, No. 3 (Summer 2013), pp. 547-552.
6. Jessop, B. State Power. Oxford: Polity, 2008. 200 pages.
7. Lachmann, R. States and Power. Oxford: Polity, 2010. 224 pages.
8. Matheson, C. Weber and the Classification of Forms of Legitimacy. The British Journal of Sociology. Vol. 38, No. 2 (Jun., 1987), pp. 199-215.
9. Rose, R. The Absolute and Instrumental Legitimacy of Democracy. Centre for the Study of Public Policy, U. of Strathclyde: Studies in Public Policy No. 524 (2017). 32 pages.
10. Sebek, J. Political Nepotism. Charles University in Prague Faculty of Arts Department of Political Science. A Dissertatıon Submitted in Satisfaction of The Requirements for The Degree of Doctor of Philosophy in Political Science, 2015. 223 pages. URL: https://dspace.cuni.cz/bitstream/handle/20.500.11956/80642/140042468.pdf?sequence=1&isAllowed=y
11. Stanford Encyclopedia of Philosophy. Political Legitimacy. First published Thu Apr 29, 2010 / URL: https://plato.stanford.edu/entries/legitimacy/
12. Trzcinski, K. Legitimacy and Importance of the Traditional Authority in Africa: K.A. Appiah's Approach and Its Critique. Africana Bulletin 58:47-74 (2010).
13. Əliyar Ağagül oğlu Orucov Politologiya. Dərs vəsaiti. Azərbaycan Respublikasi Fövqəladə Hallar Nazirliyinin Akademiyası BAKI-2017 / URL: https://anl.az/el/Kitab/2019/04/cd/Azf-307607.pdf səh.74-87


***Açar sözlər:*** *Dövlət hakimiyyəti, legitimlik, korrupsiya, nepotizm, nəzəri yanaşmalar*

**Tural Alakbarov**

*Ganja State University*
*Department of Social Sciences*
*Ph.D. Student*

# THE CONCEPT OF LEGITIMACY IN PROVIDING STATE AUTHORITY

## ABSTRACT

State legitimacy is a complex and multifaceted concept based on the perceptions of its citizens and the international community. This issue is estimated to be one of the most important aspects of political philosophy and administration. The legitimacy of the state authority depends on public relations and trust in the law. Among the various elements that contribute to the legitimacy of the state, the principle of exclusiveness of power stands out as the main component. The exclusive right of the state to exercise and control force within its borders not only ensures order and security but also plays a vital role in shaping perceptions of the government and the legitimate authority of the state. The state's exclusive right belongs to the state's exclusive and legal authority to exercise power on its territory. This authority is given to state institutions, including the military and police departments, and is sanctioned by law. At the same time, public administration is carried out through society's political and administrative structures. The concept of maintaining public order and ensuring the safety of citizens stems from the principle that only the state has the legal right to enforce the law. In this respect, theoretical approaches to the understanding of legitimacy in state administration are analyzed in the article, and factors that weaken the legitimacy of state authority are discussed.

***Keywords:*** *state authority, legitimacy, corruption, nepotism, theoretical approaches*

**Турал Алакбаров**

*Докторант кафедры социальных наук*
*Гянджинского Государственного Университета*

## ПОНЯТИЕ ЛЕГИТИМНОСТИ В ОБЕСПЕЧЕНИИ ГОСУДАРСТВЕННОЙ ВЛАСТИ

### РЕЗЮМЕ

Государственная легитимность - это сложное и многогранное понятие, основанная на представлениях граждан и международного сообщества. Этот вопрос оценивается как один из самых важных аспектов политической философии и управления. Легитимность государственной власти связан с верой в общественные отношения и доверием к закону. Среди различных элементов, придающих легитимность государственной власти, ключевым компонентом выступает принцип монопольности власти. Монопольное право государства применять силу на своей территории не только обеспечивает порядок и безопасность, но и играет важную роль в формировании представлений об управлении и правовых полномочиях государства. Исключительное право государства применять силу включает в себя военные и полицейские ведомства и закрепляется законом. В то же время государственное управление осуществляется через политические и управленческие структуры общества. Концепция одержания общественного порядка и обеспечения безопасности граждан исходит из принципа, что только государство обладает правом на правоприменение. В этом контексте в статье анализируются теоретические подходы к пониманию легитимности в государственном управлении и обсуждаются факторы, ослабляющие легитимность государственной власти.

***Ключевые слова:*** *государственная власть, легитимность, коррупция, кумовство, теоретические подходы*

DOI: 10.30546/2309-1347.2024.2.0041

**G Ə N C T Ə D Q İ Q A T Ç I L A R**
**Y O U N G R E S E A R C H E R S**

**B E Y N Ə L X A L Q M Ü N A S İ B Ə T L Ə R T A R İ X İ**
**H I S T O R Y O F I N T E R N A T I O N A L R E L A T I O N S**

UOT 327(091)

**VÜSALƏ ŞƏRİFOVA**

**Azərbaycan Respublikasının Prezidenti yanında**
**Dövlət İdarəçilik Akademiyasının Tarix kafedrasının doktorantı**
*e-mail: vusala.asif@gmail.com*

# AZƏRBAYCANIN İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRİNDƏ MƏDƏNİ İRSİN BƏRPASI VƏ BU SAHƏDƏ BEYNƏLXALQ ƏMƏKDAŞLIQ

BMT-nin hesablamalarına görə, Azərbaycan torpaqlarının ermənilər tərəfindən işğalı nəticəsində ölkəyə dəymiş iqtisadi zərər 53,5 milyard ABŞ dolları həcmindədir. Bütün istiqamətlər üzrə Azərbaycana dəymiş ziyanı hesablasaq onun həcminin daha böyük olduğunu görərik. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin məlumatlarına əsasən, işğal nəticəsində Azərbaycanın ekologiyasına və təbii sərvətlərinə ümumilikdə 265 milyard dollar ziyan dəyib. Hərbi Prokurorluq tərəfindən aparılmış kompleks məhkəmə ekspertizasının ilkin hesablamalarına görə isə bütün istiqamətlər üzrə dəymiş maddi ziyanın ümumi həcmi 819 milyard dollar təşkil edir. [2]

Dağıntıların hərtərəfli və miqyasının böyük olması azad edilmiş ərazilərin bərpası prosesini çətinləşdirir və daha çox zaman alır. Ona görə də bərpa işlərinin müxtəlif iqtisadi və sosial istiqamətlər üzrə həyata keçirilməsinə ehtiyac yaranmışdır. Bunları nəzərə alaraq İkinci Qarabağ müharibəsi bitdikdən dərhal sonra azad edilmiş ərazilərin sosial-iqtisadi inkişaf planının hazırlanması üçün tapşırıqlar verilmiş və “Böyük Qayıdış” proqramı əsasında bərpa proseslərinə başlanmışdır. Azərbaycan Respublikası Prezidentinin 16 noyabr 2022-ci il tarixli Sərəncamı ilə “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nın təsdiq edilməsi bu istiqamətdə aparılan işlərə böyük təkan verdi. Dövlət Proqramında müvafiq fəaliyyət istiqamətlərinə dair Tədbirlər Planı (2022-2026) əks olunmuşdur. Bu Tədbirlər Planı 6 prioritet istiqaməti əhatə edir. “Ərazilərdə şəhər, qəsəbə və kənd yaşayış məntəqələrinin tikintisi və infrastrukturla təmini” adlanan 2-ci prioritet üzrə fəaliyyət istiqamətlərindən biri (2.7) “Yaşayış məntəqələrində mədəniyyət tədbirlərinin keçirilməsi və mədəni irs obyektlərinin bərpası” dır. [1, s.17]

Ermənilər 30 illik işğal dövründə Qarabağ və ona bitişik rayonlarda 13 dünya əhəmiyyətli - 6 memarlıq və 7 arxeoloji, 292 ölkə, 330 yerli əhəmiyyətli memarlıq, arxeoloji, bağ, park, monumental və xatirə abidələri və sənət nümunələrini məhv etmişdir. Həmçinin bu ərazilərdə 40 mindən artıq əşyanın toplandığı 22 muzey, yüzlərlə mədəni-maarif müəssisəsi qəsdən dağıdılmış, məscidlər, ziyarətgahlar, qəbiristanlıqlar darmadağın edilmişdir. Tariximizə iddia edə bilmədikləri məqamlarda yer adlarını, toponimləri dəyişdirərək, uydurma adlar qoymuş, özününküləşdirməyə çalışmışlar. Azərbaycan xalqının tarixi yaddaşını

yox etmək, qədim Azərbaycan torpaqlarında türk-müsəlman mədəniyyətinin izlərini silmək üçün hər cür vəhşiliyə əl atmışlar. İşğaldan azad edildikdən sonra bu ərazilərdə aparılan quruculuq-bərpa işləri çərçivəsində qarşıya qoyulan əsas məqsədlərdən biri məhz mədəni irs obyektlərinin bərpası, dağıdılmış tarixi-dini abidələrin yenidən öz ilkin simasına qaytarılması olmuşdur. Bölgədə infrastruktur layihələri ilə yanaşı, tarixi və mədəniyyət abidələrinin inventarlaşdırılması, mühafizəsi, həmçinin bərpası istiqamətində genişmiqyaslı işlərə elə torpaqların azad edilməsindən dərhal sonra başlanmışdır.

2020-ci il oktyabrın 29-da Prezident İlham Əliyev "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində müvəqqəti xüsusi idarənin təşkili haqqında" fərman imzalamışdır. Fərmana uyğun olaraq, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində tarixi obyektlərin və mədəniyyətin ilkin inventarlaşdırılması və mühafizəsi məqsədilə abidələrin və mədəniyyət müəssisələrinin monitorinqi aparılmışdır. Görülən tədbirlər çərçivəsində dövlət qeydiyyatında olan 312 tarix və mədəniyyət abidəsinin monitorinqi zamanı bu ərazilərdə dövlət qeydiyyatına alınmayan, tarixi, memarlıq və arxeoloji dəyərə malik 106 abidə müəyyənləşdirilmişdir. Monitorinq işğal dövründə Ermənistan Respublikasının tarix və mədəniyyət abidələri ilə bağlı qanunsuz əməllər törətdiyi ərazilərin vəziyyətini müəyyən etməyə imkan yaradır. Müəyyənləşdirilib ki, 30 ilə yaxın Ermənistanın işğalında qalmış ərazilərdə məscidlər, mədrəsələr, məbədlər nəinki məhv edilmiş, bir çox hallarda başqa məqsədlər üçün istifadə olunmuşdur [5].

Vətəndaş cəmiyyətinin üzvü kimi dövlət tərəfindən həyata keçirilən layihələrə öz dəstəyini göstərən Heydər Əliyev Fondu, 2020-ci il dekabrın 8-dən etibarən işğaldan azad edilən ərazilərdəki mədəni-dini abidələrin, məscidlərin bərpası üzrə layihələrə start vermişdir. Fondun işğaldan azad olunan ərazilər üzrə layihəsinin icrası üçün yaradılan xüsusi işçi qrupu bərpa olunacaq abidələrin öyrənilməsi məqsədilə ilkin qiymətləndirmə aparmışdır. Mütəxəssislər bildirirlər ki, Heydər Əliyev Fondu apardığı bütün bərpa işlərində inklüziv yanaşmadan istifadə edir, bu işlərə xarici mütəxəssisləri cəlb edir. Bu, tamamilə doğru yanaşmadır. Çünki bərpa olunan abidələr təkcə Azərbaycanın deyil, dünyanın mənəvi sərvətidir. Bərpa prosesinə yerli mütəxəssislərlə yanaşı, Türkiyə, Avstriya, Böyük Britaniya, Bolqarıstan, İtaliya, Macarıstan, Latviya, Rusiya, Gürcüstan və digər ölkələrdən mütəxəssislər cəlb edilmişdir. Dini mənsubiyyətindən asılı olmayaraq, bütün abidələrin yenidən qurulması zamanı onların ilkin simasının pozulmaması prinsipi əsas götürülmüş, bununla bağlı beynəlxalq təcrübə öyrənilərək, abidələrin bərpası, konservasiyası və yenidən qurulması üzrə işlərdə mütərəqqi üsulların tətbiqinə üstünlük verilmişdir. Heydər Əliyev Fondu bu müddət ərzində artıq bir sıra mədəniyyət abidələrinin bərpasını başa çatdırmışdır. 2021-ci ilin avqust ayında Şuşa şəhərində Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin təmir-bərpa və yenidənqurma tədbirləri yekunlaşmış, kompleks istifadəyə verilmişdir. İşlər Heydər Əliyev Fondu tərəfindən 2021-ci ilin mart ayında başlamış və abidə tarixi görkəminə uyğun şəkildə bərpa edilmişdir. Almaniyadan gəlmiş bərpaçı mütəxəssislər Ağdamın Cümə, Qiyaslı və Şuşanın Yuxarı və Aşağı Gövhər Ağa, Saatlı məscidlərində bərpa işlərini həyata keçirmiş, Şuşa şəhərinin sovetlər dövründə inşa olunmuş "Qarabağ" hoteli, Üzeyir Hacıbəylinin, Bülbülün ev-muzeyi və büstü, Molla Pənah Vaqifin məqbərəsi bərpa olunmuşdur. Şəhərdə "Xarı bülbül" hoteli istifadəyə verilmiş, yeni hotelin və muzey mərkəzinin təməli qoyulmuşdur. Şuşada mühafizəsinə ehtiyac olan tarixi abidələrlə iş xüsusi həssaslıqla görülür. Şəhərin baş planının hazırlanmasına da xarici mütəxəssislər cəlb edilmişdir. Prezident İlham Əliyevin imzaladığı müvafiq sərəncamla Şuşanın "mədəniyyət paytaxtı" elan edilməsi həmin layihələrin daha sürətlə reallaşmasına şərait yaratmışdır. Ümumilikdə Şuşada 150-dən çox tarixi abidənin bərpası və yenidən qurulması

qərara alınmışdır. Qarabağ bölgəsindəki abidələrin bərpasında yaxından iştirak edən İtaliyanın "Uni Construction" şirkəti də Şuşadakı Aşağı Gövhər Ağa məscidinin bərpası işlərinə cəlb edilmişdir. Şəhərin bərpası planı Britaniya şirkəti, yerli mütəxəssislər və Şuşada işləyən xarici şirkətlər tərəfindən hazırlanmış və bu zaman əsas diqqət koordinasiyaya, tikililərin planlaşdırılmasına, Şuşanın memarlıq görünüşündə ahəngdarlığı qorumaq üçün ərazinin ümumi landşaftının nəzərə alınmasına yönəldilmişdir. [7] İtaliyanın "Simmetrico" şirkəti isə Yeni Şuşa məscidi layihəsini həyata keçirmiş, məscidin tikintisində həm daş, həm də ağac kimi yerli materiallardan istifadə olunmuşdur. Bir sıra üslub elementlərində Şuşanın ənənəvi tikililərinə bağlılıq nəzərə alınmışdır. Layihə həm də Şuşanın azad olunması tarixini əks etdirir. Şuşa şəhərindəki Mehmandarovlar malikanə kompleksi də bərpa olunan tarixi abidələr sırasındadır. Aparılan işlər zamanı tarixi mənbələrdəki fotolardan istifadə edilmişdir.

Avstriyanın "Partner Consulting+Projects" şirkəti tərəfindən Ağdamın Qiyaslı məscidində təmir-bərpa işləri davam etdirilir. Bərpası davam edən Pənahəli xanın sarayının yerləşdiyi İmarət Kompleksinin konsepsiya layihəsi isə İtaliyanın "ArtCloud Network International s.c.r.l." şirkəti tərəfindən hazırlanıb. İlkin konsepsiyaya əsasən, kompleks Pənahəli xanın sarayı, məqbərələr, kassa, məlumat mərkəzi və Qarabağ atları parkından ibarət olacaq. Pənahəli xanın sarayı bərpa edilərək interaktiv muzey kimi fəaliyyət göstərəcək. Kompleksin ərazisinə daxil olan xan qızı Xurşidbanu Natəvanın qəbirüstü abidəsi isə bərpa edilmiş, 2022-ci ilin oktyabrında açılışı olmuşdur. Qeyd olunan abidələr Qarabağın tarixi baxımdan çox önəmli abidələrdir. Aparılan işlərdə əsas məqsəd abidələrin əvvəlki görünüşünü özünə qaytarmaqdır. Əsas problemlərdən biri də işğaldan azad olunmuş ərazilərdə yeni tikinti işlərinin aparılmasından ibarətdir. Unutmaq olmaz ki, aparılan tikinti işləri tarixi irsin simasına, Aran (Qarabağ) memarlıq məktəbinə uyğunlaşdırılmaqla həyata keçirilməlidir. Nümunə olaraq Şuşa şəhərində Qazançı kilsəsi yaxınlığındakı yeni məscid binasını qeyd etmək lazımdır. Ölkə Prezidentinin qeyd etdiyi kimi yeni tikililər tarixi simaya uyğun olaraq ətrafdakı abidələrlə harmoniyada inşa olunmalıdır [8].

Zəngilan şəhərindəki məscid kompleksi isə XIX əsrdə inşa edilmiş və memarlıq abidəsi kimi inventarlaşdırılmışdır. Ermənistanın işğalı dövründə məscid düşmən qüvvələri tərəfindən dağıdılmış və ilkin görkəmini demək olar ki, tamamilə itirmişdir. Abidə konservasiya edilmiş, bununla bərabər ərazidə yeni məscid inşa olunmuşdur. İşğaldan azad edilmiş bölgələrdəki xristian dini abidələrinin bərpasında Bolqarıstanın "EKSA" şirkəti yaxından iştirak etmişdir. Ermənilər Qarabağda yalnız məscidlərə deyil, xristian dini ziyarətgahlarına da ziyan vurmuşlar. Məsələn, 1894-cü ildə Xocavənd rayonunda inşa edilmiş Rus Pravoslav kilsəsini belə dağıtmışlar. Rayonun Tuğ kəndində yerləşən İohann kilsəsində ermənilər saxtakarlıqla bəzi dəyişikliklərə cəhd etmişlər. Eyni zamanda Laçın rayonunda yerləşən Alban (Qafqaz) Apostol Müstəqil kilsəsində öz mənfur niyyətlərini həyata keçirmişlər. Azərbaycan dövləti bütün dinlərə hörmətlə yanaşdığı kimi onun dini abidələrinə də diqqət göstərir. İndi işğaldan azad olunmuş bütün ərazilərdə dini abidələr yenidən bərpa olunur [9].

Mədəni irsin bərpası sahəsində Türkiyə ilə mövcud olan tarixi əməkdaşlıq 2021-ci ildə yeni mərhələyə qədəm qoydu. Həmin ilin martında Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi (TİKA) ilə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti arasında mədəni irsin qorunması sahəsində əməkdaşlıq haqqında Niyyət Protokolu imzalandı. Əməkdaşlıq protokolu TİKA tərəfindən başladılan Böyük Mərdəkan Qalası və Tuba Şah Məscidinin bərpası kimi mədəni irsin qorunması sahəsindəki layihələrin, işğaldan azad edilən Qarabağ torpaqlarını da əhatə edərək daha geniş formatda həyata keçirilməsinə şərait yaradacaq. Hələ 2021-ci

ilin yanvarında Prezident İlham Əliyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) Baş katibi Bağdad Amreyevi videoformatda qəbul edərkən demişdir: "Azad edilmiş ərazilərin qardaş ölkələrlə birlikdə bərpa olunması dövründə fəal qarşılıqlı əlaqələrimizə ümid edirəm. Mən artıq demişəm ki, ilk növbədə və təkcə ilk növbədə deyil, ümumiyyətlə, yalnız dost ölkələrdən olan şirkətləri cəlb edəcəyik. Dünyada belə ölkələr çoxdur, lakin onların arasında elə ölkələr var ki, müharibə dövründə və müharibədən sonrakı dövrdə Azərbaycanı fəal dəstəkləyiblər. Buna görə də, fikrimcə, əlbəttə, bu mövzu Türk Şurası çərçivəsində müzakirə ediləcək. Biz baş verənləri təhlil edəcəyik və gələcək üçün planlar quracağıq. Lakin artıq əminliklə deyə bilərəm ki, ərazilərin bərpası prosesi də bizə qardaş olan ölkələr tərəfindən dəstəklənəcək" [4]. O da vurğulanmalıdır ki, işğaldan öncə olduğu kimi torpaqlarımızın azad olunmasından sonra da həm xarici dövlətlərin, həm də beynəlxalq təşkilatların Azərbaycana qarşı qərəzli mövqeyinin, ermənilərin həmin bölgələrdə törətdiyi vəhşiliklərə, abidələrimizə qarşı vandalizm hərəkətlərinə biganə münasibətin şahidi oluruq. Həmçinin tarixi Azərbaycan torpağı olan Qərbi Azərbaycan (indiki Ermənistan) ərazisindəki mədəni, dini abidələrimizə qarşı vəhşilik, həmin ərazilərdən azərbaycanlıların izini silmək, ermənilərin Azərbaycana məxsus qədim tikililər üzərində "tarix" yaratmaq cəhdləri bu gün də davam edir. 2022-ci ildə Basarkeçər ərazisində azərbaycanlılara aid qəbiristanlığın dağıdılması, ötən il İrəvan şəhərindəki qədim Təpəbaşı məhəlləsinin sökülməsi faktları hamıya məlumdur. Təpəbaşı məhəlləsi şəhərin tarixi mərkəzinin bu günə qədər gəlib çatmış yeganə parçasıdır. Bu məhəllə XVII əsrdən bu günə qədər İrəvanın tarixi yaddaşını özündə əks etdirir. Tarixən azərbaycanlıların məskunlaşdığı Təpəbaşı məhəlləsi indi məhv olmaq təhlükəsi altındadır. Bununla bağlı dünya ictimaiyyəti və beynəlxalq təşkilatlara müraciət olunub. Baş verənlər rəsmi Bakının Ermənistan ərazisindəki azərbaycanlılara məxsus tarixi-mədəni abidələrin taleyini araşdıran missiyanın YUNESKO tərəfindən yaradılması təklifinin aktuallığını bir daha göstərir. Təşkilatın laqeyd münasibəti fonunda erməni tərəfi Azərbaycan xalqının yüz illiklər boyu yaratdığı tarixi-mədəni irsi dağıtmaqda davam edir. Müharibənin bitməsindən 4 il keçsə də, azad edilmiş regionlara faktaraşdırıcı missiya göndərilməyib. Prezident İlham Əliyev də çıxışlarında dəfələrlə bildirib: "İşğal edilmiş torpaqlara missiya gəlsin, baxsın ki, nə günə qoyublar bizim tarixi abidələrimizi. Azərbaycan hər zaman YUNESKO-ya ciddi töhfələr vermiş ölkələrdəndir. Dünyanın bir çox yerində bəşəri mədəniyyətin bir parçası adlanan nümunələrin qorunmasında Azərbaycan həm təşəbbüskar, həm də maliyyəçi qismində iştirak edib. YUNESKO-nun ən yeni tarixində, fəaliyyətində, nüfuzunun artırılmasında mənəvi mənada borclu olduğu ölkələrdən biri məhz Azərbaycandır. Mənəvi şəkildə borclu olduğu ölkəyə qarşı belə yanaşma adekvat sayıla bilməz. YUNESKO-nun bu addımı elan etdiyi, üzərinə götürdüyü vəzifə və öhdəlikləri lazımi şəkildə həyata keçirə bilmədiyini deməyə əsas verir". [11] BMT-nin 1992-ci ildə qəbul etdiyi "Ətraf mühit və inkişaf" haqqında Bəyan-namənin 23 və 24-cü prinsiplərində deyilir ki, "başqa xalqın əsarətində olan, işğal altında qalan ətraf mühit və xalqın təbii sərvətləri qorunmalıdır. Silahlı münaqişə şəraitində isə dövlətlər ətraf mühitin mühafizəsini təmin edən beynəlxalq hüquq qaydalarına hörmət etməlidir." [12]. Bu, BMT-nin qəbul etdiyi sənəddir. Əslində bu beynəlxalq sənədin prinsipləri ilk növbədə BMT tərəfin-dən nəzarət altında tutulmalı və cinayətkarlar cəzalandırılmalıdır.

Qeyd olunan bütün faktlar ermənilərin digər dinlərə və başqa xalqların mədəniyyətinə olan münasibətini və onların həqiqi simasını əks etdirir. Vurduqları ziyanla bərabər, vaxtilə işğal etdikləri ərazilərdə basdırdıqları minalar azad edilmiş Azərbaycan torpaqlarında bərpa işlərinin aparılmasına maneələr yaratsa da, abadlıq-quruculuq işləri, tarixi abidələrin bərpası sürətlə davam etdirilir. Bununla əlaqədar Azərbaycan Milli Elmlər Akademiyasının

qarşısında da mühüm vəzifələr dayanır. Qarabağda müxtəlif səpkili elmi tədqiqatların aparılması üçün AMEA Rəyasət Heyətinin müvafiq qərarları ilə akademiyanın İqtisadiyyat İnstitutunun strukturunda Post-konflikt Ərazilərin Bərpası və Albanşünaslıq elmi mərkəzləri, AMEA-nın Qarabağ Regional Elmi Bölməsi yaradılmışdır. Mütəxəssislərin fikrincə, Qarabağ bölgəsində arxeoloji tədqiqatların yeni qaydalar əsasında təşkilinə böyük ehtiyac var. İşğaldan azad edilmiş ərazilərdəki mədəni abidələrin tədqiq edilməsi, qədim və orta əsrlər tarixinin öyrənilməsi, elmi araşdırmaların nəticələrinin beynəlxalq aləmdə yayılması qarşıda duran ən mühüm vəzifələrdəndir. Bu sahədə tədqiqatlar sistemli, mərhələli şəkildə həyata keçiriləcək. Prezident İlham Əliyev işğaldan azad olunmuş ərazilərin bərpasını və yenidən qurulmasını strateji vəzifə kimi müəyyən edib və bu prosesdə müasir innovativ yeniliklərin tətbiq edilməsini əsas hədəflərdən biri kimi irəli sürüb. Bu istiqamətdə görülən işlər artıq dünya mediasının da diqqət mərkəzindədir.

İşğaldan azad edilmiş ərazilərdəki mədəni, tarixi-dini abidələr bərpa olunaraq beynəlxalq aləmdə təbliğ olunmalı, dünya mədəni irs siyahılarına daxil edilməlidir. Bu abidələrin yenidən bərpası ilə Azərbaycanın qədim tarixi qorunur və onların gələcək nəsillərə çatdırılması üçün şərait yaranır. Həmçinin Qarabağ abidələrinin bərpası ilə regionun mədəni müxtəlifliyi özünə qaytarılır və tarixən bu müxtəliflik və füsunkar təbiəti sayəsində özünə çoxlu sayda turist cəlb edən Azərbaycanın turizm məkanlarının coğrafiyası genişlənir.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı. https://static.president.az/upload/Files/2022/12/05/a7de056c32e5235781c49c738 80924f2_8120306.pdf
2. Bağırov O. Azad edilmiş ərazilərdə bərpa prosesinin əsas istiqamətləri. https://aircenter.az/uploads/files/orxan% 20tehlil%20mart.pdf?fbclid=IwAR0vC9 80vM4fPLHRgrSz3g5S9O1oavvI-7uIkPNJjtaWHaocTaeYUSK3yfc
3. Heydər Əliyev Fondu talan edilmiş abidələrimizin bərpasını həyata keçirir // "Xalq qəzeti", 2021, 19 dekabr, s. 8
4. İlham Əliyev Türkdilli Dövlətlərin əməkdaşlıq Şurasının Baş katibini videoformatda qəbul edib. (19.01.2021) https://president.az/az/articles/view/50282
5. İşğaldan azad olunmuş rayonlarda Azərbaycan mədəni irsi bərpa olunur // "Azərbaycan" qəzeti, 2023, 11 iyul.
6. "İşğaldan azad olunmuş ərazilərin məskunlaşdırılması və infrastrukturun bərpası problemləri" mövzusunda keçirilmiş respublika elmi-praktiki konfransının materialları. Bakı: "Kooperasiya" nəşriyyatı, 01.11.2022, 500 s.
7. Qarabağın bərpasında əsas vəzifə mədəni irsin qorunmasıdır // "Xalq qəzeti", 2021, 22 dekabr, s. 9
8. Qarabağın bərpası və yenidən qurulması // Azərbaycan Milli Elmlər Akademiyasının rəsmi saytı. https://science.gov.az/az/news/open/2346 3 (10.01.2023)
9. Qarabağda dini abidələrimiz bərpa olunur // "Respublika" qəzeti, 2023, 4 may
10. Məmmədov N. İşğal altındakı tarixi-dini abidələrimiz. Bakı: "Nurlar", 2015, 96 s.
11. UNESCO niyə susur? // "Yeni Azərbaycan" qəzeti, 2022, 19 oktyabr
12. Рио-де-Жанейрская декларация по окружающей среде и развитию //
13. [Электронный ресурс] URL: https://www.un.org/ru/documents/decl_ conv/declarations/riodecl.shtml


***Açar sözlər:*** *mədəni abidələr, bərpa, beynəlxalq əməkdaşlıq, Qarabağ, Heydər Əliyev Fondu*

**Vusala Sharifova**

*The Academy of Public Administration under the President of the Republic of Azerbaijan, Ph.D. Student*

## RESTORATION OF CULTURAL HERITAGE IN THE LIBERATED TERRITORIES OF AZERBAIJAN AND INTERNATIONAL COOPERATION

### ABSTRACT

A large part of Azerbaijan's historical, cultural, and religious heritage belongs to the Karabakh region. Almost all of the tangible cultural and religious heritage samples in Karabakh and the surrounding regions liberated from the occupation were subjected to Armenian vandalism during the occupation, and the places of our sacred oath were insulted and destroyed by the enemy. Currently, the restoration works carried out in the territories liberated from occupation include all monuments, regardless of their religious affiliation. New religious and cultural facilities are being built to contribute to the rapid construction works in the region. The government of Azerbaijan, which attaches great importance to international cooperation in this field, prefers the experience of foreign countries in restoration work and involves well-known companies.

***Keywords:*** *cultural monuments, restoration, international cooperation, Karabakh, Heydar Aliyev Foundation*

**Вюсаля Шарифова**

*Докторант Академии Государственного Управления при Президенте Азербайджанской Республики*

## ВОССТАНОВЛЕНИЕ КУЛЬТУРНОГО НАСЛЕДИЯ НА ОСВОБОЖДЕННЫХ ТЕРРИТОРИЯХ АЗЕРБАЙДЖАНА И МЕЖДУНАРОДНОЕ СОТРУДНИЧЕСТВО В ЭТОЙ ОБЛАСТИ

### РЕЗЮМЕ

Большая часть исторического, культурного и религиозного наследия Азербайджана принадлежит Карабахскому региону. Практически все образцы материального культурного и религиозного наследия в Карабахе и прилегающих регионах, освобожденных от оккупации, подверглись армянскому вандализму, а места нашей священной клятвы были оскорблены и разрушены врагом. В настоящее время реставрационные работы, проводимые на освобожденных от армянской оккупации территориях, охватывают все памятники, независимо от их религиозной принадлежности. Чтобы способствовать ускорению строительных работ в регионе, строятся новые религиозные и культурные объекты. Правительство Азербайджана, придающее большое значение международному сотрудничеству в этой области, в реставрационных работах отдает предпочтение опыту зарубежных стран и привлекает их известные компании.

***Ключевые слова:*** *памятники культуры, реставрация, международное сотрудничество, Карабах, Фонд Гейдара Алиева*

# DÖVLƏT İDARƏÇİLİK AKADEMİYASINDA

## *Dövlət İdarəçilik Akademiyasının nümayəndə heyəti Rusiya Federasiyasının Prezidenti yanında Xalq Təsərrüfatı və Dövlət Qulluğu Akademiyasında olublar*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru akademik Urxan Ələkbərov və Elmi təşkilat və beynəlxalq əlaqələr şöbəsinin müdiri dosent Elvin Əzizbəyov 26-29 mart 2024-cü il tarixlərində Rusiya Federasiyasının Moskva şəhərində Rusiya Federasiyasının Prezidenti yanında Xalq Təsərrüfatı və Dövlət Qulluğu Akademiyası (РАНХиГС) tərəfindən təşkil olunmuş MDB ölkələrində fəaliyyət göstərən Dövlət İdarəçilik Akademiyalarının birgə forumu və "İdarəçilik sistemində şəxsiyyət" mövzusunda keçirilmiş ənənəvi elmi praktik konfransda iştirak etmişlər. Səfər çərçivəsində Rusiya Federasiyasının Prezidenti yanında Xalq Təsərrüfatı və Dövlət Qulluğu Akademiyası ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası arasında qarşılıqlılıq prinsipi əsasında akademik mübadilələr, tədris təcrübəsi, birgə elmi tədqiqatlar sahəsində professor-müəllim heyətinin mübadiləsi, dövlət idarəçiliyi üzrə əlavə peşə təhsili sahələrində birgə təhsil və tədqiqat proqramlarının hazırlanması və həyata keçirilməsi, dövlət idarəçiliyi sahəsində birgə tədqiqatların və nəşrlərin həyata keçirilməsi, birgə elmi konfranslar və seminarların təşkili və keçirilməsi ilə bağlı anlaşma memorandumu imzalanmış və rektor akademik Urxan Ələkbərov "İdarəçilik sistemində şəxsiyyət" mövzusunda keçirilən elmi praktik konfransın panel bölmələrində məruzələrlə çıxış etmişdir. Ezamiyyət zamanı Rusiya Federasiyasının Prezidenti yanında Xalq Təsərrüfatı və Dövlət Qulluğu Akademiyasının rektoru və digər MDB ölkələrinin Dövlət






İdarəçilik Akademiyalarından dəvət olunmuş bəzi rektorlarla gələcək əməkdaşlıq imkanları və perspektivlərlə bağlı müzakirələr aparılmışdır.

### *Dövlət İdarəçilik Akademiyasının müəllimi “Heydər Əliyevin 100 illiyi" yubiley medalı ilə təltif edilib*

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 29 sentyabr 2022-ci il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasında 2023-cü il “Heydər Əliyev ili” elan edilmişdir. Həmin Sərəncamın icrası ilə əlaqədar təsdiqlənmiş “Tədbirlər Planı”na uyğun olaraq “Heydər Əliyevin 100 illiyi (1923-2023)” ali yubiley medalı təsis edilib. Azərbaycan Respublikası Prezidentinin 02 fevral 2024-cü il tarixli, 4289 nömrəli Sərəncamı ilə Dövlət İdarəçilik Akademiyasının sosial iş, təlim-tərbiyə və təşkilatı işlər üzrə müşaviri, “Politologiya” kafedrasının müəllimi Zaur Məmmədov yubiley medalı ilə təltif edilib. "Heydər Əliyevin 100 illiyi (1923–2023)" yubiley medalı ilə Azərbaycan Respublikasının vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, Azərbaycan Respublikasının və xarici ölkələrin dövlət və digər qurumlarının, beynəlxalq təşkilatların nümayəndələri təltif edilirlər. Həmkarımızı təbrik edir ona gələcək işlərində uğurlar arzulayırıq.

### *Dövlət İdarəçilik Akademiyasının tələbələrinin "Şöhrət" muzeyinə ekskursiyası təşkil edilib*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının tələbələrinin Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasının "Şöhrət" muzeyinə ekskursiyası təşkil edilib. Ekskursiya zamanı bildirilib ki, Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasının "Şöhrət" muzeyi Ümummilli Lider Heydər Əliyevin xatirəsini əbədiləşdirmək, həyat və fəaliyyətinin, nəsillərə örnək olan mənalı ömür yolunun və irsinin öyrənilməsini, gələcək nəsillərə çatdırılmasını təmin etmək məqsədilə yaradılmışdır. Ekspozisiya ilə tanışlıq zamanı gənclərin sualları cavablandırıldı. Ümummilli lider Heydər Əliyevin muzey qarşısında ucaldılmış abidəsi ziyarət edilib.

### *Dövlət İdarəçilik Akademiyasında "Postmünaqişə dövründə Azərbaycanla Ermənistan arasında problemlərin tənzimlənməsi: mövcud reallıqlar və beynəlxalq hüquq" mövzusunda tədbir keçirilib*

Aprelin 8-də Yeni Azərbaycan Partiyası (YAP) Veteranlar Şurasının və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının birgə təşkilatçılığı ilə "Postmünaqişə dövründə Azərbaycanla Ermənistan arasında problemlərin tənzimlənməsi: mövcud reallıqlar və beynəlxalq hüquq" mövzusunda tədbir keçirilib. Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Tədbiri giriş sözü ilə açan Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, YAP Veteranlar Şurasının üzvü Urxan Ələkbərov tədbirin mövzusunun aktual olduğunu bildirib. O qeyd edib ki, hazırda Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması beynəlxalq birliyin diqqət mərkəzindədir. Çıxış edən YAP Veteranlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü Arif Rəhimzadə qeyd edib ki, 44 günlük Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsindən sonra Azərbaycan Cənubi Qafqaz regionunun sülh və əməkdaşlıq məkanına çevrilməsi üçün mühüm təşəbbüslərlə çıxış edib. Onun sözlərinə görə, Ermənistanla sülh sazişi imzalamaq təklifi də ilk olaraq Azərbaycan tərəfindən verilib. Davamlı sülhün təmin edilməsi istiqamətində Azərbaycan tərəfindən fəal iş aparılır. "Prezident İlham Əliyev dövlətimizin prinsipial mövqeyini bəyan edib. Lakin Ermənistan öz havadarlarına arxalanaraq müxtəlif bəhanələrlə sülh sazişinin imzalanmasını uzadır. Vaxtaşırı olaraq şərti dövlət sərhədində hərbi təxribatların törədilməsi də bu məqsədə xidmət edir" , – deyə Arif Rəhimzadə vurğulayıb. YAP Təftiş Komissiyasının sədr müavini, Milli Məclisin deputatı Nizami Səfərov isə çıxışında bildirib ki, Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpa olunması Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli siyasətinin təntənəsidir. Onun sözlərinə görə, Azərbaycan sülh sazişi imzalamaq üçün Ermənistana beş bənddən ibarət təkliflərini təqdim edib. Rəsmi Bakının təklifləri beynəlxalq hüquq normalarına əsaslanır. Mövcud problemlərdən danışan N.Səfərov diqqətə çatdırıb ki, sərhədlərin delimitasiyası və demarkasiyası qarşıda dayanan başlıca vəzifələrdən biridir. Minalanmış ərazilərin təmizlənməsi də əsas çağırışlar sırasındadır. Ermənistanın dəqiq mina xəritələrini Azərbaycana verməsi beynəlxalq humanitar hüquqa dair Cenevrə Konvensiyalarına əsasən onun öhdəliyidir.






Natiq, həmçinin dəymiş ziyana görə Ermənistanın kompensasiya ödəməsinin, eləcə də müharibə cinayətlərinə görə cavab verməsinin beynəlxalq hüququn tələbi olduğunu vurğulayıb. Tədbir interaktiv formada davam edib və iştirakçıların sualları cavablandırılıb.

## *Dövlət İdarəçilik Akademiyasının tələbələri üçün "Karyera planlaması" mövzusunda təlim keçirilib*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Hüquqşünaslıq ixtisası üzrə təhsil alan VI kurs tələbələri üçün "Karyera planlaması" mövzusunda təlim keçirilib. Təlim Karyera və İşə Hazırlıq Mərkəzinin rəhbəri Şahin Sərdarlı tərəfindən təqdim edilib. Mühazirədə düzgün karyera planlaması, şirkətlərin təcrübə tələbi, peşəkar CV tərtibatı, işə müraciət qaydaları, iş müsahibəsinə praktik hazırlıq, karyera yüksəlişi və digər mövzularda geniş fikir mübadiləsi aparılıb. Həmçinin iş zamanı mütəxəssislərin qarşılaşdıqları çətinliklər, problemin həlli, subordinasiya və daxili nizam-intizam qaydaları barədə danışılıb. İnteraktiv dərs tələbələrin suallarının cavablandırılması ilə yekunlaşıb. Təlimdə Dövlət İdarəçilik Akademiyasının Hüquq kafedrasının müdiri, h.e.d. professor İsaxan Vəliyev də iştirak edib. O, tələbələrin Karyera istiqamətində atdıqları uğurlu addımlardan danışıb və belə tədbirlərin tələbələr üçün əhəmiyyətini qeyd edib. Təlim DİA-da "Karyera planlaması" fənnini tədris edən "Hüquq" kafedrasının müəllimi Reyhan Cəfərova tərəfindən təşkil edilib.

## *“Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin bərpası; hüquqi aspektlər” kitabının qırğız dilində təqdimatı keçirilib*

Qırğız Respublikasının Qırğız Milli Universitetində Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının (DİA) Beynəlxalq münasibətlər və xarici siyasət kafedrasının müdiri professor Namiq Əliyevin “Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin bərpası; hüquqi aspektlər” kitabının qırğız dilində təqdimatı keçirilib. Əvvəlcə Heydər Əliyev adına 20 nömrəli məktəb ziyarət edilib, Azərbaycan xalqının Ümummilli Liderinin büstü önünə əkil qoyulub, Ulu Öndərin adını daşıyan məktəblə



tanışlıqdan sonra müəllim və şagirdlərlə görüş olub.

J.Balasaqın adına Qırğız Milli Universitetinin "Ç.Aytmatov adına Beynəlxalq İssık-Kul Forumu" İctimai Birliyi və Qırğızıstandakı Azərbaycan diasporu ilə birgə təşkil etdiyi tədbirdə bu ölkənin parlamentinin sabiq sədri, Qırğız Respublikasının Qəhrəmanı, ictimai xadim Medetxan Şerimkulov, Azərbaycanın Qırğızıstandakı diasporunun prezidenti Xansıvar Baxşəliyev, "Qırğızıstan-Azərbaycan" Dostluq Cəmiyyətinin sədri Akif Alaferdov, Qırğız Respublikası Xarici İşlər Nazirliyinin Diplomatik Akademiyasının prorektoru, Qırğız parlamentinin sabiq sədri, professor Zaynidin Kurmanov, J.Balasaqın adına Qırğız Milli Universitetinin professor-müəllim heyəti və tələbələri iştirak ediblər. Tədbirdə "Ç.Aytmatov adına İssık-Kul Beynəlxalq Forumu" İctimai Birliyinin vitse-prezidenti Dinara Jumabayeva çıxış edib. Sonra Azərbaycanın Qırğızıstandakı səfiri Lətif Qəndilov, Qırğızıstanın ölkəmizdəki səfiri Kayrat Osmonaliyev tədbirə xüsusi önəm verdiklərini qeyd ediblər. Onlar belə tədbirlərin təşkilinin iki türk dövləti arasında əlaqələrin möhkəmlənməsində əhəmiyyətli olduğunu söyləyiblər. Daha sonra professor Namiq Əliyev çıxış edib. O, iki dövlət arasındakı münasibətlərdən danışıb. Azərbaycan Respublikasının haqq səsinin beynəlxalq müstəviyə çıxarılmasında elm adamlarının araşdırmalarının da xüsusi yer tutduğunu vurğulayıb. Professor Azərbaycan Respublikasının ərazi bütövlüyünün və suverenliyinin bərpasının hüquqi zəminінə aydınlıq gətirib. O, vaxtilə Ermənistanın Azərbaycana təcavüzünün bir sıra hüquqi problemlərini geniş elmi və empirik materiallar əsasında araşdırdığını diqqətə çatdırıb. Eyni zamanda, Azərbaycanın ərazi bütövlüyünü və tam suverenliyini bərpa etdikdən sonra yaranan bəzi hüquqi məsələlərə toxunub. Görüşün sonunda mərasim iştirakçılarına müəllifin imzaladığı kitablar hədiyyə olunub. Professor N.Əliyev digər kitablarının nüsxələrini də Qırğız Milli Universitetinə bağışlayıb.

## *Dövlət İdarəçilik Akademiyasında "ASAN xidmət" mərkəzlərinin əməkdaşları üçün təlim keçirilib*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (DİA) "ASAN xidmət" mərkəzlərinin əməkdaşları üçün təlim keçirilib.

Tədbir Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün Strategiya"nın 2023-2025-ci illərdə icrası üzrə Fəaliyyət Planını rəhbər tutaraq və həmçinin 2020-ci il 13 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Məşğulluq Strategiyasının həyata keçirilməsinə dair 2020-2025-ci illər üçün Tədbirlər Planı"na uyğun olaraq keçirilib.

Təlimdə DİA-nın rektoru akademik Urxan Ələkbərovun "Prezident İlham Əliyevin yeni dövlət idarəçilik texnologiyaları: COP 29-a aparan yol" mövzusunda mühazirəsi dinlənilib. Rektor çıxışında Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2024-cü ilin ölkədə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi və BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası olan COP 29-un Azərbaycanda keçiriləcəyi ilə bağlı geniş məlumat verib. Akademik bildirib ki, hər il fərqli bir ölkənin ev sahibliyi etdiyi COP qlobal çağırışlara dair fəaliyyəti sürətləndirmək və məqsədlərə nail olmaq üçün keçirilən əhəmiyyətli görüşdür. "Yaşıl" iqtisadiyyata keçid və "yaşıl" enerji təchizatçısına çevrilmək Azərbaycanın iqtisadi sahədə həyata keçirdiyi uğurlu siyasətin əsaslarındandır.

Rektor mühazirəsində dahi şəxsiyyət Heydər Əliyevin tarixi xidmətlərindən də danışıb, 1993-cü ildə Ulu Öndərin hakimiyyətə qayıdışından sonra Azərbaycan dövlətçiliyinin böyük təhlükələrdən xilas olduğunu, ölkənin ictimai-siyasi, sosial-iqtisadi və elmi-

mədəni həyatında əsaslı dönüşün yarandığını qeyd edib. Rektor ölkəmizdə qazanılan uğurların dahi rəhbər Heydər Əliyev siyasətinin bəhrəsi olduğunu deyib. Urxan Ələkbərov Ümummilli Lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi inkişaf strategiyası sayəsində Azərbaycanın qazandığı nailiyyətlərə diqqət çəkib. O, Prezident İlham Əliyev tərəfindən hazırlanaraq tətbiq edilmiş yeni dövlət idarəçiliyi texnologiyalarının Azərbaycanın davamlı inklüziv inkişafı naminə resurslardan səmərəli istifadə sahəsində regional və qlobal liderə çevirdiyini xüsusi vurğulayıb. Urxan Ələkbərov bildirib ki, inklüziv inkişaf sahəsində ölkəmizin yüksək göstəricilər əldə etməsi və sosial siyasətin reallaşdırılması baxımından dünya liderinə çevrilməsində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın müstəsna xidmətləri var. Rektor müstəqil və suveren Azərbaycan dövlətinin keyfiyyətcə yeni olan və 2021–2030-cu illəri əhatə edən strateji mərhələyə daxil olduğunu qeyd edərək, inklüziv cəmiyyətin qurulması prosesinin ölkənin 2030-cu il üçün planlaşdırılmış əsas prioritetləri sırasında olduğunu söyləyib. O, beynəlxalq təşkilatların hesabatlarına əsaslanaraq ölkənin ərazi bütövlüyünün bərpası ilə səciyyələnən bu yeni strateji dövrdə Azərbaycan Respublikasının bütün dünya üçün prioritet kimi qəbul edilən inklüziv inkişafın planlaşdırılması və idarə edilməsi sahəsindəki uğurlarını dinləyicilərin diqqətinə çatdırıb. Akademik Urxan Ələkbərov təlim zamanı qeyd edib ki, Prezident İlham Əliyev tərəfindən təsdiq edilmiş “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”də 5-ci prioritetin “Təmiz ətraf mühit və “yaşıl artım” ölkəsi” adlanması təsadüfi deyil və bu istiqamətdə ölkəmizdə uğurlu addımlar atılır. Daha sonra rektor Urxan Ələkbərov Prezident İlham Əliyevin işğaldan azad edilmiş ərazilərlə bağlı müəyyən etdiyi iqtisadi inkişaf kursunda bu ərazilərin “yaşıl enerji” zonasına çevrilməsinin əsas istiqamətlərdən biri olduğunu bildirib. Rektor vurğulayıb ki, 44 günlük Vətən müharibəsindən sonra 2020-ci ilin iqtisadi yekunlarına dair müşavirədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev işğaldan azad edilmiş ərazilərdə Yaşıl Enerji Zonasının yaradılmasına dair strateji baxış irəli sürüb və bunun üçün həmin ərazilərdə böyük enerji potensialının olduğunu qeyd edib.

### *“Ekoloji təhlükəsizliyin milli və beynəlxalq hüquqi təminatı” mövzusunda elmi-praktik konfrans*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (DİA) “Ekoloji təhlükəsizliyin milli və beynəlxalq hüquqi təminatı” mövzusunda elmi-praktik konfrans keçirilib. Tədbirdə DİA-nın rektoru akademik Urxan Ələkbərov Azərbaycan Prezidenti İlham Əliyevin apardığı siyasətin uğurlu nəticələrindən danışıb, ölkəmizin sürətlə inkişaf etdiyini vurğulayıb. U.Ələkbərov müasir şəraitdə ekologiyanın, ətraf mühitin qorunmasının önəmli məsələ olduğunu qeyd edib, Azərbaycanda keçiriləcək COP29-un əhəmiyyətindən danışıb. Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov, Azərbaycan Respublikası Baş Prokurorluğunun Elm-Tədris Mərkəzinin rəisi, lll dərəcəli dövlət ədliyyə müşaviri Mübariz Əhmədov ekoloji məsələlərdən, iqlim dəyişikliyinin yaratdığı problemlərdən danışıblar, təbiətin, ekologiyanın çirklənməsinin qarşısının alınmasının vacibliyini vurğulayıblar. Qeyd edilib ki, COP29-un ölkəmizdə təşkil olunması əlamətdar hadisədir. Sonra Milli Məclisin deputatı Bəhruz Məhərrəmovun “COP29-a Azərbaycanın ev sahibliyi tarixi-siyasi reallığın diktəsidir”, Vəkillər Kollegiyası Akademiyasının rektoru professor Əmir Əliyevin “Ekoloji təhlükəsizlik prinsipi və sağlam ətraf mühitdə yaşamaq hüququ”, Azərbaycan Respublikası Baş Prokurorluğunun Elm-Tədris Mərkəzinin strateji planlaşdırma və risklərin müəyyən edilməsi şöbəsinin



böyük prokuroru, I dərəcəli hüquqşünas Nigar Əfkərovanın "Tarixi və təbiət obyektlərinin mühafizəsində beynəlxalq təşkilatların rolu", DİA-nın hüquq kafedrasının müdiri professor İsaxan Vəliyevin "Ekoloji təhlükəsizliyin təmin edilməsi Azərbaycan dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi", dosentlər Mahir Tağıyevin "Ekoloji təhlükəsizliyin təminatı inzibati hüquq müstəvisində", Samirə Babayevanın "Cinayət qanunun təkmilləşdirilməsinin aktual məsələləri: ekoloji cinayətlər kontekstində", hüquq üzrə fəlsəfə doktoru Fuad Süleymanovun "Ekoloji təhlükəsizliyin beynəlxalq-hüquqi tənzimlənməsi" mövzularında məruzələri dinlənilib.

***Dövlət İdarəçilik Akademiyasında hesabat-seçki konfransı keçirilib***

26 aprel 2024-cü il tarixində Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Həmkarlar İttifaqı Komitəsinin hesabat-seçki konfransı keçirilmişdir. Hesabat seçki konfransında Dövlət İdarəçilik Akademiyasının rəhbərliyi, professor-müəllim heyəti, tələbələri, Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin baş mühasibi İradə Paşayeva iştirak etmişlər. Yığıncaq qaydalara uyğun obyektiv keçirilmiş və gündəlikdə duran bütün məsələlər barədə qərarlar qəbul edilmişdir. Kollektivin dəstəyini yenidən qazanan dosent Yusif Ağayev sədr seçilmişdir.

***"Azərbaycanda müasir idarəetmə formaları: yeni reallıqlar və perspektivlər" mövzusunda respublika elmi konfrans***

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (DİA) "Azərbaycanda müasir idarəetmə formaları: yeni reallıqlar və perspektivlər" mövzusunda respublika elmi konfransı keçirilib. Tədbir DİA-nın Dövlət qulluğu və kadr siyasəti kafedrası tərəfindən təşkil olunub.



Konfransda DİA-nın Dövlət qulluğu və kadr siyasəti kafedrasının müdiri, Milli Məclisin deputatı professor Hikmət Məmmədov, DİA-nın Siyasi Araşdırmalar İnstitutunun direktoru, Milli Məclisin deputatı professor Elman Nəsirov, Dövlət idarəetməsi və menecment kafedrasının müdiri professor Xatirə Hüseynova, Azərbaycan Respublikası gənclər və idman nazirinin müavini Fərhad Hacıyev, Milli Aviasiya Akademiyasının baş hüquqşünası, İqtisadiyyat və hüquq fakültəsinin dekanı professor Ayxan Rüstəmzadə, Dövlət qulluğu və kadr siyasəti kafedrasının müəllimi dosent Elmira İsmayılova, doktorant Könül Qasımova, magistr Nuray Məmmədzadə və digər alim və mütəxəssislərin məruzələri dinlənilib.

Məruzəçilər Ulu Öndər Heydər Əliyevin tarixi xidmətlərindən və onun siyasi kursunun layiqli davamçısı Azərbaycan Prezidenti İlham Əliyevin apardığı siyasətin uğurlu nəticələrindən danışıb, ölkəmizin sürətlə inkişaf etdiyini vurğulayıblar. Eyni zamanda, müasir şəraitdə idarəetmənin önəmli məsələ olduğu bildirilib, Azərbaycanda keçiriləcək COP29-un əhəmiyyəti xüsusi qeyd edilib.

***Dövlət İdarəçilik Akademiyasının dosenti Ş.N. Yaqizarovun "Azərbaycanın Prezidentlik İnstitutu və onun ölkənin imicinin formalaşmasında rolu" adlı monoqrafiyası çap olunmuşdur***

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Tarix kafedrasının dosenti Şapi Yaqizarovun "Azərbaycanın Prezidentlik İnstitutu və onun ölkənin imicinin formalaşmasında rolu" adlı monoqrafiyası çap olunmuşdur. Oxuculara təqdim olunan bu kitab müasir şəraitdə Azərbaycan cəmiyyətində gedən transformasiya

proseslərinə həsr olunubdur. Kitabda Azərbaycanda Prezidentlik institutunun yaradılması və inkişafı məsələləri araşdırılır. Bundan əlavə, kitabda xarici siyasət arenasında Azərbaycanın mövqeyinə dair, eləcə də onun imicini formalaşdıran dövlət siyasətinin təkmilləşdirilməsi istiqamətində məsələlərə diqqət verilmişdir. Azərbaycanda medianın fəaliyyətinin konstitusiya-hüquqi əsasları üzə çıxarılaraq tədqiq edilmiş və bu cəhətdən Azərbaycanın informasiya siyasəti və informasiya müharibələri araşdırılmışdır. Tarixçilər, politoloqlar, diplomatlar və hüquqşünaslar üçün də maraqlı olacaq bu kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulubdur.

### *Vəkillər üçün "Prezident İlham Əliyevin yeni dövlət idarəçilik texnologiyaları: COP29-a aparan yol" adlı məruzə təqdim edilib*

Azərbaycan Respublikasının Vəkillər Kollegiyası (ARVK) Rəyasət Heyətinin üzvləri, vəkil qurumlarının rəhbərləri, habelə KİV nümayəndələrinin iştirakı ilə Rəyasət Heyətinin geniştərkibli iclası və vəkilliyə namizədlərin təntənəli andiçmə mərasimi keçirilib. Mərasimdə Kollegiya sədri Anar Bağırov çıxış edərək Azərbaycanda vəkilliyin tarixindən, inkişafından və getdikcə daha da artan nüfuzundan, o cümlədən ARVK-nın beynəlxalq əlaqələrinin qurulmasından, çoxsaylı nüfuzlu təşkilatlara üzv qəbul edilməsindən danışıb, habelə digər məsələlər barədə tədbir iştirakçılarına məlumat verib. Eyni zamanda, sədr son dövrlər vəkillikdə informasiya və kommunikasiya texnologiyalarının tətbiqinə böyük üstünlük verildiyini də xatırladaraq Kollegiya tərəfindən yaradılan "Elektron vəkil orderi" sisteminin fəaliyyətə başladığını bildirib. Daha sonra Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov çıxışında andiçmə mərasimində iştirak edən vəkilləri təbrik edib,



gələcək fəaliyyətlərində uğurlar arzulayıb. Rektor “Prezident İlham Əliyevin yeni dövlət idarəçilik texnologiyaları: COP29-a aparan yol” mövzusunda danışaraq Azərbaycanın BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyi etməyinin əhəmiyyətini vurğulayıb, belə bir tədbirin ölkəmizdə keçirilməsinin çox vacib olduğunu dilə gətirib. O, Azərbaycan Prezidentinin Sərəncamı ilə 2024-cü ilin respublikamızda “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsinin ölkəmizdə ətraf mühitin mühafizəsi sahəsində aparılan məqsədyönlü və ardıcıl dövlət siyasətinin tərkib hissəsi olduğunu nəzərə çatdırıb. Ümummilli Lider Heydər Əliyevin tarixi xidmətlərindən də söz açan Urxan Ələkbərov ölkənin ictimai-siyasi, sosial-iqtisadi və elmi-mədəni həyatında əsaslı dönüşün yarandığını qeyd edib. Azərbaycanda qazanılan uğurların dahi rəhbər Heydər Əliyev siyasətinin bəhrəsi olduğunu bildirən rektor Ulu Öndər tərəfindən müəyyənləşdirilmiş və Prezident cənab İlham Əliyevin uğurla davam etdirdiyi inkişaf strategiyası sayəsində ölkəmizin qazandığı nailiyyətlərə diqqət çəkib. Həmçinin, mərasimdə vəkilliyə qəbul üzrə ixtisas imtahanlarından müvəffəqiyyətlə keçən və icbari təlimi başa vuran namizədlərin andiçmə mərasimi olub, vəkilliyə namizədlər Azərbaycanın Dövlət Bayrağı önündə and içib, onlara vəsiqələr təqdim edilib.

***Baş Prokurorluqda “Yaşıl Dünya naminə həmrəylik ili”nə həsr olunmuş tədbir keçirilib***

Mayın 3-də Azərbaycan Respublikasının Baş Prokurorluğunun və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının birgə təşkilatçılığı ilə “Yaşıl dünya naminə həmrəylik ili”nə həsr olunmuş Seminar keçirilib. Giriş nitqi ilə çıxış edən Azərbaycan Respublikası Baş prokurorunun birinci müavini Elçin Məmmədov tədbirin əhəmiyyəti,



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bu istiqamətdə görülmüş işlər və həyata keçirilən tədbirlər, habelə işğaldan azad edilmiş torpaqların "Yaşıl enerji" zonası elan edilməsi və COP-29 kimi mötəbər bir tədbirin ölkəmizdə keçirilməsinin önəmi barədə məlumat verib. Daha sonra Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov "Prezident İlham Əliyevin innovativ dövlət idarəçilik texnologiyaları: COP29-a aparan yol" mövzusunda mühazirə ilə çıxış edib. DİA-nın Hüquq kafedrasının və Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin təşkilatçılığı ilə keçirilən tədbirdə Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarəsinin rəisi Vüqar Əliyev, Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin rəisi Erkin Əlixanov və Elm-Tədris Mərkəzinin rəisi Mübariz Əhmədov çıxış etmişlər.

### *"Dövlət idarəçiliyi və siyasi şüur müasir çağırışlar kontekstində" mövzusunda təlim*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (DİA) "Dövlət idarəçiliyi və siyasi şüur müasir çağırışlar kontekstində" mövzusunda onlayn formada növbəti təlim keçirilib. Təlim Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətinin əməkdaşları üçün təşkil edilib.

Təlimdə Dövlət İdarəçilik Akademiyasının Dövlət qulluğu və kadr siyasəti kafedrasının müdiri, Milli Məclisin deputatı, professor Hikmət Məmmədov çıxış edərək siyasi münasibətlərin, siyasi prosesin və fəaliyyətin dərk edilməsinin mühüm açarı kimi siyasi şüurun dövlət idarəçiliyində fundamental rolundan bəhs edib. "Siyasi şüur siyasi reallıqların dərk edilməsi sayəsində meydana gələn inam, etiqad, baxışlar, dəyərlər və onlara əsaslanan siyasi mövqe ilə ictimai rəyin məcmusu şəklində fəaliyyət göstərir və siyasi prosesin mühüm hissəsi kimi çıxış edir", – deyə qeyd edən H.Məmmədov dinləyicilərin diqqətinə çatdırıb ki, cəmiyyətin siyasi şüurunu öyrənmədən real siyasət işləyib-hazırlamaq və həyata keçirmək mümkün deyil.

Daha sonra professor H.Məmmədov Azərbaycan cəmiyyətində milli dövlətçilik şüurunun formalaşmasında Ümummilli Lider Heydər Əliyevin xüsusi rolu olduğunu vurğulayıb. O bildirib ki, əgər müstəqil Azərbaycanın yaxın keçmişi Ümummilli Lider Heydər Əliyevin şərəfli dövlətçilik fəaliyyəti ilə formalaşaraq, xilaskarlıq missiyası və quruculuq motivləri ilə tarixə yazılıbsa, ölkəmizin bugünkü davamlı və hərtərəfli yüksəlişi Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin simasında beynəlxalq aləmdə daha geniş şöhrət tapır. Təlim zamanı, eyni zamanda, Prezident İlham Əliyevin qətiyyətli və məqsədyönlü fəaliyyəti nəticəsində Azərbaycan Ordusunun 30 illik işğala son qoymasının milli dövlətçilik şüurunun güclənməsində olan rolundan da bəhs edilib.

Professor Hikmət Məmmədov məhz Ümummilli Lider Heydər Əliyevin siyasətini dövrün tələblərinə uyğun davam etdirən ölkə rəhbərinin həyata keçirdiyi tədbirlərin Azərbaycanın milli gücünün artmasına, strateji hədəflərə və qələbəyə doğru əmin addımlarla irəliləməsinə olan təsiri ilə bağlı fikirlərini bölüşüb.

## *“Azərbaycan Respublikasında davamlı inkişafın formalaşdırılmasında Ümummilli lider Heydər Əliyevin rolu” mövzusunda Respublika elmi-praktiki konfrans*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında Elmi təşkilat və beynəlxalq əlaqələr şöbəsinin təşkilatçılığı ilə Ulu öndər Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş “Azərbaycan Respublikasında davamlı inkişafın formalaşdırılmasında Ümummilli lider Heydər Əliyevin rolu” mövzusunda doktorant və gənc tədqiqatçıların Respublika elmi-praktiki konfransı keçirilmişdir. Tədbirdə DİA-nın rektoru, professor-müəllim heyəti, Milli Məclisin üzvü, doktorant və dissertantlar, o cümlədən tələbə və magistrantlar iştirak etmişdilər. Konfransı giriş sözü ilə açan DİA-nın rektoru akademik Urxan Ələkbərov Azərbaycan Respublikasının son illər inkişaf tempinə görə dünyanın aparıcı ölkələrindən birinə çevrilməsinin əsasında Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və Prezident İlham Əliyevin uğurla inkişaf etdirdiyi və həyata keçirdiyi siyasətin durduğunu qeyd etdi. İnkişafın dinamik bir proses olduğunu, yəni bir vəziyyətdən digərinə keçid kimi səciyyələndirildiyini deyən natiq, əksər hallarda bu prosesin əsasən müsbət bir hadisənin baş verməsi, tərəqqinin əldə edilməsi və bunun davamlı olmasını dinləyicilərin diqqətinə çatdıraraq bu müvəffəqiyyətli inkişafın əsasında hər zaman insanın, onun bilik və bacarıqlarının durduğunu vurğuladı. Rektor çıxışında cari ilin sonunda Azərbaycanda keçiriləcək COP-29 beynəlxalq tədbirinin əhəmiyyətindən bəhs etdi. Sonra Milli Məclisin üzvü, DİA-nın Dövlət qulluğu və kadr siyasəti kafedrasının müdiri, professor Hikmət Məmmədov konfrans iştirakçılarını salamlayaraq, Prezident İlham Əliyevin apardığı siyasətin uğurlu nəticələrindən danışdı. Konfransda iştirak edən doktorant və gənc tədqiqatçılar Azərbaycan Respublikasında davamlı inkişafın formalaşmasında Ümummilli lider Heydər Əliyevin rolu, ölkəmizdə səmərəli dövlət idarəçiliyi və davamlı inkişaf məqsədlərinin həyata keçirilməsi, 44 günlük Vətən müharibəsindən sonra Azərbaycan Respublikasının Türk Dövlətləri Təşkilatı ilə münasibətləri və s. məsələlər haqqında məruzələrlə çıxış etdilər. Tədbirdə DİA-nın doktorant və gənc tədqiqatçıları ilə yanaşı digər ali məktəblərin doktorantlarının da məruzələri dinlənilmiş və sonda məruzəçilər sertifikatlarla təltif olunmuşlar.



### *"Heydər Əliyev Azərbaycan Respublikasının innovativ inkişafının banisidir" mövzusunda elmi seminar*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (DİA) "Heydər Əliyev Azərbaycan Respublikasının innovativ inkişafının banisidir" mövzusunda elmi seminar keçirilib. Heydər Əliyev Mərkəzi ilə birgə keçirilən seminar



Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunub. Seminarda çıxış edən DİA-nın rektoru akademik Urxan Ələkbərov Ümummilli Lider Heydər Əliyevin müstəsna tarixi xidmətlərindən danışıb. Rektor qeyd edib ki, Azərbaycanda innovativ inkişafın əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub. Urxan Ələkbərov ölkəmizdə qazanılan nailiyyətlərin dahi rəhbər Heydər Əliyev siyasətinin bəhrəsi olduğunu deyib, Ulu Öndərin siyasi kursunun Prezident İlham Əliyev tərəfindən qətiyyətlə həyata keçirildiyini vurğulayıb. Dövlət İdarəçilik Akademiyası Siyasi Araşdırmalar İnstitutunun direktoru, Milli Məclisin deputatı, professor Elman Nəsirov "Heydər Əliyev və beynəlxalq enerji təhlükəsizliyi problemi" mövzusunda məruzə edib. O, Ümummilli Lider Heydər Əliyevin uğurlu daxili və xarici siyasətindən, dünya ölkələri və nüfuzlu beynəlxalq təşkilatlarla müstəqil Azərbaycanın diplomatik əlaqələrinin qurulmasında xidmətlərindən danışıb. Bildirilib ki, həmin əlaqələrin qurulması müstəqil Azərbaycan dövlətinin möhkəmlənməsinə və inkişafına əvəzsiz töhfələr verib. Ulu Öndər Heydər Əliyevin neft strategiyasının uğurlu nəticələrini xatırladan E.Nəsirov 1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin müqaviləsi"nin əhəmiyyətini xüsusi vurğulayıb. O, Ümummilli Lider Heydər Əliyevin

enerji siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini deyib. Professor ölkəmizin inkişafı istiqamətində, həmçinin Heydər Əliyev Fondunun rolunu vurğulayıb. DİA-nın kafedra müdiri, Milli Məclisin deputatı, professor Hikmət Babaoğlu "Heydər Əliyev – müstəqil Azərbaycanın qurucu lideri" mövzusunda məruzə ilə çıxış edib. Professor müasir müstəqil Azərbaycan dövlətinin qurulmasında, inkişafında və dünyada nüfuzunun yüksəlməsində Ümummilli Lider Heydər Əliyevin əvəzsiz xidmətlərindən bəhs edib. 1988-1992-ci illərdə ölkəmizin dağılmaq, parçalanmaq təhlükəsi ilə üzləşdiyini qeyd edən H.Babaoğlu xalqın tələbi ilə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Azərbaycanın böyük inkişaf yoluna çıxdığını vurğulayıb. Dahi rəhbər Heydər Əliyevin "Azərbaycanın dövlət müstəqilliyi əbədidir, daimidir, dönməzdir" kəlamını xatırladan H.Babaoğlu Ümummilli Lider Heydər Əliyevin böyük xilaskarlıq rolundan, zəngin dövlətçilik təcrübəsinin, siyasi irsinin əhəmiyyətindən danışıb. Vurğulanıb ki, Heydər Əliyevin böyüklüyünü biz bu gün güclü ordu quruculuğunda, torpaqlarımızın azad olunmasında görürük, Azərbaycanın sürətli inkişafında görürük. Heydər Əliyevin böyüklüyünü biz bu gün Böyük Qayıdışda görürük. Sonra Heydər Əliyev Mərkəzinin Heydər Əliyev irsinin tədqiqi və təbliği departamentinin Elmi araşdırmalar və təbliğat şöbəsinin müdiri Nigar Rəhimli çıxış edib. Çıxışda Heydər Əliyev Mərkəzinin fəaliyyəti, Ulu Öndər Heydər Əliyevin zəngin irsinin, Azərbaycan dilinin, tariximizin, mədəniyyətimizin həm ölkədə, həm də xaricdə təbliğ edilməsində rolu barədə məlumat verilib. Qeyd olunub ki, Mərkəz ötən 12 il ərzində Ulu Öndərin irsinin tədqiqi və təbliği istiqamətində müxtəlif layihələr həyata keçirib.

***Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş "Heydər Əliyev 101: dövlət idarəçiliyində liderlik" mövzusunda gənclərlə görüş***

Mayın 7-də Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında Yeni Azərbaycan Partiyası (YAP) Veteranlar Şurası və YAP Gənclər Birliyinin birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş "Heydər Əliyev 101: dövlət idarəçiliyində liderlik" mövzusunda gənclərlə görüş keçirilib. Dövlət İdarəçilik Akademiyasında keçirilən görüşdə əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Dövlət Himni səsləndirilib. Tədbirin moderatoru YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov bildirib ki, əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər siyasəti Azərbaycan gəncliyinin inkişafında dərin izlər buraxıb. Gənclər siyasətinin başlıca məqsədi yeni nəslin fiziki, mənəvi-psixoloji cəhətdən sağlam yetişməsini, istedadlı gənclərin üzə çıxarılması və onların ölkənin gələcəyinə töhfə verməsini təmin etməkdir. Onun sözlərinə görə, bu gün Azərbaycan Prezidenti İlham Əliyevin məqsədyönlü siyasətinin nəticəsidir ki, ölkəmizdə yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclər formalaşıb. Azərbaycan gəncliyi 44 günlük Vətən müharibəsində böyük şücaət göstərərək tarix yazdı. YAP Veteranlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü Arif Rəhimzadə çıxışında qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin genişmiqyaslı fəaliyyəti dövlətçilik məktəbidir. Onun sözlərinə görə, gənclər Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi yolla getməlidirlər. Çünki bu yolun alternativi yoxdur. A.Rəhimzadənin sözlərinə görə, millətinin və dövlətinin ali mənafeyini öz fəaliyyətində daim təməl prinsip kimi qəbul






edən Ümummilli Lider bugünkü müstəqil Azərbaycanın banisidir. Ulu Öndərin həyatı daim mübarizələrdə keçib və o, hər zaman qalib gəlib. Ona görə də Ulu Öndərimizin həyat və fəaliyyəti gənclərimiz üçün nümunədir. YAP Veteranlar Şurasının sədri əlavə edib ki, Heydər Əliyev siyasi məktəbinin ən layiqli yetirməsi cənab İlham Əliyevdir. Prezident İlham Əliyev bu gün Heydər Əliyev siyasətini uğurla davam etdirir. “Ulu Öndər Heydər Əliyev hər zaman Azərbaycan gəncliyinə qayğı ilə yanaşıb, gənclərin inkişafını xüsusi diqqət mərkəzində saxlayıb. Gənclərimiz Heydər Əliyevin zəngin irsini dərindən öyrənməli, Ulu Öndərin ideyalarına həmişə sadiq olmalıdırlar”, – deyə A.Rəhimzadə vurğulayıb. Çıxış edən YAP Veteranlar Şurasının üzvü, tarix elmləri doktoru Dilarə Seyidzadə Ümummilli Lider Heydər Əliyevin dövlətimiz və xalqımız qarşısındakı misilsiz xidmətlərdən

bəhs edib. Heydər Əliyevi böyük dövlət xadimi və güclü sərkərdə kimi xarakterizə edən D.Seyidzadə bildirib ki, bu dahi şəxsiyyət bütün həyatını Azərbaycana həsr edib. Onun sözlərinə görə, Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycanı həm yaradan, həm möhkəmləndirən, dünyada tanıdan, həm də gələcəyə doğru uğurla aparan şəxsiyyət idi. D.Seyidzadə çıxışında Ulu Öndər Heydər Əliyev haqqında xatirələrini tədbir iştirakçıları ilə bölüşüb. YAP Veteranlar Şurasının üzvü gənclərə tariximizi, o cümlədən Heydər Əliyev irsini dərindən öyrənməyi tövsiyə edib. Çünki bu irs əslində, böyük dövlətçilik irsidir. "Hər bir gənc yüksək biliklərə yiyələnməli, qazandığı bilik və bacarıqları müstəqil ölkəmizin inkişafına həsr etməli və Prezidentimiz İlham Əliyevin siyasətinə dəstək olmalıdır", – deyə o söyləyib. YAP Veteranlar Şurasının üzvü, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru akademik Urxan Ələkbərov bildirib ki, Azərbaycanın əldə etdiyi uğurların bünövrəsi Heydər Əliyev amili ilə bağlıdır. Çünki Heydər Əliyev dünya miqyasında dahi siyasətçi və görkəmli dövlət xadimidir. Onun sözlərinə görə, Ulu Öndər Heydər Əliyevin siyasətində ən vacib məqamlardan biri milli kadr potensialının formalaşdırılması ilə bağlı olub. Ulu Öndərin rəhbərliyi altında təhsil müəssisələrinin zəngin şəbəkəsinin yaradılması və onların maddi-texniki bazasının formalaşdırılması, respublika hüdudlarından kənarda yüksəkixtisaslı mütəxəssislərin, o cümlədən hərbi kadrların yetişdirilməsi gələcək dövlətimiz üçün zəruri intellektual potensial yaradıb. YAP Veteranlar Şurasının üzvü qeyd edib ki, Azərbaycanın inkişaf strategiyasının müəllifi Ümummilli Lider Heydər Əliyevdir. Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı olan Prezident İlham Əliyevin siyasəti nəticəsində Azərbaycan davamlı olaraq inkişaf edir və güclənir. Daha sonra gənclərin sualları cavablandırılıb.

### *DİA-da "İqlim dəyişikliyinə uyğunlaşma üzrə" təlimlərə başlanılıb*

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası olan COP29-un Azərbaycanda keçirilməsi və "Yaşıl dünya naminə həmrəylik ili" ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında



BMT-nin İnkişaf Proqramı (UNDP) ilə əməkdaşlıq çərçivəsində mərkəzi icra hakimiyyəti orqanlarının rəhbər kadrları üçün "İqlim dəyişikliyinə uyğunlaşma üzrə" təlimlərə başlanılıb.

Təlimlər mayın 6-dan iyunun 12-dək Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Energetika Nazirliyi, Dövlət Statistika Komitəsi və digər qurumların əməkdaşları üçün nəzərdə tutulub. Təlimin açılışında Dövlət İdarəçilik Akademiyasının rektoru akademik Urxan Ələkbərov "Prezident İlham Əliyevin yeni dövlət idarəçilik texnologiyaları: COP29-a aparan yol" mövzusunda çıxış edib.

Rektor belə bir tədbirin ölkəmizdə keçirilməsinin çox vacib olduğunu bildirib. O, Azərbaycan Prezidentinin Sərəncamı ilə 2024-cü ilin respublikamızda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsinin ölkəmizdə ətraf mühitin mühafizəsi sahəsində aparılan məqsədyönlü və ardıcıl dövlət siyasətinin tərkib hissəsi olduğunu diqqətə çatdırıb. Ümummilli Lider Heydər Əliyevin tarixi xidmətlərindən də söz açan Urxan Ələkbərov ölkənin ictimai-siyasi, sosial-iqtisadi və elmi-mədəni həyatında əsaslı dönüşün yarandığını qeyd edib. Azərbaycanda qazanılan uğurların dahi rəhbər Heydər Əliyev siyasətinin bəhrəsi olduğunu bildirən rektor Urxan Ələkbərov Ulu Öndər tərəfindən müəyyənləşdirilmiş və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi inkişaf strategiyası sayəsində ölkəmizin qazandığı nailiyyətlərə diqqət çəkib. Sonra UNDP layihə rəhbəri Zaur Əliyev iştirakçılara təlim haqqında geniş məlumat verib.

Təlimlərdə iqlim dəyişikliyi sahəsində ekspertlərdən Rövşən Abbasov, Ramil Hüseyn, Təranə Cəfərova, Fuad Hümbətov, Zaman Hüseynov, Rəşad Hüseynov və Sevinc Saruxanovanın iştirak etməsi nəzərdə tutulur. Təlimlərin 6 həftə davam etməsi planlaşdırılır.

## *DİA Tələbə Elmi Cəmiyyəti Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş elmi konfrans keçirmişdir*

08 may 2024-cü il tarixində Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası Tələbə Elmi Cəmiyyətinin Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş "Heydər Əliyev irsi Azərbaycanın yüksəlişi və qüdrətli dövlətçiliyinin təməlidir" mövzusunda elmi konfransı keçirilmişdir.

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi, Ulu öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin unudulmaz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlamışdır.

Sonra Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən film nümayiş etdirilmişdir.

Konfransı Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov açaraq, Azərbaycanın ən yeni tarixinin bütöv bir dövrünün Ümummilli Lider Heydər Əliyevin şərəfli adı və yorulmaz fəaliyyəti ilə bağlı olduğunu göstərmiş, Ulu Öndərin Azərbaycan xalqı qarşısındakı əvəzsiz xidmətlərindən və Azərbaycan gəncliyinə göstərdiyi böyük qayğıdan ətraflı danışmış, bu siyasi kursun Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini, Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında suverenliyini tam bərpa etmiş Qalib Azərbaycanın bu gün inamla inkişaf etdiyini vurğulamışdır. Əldə olunan yüksək nailiyyətlər diqqətə çatdırılmaqla, bütün bunların ölkə Prezidenti cənab İlham Əliyevin müdrik siyasəti və şəxsiyyət faktorunun nəticəsi olduğu qeyd edilmişdir. Rektor postmüharibə reallıqları və Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi böyük işlərdən, Qarabağın dirçəlişi strategiyasının müvəffəqiyyətlə reallaşmasından və Böyük Qayıdışdan geniş bəhs etmiş, Tələbə Elmi Cəmiyyəti tərəfindən magistr və tələbələrin geniş iştirakı

ilə belə bir elmi konfransın keçirilməsinin xüsusi əhəmiyyətini qeyd edərək, konfransın işinə uğurlar arzulamışdır.

Sonra DİA Tələbə Elmi Cəmiyyətinin sədri, siyasi elmlər doktoru, professor əvəzi Sevil Məmmədova mövzu ilə bağlı geniş məruzə etmiş, magistrant və tələbələrdən Dilarə Elyazova, Etibar Babayev, Cahangir Həsənov, Zemfira Həsənova, Kamran Nəcəfov, Aysel Mikayilova, Fuad Əliyev, Tural Rəhimzadə, Ayşə Əliyeva, Murad Alməmmədov, Elşad Məmmədov, Mehri Əsgərzadə, Tural Bürcəliyev, Məhəmmədrza Axundov və b. maraqlı çıxışlar etmiş, yüksək fəallıq şəraitində geniş fikir mübadiləsi aparılmışdır. Elmi konfrans iştirakçıları Ulu Öndər Heydər Əliyevin zəngin dövlətçilik irsinin daha dərindən araşdırmasında yüksək fəallıq göstərəcəklərinə əminlik ifadə etmişlər.

### *Dövlət İdarəçilik Akademiyasının kollektivi Fəxri xiyabanda Ulu Öndərin məzarını ziyarət edib*

Mayın 10-da ümummilli lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü münasibətilə Dövlət İdarəçilik Akademiyasının (DİA) kollektivi Fəxri xiyabanda Ulu Öndərin məzarını ziyarət edib, önünə gül dəstələri qoyaraq xatirəsini ehtiramla anıb.

### *DİA-da “Azərbaycanda yaşıl iqtisadiyyat və COP29” mövzusunda mühazirə dinlənilib*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının (DİA) Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin magistrantları üçün Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin baş məsləhətçisi Şahmar Hacıyevin “Azərbaycanda yaşıl iqtisadiyyat və COP29” mövzusunda mühazirəsi dinlənilib. Mühazirə Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29), Kioto Protokolunun Tərəflər Görüşünün 6-cı sessiyasının təşkil edilməsi ilə bağlı DİA-nın Tədbirlər planına uyğun olaraq təşkil edilib. Ş.Hacıyev çıxışında Azərbaycanın enerji siyasəti, həyata keçirilmiş enerji layihələri və COP29 məsələlərinə toxunub. O, enerji keçidi prosesini xüsusilə vurğulayıb və bununla bağlı bildirib ki, Azərbaycanın yaşıl inkişaf strategiyası və yaşıl enerji layihələri Cənubi Qafqazdan Avropaya yaşıl enerjinin ixracını və ölkənin “yaşıl enerji mərkəzinə” çevrilməsini hədəfləyir. Tərəflər Konfransının (COP29) ölkəmizdə keçirilməsi ilə əlaqədar qeyd edilib ki, bu beynəlxalq tədbir respublikamızda keçirilən ən mötəbər beynəlxalq tədbirlərdən biri olacaq. Bununla da COP29 beynəlxalq əməkdaşlığı dəstəkləmək istiqamətində mühüm platforma rolunu oynayacaq və ölkəmizə enerji keçidində və yaşıl iqtisadiyyatın inkişafında müsbət təsir edəcəkdir. Mühazirəni I kurs magistrantları dinləyiblər. Sonda magistrantların məsələ ilə bağlı sualları cavablandırılıb.

### *“Yaşıl dünya naminə həmrəylik ili”nə həsr olunmuş seminar*

Mayın 17-də Ədliyyə Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının təşkilatçılığı ilə “Yaşıl dünya naminə həmrəylik ili”nə həsr olunmuş seminar keçirilib. Tədbirdə çıxış edən ədliyyə nazirinin müavini Eldar Nuriyev bütün sahələrdə dinamik inkişaf edən Azərbaycanda son illər həyata keçirilən çoxşaxəli, müasir çağırışlara cavab verən islahatların uğurlu nəticələr verdiyini, ölkəmizin beynəlxalq nüfuz və mövqelərinin möhkəmləndiyini bildirib. Ötən 20 ildə demokratik dəyərlərin






cəmiyyətdə daha da möhkəmləndiyini, həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasının uğurlu nəticələr verdiyini, vətəndaş cəmiyyəti təsisatlarının möhkəmləndiyini, beynəlxalq təşkilatlarla əməkdaşlığın yeni müstəvidə davam etdirildiyini diqqətə çatdıran Eldar Nuriyev ədliyyə və məhkəmə sisteminin müasirləşdirilməsi tədbirlərinin də xüsusi diqqət mərkəzində olduğunu vurğulayıb. Ədliyyə nazirinin müavini xüsusi vurğulayıb ki, ölkəmiz regionun iri neft və qaz hasilatçılarından biri kimi müasir dünyanın yeni çağırışlarına əsas tutaraq, malik olduğu alternativ enerji mənbələrindən səmərəli istifadə istiqamətində mühüm tədbirlər həyata keçirir. Bu sahədə reallaşdırılan tədbirlərin beynəlxalq

səviyyədə yüksək qiymətləndirilməsinin nəticəsi olaraq, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının noyabrda Azərbaycanda keçirilməsinə qərar verilib. Eldar Nuriyev, həmçinin bildirib ki, nazirlik funksiyalarına uyğun olaraq tədbirə hazırlıqla bağlı üzərinə düşən vəzifələri reallaşdırır, vətəndaşların ekologiya hüququ sahəsində maarifləndirilməsi istiqamətində müvafiq tədbirlər həyata keçirir. Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru akademik Urxan Ələkbərov "Prezident İlham Əliyevin innovativ dövlət idarəçilik texnologiyaları: COP29-a aparan yol" mövzusunda mühazirəsində deyib ki, Prezident İlham Əliyevin ölkəmizin dinamik inkişafına, ərazi bütövlüyünün və suverenliyinin tam bərpasına imkan yaradan iqtisadi islahatlar strategiyası ölkənin təbii sərvətlərindən, intellektual resurslarından səmərəli istifadəyə əsaslanır. Akademik, həmçinin vurğulayıb ki, elmi əsaslara söykənən bu islahatlar iqtisadi potensialına görə dünyada 62-ci yerdə qərarlaşan Azərbaycanın 25 ən inkişaf etmiş, biznes üçün əlverişli mühitinin mövcud olduğu qabaqcıl ölkə sırasında yer tutmasını təmin edib. Onun sözlərinə görə, ölkəmizdəki xalq-iqtidar birliyindən qaynaqlanan ictimai-siyasi sabitlik amili, əlverişli biznes mühiti Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayan Azərbaycanın "yaşıl enerji" sahəsində də investisiya cəlbediciliyini yüksəldib. Akademik Urxan Ələkbərov çıxışında vurğulayıb ki, Azərbaycan qlobal miqyasda aktual olan "yaşıl enerji", karbonsuzlaşdırma, hidrogen istehsalı kimi layihələrin reallaşdırılmasının əsas təşəbbüskarlarından birinə çevrilib. Rektor xatırladıb ki, Prezident İlham Əliyevin hələ 2004-cü il 21 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı" bu sahədə yol xəritəsi müəyyənləşdirərək, bərpa olunan enerji mənbələrindən istifadə məqsədilə əsaslı tədbirlərin həyata keçirilməsinə imkanlar açıb. "Beynəlxalq Enerji Agentliyi tərəfindən plana əsasən, 2050-ci illədək dünya ölkələri tərəfindən atmosferə atılan karbon emissiyalarının tam şəkildə qadağan edilməsi nəzərdə tutulur. Paris İqlim Sazişini ratifikasiya edən Azərbaycan baza ili olan 1990-cı illə müqayisədə 2030-cu ilədək istilik effekti yaradan qazların emissiyalarının səviyyəsində 35 faiz azalma ilə bağlı könüllü öhdəlik götürüb və artıq bu öhdəliyi 40 faizə çatdırıb" – deyən akademikin sözlərinə görə, Azərbaycanın 2030-cu ilədək sosial-iqtisadi inkişafa dair milli prioritetlərindən birinin "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyənləşdirilməsi, azad edilmiş ərazilərin və Naxçıvan Muxtar Respublikasının "yaşıl enerji" zonası, 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi bu sahədə aparılan məqsədyönlü dövlət siyasətinin təzahürüdür. Çıxışını davam etdirən rektor diqqətə çatdırıb ki, iştirakçıların sayına, müzakirəyə çıxarılan məsələlərin aktuallığına görə dünyanın ən mötəbər tədbirlərdən hesab edilən COP29-un Azərbaycanda keçirilməsi barədə qərarın qəbulu ölkəmizin siyasi və iqtisadi nüfuzunun, alternativ enerji istehsalı sahəsində zəngin potensiala malik olmasının göstəricisidir. Qeyd edilib ki, Prezident İlham Əliyevin 2021-ci il 3 may tarixli "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji" zonasının yaradılması ilə bağlı tədbirlər haqqında" Sərəncamı işğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulması ilə bağlı yeni müasir konseptual yanaşmaları özündə əks etdirir: "Hesablamalara görə, Azərbaycanın quruda 27 qiqavatdan çox külək və günəş enerjisi, Xəzər dənizində 157 qiqavat külək enerjisi potensialı mövcuddur. Qarabağ və Şərqi Zəngəzurda külək, günəş və hidroenerji potensialı 10 qiqavatdan çoxdur. Həmin potensial ölkədə ekoloji mühitin yaxşılaşdırılması və turizm cəlbediciliyinin artırılması ilə yanaşı, elektrik ixracı potensialının yüksəldilməsi baxımından da mühüm dividendlər vəd edir. Azərbaycanın yaşıl enerji sahəsində reallaşdırdığı layihələrin əsas məqsədlərindən biri də ölkədə elektrik enerjisi istehsalına sərf olunan böyük həcmdə təbii qaza qənaət

olunması və Avropaya ixracın həcminin artırılmasıdır” – deyən Urxan Ələkbərov onu da əlavə edib ki, Prezident İlham Əliyevin 2022-ci ilin dekabrında Rumıniyaya işgüzar səfəri çərçivəsində imzalanmış “Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında “yaşıl enerji”nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş” Azərbaycanın alternativ mənbələr hesabına istehsal edəcəyi “yaşıl enerji”nin Gürcüstan ərazisindən – Qara dənizin dibi ilə çəkiləcək sualtı kabel vasitəsilə Avropa ölkələrinə ixracını nəzərdə tutur.

### *“Qərbi Azərbaycan həqiqətləri” mövzusunda elmi-praktik konfrans keçirilib*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (DİA) “Qərbi Azərbaycan həqiqətləri” mövzusunda elmi-praktik konfrans keçirilib. Konfransa DİA-nın müşaviri, Qərbi Azərbaycan İcmasının Gənclər Şurasının üzvü Zaur Məmmədov moderatorluq edib. Dövlət Himninin səsləndirilməsi ilə başlanan konfransda Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Tədbirdə çıxış edən Dövlət İdarəçilik Akademiyasının rektoru akademik Urxan Ələkbərov Azərbaycanın sürətli strateji inkişaf planlamalarından danışıb. Həmçinin Qərbi Azərbaycandan olan insanların hüquqlarının bərpa olunması ilə bağlı fikirlər yürüdüb. Milli Məclisin deputatı, Qərbi Azərbaycan İcmasının Gənclər Şurasının sədri vəzifəsini icra edən Kamal Cəfərov Qərbi Azərbaycan mövzusunun aktuallığı və bu istiqamətdə fəaliyyət haqqında ətraflı məlumat verib. Milli Məclisin deputatı, Qərbi Azərbaycan İcmasının Gənclər Şurasının üzvü Naqif Həmzəyev Qərbi Azərbaycan həqiqətləri və bu amal uğrunda həyata keçirilən fəaliyyətlərdə gənclərin önəmli rolundan bəhs edib. Qərbi Azərbaycan İcmasının Aparatında gənclərlə iş üzrə məsul şəxs Anar İrzaquluyev “Qərbi Azərbaycan həqiqətləri” haqqında təqdimat edib. Tarix elmləri doktoru Vaqif Qafarov isə “Qərbi Azərbaycan həqiqətləri: tarix və müasirlik” mövzusunda məruzə edib.

### *DİA Tələbə Elmi Cəmiyyəti yekun elmi konfrans keçirmişdir*

24 may 2024-cü il tarixində DİA Tələbə Elmi Cəmiyyətinin tələbə və magistrantların bir il ərzində yerinə yetirdikləri elmi-tədqiqat işlərinin nəticələrinə həsr olunmuş “Yeni dövrdə Azərbaycan Respublikasının inkişaf prioritetləri” mövzusunda yekun elmi konfransı keçirilmişdir.

Elmi konfransı giriş sözü ilə DİA-nın rektoru, akademik Urxan Ələkbərov açaraq, Ulu Öndər Heydər Əliyevin gələcəyə hesablanmış milli inkişaf kursunun layiqli davamçısı, ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında özünün ərazi bütövlüyünü tam bərpa etmiş Qalib Azərbaycanın inkişafında yeni dövrün başlandığını vurğulayaraq, Prezidentin andiçmə mərasimindəki çıxışında yeni dövr üçün müəyyən etdiyi prioritetlər və hədəflərdən, qarşıdakı vəzifələrdən geniş bəhs etmiş, xalqımızın özünün Liderinə sonsuz etimad göstərdiyini və yeni dövrə böyük ümidlərlə qədəm qoyduğunu qeyd etmişdir. Rektor bu baxımdan Tələbə Elmi Cəmiyyətinin elmi konfransının vacib və aktual mövzuya həsr olunduğunu xüsusi vurğulamış, konfransın işinə uğurlar arzulayaraq, onun yüksək fəallıq şəraitində keçəcəyinə əminlik ifadə etmişdir.

Sonra DİA Tələbə Elmi Cəmiyyətinin sədri Sevil Məmmədova müzakirəyə çıxarılan mövzu ilə bağlı çıxış etmiş, həmçinin TEC-in

ötən il ərzində fəaliyyəti və qarşısında duran vəzifələr haqqında ətraflı məlumat vermişdir.

Plenar iclasdan sonra elmi konfrans öz işini üç bölmədə DİA-nın professorları Sevil Məmmədovanın (I bölmə, müavin siyasi elmlər üzrə fəlsəfə doktoru İlhamə Ömərova), Ziyafət Həbibovanın (II bölmə, müavin siyasi elmlər üzrə fəlsəfə doktoru Nurəddin İbrahimov) və dosent Məhsəti Əliyevanın (III bölmə, müavin hüquq üzrə fəlsəfə doktoru, dosent Asim Bayramov) rəhbərliyi ilə davam etdirmişdir. Bölmə iclaslarında müasir dövrdə Azərbaycan Respublikasının inkişaf modeli və yeni dövr prioritetlərinin politoloji aspektləri, Azərbaycanın sürətli sosial-iqtisadi inkişafı uğurları və yeni perspektivlər, səmərəli dövlət idarəçiliyi, həmçinin Azərbaycan Respublikasının müasir inkişaf mərhələsinin beynəlxalq – hüquqi aspektləri ətraflı təhlil edilmiş, TEC üzvləri olan tələbə və magistrantların həmin məsələlərə həsr olunmuş elmi tədqiqat işlərinin yekunlarına dair maraqlı çıxışları dinlənilmiş, geniş fikir mübadiləsi aparılmışdır.

## *Kənd Təsərrüfatı Nazirliyi və Dövlət İdarəçilik Akademiyası arasında əməkdaşlıq memorandumu imzalanıb*

Kənd Təsərrüfatı Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası (DİA) arasında Əməkdaşlıq Memorandumu imzalanıb. Sənədi kənd təsərrüfatı naziri Məcnun Məmmədov və DİA-nın rektoru Urxan Ələkbərov imzalayıblar. Memorandumun məqsədi Nazirlik və Akademiyanın elmi-praktiki potensialından istifadə edərək insan resurslarının formalaşdırılması, onların dövlət idarəçiliyi üzrə bilik-bacarıqlarının və təcrübələrinin artırılması, idarəetmə üzrə vərdişlərinin inkişaf etdirilməsidir. Tədbirdə çıxış edən Məcnun Məmmədov bildirib ki, iqtisadiyyatın digər sahələrində olduğu kimi, kənd təsərrüfatının intensiv inkişafı peşəkar kadrlardan birbaşa asılıdır. Azərbaycanda da aqrar sahədə məhsuldarlığın artmasına imkan verən müasir texnika və texnologiyalardan səmərəli istifadə etmək bacarığına malik peşəkar kadrlara, mütəxəssislərə ehtiyac getdikcə artır. Bu baxımdan nazir M.Məmmədov yüksəkixtisaslı mütəxəssislər






hazırlayan, ali təhsil məkanında xüsusi yeri və çəkisi ilə seçilən Dövlət İdarəçilik Akademiyası ilə əməkdaşlığın əhəmiyyətinə toxunub. O, Kənd Təsərrüfatı Nazirliyində çalışan əməkdaşların rəhbər vəzifələrə hazırlanması məqsədilə Akademiyada təhsilə xüsusi önəm verildiyini vurğulayıb. Rektor Urxan Ələkbərov ali təhsil müəssisəsinin maddi-texniki bazası, dövlət idarəçiliyi sahəsi üçün mütəxəssislərin hazırlanması, onların peşəkarlıq səviyyələrinin artırılması, dövlət idarəçilik sahəsində aparılan elmi-tədqiqatlar barədə görüş iştirakçılarına ətraflı məlumat verib. "Bu sahədə kadr bazasının formalaşdırılması və mövcud insan kapitalının daha da təkmilləşdirilməsi əsas məqsədlərdəndir. Əməkdaşlıqla bağlı əldə olunmuş razılıq akademiyada təhsil alanların və Nazirlik əməkdaşlarının bilik və bacarıqlarının inkişaf etdirilməsi işinə mühüm töhfələr verəcək. Əməkdaşlıq Memorandumunda Akademiyanın professor-müəllim heyəti tərəfindən Nazirliyin rəhbər şəxsləri və mütəxəssisləri üçün idarəçilik təlimlərinin keçirilməsi, Akademiyanın bakalavr və magistr təhsili səviyyələrində təhsil alanların təcrübə proqramlarına cəlb edilməsi, istehsal və istehlakla əlaqədar müasir dövrdə idarəçiliklə bağlı rastlaşılan aktual problemlər üzrə araşdırma və təhlillərin aparılması, idarəetmə sahəsində birgə innovasiya yönümlü layihələrin təşviqi, təhlili və onların iqtisadi səmərəliliyinin qiymətləndirilməsi nəzərdə tutulur. Eyni zamanda, sənədə əsasən Nazirliyin rəhbər şəxsləri və mütəxəssisləri tərəfindən Akademiyada təhsil alanlar üçün dövlət idarəçiliyi, insan potensialının idarəedilməsi, idarəetmə prosesində rəqəmsal həllərdən istifadə və digər sahələr üzrə ustad dərsləri təşkil olunacaq", – deyə o əlavə edib. Tərəflər Akademiya ilə Nazirlik arasında əlaqələrin inkişaf etdirilməsi üçün birgə innovativ və elmi-praktiki konfransların, seminarların təşkil edilməsi, təhsilalanları Nazirliyin fəaliyyəti, onun strukturu və məsul olduğu mövzular haqqında məlumatlandırmaq məqsədilə Akademiyada "Karyera günləri"nin keçirilməsi barədə razılığa gəliblər. Tədbirin sonunda qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunub, gələcək əməkdaşlıq istiqamətləri barədə fikir mübadiləsi aparılıb.

### *Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərovun "Бакинский рабочий" qəzetində məqaləsi dərc edilmişdir*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərovun "Бакинский рабочий" qəzetində məqaləsi dərc edilmişdir.

Keçid üçün link:
https://br.az/politics/72591/klyuch-k-ustoychivomu-razvitiyu/

### *DTX-nın Akademiyasında akademik Urxan Ələkbərovun "Prezident İlham Əliyevin innovativ dövlət idarəçilik texnologiyaları: COP29-a aparan yol" adlı məruzəsi dinlənilib*

Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasında Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru akademik Urxan Ələkbərovun "Prezident İlham Əliyevin innovativ dövlət idarəçilik texnologiyaları: COP29-a aparan yol" mövzusunda məruzəsi dinlənilib. Təlimdə ali təhsil müəssisəsinin rəhbər şəxsləri və professor-müəllim heyəti iştirak edib.

### *Dövlət İdarəçilik Akademiyasının müəllimi xarici ölkələrdən olan tələbələrinə akademik mühazirələr keçirmişdi*

Akademiyanın və Estoniya Respublikasının Tallin Universitetinin Gənclərlə iş fakültəsinin təşəbbüsü ilə ərsəyə gələn Erasmus müəllimlərin mübadiləsi layihəsi çərçivəsində Akademiyanın Dövlət qulluğu və kadr siyasəti kafedrasının müəllimi Fərid Quluzadənin Tallin Universitetinin Erasmus tələbələri və xarici ölkələrdən olan tələbələrinə "Azərbaycan Respublikasının gənclərlə iş sahəsində təcrübəsi", "Azərbaycanın müasir gənclər siyasəti" və "Dövlət qurumlarında gənclərin rolu" mövzularında iki həftəlik akademik mühazirələri keçirilmişdir. Mühazirələr çərçivəsində, 90-cı illərdə Ümummilli lider Heydər Əliyevin təməlini qoyduğu gənclər siyasəti və gənclərə müstəqillik dövründə göstərilmiş qayğıdan, eyni zamanda son illərdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin gənclərin inkişafına göstərdiyi dəstək və birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın gənclərə göstərdiyi qayğıdan bəhs edilmişdir.

### *"Prezident İlham Əliyevin innovativ dövlət idarəçiliyi texnologiyaları: COP29-a aparan yol" mövzusunda təqdimat keçirilib*

İyunun 4-də Heydər Əliyev Mərkəzində Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov tərəfindən "Prezident İlham Əliyevin innovativ dövlət idarəçiliyi texnologiyaları: COP29-a aparan yol" mövzusunda təqdimat keçirilib.

Heydər Əliyev Fondu, Heydər Əliyev Mərkəzi, "Regional İnkişaf" İctimai Birliyi (RİİB), COP29 Azərbaycan Əməliyyat Şirkəti, Media Təhlil Mərkəzinin əməkdaşları və RİİB könüllülərinin iştirak etdiyi təqdimatda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva tərəfindən 2004-cü ildən həyata keçirilən çoxşaxəli tədbirlər, peşəkar idarəçilik, ölkəmizin malik olduğu resurslardan və

imkanlardan effektiv və səmərəli istifadə sayəsində Azərbaycanın davamlı inkişafı, əhalinin sosial rifahının yüksəldilməsi, iqlim dəyişikliyi təsirlərinin və karbon emissiyasının azaldılmasında əldə olunan nəticələrdən, eləcə də işğaldan azad olunmuş ərazilərdə qısa müddət ərzində görülmüş irimiqyaslı layihələrdən bəhs edilib, mötəbər beynəlxalq təşkilatların, o cümlədən Dünya İqtisadi Forumunun yekunlarına dair müqayisəli göstəricilərə geniş yer ayrılıb.

### *DİA əməkdaşı Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti tərəfindən təşkil olunan təlimdə iştirak edib*

Dövlət İdarəçilik Akademiyasının Elmi təşkilat və beynəlxalq əlaqələr şöbəsinin müdiri, dosent Elvin Əzizbəyov 20-25 may 2024-cü il tarixlərində Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GIZ) tərəfindən Şərq Tərəfdaşlığı (EaP) proqramı çərçivəsində Almaniyanın Berlin şəhərində təşkil olunmuş “Dövlət sektorunda verilənlərin idarə olunması” adlı təlim proqramında iştirak edib.

Almaniyanın Hertie İdarəçilik Məktəbində Azərbaycan və Şərq Tərəfdaşlığı proqramına üzv dövlətlərin müvafiq qurumlarının nümayəndələrinin iştirakı ilə keçirilən təlimdə məlumatların toplanması, çeşidlənərək kataloqlanması, qorunması və dövlət sektorunda istifadə olunması üsulları haqqında mühazirələr dinlənilmişdir. Təlimin sonuncu günü iştirakçılar qrup və fərdi şəkildə öyrəndikləri mövzulara aid verilən tapşırıqları həll edərək təlimçilər və iştirakçılar üçün təqdimat etmişlər.

Təlim zamanı iştirakçılar Berlin şəhərindəki City Lab adlı məlumat mərkəzində olmuş və müasir texnoloji yeniliklərlə tanış olmuşlar.

### *“İdarəetmə və iqtisadiyyatda 2030 trendləri” mövzusunda respublika elmi-praktik konfransı keçirilib*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (DİA) “İdarəetmə və iqtisadiyyatda 2030 trendləri” mövzusunda respublika elmi-praktik konfransı keçirilib. Konfransın məqsədi “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”, “Yaşıl dünya naminə həmrəylik ili”, Azərbaycanın ev sahibliyi



edəcəyi BMT-nin İqlim Dəyişikliyi haqqında Çərçivə Konvensiyasının (UNFCCC) 29-cu tərəflər Konfransı (COP29) ilə bağlı görülən işlərə və ölkənin yaşıl enerji siyasətinə dəstək olmaqdır. Konfransın işində Xarici İşlər Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Dövlət Sosial Müdafiə Fondu, Elm və Təhsil Nazirliyinin Riyaziyyat və Mexanika İnstitutu, İqtisadiyyat İnstitutu, İqtisadiyyat Nazirliyi yanında Sahibkarlığın İnkişafı Fondu, İqtisadi Elmi-Tədqiqat İnstitutu, Azərbaycan Beynəlxalq Bankı, Azərbaycan Dövlət Aqrar Universitetinin nümayəndələri təmsil olunublar. Respublika elmi-praktik konfransının gündəliyi və seçilmiş istiqamətlər regional inkişafın idarə olunmasında innovativ proseslərin təhlilinə, perspektiv imkanların öyrənilməsinə həsr olunub. Açılış mərasimində DİA-nın rektoru akademik Urxan Ələkbərov "Azərbaycan Respublikasının dövlət idarəçiliyində yeni texnologiyalar: COP29-a aparan yol" mövzusunda məruzə ilə çıxış edib. Sonra Riyaziyyat və Mexanika İnstitutunun direktoru professor Misir Mərdanov konfransın aktuallığı ilə bağlı fikirlərinin bölüşüb. Plenar iclasda Sahibkarlığın İnkişafı Fondunun İdarə Heyəti sədrinin müavini Eldar Həmidov "ESG (Ətraf mühit, sosial və korporativ idarəetmə) və davamlı maliyyə", Xarici İşlər Nazirliyi / COP29 üzrə danışıqlar qrupundan Elçin Allahverdiyev "COP29-a hazırlıq çərçivəsində Azərbaycan Respublikası qlobal iqlim fəaliyyəti üzrə substantiv danışıqlar prosesi", DİA-nın Dövlət idarəetməsi və menecment kafedrasının müdiri doktoru professor Xatirə Hüseynova "Azərbaycan Respublikasının yeni inkişaf dövrünün vacib aspektləri" mövzusunda məruzə ilə çıxış ediblər. Konfrans işini "Davamlı inkişaf və yaşıl iqtisadiyyat", "İdarəetmədə və iqtisadiyyatda yeni yanaşmalar", "Gələcək texnologiyalar və idarəetmə" adlı bölmələrdə davam etdirib.

***Çin nümayəndə heyəti Dövlət İdarəçilik Akademiyasında olub***

Çin Xalq Respublikasının Qansu Vilayətinin UNESCO Assosiasiyasının nümayəndə heyəti Azərbaycana səfəri çərçivəsində Dövlət İdarəçilik Akademiyasında (DİA) olub. Assosiasiyanın prezidenti Du Yonqjun rəhbərliyi ilə keçirilən görüşdə təhsil və mədəniyyət sahəsində əməkdaşlıq perspektivləri müzakirə edilib. Görüşdə rektor Urxan



Ələkbərov akademiyanın, eləcə də ölkənin əldə etdiyi uğurlar barədə məlumat verib, elm və təhsil sahəsində əməkdaşlığın əhəmiyyətini qeyd edib. Həmçinin dövlət qulluqçularının yenidən hazırlanması, ali təhsil müəssisələri arasında əlaqələrin qurulması, süni intellekt sahəsində əməkdaşlıq, elektron idarəçilik, tələbə mübadiləsi və s. məsələlər müzakirə edilib. Səfər Azərbaycan UNESCO Klubları Assosiasiyasının dəvəti ilə baş tutub.

### *Milli Qurtuluş Gününə həsr olunmuş elmi-praktik konfrans keçirilib*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (DİA) Milli Qurtuluş Gününə həsr olunmuş elmi-praktik konfrans keçirilib. Əvvəlcə tədbir iştirakçıları Ümummilli Lider Heydər Əliyevin və şəhidlərin xatirəsini ehtiramla anıblar. Tədbirdə DİA-nın rektoru akademik Urxan Ələkbərov böyük tarixi əhəmiyyət daşıyan 15 İyun- Milli Qurtuluş Günü haqqında məlumat verib. Rektor 1993-cü ildə xalqın təkidli tələbi ilə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra bütün təhlükələrin sovuşduğunu, respublikamızın böyük inkişaf yoluna çıxdığını diqqətə çatdırıb. Akademik U.Ələkbərov dahi rəhbər Heydər Əliyevin zəngin dövlətçilik irsinin əhəmiyyətindən danışıb, ölkəmizdə qazanılan bütün nailiyyətlərin onun siyasətinin bəhrəsi olduğunu vurğulayıb, Ulu Öndərin ideyalarının Prezident İlham Əliyev tərəfindən əzmlə həyata keçirildiyini bildirib. Rektor qeyd edib ki, Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş və Prezident İlham Əliyevin uğurla inkişaf etdirdiyi innovativ idarəetmə texnologiyalarının təcrübədə tətbiqi nəticəsində bir sıra iqtisadi və sosial göstəricilərinə görə müasir Azərbaycan dünya liderləri sayılan ölkələrlə bir sirada dayanıb. U.Ələkbərov ölkəmizin inkişafında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın xüsusi rolunu qeyd edib. Elmi-praktik konfransda Yeni Azərbaycan Partiyası Səbail rayon təşkilatının sədri Muxtar Nağıyev, DİA-nın Siyasi Araşdırmalar İnstitutunun direktoru, Milli Məclisin deputatı professor Elman Nəsirov, Qarabağ Araşdırmalar Mərkəzinin rəhbəri professor Elçin Əhmədov və başqaları dahi rəhbər Heydər Əliyevin misilsiz tarixi xidmətlərindən, böyük xilaskarlıq rolundan bəhs ediblər. Məruzəçilər Milli Qurtuluş Gününün tariximizin şərəfli səhifəsi olduğunu vurğulayıblar. Daha sonra YAP sıralarına yeni daxil olanlara üzvlük vəsiqələri təqdim edilib.



## *Dövlət İdarəçilik Akademiyası və Azərbaycan Sığortaçılar Assosiasiyası arasında əməkdaşlığa dair memorandum imzalanıb*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası ilə Azərbaycan Sığortaçılar Assosiasiyası arasında əməkdaşlığa dair anlaşma memorandum imzalanıb. Memorandumu Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov və Azərbaycan Sığortaçılar Assosiasiyasının icraçı direktoru Elmar Mirsalayev imzalayıblar. Memorandum Azərbaycan Respublikasının qanunvericiliyinin tələblərinə uyğun olaraq ölkə iqtisadiyyatının dinamik inkişafına cavab verə bilən yüksək ixtisaslı, rəqabətədavamlı kadrların hazırlanması, tələbələrdə sığorta savadlılığının artırılması məqsədilə silsilə seminarların təşkili, kadr hazırlığının keyfiyyətinin artırılması məqsədilə tələbələrin istehsalat təcrübəsi keçməsi və məzunların işlə təmin olunması, sığorta bazarının real problemlərinin həllinə həsr olunmuş magistr və doktorluq dissertasiyalarının birgə rəhbərliklə işlənməsi, əməkdaşların ixtisas səviyyəsinin artırılması məqsədilə kursların təşkili, qurumlarda keçirilən elmi-texniki tədbirlərdə birgə iştirakın təmin edilməsi istiqamətində əməkdaşlıq və digər məsələləri əhatə edir. Eyni zamanda, sənəddə Akademiya ilə Assosiasiya arasında əlaqələrin inkişaf etdirilməsi üçün birgə elmi-praktiki konfransların, seminarların təşkil edilməsi kimi məsələlərdə öz əksini tapıb.





## *“İqlim dəyişikliyinə uyğunlaşma” üzrə təlimlərin yekun təqdimatı keçirilib*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (DİA) mərkəzi və yerli icra hakimiyyəti orqanlarının əməkdaşları üçün “İqlim dəyişikliyinə uyğunlaşma üzrə” mövzusunda təlimlər uğurla başa çatıb. Təlimlər BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası olan COP29-un Azərbaycanda keçirilməsi ilə əlaqədar yekdil qərara və Prezident İlham Əliyevin Azərbaycan Respublikasında 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi haqqında Sərəncamına əsasən keçirilib. DİA və BMT-nin İnkişaf Proqramı (UNDP) ilə əməkdaşlıq çərçivəsində həyata keçirilən təlimin yekun təqdimatında akademiyanın rektoru akademik Urxan Ələkbərov çıxış edib. Rektor COP29-un ölkəmizdə keçirilməsinin çox vacib olduğunu bildirib. O, Azərbaycan Prezidentinin Sərəncamı ilə 2024-cü ilin respublikamızda “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsinin ölkəmizdə ətraf mühitin mühafizəsi sahəsində aparılan məqsədyönlü və ardıcıl dövlət siyasətinin tərkib hissəsi olduğunu diqqətə çatdırıb. Ümummilli Lider Heydər Əliyevin tarixi xidmətlərindən söz açan Urxan Ələkbərov ölkənin ictimai-siyasi, sosial-iqtisadi və elmi-mədəni həyatında əsaslı dönüşün yarandığını qeyd edib. Azərbaycanda qazanılan uğurların dahi rəhbər Heydər Əliyev siyasətinin bəhrəsi olduğunu bildirən rektor Urxan Ələkbərov Ulu Öndər tərəfindən müəyyənləşdirilmiş və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi inkişaf strategiyası sayəsində ölkəmizin qazandığı nailiyyətlərə diqqət çəkib. Daha sonra rektor təlimi uğurla başa vuranları təbrik edib. Təlim mayın 6-dan iyunun 12-dək Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Energetika Nazirliyi, Dövlət Statistika Komitəsi və digər qurumların əməkdaşları üçün təşkil edilib. Təlimlər 6 həftə, hər bir təlim 4 saat olmaqla davam edib. İqlim dəyişmələri mövzusunda iştirakçılara 12 fərqli modul üzrə müxtəlif ekspertlər təlim keçib. Sonda təlimləri uğurla başa vuranlara sertifikatlar təqdim edilib.



***Naxçıvanda "İqlim dəyişiklikləri və dövlət idarəçiliyində yeni çağırışlar" mövzusunda səyyar təlim keçirilib***

"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın müvafiq bəndinin icrasını təmin etmək məqsədi ilə dövlət qulluğunda bilik bacarıq və səriştənin inkişaf etdirilməsi ilə bağlı tədbirlər həyata keçirilir. Bu kimi tədbirlərin davamı olaraq iyunun 14-də Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının təşkilatçılığı ilə Naxçıvan Biznes Mərkəzində dövlət orqanlarında çalışan dövlət qulluqçularına səyyar təlim keçirilib. Təlimdən əvvəl Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının əməkdaşları Ulu Öndərin büstünü ziyarət edib, dərin ehtiramlarını bildiriblər. Təlimdə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin hüquq şöbəsinin müdiri Gülçin Dünyamalıyev təlimin mahiyyəti barədə məlumat verib. Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərovun "Prezident İlham Əliyevin yeni idarəçilik texnologiyaları: COP29-a aparan yol" mövzusunda mühazirəsi dinlənilib. Qeyd olunub ki, mədəni irs bütün zamanlarda ətraf mühitin tərkib hissəsi olmaqla iqlim və münaqişələrin təsirinə məruz qalıb. XIX və XX əsrin sənayeləşməsi və böyük müharibələr bu prosesi daha da sürətləndirib. Bu gün isə bu çağırışlar, xüsusilə iqlim dəyişiklikləri qlobal xarakter alıb. İqlim dəyişiklikləri insan sağlamlığı, kənd təsərrüfatı, sənaye və digər sahələrlə yanaşı, mədəni və təbii irsə də öz mənfi təsirini göstərir. Azərbaycan Respublikası beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə daim öz töhfəsini verir. Ölkəmiz tərəfindən əsasən öz maliyyə vəsaitləri hesabına ətraf mühitin qorunması, yaşıllıqların bərpası, artırılması, təbii ehtiyatlardan, o cümlədən su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadə imkanlarının genişləndirilməsi istiqamətində mühüm işlər görülür. Rektor belə bir təlimin keçirilməsinin çox vacib olduğunu bildirib. O, Azərbaycan Prezidentinin Sərəncamı ilə 2024-cü ilin respublikamızda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsinin ölkəmizdə



ətraf mühitin mühafizəsi sahəsində aparılan məqsədyönlü və ardıcıl dövlət siyasətinin tərkib hissəsi olduğunu diqqətə çatdırıb. Urxan Ələkbərov dünyanın ən mötəbər tədbirlərindən biri olan COP29-un ölkəmizdə keçirilməsinin siyasi və digər istiqamətlərlə yanaşı, Azərbaycanın iqtisadi və turizm cəhətdən də daha geniş inkişafına töhfə verəcəyinə əminliyini vurğulayıb. Bildirilib ki, COP29-a ölkəmizin ev sahibliyi etməsi ilə bağlı qlobal həmrəylik artıq Azərbaycanın dünya səviyyəsində nüfuzunu göstərir və Prezidentin apardığı əməli fəaliyyət neft ölkəsi kimi Azərbaycanın dünyanın karbon emissiyasının azaldılması gündəliyinə sadiqliyinə etimadın formalaşdığını ifadə edir. Səyyar təlimdə Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası İntellektual sistemlərin idarə edilməsi kafedrasının müdiri, dosent Elvin Əzizbəyovun "Yaşıl Rəqəmsal dövlət idarəçiliyi: yeni çağırışlar və problemlər", Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası İnzibati idarəetmə fakültəsinin dekanı, dosent Elnur Əliyevin "Dövlət idarəçiliyində islahatlar: iqlim dəyişiklikləri prizmasında siyasi, hüquqi və institusional çərçivələr", Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının I prorektoru, professor Əlikram Abdullayevin "İqlim dəyişiklərinin etik imperativləri" mövzularında mühazirələri dinlənilib.

***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərovun "Azərbaycan" qəzetində "Azərbaycanda dövlət idarəçiliyi: qlobal uğurlara aparan strategiya" adlı məqaləsi dərc edilmişdir.***


23 iyun 2024-cü il RƏSMİ DÖVLƏT QƏZETİ AZƏRBAYCAN 5

23 İyun Dövlət Qulluqçularının Peşə Bayramı Günüdür

Azərbaycanda dövlət idarəçiliyi: qlobal uğurlara aparan strategiya

**Sürətlə inkişaf edən Azərbaycanın beynəlxalq aləmdə öz nüfuzunu möhkəmləndirməsi Ümummilli Lider Heydər Əliyevin dövlət idarəetmə sistemində həyata keçirdiyi islahatlardan başlayıb. Prezident İlham Əliyevin bu islahatları qətiyyətlə davam etdirməsi sayəsində isə ölkəmizin qüdrəti gündən-günə artmaqdadır. Hazırda ölkəmizdə müasir tələblərə cavab verən dövlət idarəetmə sistemi qurulub, hakimiyyətin bütün qollarının funksiyaları dəqiq müəyyənləşdirilib, vətəndaşların hüquq və azadlıqlarının qorunması və həyata keçirilməsi üçün zəruri təsisatlar yaradılıb.**

lan möhtəşəm qələbə göstərilə bilər. Bu tarixi zəfər nəticəsində 30 ilə yaxın Ermənistan tərəfindən işğal altında saxlanılan torpaqlar azad edildi, ölkənin beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyü bərpa olundu. Bununla həm də BMT Təhlükəsizlik Şurasının Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsini tələb edən və illərlə kağız üzərində qalan 4 qətnaməsi yerinə yetirilmiş oldu.

Tarix baxımından qısa müddətdə qazanılmış bu qələbə Prezident İlham Əliyev tərəfindən müasir elmə əsaslanan yeni dövlət idarəçilik texnologiyalarının işlənilməsi və tətbiqi nəticəsində qazanılmışdır. Müasir, qabaqlayıcı tələblərə cavab verən və daim təkmilləşən dövlət qulluğu sisteminin təşkili, fasiləsiz təhsil şəraitində səmərəli fəaliyyət göstərən kadr

Prezident İlham Əliyev tərəfindən işlənilən və tətbiq olunan yeni dövlət idarəçiliyi texnologiyaları, bu innovasiyalara uyğun formalaşdırılan dövlət qulluğu sistemi Azərbaycanın sosial siyasətin reallaşdırılması və insanların rifahının təmin olunması naminə iqtisadi imkanlardan səmərəli istifadə sahəsində dünya lideri kimi tanınmasına yol açıb. Bu fakt həmçinin Davosda Dünya İqtisadi Forumu tərəfindən yayımlanan xüsusi qlobal hesabatlarda əks olunub. Hesabatlarda bildirilir ki, Azərbaycan qlobal miqyasda davamlı inkişaf edən inklüziv cəmiyyətin qurulması üçün iqtisadi imkanlardan ən səmərəli istifadə edən ölkədir.

Azərbaycan eyni zamanda qlobal miqyasda aktual olan "yaşıl enerji", karbonsuzlaşdırma, hidrogen istehsalı kimi layihələrin reallaşdırılmasının əsas təşəb-

Dövlət Qulluqçularının Peşə Bayramı Günü münasibətilə Baş Prokurorluqda tədbir keçirilib

**Azərbaycan Respublikasında Dövlət Qulluqçularının Peşə Bayramı Günü münasibətilə Baş Prokurorluqda baş prokurorun rəhbərliyi ilə prokurorluğun dövlət qulluqçuları və veteran dövlət qulluqçularının iştirakı ilə tədbir keçirilib.**

Keçid üçün link :
https://www.azerbaijan-news.az/uploads/documents/pdf/1-12pdf-1719095936.pdf

***DİA-nın nümayəndə heyəti Qazaxıstanda Türk Dövlətləri Təşkilatına üzv ölkələrin insan resurslarının inkişafına dair növbəti görüşündə iştirak edib***

Qazaxıstan Respublikasının Astana şəhərində Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin insan resurslarının inkişafı sahəsində səlahiyyətli qurumların rəhbərlərinin üçüncü iclası keçirilib. Tədbirdə Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Omuraliev, Türkiyə Respublikasının Prezidenti yanında İnsan Resurslarının İdarə Edilməsi İdarəsinin rəhbəri Səlim Atay, Qazaxıstan Respublikasının Dövlət Qulluğu Məsələləri üzrə Agentliyin sədri Darxan Yazıkbay, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov, Qazaxıstan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru Yerlan Abil, Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzinin sədr müavini Bəhram Xəlilov, Özbəkistan Respublikasının Dövlət Qulluğu Məsələləri üzrə Agentliyin direktorunun birinci müavini Amirtemirxon Musayev, Türkiyə Respublikasının Prezidenti yanında İnsan Resurslarının




İdarə Edilməsi İdarəsinin Təlim və İnkişaf şöbəsinin müdiri Savaş Ceylan, Qırğızıstan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının prorektoru Urmat Amanbayev, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Elmi təşkilat və beynəlxalq əlaqələr şöbəsinin müdiri Elvin Əzizbəyovun və Qazaxıstanın bir sıra mərkəzi dövlət orqanlarının aparat rəhbərləri iştirak etmişlər. Görüşün əsas məqsədi Türk Dövlətləri Təşkilatına üzv dövlətlərdə çalışan dövlət qulluqçularının insan resursları sahəsində təcrübə mübadiləsinin və ən aktual məsələlərin müzakirəsi olmuşdur. Müzakirə iştirakçıları Qazaxıstanın dövlət qulluğunun təkmilləşdirilməsi istiqamətində atdığı addımları müsbət qiymətləndirib, insan kapitalının inkişafı sahəsində təcrübələrini bölüşüb, fikirlərini bildiriblər. Eyni zamanda, Azərbaycanda dövlət qulluğuna verilən təlimlər, qəbul və qiymətləndirmə üçün müxtəlif test vəsaitlərinin geniş tətbiqi, Qırğızıstanda dövlət qulluqçularının rəqəmsal savadlılığının artırılması, Türkiyədə ömürboyu təhsil sistemlərinin inkişafı, Özbəkistanda dövlət qulluqçularının fəaliyyətinin qiymətləndirilməsi mexanizmlərinin modernləşdirmə üzrə fəal iş aparılırlması məsələlrinə həsr olunmuş məruzələr dinlənilmişdir. Görüşün sonunda iştirakçılar dövlət qulluğunda insan resurslarının idarə edilməsi sahəsində təcrübə mübadiləsi və ən yaxşı həllərin işlənib hazırlanması üçün belə görüşlərin əhəmiyyətini qeyd edərək, əməkdaşlığın daha da gücləndirilməsi niyyətlərini bildiriblər. Səfər çərçivəsində DİA-nın nümayəndə heyəti Qazaxıstan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası tərəfindən təşkil olunan "Müasir insan resurslarının inkişafı sahəsində təcrübə mübadiləsi" mövzusunda beynəlxalq elmi konfransda və 2024-cü ilin "Məzun günü" tədbirində də iştirak etmişlər.

## MÜNDƏRİCAT

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fəaliyyətinin qısa xronikası**...........7

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qəbulları**.............................15

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin səfərləri**.........................................47

Hacıqabul, Gəncə və Qəbələyə səfər.........................................................................47
Rusiya Federasiyasına işguzar səfər...........................................................................50
Ağdam və Füzuli rayonlarına səfər ............................................................................56
Almaniya Federativ Respublikaına işguzar səfər.......................................................59
Fuzuli, Şuşa və Laçına səfər.........................................................................................65
Füzuli və Şuşaya səfər...................................................................................................79
Cəbrayıl və Zəngilan rayonlarına səfər .....................................................................85
Ağdam və Xocalı rayonlarına səfər.............................................................................94
Misir Ərəb Respublikasına rəsmi səfər ....................................................................103
Türkiyə Respublikasına işgüzar səfər .......................................................................106

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqləri, çıxışları və müsahibələri** ...........................................................................................107

Hacıqabul rayonunda Şirvan suvarma kanalının təməlqoyma mərasimində İlham Əliyevin nitqi ..........................................................................................107

Bakıda Çingiz Aytmatovun abidəsinin açılış mərasimində İlham Əliyevin nitqi ....109

VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılış mərasimində İlham Əliyevin nitqi ..........................................................................................109

İlham Əliyev "Euronews" televiziyasına müsahibə verib........................................112

Bakı Enerji Həftəsi çərçivəsində 29-cu "Caspian Oil&Gas" və 12-ci "Caspian Power" sərgilərinin açılışında İlham Əliyevin nitqi ........................113

"Euronews" televiziyasında İlham Əliyevin müsahibəsi yayımlanıb ......................115

**DAVAMLI İNKİŞAFIN İDARƏ EDİLMƏSİ**

**Urxan Ələkbərov.** Azərbaycan Respublikası enerji strategiyasının uğurları Dünya İqtisadi Forumunun hesabatında.........................................................................117
DOI: 10.30546/2309-1347.2024.2.0010

**DÖVLƏT İDARƏÇİLİYİ**

**Adil Vəliyev.** Azərbaycan Respublikasının enerji təhlükəsizliyi sahəsində dövlət siyasətinin siyasi-iqtisadi aspektləri...............................................................................129
DOI: 10.30546/2309-1347.2024.2.0012

## HÜQUQ

**Намик Алиев.** Изменения в Конституцию Республики Армения как предусловие мирного договора с Азербайджаном (некоторые аспекты) ..................................................141
DOI: 10.30546/2309-1347.2024.2.0014

## BEYNƏLXALQ MÜNASİBƏTLƏR

**Etibar Nəcəfov.** Beynəlxalq münasibətlərin yaşıl siyasət nəzəriyyəsi və onun əsas müddəaları ........................................................................................................ 149
DOI: 10.30546/2309-1347.2024.2.0016

## KULTUROLOGİYA

**Фуад Мамедов.** Экологическая культура и возможности гармоничного человеческого развития ......................................................................................................157
DOI: 10.30546/2309-1347.2024.2.0018

## SİYASİ NƏZƏRİYYƏ

**Kənan Allahverdiyev.** Siyasi kommunikasiya texnologiyaları dövlət idarəçiliyinin tərkib hissəsi kimi ..........................................................................................................171
DOI: 10.30546/2309-1347.2024.2.0020

## BEYNƏLXALQ MÜNASİBƏTLƏR TARİXİ

**Aqil Əhmədov.** Azərbaycan-Rusiya miqrasiya əlaqələrinə baxış..............................................183
DOI: 10.30546/2309-1347.2024.2.0022

**Yəhya Babanlı.** Azərbaycan diasporunun müasir inkişaf səviyyəsi: "ictimai diplomatiya" və "yumşaq güc" təzahürləri ..................................................................195
DOI: 10.30546/2309-1347.2024.2.0024

## RƏQƏMSAL DÖVLƏT İDARƏÇİLİYİ VƏ İNTELLEKTUAL SİSTEMLƏR

**Elçin Abasov, Aytən Əliyeva.** Dövlət geoinformasiya sistemləri: müasir tendensiyaların yaşıl ekologiyaya təsiri ....................................................................................................207
DOI: 10.30546/2309-1347.2024.2.0026

**İlahiyə Qədirova.** Süni intellektli sistemlərin inkişafının dövlət idarəçiliyinə təsiri ................215
DOI: 10.30546/2309-1347.2024.2.0028

## İQTİSADİYYAT

**Yaşar Məmmədov.** Azərbaycanda turizm xidmətinin inkişafı xüsusiyyətləri ..........................221
DOI: 10.30546/2309-1347.2024.2.0031

## G Ə N C  T Ə D Q İ Q A T Ç I L A R

### BEYNƏLXALQ MÜNASİBƏTLƏR

**Заур Мамедов.** Отношения Азербайджана и ЕС:
политико-экономические перспективы и вызовы ..................................................................229
DOI: 10.30546/2309-1347.2024.2.0032

**Тамерлан Гаджиев.** Некоторые международно-правовые аспекты регулирования
искусственного интеллекта ...........................................................................................................237
DOI: 10.30546/2309-1347.2024.2.0034

### SİYASİ NƏZƏRİYYƏ

**Tural Ələkbərov.** Dövlət hakimiyyətinin təmin olunmasında legitimlik anlayışı ....................249
DOI: 10.30546/2309-1347.2024.2.0036

### BEYNƏLXALQ MÜNASİBƏTLƏR TARİXİ

**Vüsalə Şərifova.** Azərbaycanın işğaldan azad edilmiş ərazilərində mədəni irsin bərpası və
bu sahədə beynəlxalq əməkdaşlıq ......................................................................................... 259
DOI: 10.30546/2309-1347.2024.2.0041

**Dövlət İdarəçilik Akademiyasında** ..........................................................................................265

**«Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə» jurnalına məqalələrin təqdimolunma qaydası**

1. Məqalə Azərbaycan, İngilis və Rus dillərində qəbul edilir.
2. Məqalənin adı, müəllif(lər)i, müəllif(lər)in elmi dərəcəsi, vəzifələri, ad və soyadları, çalışdıqları qurum və elektron poçt (e-posta) ünvanları yuxarıda sağ tərəfdə göstərilir.
3. Məqalənin həcmi 8 səhifədən az olmamalı (Microsoft Word formatında), 1,5 (bir tam onda beş) intervalla, Times New Roman 12 şriftilə yazılmalı, A4 formatında və elektron daşıyıcıda təqdim olunmalıdır.
4. Məqalədə xülasə (Azərbaycan, İngilis və Rus dillərində), açar söz (Azərbaycan, İngilis və Rus dillərində, ən çox 6 söz) qeyd olunmalıdır.
5. Məqalənin xülasəsi məqalənin məzmununa uyğun olmalı, 150-200 sözdən çox olmamalı, tədqiqatın məqsədini, əhəmiyyətini və elmi dövriyyədəki yerini, istifadə edilən metodları, tətbiq dairəsini göstərməlidir.
6. Elmi məqalənin sonunda elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti və s. aydın şəkildə qeyd olunmalıdır.
7. Məqalədə elmi mənbələrə istinadlar olmalıdır. Son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalarına və s. istinadlara üstünlük verilməlidir. Məqalədə istinad olunmuş mənbələr ədəbiyyat siyahısında əlifba sırası ilə yazılmalı və nömrələnməlidir. İstinad olunmuş mənbənin ədəbiyyat siyahısındakı nömrəsi və səhifə nömrəsi mətndəki istinaddan sonra kvadrat və ya adi mötərizədə göstərilir. Məsələn (39, s.127-128), [27, s.237] və s.
8. Məqalələr orijinal olmalı və əvvəllər başqa yerli və ya beynəlxalq jurnallara, konfranslara təqdim edilməməlidir.
9. Məqalələr gizli rəyçilərin rəyindən sonra redaksiya heyətinin qərarı ilə çapa tövsiyə edilir.

**Procedure for Submitting Articles to the Journal «Public Administration: Theory and Practice»**

1. The article is accepted in Azerbaijani, English and Russian languages.
2. The title of the article, the author (s), author's (s') academic affiliation, titles, names and surnames, workplace and electronic mail address (e-mail) addresses should be displayed above on the right side.
3. The content of the article should be no less than 8 pages (in Microsoft Word format), 1,5 space, Times New Roman 12 fonts and must be submitted electronically in A4 format.
4. The article should contain summary, (English, Russian and Azerbaijani languages), keyword (English, Russian and Azerbaijani languages, no more than six words)
5. The summary of the article must be in line with the content of the article, should not exceed 150-200 words, must indicate the purpose and importance of the research, the methods that used as well as the scope of the study.
6. At the end of the scientific article, the scientific originality and the importance of the emprisicm should be clearly stated in accordance with the character of the scientific field and article.
7. The article should contain references to scientific sources. The scientific articles, monographs and etc.that have been written for the last 5-10 years should be preferred. The sources referred in the article must be listed in an alphabetical order in the reference list. The number and page number of the referred article in the reference list should be displayed in parantheses or brackets after the reference in the text. For instance, (39, p.127-128), [27, s.237] and etc.

8. The articles should be original and should not be previously submitted to other local or international journals and conferences.
9. The articles are recommended to publication by the decision of journal's editorial board after the opinion of peer reviewers.

**Правила предоставления статей для публикации в журнале «Государственное управление: теория и практика»**

1. Статья принимается на азербайджанском, английском и русском языках.
2. Название статьи, автор(ы), ученая степень автора(ов), занимаемая должность, имя и фамилия автора(ов), организация, где они работают, адрес электронной почты указываются в верхнем правом углу.
3. Объем статьи не должен быть менее 8 страниц (в формате Microsoft Word), с междустрочным интервалом - 1,5 (полуторный), размером шрифта – 12 пт в формате А4 и должен предоставляться на электронном носителе.
4. В статье должны быть указаны резюме (азербайджанском, английском и русском языках), ключевые слова (на азербайджанском, английском и русском языках, не более 6-ти слов).
5. Резюме статьи должно соответствовать содержанию статьи, и не превышать 150-200 слов, должны быть указаны цель, значимость и место в научном обороте исследования, используемые методы, сфера применения.
6. В конце научной статьи в соответствии с областью науки и характером статьи должны быть чётко сформулированы научная новизна работы, значимость её внедрения и др.
7. В статье должны быть ссылки на научные источники, преимущественно на научные статьи, монографии и др. за последние 5-10 лет. Источники, на которых были ссылки в статье, должны быть пронумерованы и включены в список литературы в алфавитном порядке. Номер источника и страницу, на которую была сделана ссылка, в тексте следует указать в квадратных или обычных скобках. Например, (39, s.127-128), [27, s.237] и т.д.
8. Статья должна быть оригинальной и ранее непредставленной в местные или международные журналы, конференции.
9. Статья рекомендуется к публикации по решению редколлегии после получения отзыва от тайных (неразглашаемых) рецензентов.

# Dövlət idarəçiliyi:
## nəzəriyyə və təcrübə

***Elmi-nəzəri jurnal***

**2024, №2(86)**

Azərbaycan Respublikasının Prezidentinin fəaliyyətini
əks etdirən bölməni *siyasi elmlər doktoru, professor E.Nəsirov,*
*siyasi elmlər doktoru, professor E.Əhmədov*,
*psixologiya üzrə fəlsəfə doktoru, dosent B.Haqverdiyev*
və baş müəllim *F.Şammadov*
AzərTAc-ın materialları əsasında hazırlamışlar.

İngilis dilində xülasələr *filologiya üzrə fəlsəfə foktoru,*
*dosent Ülkər Şəfiyeva* tərəfindən redaktə edilmişdir.


Redaktoru *Günay Maqsudova*
Kompüter dizayneri *İradə Təhməzova*

*Elmi jurnalın Rəqəmsal Obyekt İdentifikatorları (DOI)*
*"Qlobal Əməkdaşlıq və Analitik Araşdırmalar Mərkəzi " İB-yi tərəfindən təmin edilir.*

*Lisenziya: AB № 022732,*
*Qeydiyyat № b 532, 08.04.2003-cü il.*
*Redaksiyanın ünvanı:*
*Bakı, Az-1001, Lermontov küç., 74*
*(Dövlət İdarəçilik Akademiyası).*
E-mail: publishing@dia.edu.az
*Telefonlar: (012) 492-65-29; (012) 437-19-75; (012) 497-71-86*
*Fax: (012) 492-65-15*

**«Aspoliqraf LTD» MMC-nin**
mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur
Sifariş ... Tiraj 500.

# Journal of Public Administration: Theory and Practice

***Scientific and theoretical journal***

## 2024, №2(86)

The section covering activities the President of the Republic of Azerbaijan is prepared on the basis of AzərTAC materials and is compiled by
*E.Nasirov, Dr. of political sciences, professor;*
*E.Ahmadov, Dr. of political sciences, professor;*
*Dr. B. Hagverdiyev, Ph.D. in Psychology, Associate professor*
and *F.Shammadov,* senior lecturer, all from Academy of Public Administration.

The summaries of the articles were edited by *Ulker Shafiyeva, Ph.D., Associate professor*

Editor *Gunay Maqsudova*
Computer designers *Irada Tahmazova*

*The Digital Object Identifiers (DOIs) of the scientific journal are provided by the "Center for Global Cooperation and Analytical Research"*

*License: AB No. 022732*
*Registration No. b 532, 08.04.2003*
*Address of Publisher:*
*Baku, Az-1001, Lermontov st., 74*
*(Academy of Public Administration)*
*E-mail: publishing@dia.edu.az*
*Phone: (012) 492-65-29; (012) 437-19-75; (012) 497-71-86*
*Fax: (012) 492-65-15*

Printed from ready made diapositives at the printing house of the
**«Aspoliqraf LTD»**
Order ........ Number of copies printed  modern stage are considered.